# MÖVZU – I

## DÜNYA BAZARINDA QİYMƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

1.1. Dünya ticarəti və dünya bazar anlayışları, onların inkişaf xüsusiyyətləri və meylləri;

1.2. Dünya bazarında dəyər qanununun fəaliyyəti;

1.3. Valyuta məzənnəsi və onu müəyyən edən amillər. Azad dönərli valyuta;

1.4. İstehlak dəyəri və onun dünya qiymətlərində nəzərə alınması;

1.5. Tələb və təklifi onların dünya qiymətlərinə təsiri;

Özünü yoxlama sualları;

İstifadə olunan ədəbiyyat siyahısı və məlumat mənbələri

Testlər.

## 1.1. DÜNYA TİCARƏTİ VƏ DÜNYA BAZAR ANLAYIŞLARI, ONLARIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ MEYLLƏRİ

Beynəlxalq əmək bölgüsü dünya təsərrüfatının yaranmasına və inkişafına, habelə dünya ticarətinin meydana gəlməsinə gətirib çıxartdı. **Dünya bazarı – dünya təsərrüfatının və dünya ticarətinin inkişafının qanunauyğun nəticəsidir.**

Obyektiv amillərin təsiri altında beynəlxalq əmək bölgüsü təşəkkül tapır. Bu isə özünü ayrı-ayrı ölkələrin müəyyən növ əmtəə və xidmətlərin istehsalı üzrə ixtisaslaşmasında göstərir və ölkələr arasında əmtəə və xidmətlərin mübadiləsi zərurətini doğurur. Bu cür mübadilə **beynəlxalq ticarət** adını almışdır.

İqtisadi ədəbiyyatda iri istehsal sferalarının (sənaye istehsalı, o cümlədən hasilat və emalı sənayesi, kənd təsərrüfatı, məişət xidməti) ixtisaslaşmasında əks olunan **ümumi əmək bölgüsünü** fərqləndirmək qəbul edilmişdir. Bu Cür əmək bölgüsündə başlıca rol təbii amillərə məxsusdur. Həmin amillər isə ayrı-ayrı ölkələrdə çoxlu miqdarda konkret növ resursların mövcudluğu ilə səciyyələnir. Ümumi əmək bölgüsünə görə ixtisaslaşmış ölkələri sənaye cəhətdən inkişaf etmiş (industrial) ölkələrə, xammal ölkələrinə və aqrar ölkələrə ayırırlar.

**Xüsusi əmək bölgüsü** hazır məhsulun müəyyən növlərinin (məsələn, avtomobil, gəmi, təyərrə, neft, taxıl, ət və s.) istehsalı sahəsində yaranan ixtisaslaşma əsasında təşəkkül tapır. Xüsusi əmək bölgüsü prosesində konkret məhsul növlərinin beynəlxalq ticarti təşəkkül tapı və əmtəə bazarları: avtomobil, neft, taxıl, şəkər, qəhvə və digər bazarlar formalaşır.

**Fərdi əmək bölgüsü** ayrı-ayrı ölkələrin detal və ehtiyat hissələri istehsalında, müxtəlif texnoloji mərhələlərə görə ixtisaslaşmasında meydana çıxır. Bu cür əmək bölgüsü detalların, ehtiyat hissələrinin beynəlxalq ticarətini, texnologiya mübadiləsini, lisenziya, «nau-xau» alqı-satqısını və s. doğurur.

Beynəlxalq ticarət əmtəə və xidmətlərin ixracı (ixrac-satqı) formasında, əmtəə və xidmətlərin idxalı (idxal-alqı) formasında təşəkkül tapır.

İqtisadi ədəbiyyatda bazar kateqoriyasını əmtəə-pul münasibətləri sferası, ticarəti isə bazar əlaqələrini həyata keçirməyə qabil olan iqtisadiyyat sferası kimi fərqləndirirlər. Mübadilə sferası. Sözün geniş mənasında, bazar anlayışını tam şəkildə açıqlayır. Bazarlar aşağıdakı formalarda olur: milli bazar, bir sıra ölkələrin bazarı, bütün dünya ölkələrinin bazarı, ayrı-ayrı regionların bazarı, məhsullar üzrə bazar. Məhsullar üzrə bazarların özünü də aşağıdakı kimi qruplaşdırmaq olar:

1. **Şəxsi istehsal əmtəələri bazarı:**
   **- uzun müddətli istifadə olunan əmtəələr** (mənzil, avtomobillər, soyuducular, televizorlar, videotexnika, kompüterlər və s.) **bazarı;**
   **- qısa müddətli istifadə olunan əmtəələr** (qida məhsulları, ətriyyat, içkilər və s.) **bazarı;**
2. **İstehsal-texniki təyinatlı əmtəələr** _(əsas və köməkçi avadanlıqlar, qovşaqlar, detallar, ehtiyat hissələri və s.) **bazarı.**

**Bazar tutumu** əmtəələrin satış həcmi ilə (adətən bir il ərzində) müəyyən edilir və mili istehsal həcminin üstünə idxalı ixracı çıxmaqla fiziki və ya pul vahidində ölçülür (çox vaxt ABŞ dollarından və ya İsveçrə frankından istifadə edilir). Bazar tutumu öyrənilərkən ölkənin, əhalinin, ayrı-ayrı firmaların alıcılıq tələbi təhlil olunur. Bu məqsədlə mili gəlirin dinamikasından, əhalinin gəlir səviyyəsindən, əmək haqqından, əmtəənin əldə olunmasına əhalinin sərf etdiyi xərclərdən, firmaların gəlir səviyyəsindən və onların bazarda mümkün ola bilən alqılarından istifadə edilir.

İstehsal təyinatlı əmtəələrin bazar tutumu öyrənilərkən sahənin inkişaf perspektivləri, elmi-texniki tərəqqi, maşın və avadanlığın mümkün göndərilmə həcmləri tədqiq edilir. Əgər tədqiqat prosesində aydınlaşsa ki, bazar tutumu ixrac imkanlarından xeyli dərəcədə azdır, deməli onda belə bazarda işləməyin mənası olmayacaqdır, çünki xərclər ödənilmir.

Beynəlxalq ticarətdə kömək göstərmək üçün çoxlu miqdarda müxtəlif **beynəlxalq təşkilatlar** yaradılmışdır. Onların sırasında dünya bazarına geniş təsirə malik olan aşağıdakı təşkilatlar aiddir: **Beynəlxalq valyuta fondu (BVF)-** 1945-ci ildə, valyuta məzənnələrini tənzim edən və valyutaların dönərliyinə kömək edən, valyuta-kredit sövdələşmələrində ixtisaslaşan hökumətlərarası təşkilat kimi yaradılıb; **Beynəlxalq yenidənqurma və inkişaf bankı (BYİB)-** fəaliyyəti kredit almış ölkələrə maliyyə göstərməyə yönəlib; **Tarif və ticarət üzrə baş saziş (TTBS)** – gömrük maneələri, kəmiyyət məhdudiyyətləri üzrə müəyyən siyasət əsasında ölkələr arasında ticarətin tənzimlənməsinə və daha əlverişli şərait rejiminin təmin edilməsi əsasında ticarət üçün güzəştli şərtlər yaradır. **Beynəlxalq ticarət palatası (BTP); Beynəlxalq inkişaf assosiasiyası (BİA); Dövlətlərarası xammal ixracatçıları assosiasiyaları və s.** Bu cür assosiasiyalar konkret əmtəələrin (şəkər, neft, sitrus, qalay, sink, mis, dəmir filizi və s.) ixracı üçün öz qüvvələrini birləşdirməkdə marağı olan müxtəlif ölkələr tərəfindən yaradılır.

Beynəlxalq ticarətin inkişafı müxtəlif dövlətlərin daha sıx birliklərinin yaranmasına gətirib çıxarmışdır. Həmin birliklərdər biri, **Avropa İqtisadi birliyidir (AİB).** O, «Ümumi bazar» adı ilə məşhurdur. AİB – gömrük ittifaqının yaradılması, birliyə daxil olan ölkələr arasında kapitalın, əmtələrin, xidmətlərin, işçi qüvvələrin sərbəst hərəkətinin təmin edilməsi, vahid valyuta siyasətinin aparılması, maliyyə və bank sisteminin unifikasiyası məqsədilə bir sıra avropa dövlətlərinin dövlət - inhisarçı qruplaşmasıdır.

Beynəlxalq ticarətə əhəmiyyətli dərəcədə təsir edən digər dövlət-inhisarçı birliklərindən **neft ixrac edən ölkəlr təşkilatının (NİÖT)** adını çəkmək olar. Həmin təşkilat Asiya, Afrika və Latın Amerikasının, Neftin hasilatı və ixracatına görə ixtisaslaşan bir sıra ölkələrini birləşdirir.

Dünya ticarətində iştirak edən beynəlxalq birliklərin fəaliyyət mexanizminin öyrənilməsi dünya ticarətinin inkişafının hərəkətverici qüvvəsinin nə olduğu sualına cavab tapmağa kömək edir. Bunun əsasında müqayisəli üstünlük prinsipi durur. Həmin prinsipin mahiyyəti ondan

ibarətdir ki, hər hansı bir məhsul istehsalı üzrə ixtisaslaşan ölkə və ya hər hansı bir region, digər ölkə və ya regionlarda oxşar məhsulun istehsalı ilə müqayisədə daha az xərclərə malikdirsə, o ölkə və ya region daha yüksək iqtisadi səmərəlilik şəklində müqayisəli üstünlüyə malik olur. Dünyanın müxtəlif regionlarında müqayisəli üstünlüyə malik məhsulların dünya ticarəti, onun bütün iştirakçıları üçün qarşılıqlı səmərəni təmin edir. Belə ki, bu halda bütün ölkələrin məcmu (ümumi) istehsal xərcləri hər bir ölkənin bütün məhsul növlərinin istehsalında sərf edəcəyi xərclərdən az olacaqdır.

P.Samuelson qeyd edir ki. müqayisəli üstünlük prinsipini qəbul etməyən millət yüksək qiymət bahasına: həyat səviyyəsinin aşağı düşməsi və iqtisadi artımın potensial templərinin ləngiməsi hesabına bunu ödəməli olur.

Müqayisəli üstünlük qanunu müxtəlif ölkələrin ixtisaslaşmasına təsir edir, dünya ticarətində iştirak edən ölkələrdə məcmu ictimai istehsalın artmasına səbəb olur və onların iqtisadi vəziyyətinin yaxşılaşmasına kömək edir. Beynəlxalq müqayisənin aparılması üçün dünyanın müxtəlif ölkələrində tətbiq metodikadan istifadə edilməlidir. Onun müəllifləri amerikan iqtisadçıları M.Cilbert, İ.Krevis, Z.Kelnesi, A.Xeston və R.Sammere olmuşdur. Metodun mahiyyəti müxtəlif ölkələrin məcmu məhsullarının vahid valyuta və beynəlxalq dollarla qiymətləndirilməsindən ibarətdir. Beynəlxalq dolların alıcılıq qabiliyyəti ABŞ-da istehsal edilən əmtəə və xidmətlərin qiymətləri ilə digər ölkələrdə istehsal olunan oxşar əmtəə və xidmətlərin qiymətlərini müqayisə etmək yolu ilə müəyyən olunur. Daha mürəkkəb metodik məsələ əmtəə və xidmətlərin keyfiyyətinin uçot və müqayisəsidir. Bu halda dünya ticarətində ümumi qəbul edilmiş beynəlxalq standartlardan istifadə etmək lazımdır.

Beynəlxalq ticarətdə tənzimlənmənin müxtəlif metodları geniş tətbiq edilir. Hər bir ölkə dünya bazarında öz vəziyyətini nəzərə almaqla xarici iqtisadi fəaliyyətin tənzimlənməsi metodlarını seçir. Onlar digər ölkələrin əmtəələrinin öz ölkəsində idxalına və öz əmtəələrinin digər ölkələrə ixracına münasibətdə eyni deyildir. Belə tədbirlərin məcmusu həmin dövlətin «proteksionist siyasəti» adını almışdır.

**Proteksionizm dövlətin öz daxili bazarının xarici bazarın mümkün mənfi nəticələrindən qorumağa yönəltdiyi iqtisadi siyasət formalarından biridir.** Bu siyasət birbaşa və ya dolayı idxal məhdudiyyətlərinin bərqərar edilməsi, gömrük və qeyri-gömrük tariflərin təyin edilməsi, idxal olunan əmtəə kontingentlərinin müəyyən edilməsi, valyuta məhdudiyyətlərinin, kompensasiya rüsumlarının, daxili vergilərin və yığımların tətbiq edilməsi, habelə digr məhdudiyyətlərin köməyilə həyata keçirilir. Proteksionizm beynəlxalq əmək bölgüsündə və dünya ticarətində həmin dövlətin mövqeyini möhkəmləndirmək məqsədini güdür. Proteksionist siyasətin bəzi metodlarını nəzərdən keçirək.

Ölkənin iqtisadiyyatında idxalın əhəmiyyətini müəyyən etmək üçün **«idxal kvotası»** göstəricisindən istifadə edilir. O, xalq təsərrüfatı üzrə bütövlükdə, habelə hər bir sahə və konkret məhsul üçün aşağıdakı düsturla müəyyən edilə bilər:

$$K_{id} = \frac{I_d}{I + I_d} \cdot 100\%$$

**$K_{id}$** – idxal kvotası (faizlə);

İ – milli istehsalın həcmi;

$İ_d$ – həmin məhsulun ölkəyə idxal olunan həcmi

İdxal kvotası ayrı-ayrı ölkələrin və firmaların inhisar razılaşması nəticəsində də təyin edilə bilər. Bu halda o, dünya bazarında hər bir iştirakçının öz məhsulunun satışında xüsusi çəkisini xarakterizə edəcəkdir.

İdxal kvotası ölkədən xarici bazara çıxarılan müəyyən məhsulun çeşidinə və miqdarına görə qoyulan məhdudiyyət kimi də çıxış edə bilər.

Proteksionist siyasətində **idxal gömrük rüsumları mühüm rol oynayır.** Gömrük rüsumu ya əmtəənin qiymətinə görə müəyyən faizlə, ya da konkret əmtəə vahidinə görə möhkəm vergi norması şəkilində müəyyən olunur. Gömrük rüsumları öz ölkəsinin əmtəələrinə nisbətən digər ölkə əmtəələrinin

rəqabət qabiliyyətinin qalxmasına və ya aşağı düşməsinə təsir edir. Bir çox ölkələrdə rüsumsuz ticarət tətbiq olunur.

Gömrük rüsumları gömrük tariflərinə gətirilməklə hər bir ölkədə işlənib hazırlanır və müvafiq qanunvericiliklə təsdiq olunur. Gömrük tarifləri əmtəə qrupları üzrə müəyyən olunur **Sadə və mürəkkəb gömrük tariflərini** bir-birindən fərqləndirirlər. Sadə gömrük tarifi bütün ölkələr üçün eyni ölçüdə müəyyən olunur. Mürəkkəb tarif isə idxalçı ölkələr üzrə differensiallaşır. Gömrük tarifləri bəzən minimal ölçülərdə tətbiq edilə bilər, bəzən isə bu və ya digər ölkənin əmtəəsinə münasibətdə ümumiyyətlə tətbiq edilməyə də bilər. Bu halda belə hesab edilir ki, həmin ölkələr üçün xarici ticarətdə daha əlverişli rejim yaradılmışdır.

Bəzi hallarda müəyyən ölkələr üçün və ya müəyyən əmtəələr üçün **gömrük güzəştləri təyin** olunur. Belə şəraitdə ticarəti preferensial adlandırmaq qəbul edilmişdir.

Gömrük siyasətində daha böyük rol oynayan təşkilat 1948-ci ildə yaradılmış TTBS-dir (hal hazırda onda 100-dən çox dövlət iştirak edir). Bu təşkilat öz fəaliyyətində onun iştirakçıları arasındakı xarici ticarətdə gömrük tariflərinin aşağı salınmasına və kəmiyyət məhdudiyyətlərinin ləğvinə nail olmaq məqsədini güdür.

Əgər hər bir ölkənin idxalı əsasən onun tədiyyət qabiliyyətli tələbinin həcmi və qiymət nisbətləri ilə müəyyən olunursa, onun ixracı isə dünya tələbinin vəziyyəti və həmin ölkənin buna uyğun gəlməsi imkanları ilə müəyyən edilir. İxrac sahəsində bu və ya digər ölkənin uğuru dünya bazarında hansı əmtəələrin daha böyük tələbə malik olmasından asılıdır.

İxrac, yəni əmtəələrin sərhəddən kənara aparılması idxal olunan əmtəə və xidmətlərin haqqının ödənilməsinin ilkin iqtisadi şərti sayılır. Onun xalq təsərrüfatı əhəmiyyəti **ixrac kvotasının** köməyi ilə müəyyən edilir:

$$K_{ix}=\frac{I_x}{I}\cdot 100\%$$

$K_{ix}$ – ixrac kvotası, faizlə;

$İ_x$ – ölkədən ixrac olunan məhsulun həcmi;

İ – məhsul istehsalının ümumi həcmi.

İxracı stimullaşdırmaq üçün **ixrac kreditləri və ixrac mükafatları** tətbiq edilir. İxrac krediti hökumət, banklar  və ya firmalar tərəfindən verilir və əmtəələrin ölkədə və  ya kreditor-firma tərəfindən alınması məqsədini güdür. Firma krediti malgöndərən-ixracatçı tərəfindən alıcı-idxalçıya bank və ya hökumət tərəfindən verilir. Bu halda o, **maliyyə krediti** adlanır. Kreditin ödəmə şərtinin təmin edilməsi üçün onun alıcısı veksel, yəni müəyyən müddətdə təyin olunmuş faizin məbləğini verməklə kreditin ödənilməsi öhdəliyini təqdim edir. Kredit müəyyən müddətə verili rvə müddətindən asılı olaraq o, qısa müddətli, orta müddətli və uzun müddətli ola bilər.

İxracatçıların mənafelərinin qorunması üçün **sığorta sistemi** tətbiq edilir. Sığorta xüsusi firmalar və ya dövlət şirkətləri vasitəsilə həyata keçirilir. İxrac mükafatları istehsalçı firmaların istehsalının artırılması. Xarici bazarda öz əmtəəsinin satılmasını stimullaşdırmaq üçün istifadə edilir və müəyyən iqtisadi güzəştlər şəklində verilir. Məsələn: vergidən güzəşt və ya vergidən tam azad etmə, müəyyən əmtəələrin ixracında qiymət güzəştləri, gömrük rüsumlarından güzəştlər, konkret xarici ticarət əməliyyatlarının dövlət orqanları tərəfindən birbaşa subsidiyalaşdırılması.

**Dünya bazarı – ölkələr və müxtəlif ölkə müəssisələri arasında onların beynəlxalq əmək bölgüsündə iştirakı əsasında formalaşan alqı-satqı sistemidir** (əmtəələrin, xidmətlərin, kapitalın, pulun, iş qüvvəsinin alqı-satqısı).

Dünya bazarı vahid tam kimi, müxtəlif əmtəə bazarlarının, kapital bazarlarının, valyuta bazarlarının məcmusu kimi meydana çıxır. Bazar, o cümlədən dünya bazarı da alıcı və satıcı seçiminin və pul hesablaşmalar formalarının azadlığını nəzərdə tutur. Həmin bazar əlaqələri formaları ilə yanaşı, ölkə qrupları, ayrı-ayrı ölkələr, habelə firma qrupları və ayrı-ayrı firmalar arasında müəyyən razılaşmalar əsasındp satıcılar və alıcılar arasında münasibətlər qurula bilər. Bu halda tənzimlənən bazar haqda danışmaq olar.

Kortəbii şəkildə qurulan və tənzimlənən bazar münasibətləri bir-birini qarşılıqlı surətdə tamamlayır. Birmalar arasında dialektik inkişaf prosesi gedir. Bu proses təkcə bir-birini tamamlamaq deyil, həm də tam və ya pilə-pillə bir formanın digər forma ilə əvəz edilməsinə can atmaqda öz əksini tapır. Bazar əlaqələrinin qurulmasının forma və metodları daim dəyişir. Onların iqtisadi əsası əmtəə-pul münasibətlərinin inkişafı sayılır.

Beləliklə, dünya bazarı təkrar istehsal prosesində əmtəə, xidmət və pul mübadiləsi sistemi kimi yarananvə ölkə, firma, müəssisə, habelə ayrı-ayrı şəxslərin geniş dairəsini əhatə edən mürəkkəb iqtisadi münasibətlər sistemidir. Dünya bazarında daha əhəmiyyətli yeri dünya kapitalist bazarı tutur. Ona görə də təqdim edilən dərs vəsaitində əsas məsələlərə kapitalist ölkələrinin timsalında baxılır.

*Müasir kapitalist bazarı, daha dəqiq desək, tədavül və istehsal sferası tənzimlənməsinin təsərrüfat mexanizmi bir sıra mühüm əlamətlər kəsb edir.*

***Birincisi,*** *istehsalın və kapitalın çoxdan başlamış təmərküzləşməsi və mərkəzləşməsi müasir kapitalist istehsalına açıq-aşkar ictimai xarakter vermişdir.* Bir-biri ilə texnoloji cəhətdən qarşılıqlı asılılıqtelləri ilə bağlı olan ayrı-ayrı firma və müəssisələr xüsusi əmək və xərc sərf etmədən malgöndərənləri və müştəriləri axtarır və snçir, alınacaq və göndəriləcək məhsulların kəmiyyət və keyfiyyətini müəyyən edirlər, Texnoloji əlaqələrin aydınlığı şəraitində bütün bu məsələlər ictimai nöqteyi-nəzərdən qarşılıqlı səmərə əsasında, istehsal prosesi və mal mübadiləsinin öz iştirakçıları tərəfindən həll edilə bilər.

**İkincisi,** bu bazar, fəaliyyət göstərdiyi iqtisadi məkanın parametrlərinə bu və ya digər dərəcədə təsir etməyə qabil olan, iqtisadi cəhətdən güclü, iri və fəal təsərrüfat subyektlərinin (müəssisələrin, onların formal və qeyri-formal birliklərinin) bazarıdır. Bundan əlavə, iqtisadi iş bacarığı və mütəşəkkillik təkcə əmtəə istehsalçıları və satıcıları üçün deyil, eyni zamanda həm istehsal, həm də qeyri-istehsal istehlakı sferasında alıcı kateqoriyalarının çoxu üçün də səciyyəvidir.

**Üçüncüsü,** qeyri-mütəşəkkillik, habelə hərcmərclik, xüsusilə də müasir kapitalist bazarının üstün olaraq mili hüdudlarda fəaliyyət göstərdiyi şəraitdə onun simasına az uyğun gəlir. İki yüz illər ərzində dövlət xüsusi, kooperativ, fərdi və digər kapitalların təsərrüfat fəaliyyətinin bütün tərəflərini kifayət dərəcədə sərt tənzimləmişdir. Müəssisənin yaradılması və ləğv olunması haqqında, işçi qüvvəsinin işə götürülməsi, istifadə olunması və işdən azad edilməsi qaydaları haqqında, malgöndərənlərin təsərrüfat məsuliyyəti və istehlakçıların hüquqları haqqında, məhsulun keyfiyyəti və ətraf mühitin mühafizəsi haqqında, əmtəələrin idxal və ixrac qaydaları haqqında, inhisar sazişlərinin yolverilməzliyi və s. haqqında qanunlar mövcuddur. Ayrı-ayrı mərhələlərdə qiymətlərin, mək haqqının və mənfəətin tənzimlənməsi haqqında qanunlar işə salınır. Tənzimləmə müasir iqtisadi həyatı o qədər özünə tabe edir ki, çox vaxt rəqabətə girən bazar strukturları hüurlu surətdə, müəyyən dərəcədə süni olaraq təsərrüfat mərkəzi tərəfindən müdafiə olunur. Dövlətin xüsusi ardıcıl müdafiə və məcburetmə sifasəti olmadan yəqin ki, onların nəsli tamam kəsilərdi.

**Dördüncüsü,** *hal-hazırkı dövrdə istehsal və istehsalın vəziyyəti haqqında informasiya mənbəyi kimi bazar qiymətinin əhəmiyyəti bir qədər azalmışdır.* Digər kanallar üzrə daim dövr edən informasiyanın həcmi isə kəskin surətdə artmışdır. Hökumət, sahibkar, istehlakçı təşkilatları istehsal, ticarət, pul və kredit əməliyyatları, istehlakın tərkibi, təsərrüfat subyektlərinin niyyətləri və planları və s. haqqında çoxlu miqdarda statistik və faktiki məlumatlar «göndərirlər». Firmalar müstəqil şəkildə və ya xüsusiləşdirilmiş şirkətlərin vasitəsilə istehsal planlarının tərtibi üçün təhlilin nəticələrindən istifadə etməklə mili və dünya bazarlarında ayrı-ayrı əmtəələrə tələbin vəziyyətini öyrənirlər. Reklamda buraxılan məhsulun çeşidi, keyfiyyət və texniki cəhətləri, göndərmə müddətləri haqqında məlumatlar əks olunur. Təsərrüfat informasiyasının genişliyi, anlaşıqlığı və nisbətən ucuzluğu istehsal proseslərinin fasiləsizliyinə zəmanət verən zəruri ehtiyatların həcmini obyektiv şəkildə kəskin azaltdı, bazarlarda konyukturanın dəyişməsi annı ilə məhsul

göndərənə siqnal daxil olması annı arasında müvəqqəti uyğunsuzluğu minimuma çatdırdı. Bütün bunlar digər bərabər daxilində istehsal resurslarından daha səmərəli istifadə etməyə, iqtisadi dövrədən kənarlaşmaqla yaranan itkiləri azaltmağa imkan verdi.

**Beşincisi,** ayrı-ayrı məhsul növləri istehsalının, eyni vaxtda həm də əmək vasitələri alıcısı kimi çıxış edən bəzi istehsalçıların əlində cəmləşməsi, iri istehlakçı institutların (dövlət, mənfəət gətirməyən təşkilatlar) meydana çıxması dövlətin təsərrüfat funksiyalarının genişləndirilməsi. İnformasiya şəbəkəsinin, rabitə, nəqliyyat sferasının inkişafı. Geniş əhali təbəqəsinin istehlak strukturunun vahid şəklə salınması meyli – bütün bunlr müasir kapitalist istehsalına imkan verdi ki, dəyişmə qanunları az başa düşülən və əvvəlcədən bilinməyən çox və ya az dərəcədə qeyri-məlum bazardakı işdən kontraktlar şəklində rəsmiləşdirilmiş, qabaqcadan verilən sifarişlər üzrə müəyyən istehlakçısı olan işə keçə bilsin. Özü də həmin kontraktlara görə hər iki tərəf hüquqi və maliyyə məsuliyyəti daşıyırlar.

Son ilər ərzində dünya kapitalist bazarının inkişafında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Elmi-texniki inqilabın təsiri altında sənayenin yeni sahələri: kimya, atom energetikası, maşınqayırma, cihazqayırma, hərbi məhsullar istehsalı və s. üstün inkişaf tapmışdır. Həmin sahələrin məhsulları dünya ticarət dövriyyəsinin əsas hissəsini təşkil edir. İnkişaf etmiş kapitalist ölkələri arasında iqtisadi və siyasi inkişafın qeyri-bərabərliyi güclənmişdir. Dünya kapitalist bazarında ABŞ, İngiltərə və Fransanın rolu azalmış, AFR və Yaponiyanın inhisarlarının rolu və əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artmışdır. Qeyd etmək lazımdır ki, dünya ticarətində inkişaf etməkdə olan ölkələrin rolu və yeri zəifləmişdir. Onların dünya ticarət dövriyyəsində xüsusi çəkisi aşağı düşmüş və sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrinin xüsusi çəkisi artmışdır. Dövlət-inhisar kapitalizminin inkişafı dünya iqtisadiyyatında inteqrasiya proseslərinin güclənməsinə, öz aralarında hökumətlərarası əsasda rəqabət aparan ticarət-iqtisadi blokların yaranmasına gətirib çıxarmışdır.

Eyni zamanda, xarici ticarətin, kapital ixracının, valyuta hesablaşmalarının dövlət-inhisar tənzimlənməsi güclənmişdir ki, bu da öz əksini müxtəlif növ dövlətlərarası razılaşmalarda tapmışdır.

Dünya ticarət bazarında beynəlxalq rəqabət son dərəcə mürəkkəbləşmişdir. Əsas əksagentlərlə – xüsusi inhisarlarla (mili və transmilli) yanaşı, burada inkişaf etməkdə olan ölkələrin beynəlxalq kartelləri, kapitalist və inkişaf etməkdə olan ölkələrin qeyri inhisar xüsusi kapitalist və dövlət müəssisələri də iştirak edirlər. Müxtəlif əksagetlər tərəfindən istifadə edilən rəqabət mübarizəsi metodları. Üsul və qaydaları müxtəlifdir: onlar təkcə dünya kapitalist bazarının ümumi fəaliyyət şərtləri ilə deyil, həm də bu bazarın sosial təbiəti ilə müəyyən edilir.

## 1.2.DÜNYA BAZARINDA DƏYƏR QANUNUNUN FƏALİYYƏTİ

Qızılın dünya puluna çevrilməsi ilə eyni vaxtda dünya əmtəə qiymətləri əmələ gəlir. Onların meydana çıxması ilə dəyər qanunu dünya bazarında beynəlmiləl miqyasda fəaliyyətə başlayır.

**Dəyər qanunu – qiymətin əmələ gəlməsinin əsası olmaqla əmtəə təsərrüfatının əsas qanunlarından biri sayılır. Onun tənzimləyici təsiri qiymət mexanizmi vasitəsilə həyata keçirilir.** Bu zaman baş verən kənarlaşmalar bu və ya digər əmtəələrin istehsalını genişləndirməyə, yaxud da ixtisar etməyə səbəb olur.

**Dəyər qanunu qiymətin hərəkətinin əsasıdır.** Bununla yanaşı, həmişə yadda saxlamaq lazımdır ki, bütün iqtisadi qanunların, o cümlədən dəyər qanununun fəaliyyəti yalnız meyl kimi özünü göstərir.

Qiymətlərin formalaşması və dəyişməsi həm də beynəlxalq ticarətdə dəyər qanununun təsiri altında baş versə də, onun dünya əmtəə bazarlarında meydana çıxmasının konkret formaları bir sıra spesifik xüsusiyyətlərə malikdir.

Əməyin orta intensivliyi ölkələr üzrə dəyişir.Kapitalist istehsalının inkişafına uyğun olaraq bu və ya digər ölkədə mili əməyin orta intensivliyi və məhsuldarlığı beynəlmiləl səviyyədən yuxarı qalxır, ya da aşağı düşür. Bunun nəticəsində müxtəlif ölkələrdə bərabər iş vaxtında istehsal edilən eyni bir əmtəənin müxtəlif miqdarı müxtəlif qiymətlərdə ifadə olunan qeyri-bərabər beynəlmiləl dəyərlərə malikdirlər.

Hər bir ölkə üçün əmək intensivliyinin və məhsuldarlığının öz səviyyəsi xarakterik olduğundan, həmin ölkələrdə əmtəə istehsalına sərf olunan ictimai-zəruri əmək məsrəflərinin səviyyəsi mili dəyəri əks etdirməklə onların özlərinə uyğun səviyyədə olacaqdır. İstehsalın beynəlmiləlləşməsi, dünya ticarətinin inkişafı dünya ictimai əməyinin meydana çıxmasına gətirib çıxarır, dəyər isə beynəlmiləl kateqoriyaya çevrilir. Əgər milli əmək dünya istehsal şəraiti nöqteyi-nəzərindən qəbul olunursa, onda o. həm də dünya təsərrüfatında məcmu əmək payı kimi tanınır.

Beynəlxalq bazarda dəyər qanunun təsiri altında əmtəə mübadiləsi əməyin orta dünya məsrəfləri əsasında, daha doğrusu beynəlmiləl dəyərə görə baş verir. Məhsul vahidi istehsalına orta dünya əmək məsrəfləri öz növbəsində orta dünya əmək məhsuldarlığı ilə müəyyən olunur ki, bu da əmək məhsuldarlığının orta mili səviyyəsinə görə formalaşır. Daha intensiv mili əmək nisbəti az intensiv əməklə müqayisədə bərabər vaxt ərzində daha böyük dəyər yaradır ki, bu da daha böyük pul miqdarında ifadə olunur.

Məhz buna görə də tələb və təklifin balanslaşdırıldığı şəraitdə ictimai, zəruri əmək məsrəflərinin formalaşmasında əsas rolu ölkədə dünya bazarına həmin əmtəənin daha iri mal göndərəninin əmək məsrəfləri oynayır.

Qeyd etmək lazımdır ki, beynəlmiləl dəyər heç də mili dəyərlərin cəminin orta hesab kəmiyyəti deyildir. O, ictimai tələbatlar anlayışı ilə sıx bağlı olan mürəkkəb inteqrallaşdırılmış göstəricidir.

Bu halda ictimai zəruri əmək dairəsinə hər bir ölkənin elə bir fərdi əməyi cəlb olunur ki, onun məhsuldar qüvvəsi həmin istehlak dəyərinin bütün

kütləsinin istehsalı üçün zəruri olan ümumi əmək miqdarının son hədd sərhədlərinə uyğun gəlir.

Bu və ya digər istehsalçının məcmu istehsalda mübadilə prosesində reallaşdırılan beynəlmiləl cəhətcə qəbul edilmiş payı beynəlmiləl dəyərin kəmiyyətini müəyyən edir.

Beynəlmiləl və dövlət daxili istehsal nisbətləri arasındakı müxtəliflik mili və beynəlmiləl dəyərlərin kəmiyyətləri arasındakı fərqi müəyyən edir. Ayrı-ayrı ölkələrin mili xərclərinin beynəlmiləl dəyərə təsiri başlıca olaraq ixrac vasitəsilə həyata keçirilir ki, bu da dünya bazarında tədavüldə olan əmtəə kütləsinin həcminə təsir göstərir. Bu, ona görə  baş verir ki, mili dəyər başlıca olaraq, həmin əmtəədən böyük  miqdarda ixrac edən əsas ölkələrin istehsal şəraiti ilə müəyyən olunur. Məhz bu cür ixracatçı ölkələrin mili dəyərləri müvafiq beynəlmiləl dəyərin yaradılmasında əsas sayılır.

Dünya bazarında qiymətin əmələ gəlməsi proseslərini tənzimləyən beynəlmiləl dəyər adətən müvafiq əmtəələrin mili dəyərindən azdır. Dünya ticarəti miqyasında qiymətin daha aşağı dəyər əsaslarının formalaşması dünya bazarında qiymət əmələ gətirmə proseslərinin aşağıdakı xüsusiyyətləri ilə şərtlənir:

1. Sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrində dünya bazarına müxtəlif istehsal sahələrindən əmtəəlik məhsulların hamısı daxil olmur, daha doğrusu bir qayda olaraq onun böyük bir hissəsi xarici bazarda deyil, daxili bazarda reallaşdırılır.
2. Dünya bazarında əmtəələrini reallaşdıran istehsalçılar istehsal xərclərinin səviyyəsinə görə hər hansı bir ölkənin milli bazarında çıxış edən istehsalçılara nisbətən xeyli fərqlənir.
3. Dünya bazarına mal göndərilməsi, bir qayda olaraq daha böyük rəqabət qabiliyyətinə malik sahibkarlar, yəni daha aşağı istehsal xərcləri səviyyəsinə malik istehsalçılar tərəfindən həyata keçirilir.

Lakin, beynəlmiləl dəyərin mili dəyərin səviyyəsinə nisbətən daha aşağı səviyyəsi təkcə onunla izah olunmur ki.  dünya bazar qiymətləri daha az

istehsal xərcləri ilə istehsal olunan məhsulların qiymətlərinin təsiri altında formalaşır. Burada həm də dünya ticarətində əsas malgöndərənlərin əmtəələrinin beynəlmiləl dəyərinin aşağı salınması istiqamətində daxili bazarlara nisbətən daha kəskin fəaliyyət göstrən rəqabət çox mühüm əhəmiyyət kəsb edir.

Müşahidə olunan meylin əsas səbəblərindən biri də bazarın genişləndirilməsi üstünlüyüdür. Həmin üstünlüyə malik olmaqla, reallaşdırma miqyasının artırılması istehsalın həcminin genişlənməsinə gətirib çıxarır ki, bu da öz növbəsində istehsal xərclərini aşağı slmağa imkan verir.

Mənfəətin milli normalarındakı fərqlər, habelə daxili bazarlarla müqayisədə beynəlmiləl dəyərin formalaşmasının fərqləndirici xüsusiyyətlərindən biri sayılan kapital, işçi qüvvəsi, əmtəələr və digər istehsal resurslarının axını üçün mövcud olan daha böyük maneələr ona gətirib çıxarır ki, həmin dəyər, dünya ticarətinin bütün malgöndərənlərinin xərclərinin ortalaşdırılması yolu ilə deyil, «liderə», yəni daha səmərəli istehsalçıya bərabərləşmək yolu ilə yaranır.

**Beynəlxalq ticarətdə əmtəələrin mübadiləsi bilavasitə dəyərlə deyil, istehsal qiymətləri ilə tənzimlənir.**

**İstehsal qiyməti istehsal xərcləri və orta mənfəətin məcmuyundan ibarətdir.** İstehsal qiymətinin formalaşması prosesi sahədaxili rəqabətinin olmasını, yəni eynicinsli əmtəələrin rəqabətini tələb edir ki, bunun da nəticəsində həmin əmtəələrin bazar dəyəri və bazar qiyməti yaranır. Sahələr arasında kapitalın axını sahəvi mənfəət normasının orta mənfəət normasına tənləşməsinə və buradan da müxtəlif sahələrdə istehsal olunan əmtəə dəyərinin istehsal qiymətinə çevrilməsinə gətirib çıxarır. **İstehsal qiyməti əmtəələrin satış qiyməti sayılmır. Konkret əmtəə qiymətləri istehsal qiyməti əsasında formalaşır, ona az və ya çox dərəcədə yaxınlaşır, lakin onunla üst-üstə düşmür.**

Buna oxşar şəkildə dünya bazarında da beynəlmiləl dəyərin dünya istehsal qiymətinə çevrilməsi prosesi baş verir. Halbuki, burada, yalnız dünya

ticarətində fəaliyyət göstərən müxtəlif üzvi quruluşlu kapitala malik istehsal sahələri arasında kapitalın axını üçün bir sıra maneələr mövcuddur.

**İstehsalın beynəlmiləl qiyməti – dünya qiymətinin ilkin əsasıdır. Dünya qiymətləri dünya bazarında beynəlmiləl istehsal qiymətinin pula ifadəsidir. Onun dünya bazarında formalaşmasının əsasını beynəlmiləl dəyər təşkil edir.**

Kapitalların rəqabətinin təsiri altında əvvəlcə bu və ya digər ölkənin daxili bazarında mənfəət normaları tənləşir və mili istehsal qiymətləri yaranır. Daha sonra, beynəlxalq kapital hərəkəti fonunda mənfəət normasının orta mənfəətə tənləşdirilməsi meyli nəticəsində eyni bir bazara eyni və ya oxşar əmtəələr göndərən ölkələrin mili istehsal qiymətlərindən beynəlmiləl istehsal qiyməti əmələ gəlir.

Beynəlmiləl istehsal qiymətinin yaranması prosesini qısa bir sxemin köməyi ilə daha aydın təsəvvür etmək olar. Fərz edək ki, hər hansı bir ölkə və ya firma indiyə qədər dünya bazarında hələ məlum olmayan yeni bir məhsulun ixracına başlayır. Bununla əlaqədar olaraq dünya ticarətində yeni əmtəəyə dünya qiyməti meydana çıxır ki, bu da mili bazar qiymətinə yaxın olacaq və ixracatçı ölkələrin mili istehsal qiymətinə əsaslanacaq. Bu halda beynəlmiləl istehsal qiyməti mili istehsal qiymətinə, dünya qiyməti isə həmin ölkənin mili qiymətinə uyğun gələcəkdir.

Bir qədər keçdikdən sonra dünya bazarına digər bir ölkə daxil olacaq və dünya qiymətinin mövcud səviyyəsinə uyğunlaşacaqdır. Əgər ikinci ölkənin mili istehsal qiymətləri birinciyə nisbətən aşağı olarsa, onda o, öz məhsulunu dünya bazarında daha ucuz qiymətə satmağa başlayacaqdır. Həmin ölkələr və ya firmalar arasında kartel müqaviləsi olmayana qədər və rəqabət davam edənə qədər yeni məhsula beynəlmiləl istehsal qiyməti və dünya qiyməti aşağı düşəcəkdir və əgər ikinci ölkə dünya bazar tələbini tam ödəyə bilərsə, bu qiymətlər onun mili səviyyəsinə qədər aşağı düşə bilər. Lakin çox vaxt bu ölkələr razılaşmalara gedirlər və öz aralarında bazarı bölüşdürürlər. Beynəlmiləl istehsal qiyməti təkcə mövcud mili istehsal qiymətindən. Beynəlxalq ticartdə ayrı-ayrı ölkələrin verilmiş əmtəə üzrə faktiki payından

deyil, həm də onların, istehsal xərclərinin aşağı salınması və ixracı genişləndirilməsi üzrə potensial imkanlarından, eləcə də bir sıra digər öhdəliklərindən (məsələn, daxili bazarları dünya bazarından ayıran amillər) asılıdır. Bununla bərabər, müasir kapitalizm üçün xarakterik olan şəraitlərdə təklifin tələbi ötüb keçməsinə ən çox təsir göstərən həmin məhsulu ixrac edən ölkələrdən birinin özünə-məxsus qanunauyğunluğu nəticəsində alınan aşağı istehsal qiymətidir: hətta daha ucuz məhsulun nisbətən çox da böyük olmayan təklifi bazarda reallaşan xeyli böyük miqdarda əmtəənin qiymətinin aşağı düşməsinə səbəb olacaqdır.

Dünya ticarətində əmtəə kütləsinin böyük bir hissəsinə beynəlmiləl istehsal qiyməti istehsal şərtləri ilə müəyyən olunur. Lakin bu halda da dünya qiyməti, bir qayda olaraq, beynəlmiləl dəyərdən xeyli kənarlaşır. Bu, ona çoxlu müxtəlif istiqamətli amillərin məcmu təsiri ilə izah olunur.

Reallaşdırılan əmtəələrin qiymətlərinin beynəlmiləl dəyərdən kənarlaşmasına gətirib çıxaran həlledici amil beynəlxalq kapitalist bazarında inhisarın hökmranlığı sayılır. Dünya qiymətlərinə həm də transmilli korporasiyaların (TMK) siyasəti təsir göstərir. Belə ki, onların fəaliyyəti gedişində beynəlxalq ticarətdə məhsul satışının xüsusi kanalları formalaşır ki, bu da ənənəvi beynəlxalq kapitalist ticarətindən fərqlənir. TMK kanalları üzrə ixrac və idxal reallaşmanın həcmi və istiqaməti, qiymətlərin səviyyəsi, hesablaşma formaları və s. baxımından ciddi surətdə tənzimlənir. Əmtəələrin hərəkətinin ciddi tənzimlənməsi TMK-ya imkan verir ki, o milli bazarlarını qapalı saxlasın və öz mənafeyi baxımından rəqabəti söndürmək məqsədilə əsassız olaraq qiymətləri yüksəltsin və ya aşağı salsın. Nəticədə TMK daxili və xarici qiymətlərin obyektiv olaraq əsaslandırılmış nisbətlərini pozur, dünya qiymətləri sisteminə qeyri-stabillik gətirməklə, onların hərəkət və proporsiyalarına qeyri-müəyyənlik və subyektivlik ünsürləri daxil edir.

Dünya qiymətinə məhsulun keyfiyyəti, onun istehlak dəyəri əhəmiyyətli dərəcədə təsir göstərir. Dünya bazarında bu, dünya təsərrüfatının strukturundan asılı olan tələbin vasitəsilə üzə çıxır. Bu, dəyər və istehlak dəyəri

arasında ziddiyyətə səbəb olur. Onun dərinləşməsi isə dünya qiymətlərinin beynəlxalq dəyərdən xeyli kənarlaşmasına gətirib çıxarır. Ona görə də beynəlmiləl dəyərin və dünya qiymətlərinin dinamikasını tədqiq edərkən məhsula ictimai tələbatın dəyişməsini nəzərə almaq zəruridir. Məhz bunlar, əmək məhsuldarlığında dəyişikliklərin istisna təşkil etdiyi hallarda belə, çox vaxt dünya qiymətlərinin artmasına və ya aşağı düşməsinə gətirib çıxarır.

**Beləliklə, dünya qiyməti ictimai zəruri keyfiyyətə malik əmtəələrin beynəlmiləl dəyərini (istehsal qiymətini) pul formasında ifadə edir.**

Müasir şəraitdə qiymətlərin səviyyəsinə istehsalçının əmtəə satışında və fəaliyyəti prosesində göstərdiyi xidmətlər (göndərmə və quraşdırma şərtləri, texniki xidmət, zəmanətli təmir və s.) daha böyük təsir göstərir. Həmin xidmətlərin dəyəri də ictimai zəruri əmək məsrəflərinə daxil edilir. Təbii ki, bu xərclər dünya qiymətində nəzərə alınır.

Beynəlmiləl dəyərin formalaşmasından danışarkən elmi-texniki tərəqqinin də böyük təsirini nəzərə almaq lazımdır. Elmi-texniki tərəqqi istiqamətində inkişafın zəruriliyi kapitalist ölkələrini məcbur edir ki, onlar Elmi-tədqiqat və təcrübi-konstruktor işləri üçün daha çox kapital qoyuluşu sərf etsinlər. Həmin xərclər inkişaf etmiş kapitalist ölkələrində istehsalın səmərəliliyinə, əmək məhsuldarlığının artmasına və işçi qüvvəsinin ixtisasının yüksəlməsinə böyük təsir edir. Ona görə də inkişaf etmiş kapitalist ölkələrinin istehsl etdiyi məhsula təkcə daha məhsuldar əməyin deyil, həm də daha yüksək dəyər yaradan daha ixtisaslı əməyin məhsulu kimi baxmaq lazımdır.

Bundan başqa, daxili bazardan dünya bazarına keçid birbaşa və bilavasitə keçid sayılmır. Daxili bazarlarla dünya ticarəti arasında tarif və qeyri-tarif (rüsumlar, sərhəd vergiləri, kompensasiya yığımları, subsidiyalar, vergilər, nəqliyyat və digər imtiyazlar) maneələri formasında iqtisadi sərhədlər mövcuddur. Bütün bunlar daxili və dünya ticarəti qiymətlərini tənzimləyən mənfəət normalarının və xərclər səviyyəsinin bərabərləşdirilməsi yolunda əngəl sayılır. Ona görə də dünya qiymətlərinə , onların böynəlmiləl dəyərdən kənarlaşmalarına proteksionizm siyasəti mühüm təsir göstərir. Məsələn,

Avropa İqtisadi Birliyinin (AİB) vahib qiymətlər mexanizminin kompensasiya yığımları ilə əlaqələndirilməsi (vahid qiymətlərlə beynəlxalq bazar qiymətləri arasında fərq) Ümumi bazarda kənd təsərrüfatı məhsuluna qiymətin dünya bazarına nisbətən yüksək olmasına gətirib çıxarır.

İxracatçıların mənfəət kəmiyyətinə bilavasitə təsir edən ixrac imtiyazlarının və subsidiyaların tətbiq olunduğu şəraitdə beynəlmiləl dəyər ola bilsin ki, artsın. Subsidiya olunan əmtəənin beynəlmiləl dəyərinin bu cür hərəkəti onunla izah olunur ki, o, həmin əmtəə ixracının stimullaşdırılmasının köməyilə istehsalçının beynəlxal əmək bölgüsünə daxil edilən daha yüksək fərdi xərclərini nəzərə almaqla formalaşacaqdır. Elə bu vaxt dünya qiyməti dünya bazarında tələbin dəyişməzliyi şəraitində əmtəə təklifinin artması ilə azalmağa doğru meyl edəcəkdir. Beləliklə, artmaqda olan beynəlmiləl dəyərlə aşağı düşməkdə olan dünya qiyməti arasında qeyri-uyğunluq əmələ gələ bilər. Lakin bu ziddiyyət məlum dərəcədə onunla zəifləyə bilər ki, dünya qiymətinin aşağı düşməsi istehsalın strukturunda dəyişikliyə səbəb olsun. Bu isə öz növbəsində beynəlmiləl dəyərin azalması istiqamətində fəaliyyət göstərəcəkdir.

Dünya qiymətlərinin beynəlmiləl dəyərdən kənarlaşmasına səbəb olan daha az əhəmiyyət kəsb etməyən amillərdən biri də inflyasiyadır. İnflyasiya əmtəə qiymətlərinin artmasında ifadə olunur və qızıla nisbətdə kağız pulların qiymətdən düşməsi ilə sıx bağlıdır.

Daxili bazarda əmtəə qiymətlərinin artmasına səbəb olan inflyasiya ölkənin xarici bazarlarda rəqabət qabiliyyətliliyinin azaldır. Bundan başqa, qiymətin inflyasiya artımı adətən ölkə daxilində qızılın qiymətinin yüksəlməsinə səbəb olur ki, bu da valyuta məzənnəsinin qeyri-reallığından xəbər verir.

Beynəlxalq bazarda dünya qiymətlərinə təsir göstərən amillərdən biri də bazar konyukturasına təsir edən valyuta-maliyyə amilləridir. Valyuta məzənnələrinin qeyri-sabitliyi, valyuta zonalarının mövcudluğu və valyuta məhdudluğu buna gətirib çıxarır ki, müxtəlif valyutalarda ifadə olunan qiymətlər eyni olmurlar. Bu, klirinq razılaşmalarını (qarşılıqlı tələblər və

öhdəliklər hesabına əsaslanan nəğdsiz hesablaşmalar sistemi) doğurur. Klirinq razılaşmalarındakı göndərmələr çox vaxt qiymətlərin səviyyəsinə görə fərqlənirlər ki, bu da dünya qiymətlərinin artmasına və inflyasiya doğru aparır.

## 1.3. VALYUTA MƏZƏNNƏSİ VƏ ONU MÜƏYYƏN EDƏN AMİLLƏR. AZAD DÖNƏRLİ VALYUTA

Dünya ticarətində bütün əmtəə və qeyri-əmtəə sövdələşmələrinin ödənilməsi valyuta məzənnəsi əsasında həyata keçirilir. **Valyuta məzənnəsi- müəyyən bir ölkənin pul vahidinin digər ölkələrin valyutasında ifadə olunmuş qiymətidir.** Dünya bazarında satılmış və ya alınmış əmtəənin dəyəri valyuta məzənnəsi üzrə həmin əmtəəni satan və ya alan dövlətin mili valyutasına, yaxud da başqa ölkələrin azad dönərli (mübadilə edə bilən) valyutası ilə əvəz edilə bilən digər bir dövlətin valyutasına çevrilir. Çox vaxt bu məqsəd üçün ABŞ dolları, Alman markası, İngiltərə funt sterlinqi, fransız frankı və s. istifadə edilir.

Dünya kapitalist bazarında həm də azad enib-qalxan möhkəm valyuta məzənnəsi də mövcuddur. Azad enib-qalxan valyuta məzənnələri dünya bazarında mövcud olan konyukturanın təsiri altında dəyişir və hər bir şeydən əvvəl, həmin valyuta olan tələb və təklifdən asılıdır. Möhkəm valyuta məzənnələri, bir qayda olaraq, qızıl standartları əsasında qurulur. Bu halda dövlət öz valyutasının qızıl standartına uyğun gəlməklə qızıla mübadilə olunacağına zəmanət verir.

Əgər bir dövlətin valyutası və digər bir dövlətin valyutası qızıla nisbətdə müəyyən olunmuşdursa, bunlar arasında isə qızılın sərbəst hərəkəti varsa, onda həmin dövlətlərin valyutaları bir-biri ilə möhkəm (sabit) nisbətdə yerləşərlər. Kapitalist valyutalarının «üzməsi» xarici ticarət qiymətlərinin daim dəyişməsinə səbəb olmaqla onların da «üzməsinə» gətirib çıxarır.

Ölkənin valyuta məzənnəsinin aşağı düşməsi ixracatçılara «mənfəəti» adlandırılan əlavə mənfəət almağa imkan verir. Tutaq ki, amerika firması AFR-ə hər vahidinin qiyməti 100 AFR markası olmaqla əmtəə ixrac edir. 1999-cu ildə ABŞ dollarının məzənnəsi 2,5 AFR markasına bərabər idi. Elə həmin ildə amerika firması satdığı hər bir əmtəə vahidinə görə mili valyuta ilə 100:2.5=40 dollar almışdır. 1998-ci ildə ABŞ dollarının məzənnəsi 1,8 AFR markasına qədər aşağı düşmüşdür. Digər bərabər şərtlər daxilində 1998-ci ildə əmtəəni 100 AFR markası ilə satmaqla amerika firması 100:1,8=56 dollar almışdır. 16 dollar məbləğində (56-40) fərq ixracatçının milli valyuta məzənnəsini aşağı salmaq hesabına əldə etdiyi valyuta mənfəətini təşkil edəcəkdir. Nəticədə ixracatçı mili valyuta ilə 90:1,8=50 dollar öz ixrac qiymətlərini 90 AFR markasına qədər aşağı salmaq və eyni zamanda AFR bazarında satış həcmini xeyli genişləndirmək imkanı əldə edir. Beləliklə, ixracatçı ölkənin valyuta məzənnəsinin aşağı salınması xarici bazarlarda onun məhsulunun rəqabət qabiliyyətliliyinin yüksəlməsinə gətirib çıxarır.

Sövdələşmənin zaman laqı böyük əhəmiyyət kəsb edir. Əgər kontrakt müddəti 5 ildirsə, onda alıcının illik 4 % adi kreditləşdirilməsi şərtinin əvəzinə, ildə 10% və daha çox haqq alına bilər.

Beləliklə, dünya bazarında kredit dərəcələrinin artımı həm də daxili qiymətlərin artımına səbəb olur. Məhz buna görə də bütün dünya ölkələrinin iqtisadçıları tərəfindən etiraf edilmişdir ki, müasir şəraitdə valyutaların mübadilə məzənnələri ən mühüm qiymət əmələ gətirici amillərdəndir.

Xarici ticarət sövdələşmələrində valyutanın dönərliyi mühüm əhəmiyyət kəsb edir. Müasir şəraitdə mili valyutanın dönərliyi sözün geniş mənasında özündə mili iqtisadiyyatın dünya bazarı ilə əlaqə mexanizmini ifadə edir, həmin əlaqənin möhkəmliyi və səmərəliliyi isə valyuta məhdudiyyətlərinin sərtliyi ilə müəyyən edilir.

**Milli valyutanın dönərliyi onun rəsmi bazar məzənnəsi üzrə digər ölkələrin valyutasına azad alqı-satqısıdır. İqtisadi ədəbiyyatda maliyyə dönərliyini** (yəni digər ölkələrin valyutasına çevrilməsi)**, əmtəə dönərliyini (**əmtəə tədiyyətlərinin

ödənilməsi**), xarici dönərliyi** (həmin mili valyutanın həm ölkə daxilində, həm də ondan kənarda istifadə edilməsinə görə xarici sahibkarlara hüquq verilməsi), **qismən dönərliliyi (**valyuta mübadiləsi ya məhdud ölçülərdə gedir, ya da bu cür mübadilə gedən ölkələrin sayı məhduddur və yaxud da azad valyuta mübadiləsinin yalnız cari əməliyyatlar üzrə aparılmasına icazə verilir**), tam dönərliliyi** (azad valyuta mübadiləsinə tədiyyə balansının bütün maddələri üzrə icazə verilir) fərqləndirmək qəbul edilmişdir.

Valyuta dönərliliyinin başlıca əlaməti ölkənin tədiyyə balansının tənzimlənməsi üçün onun valyutasının azad alqısı və satqısı hesabına məhdudiyyətin olmaması sayılır. Bu onu göstərir ki, valyuta mübadiləsinə miqdar kvotası, lisenziyalaşdırma və xarici ödəmələrin həyata keçirilməsi üçün məhdudiyyət yoxdur, idxala qoyulan vergilər çıxarılıb, valyutanın çoxluq məzənnəsi yox, vahid məzənnəsi müəyyən olunub. Azad dönərli valyutaya keçmək üçün müəyyən şərtlər zəruridir: ixrac-idxal əməliyyatlarının geniş inkişafı, valyuta inhisarının ləğv olunması, pul vahidindən xarici iqtisçadi fəaliyyətdə istifadə olunmasına məhdudiyyətlərin çıxarılması, pul vahidinin daxili bazarda istənilən əmtəə və ya xidmətə azad mübadiləsinə imkan verilməsi. İnkişaf etmiş əmtəə və pul bazarının və iş qüvvəsi bazarının mövcudluğu.

Valyutanın azad dönərliliyə keçməsi, tədriclə bunun üçün obyektiv şəraitin yaranması il əvə cari ticarət əməliyyatları üzrə azad mübadilənin, daha sonra isə bütün tədiyyə balansı əməliyyatlarının genişləndirilməsi ilə müşaiyət olunur. Məsələn, Beynəlxalq valyuta Fonduna qəbul hər şeydən əvvəl cari əməliyyatlar üzrə valyuta məhdudiyyətlərinin çıxarılmasını, valyuta məzənnələrinin çoxluğunu və bazar valyuta məzənnəsinin tətbiqini nəzərdə tutur. 1990-cı ildə Beynəlxalq valyuta Fonduna üzv olan 152 ölkədən yalnız 67-si, yəni yarısından azı ticarət əməliyyatları üzrə valyuta dönərliyinə malik olmuş, 15 ölkə maliyyə sövdələşmələri üzrə və yalnız bir ölkə Lüksemburq bütün meyarlara görə öz valyutasının tam dönərliyinə nail olmuşdur.

Beləliklə, valyuta dönərliyinin ən mühüm tərkib elementləri kimi bazar məzənnəsi və qismən də cari əməliyyatları əsas hissəsi üzrə valyuta məhdudiyyətlərinin yoxluğu çıxış edir. Tələb və təklifi valyutaya tənləşdirə bilən çevik məzənnə olmadan dönərlilik haqqında bütün danışıqların praktiki olaraq heç bir mənası yoxdur. **Valyuta məzənnəsi həqiqi iqtisadi mənada sadəcə olaraq bir pul vahidinin başqa bir pul vahidi ilə ifadə olunmuş qiyməti deyildir. Əslində o, müəyyən ticarət partnyoruna görə mili iqtisadiyyatın rəqabət qabiliyyətliliyini əks etdirir.**

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələr üçün valyutanın dönərliliyi həmişə onun «möhkəmliyindən» və ya etibarlılığından ayrılmazdır (bizdə isə «möhkəmlik» dedikdə çox vaxt yalnız dönərlilik nəzərdə tutulur.) **Möhkəm valyuta,** hər şeydən əvvəl, daxili və beynəlxalq bazarlarda sabit və ya artan məzənnə ilə və yüksək alıcılıq qabiliyyətlilyi ilə xarakterizə olunur, daha doğrusu bu valyuta sözün geniş mənasında dönərdir. Belə bir valyutanın, daxili bazar dövriyyəsində pul bədəllərinin, xüsusilə və xarici valyutanın iştirakına heç bir ehtiyacı yoxdur, daha doğrusu, buna əslində heç bir əsas da yoxdur. **Dönərli valyuta heç də həmişə kifayət qədər möhkəm olmur, lakin möhkəm valyuta isə demək olar ki, həmişə dönərlidir.**

Keçmiş SSRİ-də və digər sosialist ölkələrində uzun onilliklər ərzində iqtisadiyyatın inkişafının elə bir modelindən istifadə olunurdu ki, mövcud valyuta məzənnəsi və kreditin dönərliliyə ehtiyacı yox idi, çünki bu inkişaf beynəlxalq əmək bölgüsündə iştiraka yönəldilməmişdi. Bazar münasibətlərinin hətta nişanələrinin belə yoxluğu və boğulması, iqtisadi cəhətdən öz-özünü təcrid etməsi, həddən artıq mərkəziyyətçilik və inzibatçılıq tədriclə qeyri-səmərəli valyuta, pul kredit və maliyyə siyasətinə gətirib çıxardı, xalq təsərrüfatını iqtisadi tənzimləmənin işlək mexanizmlərindən məhrum etdi. Problemlərin artması və durğunluq əlamətləri iqtisadi islahatlar haqqında, hər şeydən əvvəl isə, əmtəə-pul münasibətlərinin inkişaf haqqında vəzifənin həllini tələb etdikdə məlum oldu ki, digər ölkələrlə normal qarşılıqlı əlaqələr üçün təsərrüfatçılıq mexanizmində mütləq köklü dəyişikliklər aparmaq lazımdır.

İstənilən dönərlilik forması vahid iqtisadi cəhətdən əsaslandırılmış məzənnənin olmasını tələb edir ki, bu da yalnız bazarda müəyyən oluna bilər (məhz həmin məzənnəyə bu və ya digər əməliyyatlar üzrə düzəlişlər etmək olar).

## 1.4. İSTEHLAK DƏYƏRİ VƏ ONUN DÜNYA QİYMƏTLƏRİNDƏ NƏZƏRDƏ ALINMASI

Hər hansı xarici ticarət əməliyyatlarının faydalılığı hər şeydən əvvəl idxal və ixrac olunan əmtəə qiymətlərinin səviyyəsindən asılıdır. Əmtəə mübadiləsinin səmərəliliyini təmin etmək üçün bilmək lazımdır ki, texniki səviyyənin və məhsul keyfiyyətinin yüksəldilməsini qiymətlərin səviyyəsində necə və hansı həddlərdə əks etdirmək lazımdır.

Dünya bazarında qiymət formalaşarkən faktiki istehsal xərcləri və mənfəət həcmləri haqqında məlumatlar olmur. Bununla əlaqədar olaraq **qiymətlərin müəyyən edilməsinin parametrik metodları,** məhsulların qiymət və keyfiyyəti arasında asılılıqların dərin tədqiqatı üçün xüsusi rol oynayır. Həmin metodların xərclərin kalkulyasiyası metodlarından üstünlüyü ondan ibarətdir ki, bu tədqiqatlar əsasında alınmış qiymət bazarda qiymətlərin formalaşması şərtlərini real əks etdirir.

Kapitalist iqtisadiyyatında qiymətlərin müəyyən edilməsinin parametrik metodlarından geniş istifadə olunması hər şeydən əvvəl qiymət və keyfiyyətin kapitalist təkrar istehsalı prosesində oynadığı rolla izah olunur. Məsələn, ABŞ-ın 200 iri firması arasında aparılan sorğk nəticəsində müəyyən olunub ki, firmanın müvəffəqiyyətini ən çox təmin edən amil məhsulun keyfiyyətidir. Qiymət firmanın mənfəətini təmin etsə də, həmin firmalardan heç biri ona birinci yeri verməmiş və bu yerə əlverişli qiymət alınması vasitəsi kimi «keyfiyyət amili» ni irəli sürmüşlər.

Kapitalist bazarında bir sıra hallarda məhsulun qiyməti həmin məhsulun keyfiyyətinin yüksəlməsinə nisbətən daha çox artır və beləliklə də standart

keyfiyyət göstəricilərini ötüb keçməyə görə müəyyən əlavə ödənilir; digər tərəfdən, aşağı keyfiyyətli məhsul göndərən öz məhsullarına güzəşt nəzərdə tutmağa məcburdur, özü də həmin güzəştin miqdarı keyfiyyətin aşağı düşməsinə nisbətən daha sürətlə artır.

Müasir avadanlıq kimi mürəkkəb məmulatları reallaşdırarkən onun istehlak dəyəri ayrı-ayrı istehlak xassələrinin bütöv sırasından cəmlənir. Məmulatın təyinatını, tipini və onun əsas parametrlərini qoruyub saxlamaqla onun ayrı-ayrı ikinci dərəcəli istehlak xassələrini yaxşılaşdırmaq və ya pisləşdirmək hesabına qiyməti dəyişmək olar. Bundan başqa, göndərmə şərtləri də qiymətə dolayı olaraq təsir göstərir.

Qiymətin bu xassəsindən kapitalist firmasının qiymətəmələgəlmə siyasətində geniş istifadə olunur. Rəqabət mübarizəsindən qalib çıxmağa can atmaqla onlar istehlak xassələrini, göndərmə şərtinin uyğunluğunu, iexniki və kommersiya xidmətini yaxşılaşdırmağa məcbur olurlar. Məhsul və xidmətlərin bu cür yaxşılaşması əlavə xərclər tələb edir, ona görə də bu xərclər adətən qiymətdə nəzərə alınır və istehlakçıya ödənilir.

Dünya qiymətləri və keyfiyyətin səviyyəsi, göndərmə şərti və texniki xidmət mövcuddur. Firmaların bir hissəsi bu səviyyəni əldə edir və öz məmulatlarını dünya qiymətləri ilə reallaşdırır. Həmin səviyyəni əldə etməyən digər firmalar isə öz məhsullarını dünya qiymətlərindən aşağı qiymətlə reallaşdırır. Dünya üzrə mövcud texniki səviyyəni və keyfiyyət səviyyəsini ötüb keçən firmalar əmtəələri izafi mənfəət daxil edilən qiymətlər üzrə reallaşdırır, dünya texniki səviyyəsi və keyfiyyətindən aşağı məmulatlar göndərən istehsalçılar son dərəcə normal mənfəətlə kifayətlənməyə məcburdurlar və ya birbaşa ziyana dözürlər.

«Əgər əmtəələr eyni dərəcədə yaxşıdırlarsa, onda onların qiymətləri bərabər olmalıdır….» prinsip ilə fəaliyyət göstərən kapitalist bazarında qiymətlərin müəyyən edilməsi əmtəələrdə cəmləşən qiymətlərin və onların istehlak dəyərlərinin birbaşa və dolayı müqayisəsi əsasında baş verir.

Dünya ticarətində qiymətlərin müəyyən edilməsinin əsas problemi istehlak xassələri bir-birindən müxtəlif parametrlər çoxluğu ilə, habelə alqı-satqı müqaviləsinin yerinə yetirilməsinin konkret şərtləri ilə fərqlənə bilən məmulatların müqayisəsi sayılır. Hər hansı bir ölkədə və ya dünya əvvəllər istehsal olunmamış yeni və prinsipcə ən yeni məmulatlara qiymətlərin müəyyən edilməsi xüsusi bir problemdir.

Belə bir sual meydana çıxır: əgər X əmtəəsinin istehlak dəyəri Y əmtəəsinin istehsalak dəyərindən (kəmiyyət və keyfiyyət cəhətdən) Z kəmiyyəti qədər yuxarıdırsa, onda X əmtəəsi Y əmtəəsindən nə qədər baha olar ? Bu halda qiymət necə dəyişər? Bir tərəfdən, dəyər və istehlak dəyəri arasında, digər tərəfdən, qiymət və istehlak dəyəri arasında qarşılıqlı miqdar, pul asılılığını müəyyən etmək dünya təcrübəsi vasitələrin böyük ehtiyatını toplamışdır. Bu vasitələr elə işlənib hazırlanıb ki, burada əmtəənin qiyməti bütöv amillər kompleksindən asılıdır. Həmin amillər kom pleksində isə başlıcası istehsala çəkilən xərclər və onun istehlak dəyəri arasında qarşılıqlı əlaqədir ki, bu da korrelyasiya-reqressiya təhlili metodunun köməyilə müəyyən edilir. Əmtəənin istehlak dəyəri onun rəqabət qabiliyyətliliyinin müəyyən olunmasında həlledici əhəmiyyət kəsb edir.

## 1.5. TƏLƏB VƏ TƏKLİF, DÜNYA QİYMƏTLƏRİNƏ ONLARIN TƏSİRİ

Bazar təsərrüfatı şəraitində tələb və təklif arasında nisbət, hər şeydən əvvəl, qiymətəmələgəlmənin müəyyənedici amili sayılır və onun fəaliyyəti sabit xarakterə malikdir.

**Tələb müəyyən əmtəə alqısında maraqlı olan əhalinin, firmaların və ölkələrin alıcılıq qabiliyyətinin həcmi ilə müəyyən olunur.**

**Təklif bütün istehsalçıların bazara mövcud tələbə uyğun şəkildə zəruri miqdar əmtəə vermək qabiliyyəti kimi çıxış edir.**

Dəyər qanunu bütün məhsullar məcmuyuna nisbətən elə bir şəkildə meydana çıxır ki, zəruri iş vaxtı təkcə hər əmtəənin dəyərinin yaradılmasına sərf olunmur, həm də müxtəlif əmtəə qruplarının yaradılmasına yalnız zəruri, proporsional vaxt miqdarı düşür. Çünki əmtəənin özündə ictimai istehlak dəyərinin təmsil etmək şərti qalır.

İctimai istehlak, yəni ictimai miqyasda istehlak dəyəri burada müxtəlif xüsusi istehsal sferalarına düşən bütün ictimai iş vaxtını müəyyən edir. Bu, eynilə ayrıca bir əmtəəyə nisbətdə aşkara çıxarılan qanundur, daha doğrusu isə əmtəənin istehlak dəyəri onun mübadilə dəyərinin və deməli dəyərinin ilkin şərtidir. Beləliklə, bazar qiymətinə bazara müəyyən miqdarda gətirilmiş istehlak dəyəri təsir göstərir.

Əgər əmtəə ictimai istehlakdan artıq miqdarda istehsal olunarsa, onda ictimai iş vaxtının bir hissəsi boş yerə sərf olunmuş olar və bütün əmtəə kütləsi bazarda həqiqətdə olduğundan daha az miqdarda ictimai əməyi təmsil etmiş olar. Ona görə də bu əmtəələr bazar dəyərindən aşağı satılmalıdır, onların bir hissəsi isə ola bilsin ki, heç satılmasın.

Əgər əmtəə istehsalına ictimai istehlakı ödəmək üçün lazım olduğundan az ictimai əmək sərf olunarsa və ya əmtəə miqdarı kifayət dərəcədə olmazsa, onda bu halda əmtəə onun bazar dəyərindən yuxarı qiymətə satılacaqdır. Əmtəə təklifi, ona olan tələb kimi bir sıra göstəricilərlə xarakterizə olunur. Əsas göstəricilər sırasına bazara daxil olan əmtəənin miqdarını və həmin əmtəəyə olan tələbatın həcmini, onların istehlak xassələrini (keyfiyyətini), təkrar istehsal xərclərini və s. aid etmək olar.

İqtisadi nəzəriyyə belə hesab edir ki, əmtəəyə olan tələbatın miqdarı təkcə onun istehsal xərclərinə deyil, həm də ona olan tələbə təsir edən, keyfiyyəti ilə müəyyən olunur. Keyfiyyət anlayışı altında burada xərclərin, nəticələrin və istehlak faydalılığının optimumunu yaradan kəmiyyət başa düşülür.

Reallaşdırılması nəzərdə tutulan təklif olunmuş əmtəə kütləsinin miqdarı ilə istehsal xərcləri arasında da əlaqə mövcuddur: məsələn, dağ-mədən sənayesinin əmtəələri üçün (kömür, neft, filiz) daha az zəngin olan yataqların

mənimsənilməsi üzrə istehsalın genişləndirilməsi istehsal xərclərinin nisbi artımına səbəb olur. Digər əmtəələr. Məsələn, maşınqayırma sənayesinin əmtəələri üçün isə əksinə, istehsal miqyasının artımı kütləvi, axın istehsal texnologiyasından istifadə etməyə imkan verir ki, bu da xeyli dərəcədə xüsusi xərcləri ixtisar edir.

Bu qanunauyğunluqlar arasında əmtəənin istehlak dəyərinin dəyişməz kəmiyyətində qiymətin tələb və təklif nisbətlərindən asılılığı mühüm rol oynayır.

Qiymət , hər şeydən əvvəl, əmtəə təklifinin şərtlərindən asılıdır ki, bu da daha tam surətdə üç növbədə ifadə olunur: istehsal olunan əmtəənin miqdarında, onun keyfiyyətində və istehsal xərclərində. Mövcud qiymətlə əmtəə istehlakçısının ala bildiyi məhsul həcmini ifadə edən, tələbin şərtləri də az rol oynamır.

Tələb və təklif qüvvələrinin qarşılıqlı fəaliyyəti bazar şəraitindən asılıdır. Təkcə təklif qeyri-məhdud rəqabət bazarı şəraitində təşəkkül tapır ki, burada dv qiymət təklif və tələbin qarşılıqlı fəaliyyət qüvvəsinin nəticəsi kimi çıxış edir. Əgər tələbin bütün təklif həcmini udmaq üçün lazım olan qiymət səviyyəsindən xeyli yüksək qiymət qoyularsa, onda əmtəə artıqlığı yaranar və beləliklə də qiymət aşağı düşər. Əksinə, hətta tədiyyə qabiliyyətli tələbin təklifi ötməsi səviyyəsinə qədər qiymət o qədər aşağı ola bilər ki, müvafiq əmtəənin qıtlığı yaranar və beləliklə də qiymətlərin artımı baş verər.

Həmin qiymət tərəddüdləri tələb və təklifin bir-birinə tənləşdiyi səviyyənin kəmiyyəti ətrafında baş verir. **Tələb və təklifin tənləşməsi meydana çıxan və üç kəmiyyətdən (təklifin həcmi, tələbin həcmi və qiymətin kəmiyyəti) hər hansı birinin dəyişməsi üçün stimul yaratmayan qiymət tarazlıq qiyməti adlanır. Qeyri-məhdud rəqabət şəraitində o, tələb və təklif həcmlərinin kortəbii qarşılıqlı təsiri nəticəsində əmələ gəlir. Bu və ya digər dərəcədə inhisarçılıq meydana çıxdıqda həmin mexanizm qiymətin dəyişməsinə yox, tələb və təklif kəmiyyətlərinin dəyişməsinə gətirib çıxara bilər.**

İnhisar bazarları onunla xarakterizə olunur ki, ayrı-ayrı istehsalçılar və ya istehlakçılar qiymətin formalaşmasına və hərəkətinə təsir göstərə bilərlər. Belə ki, əmtəə artıqlığı halında inhisarçı qiyməti aşağı salmaya bilər (qeyri-məhdud rəqabət şəraitində olduğu kimi), əvvəlki qiyməti  saxlamaqla əmtəə təklifinin azaldılmasına gedə bilər. Əmtəə qıtlığı halında təklifi artırmaqla qiyməti yüksəldə bilər. Nəticədə  qiymət, onun səviyyəsi xeyli  dərəcədə ya inhisarçı tərəfindən, ya da dövlət tərəfindən aparılan tənzimləmə ünsürləri ilə müəyyən edilər.

Tələb və təklif nisbətlərində müvəqqəti, müəyyən hüduddan kənara çıxmayan pozuntuların qiymətə təsirini ətraflı  nəzərdən keçirək. Bu cür təhlilin ilkin vəziyyəti qiyməti qiymətin bazar dəyərinə bərabər olduğu (belə bərabərlik nadir hadisə olsa da) tələb və təklifin bərabərliyi sayılır.

Müxtəlif şəraitə və istehsal xərclərinə malik şaxtaların işlədiyi kömür sənayesin qiymətlərin formalaşması misalına baxaq. Məlumdur ki, kömürə bazar qiymətləri yüksəldilərkən rentabelli işləyən şaxtaların miqdarı artacaqdır, yəni orta səviyyədən yuxarı istehsal xərclərinə malik şaxtalar istismara daxil olacaq və əksinə, qiymət aşağı salınarkən daha az mənfəətli müəssisələrdə istehsal ixtisar olunacaq və ya dayandırılacaqdır.

Fərz edək ki, müəyyən bir bazarda bazar qiyməti 1 tona görə  33 dollardır. Həmin qiymətə istinad edərək sənaye ildə 220 mln. ton kömür hasil etdi.

Enerji böhranı kömürə olan tələbin artmasına səbəb oldu. Əvvəllər qeyri-rentabelli hesab edilən şaxtalar və ayrı-ayrı yataqlar yenidən istismar olunmağa başlandı. Qiymətin artması, fərz edək ki, həddindən artıq kömür istehsalına  səbəb oldu və bazara 700 mln. ton kömür göndərildi. Bu qədər kömürü bazar qəbul edə bilməzdi, çünki onun 1 tonunun qiyməti 50 dollara qədər qalxmışdı. Yüksək xərclərə malik şaxtalar yenidən bağlanmağa, qiymət isə aşağı düşməyə başladı. 500 mln. ton təklifi həcminə görə 1 tonunun qiymətinin 40 dollar səviyyəsinə qədər qiymətlərin və təklif həcmlərinin aşağı düşməsi davam etdi. Hasilatın  1 tonunun qiyməti 33 dollar olduqda istehsalçı

220 mln. ton kömür təklif edə bilər, istehlakçı isə belə bir az miqdarda kömür üçün yüksək qiymətlər (1 tona görə 60 dollar) təklif etməyə hazırdır.

Digər halda isə, əksinə, böyük qiymətlərdə (məsələn, 1 tona görə 50 dollar) istehsalçı 700 mln. ton kömür təklif edə bilər, lakin həmin miqdar istehlakı ötüb keçər və 1 tona görə yalnız 33 ton olmaqla reallaşdırıla bilər. Həmin bu ziddiyyətlər öz həllini həm qiymətlərin, həm də tələb və təklifin qarşılıqlı surətdə yaxınlaşmasında tapır.

Tələb və təklifin, habelə istehsalçı və istehsalçı və istehlakçı qiymətlərinin bu cür qarşılıqlı surətdə uyğunlaşması nəticəsində tarazlıq qiyməti adlandırılan qiymət alınır. Bu qiymət, bir tərəfdən bazar qiymətinə, daha doğrusu, ictimai dəyərə, digər tərəfdən isə tləb və təklifin bərabərliyinə uyğun gəlir.

Fərz edək ki, inflyasiya və istehsal xərclərinin artımı nəticəsində təklif qiyməti yüksəlmişdir. Tələb və təklifin bu cür nisbətində malgöndərən elə həmin qiymətlərlə kiçik məhsul həcmi (400 mln.t.) təklif edir və yaxud əvvəlki təklif həcmini saxlamaqla qiyməti yüksəldir (1 tonunun qiyməti 45 dollara qədər) . Əgər istehsalçı bu vəziyyəti qəbul edirsə və hər il əvvəlki 500 mln. t. Kömür almağı arzulayırsa, onda o, 1 ton kömürün bazar qiymətinin 45 dollar olmasına razılıq v erər.

Çox vaxt istehsalçını qiymətin dəyişməsinə cavab olaraq mütləq həcm deyil, onun dəyişməsi maraqlandırır. Bu, elastiklik anlayışına gətirib çıxarır. Qiymətlərin (tələbin) nisbəti nə vaxt elastiki olarsa (qiymətin çox da böyük olmayan dəyişmələri satışın əhəmiyyətli dərəcədə dəyişmələrinə səbəb olur), qiymətlərin aşağı salınması ilə mənfəət arta bilər və əksinə, qiymətlərin qalxması ilə mənfəət azala bilər. Öz əmtəələrini rəqiblərindən o qədər də və yaxud heç nə ilə fərqlənməyən qiymətlərə satan firmalar çox vaxt Ən elastiki bazarlarda çıxış edirlər.

Çuqun, yumurta , buğda, qızıl kimi əmtəələri bazarda çox vaxt üstün qiymətlərlə satırlar və şirkət tərəfindən qiymətlərin üstün qiymətdən aşağı salınması zamanı satışın həcmi xeyli artacaqdır. Lakin, əgər bütün satıcılar bazarda qiyməti aşağı salarsa, onda satışın həcmi son dərəcə cüzi artacaq,

mənfəət isə aşağı düşəcək, çünki hər əmtəə vahidinə görə daxilolmalar azalacaqdır.

Firmanın rəhbərliyi öz başlıca əmtəəsinə qiymətin artırılması mümkünlüyünü nəzərdən keçirir. Bazarın və istehlakçı tələbinin tədqiqatı göstərir ki, istehlakçıların fikrincə əmtəə firmanın qoyduğu qiymətdən xeyli yüksək qiymətə dəyər . Bu halda qiymətlərin yüksəlməsi satış həcminin cüzi ixtisarına səbəb olur. Bazardakı bu cür tələb növü çox vaxt **«qiymətlərə qeyri-həssaslıq» və ya əmtəə qiymətinin qeyri-elastikliy**i adlanır – qiymətlərin dəyişməsi satışın həcmində əhəmiyyətli dəyişikliklərə səbəb olmur.

Bəzən satışın həcmi qiymətin yüksəldilməsi halında xeyli artır. Tələbin tamamilə qeyri-elastik olmasının oxşar variantı o zaman meydana çıxır ki, əgər əmtəələrə daha yüksək qiymət təyin edilmişdirsə, alıcılar onu daha yüksək qiymətləndirsin və keyfiyyətini daha yüksək qəbul etsinlər. Ona daha yüksək qiymət təyin edirlər. Ona görə də yüksək qiymətli əmtəələr çox vaxt xüsusi cazibədarlığa malik olurlar, məsələn dəbdəbəli avtomobil modelləri, su samuru xəzindən hazırlanmış kürklər və s. kimi. Alınacaq əmtəələrə yüksək qiymətlər ona görə «zəruri» ola bilər ki, alıcının şəxsi adı ən yaxşı doktor, analitik, məsləhətçi kimi xüsusi olaraq nəzərə çarpdırılsın. Bu cür bazarlarda qiymətlərin artması ilə, həm satış həcminin artırılmasından, həm də daha yüksək mənfəət səviyyəsindən gələn məcmu müsbət səmərənin əldə olunmasına görə mənfəət xeyli yüksəlir.

Bu məsələyə baxarkən, əlavə olaraq aşağıdakıların nəzərdən keçirilməsi böyük maraq doğurur. Tələb və təklifin balanslaşdırılması şəraitində orta dünya ictimai zəruri əmək xərclərinin formalaşmasında əsas rolu – dünya bazarında həmin əmtənin daha iri malgöndərəni olan ölkədə mövcud əmək xərcləri oynayır. Əgər tələb təklifi ötüb keçirsə, onda qiymət əmtəənin daha pis şəraitdə istehsal olunduğu ölkənin qiymətinə görə müəyyən edilə bilər. Dünya bazarının aşağı konyunkturu şəraitində, yəni tələb təklifdən aşağı olduqda qiymət daha yaxşı istehsal şəraitinə malik ölkəyə görə müəyyən oluna bilər.

Deməli, dünya ticarətində əksər əmtəə kütləsinə beynəlmiləl qiymət istehsal şəraiti ilə müəyyən olunur.

Yekun olaraq bir az da tələb və təklif münasibətləri vasitəsilə satıcılar və alıcılar arasında qarşılıqlı fəaliyyətin bazar mexanizmi haqqında məlumat verək.

Tələb və təklif qanunu əmtəənin istehlak və mübadilə dəyərləri arasında, əmtəə və pul arasında, alıcı və satıcı arasında münasibətləri ifadə edir. İstehsalçılar və istehlakçılar, ümumiyyətlə, digər ticarətçi şəxslər tərkibində təmsil oluna bildiyinə baxmayaraq bu qanun həm də onlar arasında münasibətləri əks etdirir. Hər bir sahədə xeyli sayda qeyri-asılı istehsalçıların və müvafiq olaraq bazarda qeyri-asılı satıcı və alıcıların mövcudluğu azad rəqabət üçün tipik sayılır. Heç bir istehsalçı və ya alıcı ümumi tələb və təklifin kəmiyyətinə təsir göstərə bilməz. Satıcılar və alıcılar bir-birindən keyfiyyətinə görə az fərqlənən eynicinsli əmtəələrlə iş görürlər. Əmtəə və pul sahibliyindən başqa, bazara çıxış üçün heç bir digər məhdudiyyət yoxdur. Hər bir alıcı və ya satıcı qiymətə ondan asılı olmayan məlumatlar kimi baxırlar. Öz mənafeyinin reallaşmasına çalışmaqla satıcı maksimum mənfəət, alıcı isə öz ehtiyaclarının ödənilməsini axtarır.

İnkişaf etmiş kapitalist ölkələrində dəyərin reallaşmasının müasir sistemi bütün əsas əlamətlərinə görə azad rəqabət dövründən fərqlənir. Bununla yanaşı, o, həm də bazar olaraq qalmaqda davam edir. Tələb və təklif nisbətləri qanunun təzahürü dövlət-inhar kapitalizmi şəraitində öz şəklini xeyli dəyişmişdir. Əmtəələrin istehlak və mübadilə dəyərləri arasında qarşılıqlı əlaqə daha möhkəm olmuşdur. Mübadilə dəyəri (qiyməti) böyük ölçülərlə dəyərdən kənarlaşır. Ona görə də elə hallar olur ki, heç bir ictimai faydalılığa malik olmayan, istehlak xassələrinə görə insan və cəmiyyət üçün açıq aşkar zərərli olan əmtəə, bazarlarda istehsalçıların və ticarət vasitəçilərinin firavanlığı üçün maksimum mənfəətli olur.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Dünya bazar qiymətlərinin əsasını nə təşkil edir?
2. Beynəlxalq əmək bölgüsü və onun növləri hansılardır?
3. Dünya bazarında qiymətin əmələ gəlməsi prosesləri nə ilə tənzimlənir?
4. Dünya bazarının tutumluğu necə müəyyən olunur?
5. Dünya ticarətinin inkişafına kömək edən təşkilatlar hansılardır?
6. Beynəlxalq ticarət birlikləri və təşkilatları göstərin?
7. Müqayisəli üstünlük qanunu və onun dünya ticarətində əhəmiyyəti nədən ibarətdir?
8. İxrac və idxal kvotası necə hesablanır?
9. İdxal kreditləri və idxal mükafatlarının əhəmiyyəti nədər ibarətdir?

## TESTLƏR

**1. Dünya bazar qiymətlərinin əsasını nı təşkil edir?**

A) milli dəyər;

B) beynəlxalq dəyər;

C) istehsal qiyməti;

D))beynəlxalq istehsal qiyməti.

E) istehlak dəyəri

**2. Dünya bazarında qiymətin əmələ gəlməsi prosesləri nə ilə tənzimlənir?**

A) transmilli korporasiyalar siyasəti ilə;

B))beynəlxalq dəyərlə;

C) dünya bazarında rəqabət ilə;

D) dəyər qanunu ilə;

E) pul tədavülü qanunu ilə

**3. Dünya bazar qiymətlərinin aşağı düşməsi tendensiyasının səbəbi nədir?**

A)) beynəlxalq inteqrasiyanın genişlənməsi;

B) texniki tərəqqi;

C) istehsal qüvvələrinin inkişafı;

D) dünya bazarında qiymət əmələ gətirən proseslərin xüsusiyyətləri.

E) dəyər qanunu ilə.

**4.Aşağıdakılardan hansı beynəlxalq əmək bölgüsüdür?**

A) Dövlətlərarası mal və xidmətlərə mübadiləsi;

B)) Ayrı-ayrı dövlətlərin müxtəlif əmtəə və xidmətlərin istehsalında ixtisaslaşması;

C) Dünya təsərrüfatının inkişafının qanunauyğun nəticəsi;

D) dünya ticarətinin inkişafının nəticəsi;

E) daxili bazarın müdafiəsi tədbiri.

**5. Dünya bazarının tutumluluğu müəyyən olunur:**

A) Dünya bazarında tələblə təklifin nisbətilə;

B) Əmtəə satışının həcmi ilə;

C)) Milli istehsalın həcmi üstəgəl idxal çıxaq ixrac;

D) Milli gəlirin dinamikası ilə, dövlətin alıcılıq qabiliyyətinin səviyyəsi ilə;

E) «b» və «c» bəndləri.

**6.Dünya ticarətinin inkişafının aparıcı qüvvəsi nədir?**

A) Beynəlxalq əmək bölgüsü;

B) Beynəlxalq inteqrasiya prosesi;

C)) Müqayisəli üstünlük prinsipi;

D) Dünya bazarına dəyər qanununun təsiri;

E) Proteksionizm siyasəti.

**7. Dünya ticarətin inkişafına kömək edən təşkilat hansılardır?**

A) Avropa iqtisadi Birliyi

B) Beynəlxalq Valyuta Fondu

C)) Ümumdünya Ticarət Təşkilatı

D)Neft ixracatı ölkələrinin təşkilatı

E)Beynəlxalq Yenidənqurma və inkişaf Bankı.

**8. Aşağıdakılardan hansı dünya qiymətlərinin internasional dəyərdən uzaqlaşmasına səbəb olan faktorlara aid deyil?**

A) beynəlxalq bazarda monopoliya hökmranlığı;

B) inflyasiya;

C) valyuta kurslarının qeyri-sabitliyi;

D) məhsulun istehlak dəyəri;

E)) beynəlxalq əmək bölgüsü.

**9. Dünya bazarında tələb və təklif qanunun təsiri nəyin vasitəsilə təzahür edilir?**

A) dünya qiymətlərində istehlak dəyərinin uçotu vasitəsilə;

B) məhsulların istehlak və mübadilə dəyərləri arasındakı münasibət vasitəsilə;

C)) istehsalçı və istehlakçılar arasında münasibət  vasitəsilə;

D) dünya bazarında rəqabət faktoru vasitəsilə;

E) beynəlxalq əmək bölgüsü

**10. İxrac qiymətlərinin hesablanması üçün başlanğıc bazası aşağıdakılardan hansıdır?**

A) daxili bazar qiymətləri;

B) “qapalı” bazarların qiymətləri;

C)) müqavilə qiymətləri;

D) “azad” bazarların qiymətləri;

E) transfert qiymətləri.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:


1. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
2. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
3. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
4. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
5. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
6. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
7. Певшин Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
8. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
9. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
10. Лорин А.Н. Ценооброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
11. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
12. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.
13. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.

14. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
15. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.
16. Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992

# MÖVZU 2.
## DÜNYA BAZAR QİYMƏTLƏRİ SİSTEMİ

2.1. Dünya bazarında qiymətlərin növləri;
2.2 Müxtəlif qiymət növlərinin qarşılıqlı əlaqəsi
Özünü yoxlama sualları;
İstifadə olunan ədəbiyyat siyahısı və məlumat mənbələri;
Testlər.

### 2.1. DÜNYA BAZARINDA QİYMƏTLƏRİN NÖVLƏRİ

Dünya bazarında əlaqələrin müxtəlifliyi öz əksini qiymətlərin əmələ gəlməsində tapır. **Beynəlxalq ticarətdə qiymətlərin çoxluğu** dedikdə, eyni bir beynəlxalq ticarət mərkəzinə bərabər şərtlərlə (fraxt bazası, ödənmə forması, göndərmə müddəti və həcmi və i.a.) göndərilən eyni keyfiyyətli əmtəələrə səviyyəsinə görə müxtəlif, rəsmi şəkildə mətbuatda dərc olunan adi müntəzəm kommersiya sövdələşmələri qiymətlərinin təsir göstərməsi halı başa düşülür.

Müasir beynəlxalq ticarətdə qiymətlər çoxluğu iki qrupp amillərlə müəyyən edilir: 1) bazarlar və alıcıların kateqoriyaları üzrə differensiallaşan qiymətlər sistemini həyata keçirən inhisarın siyasəti ilə; 2) hökumət təşkilatları tərəfindən həyata keçirilən dövlət-inhisar tədbirləri ilə (ticarət-siyasi və valyuta), qeyri-kommersiya və digər xüsusi əməliyyatlarla.

Beynəlxalq trestlər, konsernlər və kartellər vasitəsilə ayrı-ayrı ölkələrin daxili bazarlarının, habelə xarici bazarların inhisarlaşdırılması, bazarların bölgüsü haqqında razılaşma, ticarətdə müxtəlif hökumət və yarımhökumət təşkilatlarının iştirakı – bütün bunlar müvafiq ticarət-siyasi və valyuta şərtləri ilə bərabər dünya kapitalist bazarında eyni əmtəələrə müxtəlif qiymətlərin yaranmasına gətirib çıxarır.

Dövlət-inhisar kapitalizminin güclənməsi beynəlxalq ticarətə, idxal və ixrac qiymətlərin səviyyəsinə və dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərir. Beynəlxalq dövlət borclarının və kreditlərin verilməsi, imperalist dövlətləri tərəfindən digər ölkələrə «yardımlar» edilməsi, xüsusi dövlət proqramlarının yerinə yetirilməsi, kənd təsərrüfatı məhsulunun daxili «artıqlarını» satmaq məqsədilə dövlət-inhisar təşkilatları tərəfindən əmtəələrin ixrac edilməsi, strateji ehtiyatların yaradılması üçün idxal əmtəələrinin iri həcmdə hökumət tədarükü və digər oxşar tədbirlər xarici ticarət əməliyyatlarının adi kommersiya sövdələşmələrindən fərqli həmin müqavilələrin öz xarakteri ilə şərtlənən xüsusi qiymətlər üzrə həyata keçirilməsi ilə nəticələnir.

Valyuta və xarici ticarət məhdudiyyətləri və ticarət-siyasi tədbirlər də dövlətlərarası ticarətdə böyük dəyişikliklər yaratmışdır. Həmin tədbirlər kliring razılaşmalarının genişlənməsinə gətirib çıxarmışdır. Bu əməliyyatlar isə bir sıra hallarda azad dönər valyutaya görə satış qiymətlərindən fərqlənən qiymətlər üzrə həyata keçirilir.

Müasir kapitalizm üçün səciyyəvi olan qiymətlər çoxluğunun meydana çıxmasında himayəçilik əhəmiyyətli rol oynayır. Gömrük maneələri, xüsusi ticarət-siyasi və valyuta zonaları beynəlxalq ticarətdə eyni bir əmtəəyə qiymətlərin differensiallaşmasına zəmin yaradır.

**Dünya bazarında xarici ticarət fəaliyyətini həyata keçirərkən aşağıdakı əsas qiymət növlərindən istifadə olunur:**

1) **FAC və ya FOB ixrac qiymətləri.** Bu qiymətlər üzrə, ixracatçı firma idxalçıya əmtəəni ya qiymətə gəmiyə qədər nəqliyyat xərclərini daxil etməklə (FAC), ya da gəmiyə yükləmə xərclərini daxil etməklə (FOB) satır;

2) **SİF idxal qiymətləri** özündə FOB qiymətlərindən başqa sığorta və yüklərin idxalçı və ya ixracatçı ölkələrin sərhədlərinə qədər daşınması xərclərini birləşdirir;
3) **Kontrakt qiymətləri** tərəflərin razılığına görə təyin edilir və bir qayda olaraq, müxtəlif ölkələrin hökumətləri arasında ticarət müqavilələri və razılaşmaları əsasında müəyyən edilir. Onlar müvafiq göndərmə və ödəmə şərtləri ilə müəyyən keyfiyyətli əmtəəyə həqiqi qiymət səviyyəsini əks etdirir. Lakin, adətən, kontrakt qiymətləri kommersiya sirrini ifadə etdiyindən onlar haqqında məlumat almaq bir o qədər də asan deyil. Bəzən bağlanmış müqavilələr, o cümlədən də xarici ticarət haqqında məlumatlar mətbuatda, xüsusi jurnallarda dərc olunsa da, bir qayda olaraq, həmin məlumatlarda sövdələşmələrin bir çox mühüm məqamları (məsələn, keyfiyyət göstəriciləri və s.) öz əksini tapır;
4) **Birjada təyin edilən qiymətlər, hərracların və ticarət təşkilatlarının qiymətləri.** Birjada təyin olunan qiymətlər əmtəə birjalarında ticarəti həyata keçirilən əmtəələrin (natural kauçukun, şəkər xammalının, pambığın, bəzi əlvan metalların və bir sıra digərlərin) qiymətləridir. Birjada təyin olunan qiymətlər keyfiyyəti, həcmi və göndərmə müddəti, ödəmə valyutaları və i.a. vahid şəklə salınmış şəraitdə həyata keçirilən real kontraktların qiymətləri sayılır. Birjada təyin edilən qiymətlər konyunkturanın dəyişməsinə həssaslıqla cavab verir, alverçiliyin və digər təsadüfi amillərin təsiri altına düşməyə meyllidir;
5) **İri firmaların təklif qiymətləri və faktiki sövdələşmələrin qiymətləri.** Təklif qiymətlərini, hər şeydən əvvəl, sorğu qiymətləri adlandırırlar. Belə ki, bu qiymətlər sövdələşmə bağlanarkən, bir qayda olaraq, aşağı düşən qiymətlərin plan səviyyəsini göstərirlər. Odur ki, faktiki sövdələşmə qiymətləri onların plan sorğu səviyyəsindən əhəmiyyətli dərəcədə fərqlənə bilər.
6) **Beynəlxalq sövdələşmələrdə iştirak edən ölkələrin daxili topdansatış qiymətləri.** Onlar ixrac və ya idxal qiymətlərindən gömrük rüsumları və vergilər həcmində fərqlənirlər.

Faktiki sövdələşmə qiymətləri daha dəqiq qiymət növü sayılır. Lakin onlar bir qayda olaraq mətbuatda dərc olunmurlar.

**Dünya qiymətlərini əmələ gəlməsi xarakterizə görə şərti olaraq «azad» bazar qiymətlərinə və «qapalı» bazar qiymətlərinə ayırmaq olar.**

**«Azad» bazar qiymətləri rəqabət şəraitindən və tələblə təklif arasında obyektiv şəkildə yaranan nisbətlərdən asılı olaraq formalaşır. Onlara məsələn, əmtəələrin satışı təşkil olunan yerlərin – hərracların, ticarət təşkilatlarının, birjaların qiymətləri aiddir.** Həmin ticarət formalarının qiymətləri əmtəənin satışı zamanı yaranan konkret şəraitdə eynicinsli məhsula görə müəyyən edilir. Belə ki, hərrac qiymətləri xəz malları bazarında fəaliyyət göstərir. Hərrac ticarəti əmtəə və ya predmetin dəst nömrəsinin və topdansatış qiymətin elan edilməsindən başlayır. İştirak edən alıcılar həmin əmtəə üçün müəyyən edilmiş qiymətdən aşağı olmayan qiymətə minimum əlavələr artırmaqla öz təkliflərini verirlər. Bəzi hərraclarda auksionçu başlanğıc olaraq ən yüksək qiyməti elan edir və sonra alıcılardan biri həmin əmtəəni müəyyən qiymətə almağa razılıq verənə qədər onu aşağı salır.

Ticarət təşkilatları sistemi maşın və avadanlıq bazarında xüsusilə geniş yayılmışdır. Həmin əmtəələrin kapitalist ölkələrindən inkişaf etməkdə olan ölkələrə göndərilməsi üzrə kontraktların dəyərinin 80%-ə qədəri ticarət təşkilatları arasında bağlanmış sövdələşmələrin payına düşür.

Təşkil olunmuş ticarət formalarının qiymətləri arasında ən geniş yayılanı birja qiymətləridir. Onlar taxıl, şəkər, dəri xammalı, pambıq, yun, kauçuk, ayrı-ayrı əlvan metalla rvə bəzi digər əmtəələrin ticarətində fəaliyyət göstərirlər. Birja qiymətləri – müvafiq əmtəə qiymətlərinin səviyyə və dinamikası haqqında mühüm və kifayət qədər etibarlı informasiya mənbəyidir. Birjada ticarət nəğd və ya ləngimədən göndərilən müqavilə bağlandıqdan sonra iki həftə ərzində əmtəə qiymətləri üzrə aparılır. Bundan başqa, birja əmtəələri təcili qiymətlər, daha doğrusu müəyyən vaxt dövrünə qiymətlər üzrə satıla bilər.

Əlvan metalların beynəlxalq ticarəti üzrə birja qiymətlərinə misal olaraq London metallar birjasının qiymət qoymasını göstərə bilərik.

Dünya ticarəti təcrübəsində **sorğu qiymətləri** geniş yayılıb. Onlar neft, neft məhsulları, kimyəvi mallar, qara metallar, ayrı-ayrı əlvan metal növləri və bəzi digər əmtəələr bazarında tətbiq olunur. Sorğu qiymətləri, sövdələşmə haqqında sənədlə qeyd olunan kontrakt qiymətlərini müəyyən edərkən alıcılar və satıcılar üçün çıxış nöqtəsi kimi çıxış edir, daha doğrusu, bu qiymətlər, qiymətlər haqqında mühüm rəsmi informasiya mənbəyini təmsil etməklə nominal xarakter daşıyır.Sorğu qiymətləri, bir qayda olaraq, əmtəələrin çox da böyük olmayan və orta partiyalarla göndərilməsində istifadə olunur və əmtəələrin göndərilməsi şərtlərindəki xüsusiyyətlər, o cümlədən kütləvi, iri seriyalı məhsullar, xüsusilə maşınqayırma məmulatları üzrə qoyulan partiyaların ölçüsünə görə güzəştlər nəzərə alınmaqla güzəştlərin, əlavələrin və i.a. müəyyən olunması üçün əsas təşkil edir. Beynəlxalq ticarət təcrübəsində ixrac və idxal olunan əmtəələr sorğu qiymətlərinin müəyyən edilməsi malgöndərən firmalar tərəfindən çap olunmuş şəkildə (preyskurantlar formasında) və xüsusi bildiriş formasında yayılmışdır.

**«Azad» bazar qiymətlərindən fərqli olaraq «qapalı» bazar qiymətləri çatıcılar və alıcılar arasında müəyyən spesifik münasibətlərdə formalaşır. Bu zaman müəyyən əmtəəyə obyektiv olaraq əmələ gəlmiş tələb və təklif arasındakı nisbət, qiymətlərə əhəmiyyətli təsir göstərmir. «Qapalı» bazar qiymətlərinə firmadaxili ticarət qiymətlərini, regional iqtisadi qruplaşmaların qiymətlərini və xüsusi preferensial (imtiyazlı) razılaşma qiymətlərini aid etmək olar.**

**Firmadaxili ticarət (transfert) qiymətləri** kapitalist və inkişaf etməkdə olan ölkələrin təsərrüfat dövriyyəsində, o cümlədən beynəlxalq inhisarlar çərçivəsində əmtəə və xidmətlərin mübadiləsi zamanı geniş inkişaf tapmışdır. Transfert qiymətlərinin tətbiq sferasının genişləndirilməsinin obyektiv əsası istehsal kooperasiyasının inkişafı sayılır. Bir qayda olaraq, həmin qiymətlər haqqında məlumatlar məhduddur, onlar kommersiya sirrini təşkil edirlər, onların səviyyələri və nisbətləri isə ayrı-ayrı hissələr şəklində göndərilən məhsulların qiymətlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Ayrı-ayrı hissələr şəklində göndərilən məhsulların qiymətləri, qiymətləndirməyə görə 3-4 dəfə yüksəkdir.

Müharibədən sonrakı dövrdə kapitalist ölkələri, hamıdan əvvəl isə bəzi Qərbi Avropa dövlətləri arasında inteqrasiya prosesləri nəticəsində **kapitalist bazarının regional qiymətləri** geniş yayılmışdır. Həmin qiymətlərə bu və ya digər qruplaşmadan olan ölkələr arasında təşəkkül tapmış münasibətlər böyük təsir göstərir. Regional qiymətlər AİB ölkələri arasında taxıl, şəkər və bəzi digər məhsul növləri üzrə ticarətdə fəaliyyət göstərir. Bir qayda olaraq, onlar «azad» bazar qiymətindən yüksək olurlar, çünki bu qiymətlərin köməyilə region çərçivəsində bəzi əmtəələrin istehsalının stimullaşdırılması həyata keçirilir.

**Preferensial qiymətlər** müəyyən əmtəələrin göndərilməsi haqqında hökumətlərarası razılaşmalara görə qoyulur ki, burada da «azad» bazar qiymətlərindən fərqlənən xüsusi göndərmə şərtləri və reallaşdırma qiymətlərinin kəmiyyətləri öz əksini tapır.

Dünya bazar qiymətlərinin növləri arasında xüsusi yeri uzunmüddətli kontrakt qiymətləri tutur. Bir tərəfdən, onların müəyyənləşdirilməsi zamanı tələb və təklif nisbətlərinin vəziyyəti və dəyişmə perspektivləri nəzərə alınır. Digər tərəfdən, bu cür kontraktları bağlayarkən, tərəflər öz aralarında mövcud olan xüsusi münasibətlərə istinad edirlər və məsələn, məhsul istehsalının maliyyələşdirilməsində alıcının iştirakı mümkünlüyünü nəzərdə tuturlar. Yekun sövdələşmə qiyməti sayılan kontrakt qiyməti haqqında məlumatlar – xarici ticarət qiymətləri haqqında daha etibarlı informasiya sayılır.

## 2.2 MÜXTƏLİF QİYMƏT NÖVLƏRİNİN QARŞILIQLI ƏLAQƏSİ

Fəaliyyət xarakterinə, habelə ticarətin müxtəlif forma və şərtlərinin predmeti sayılan səviyyələrinə görə qiymətlərin müxtəlifliyi ilə əlaqədar olaraq belə bir problem meydana çıxır ki, beynəlxalq ticarətdə müraciət olunan əmtəə qiymətlərindən məhz hansılarını dünya qiymətləri hesab etmək olar.

Beynəlxalq ticarət təcrübəsinə əsaslanaraq **dünya qiymətini xarakterizə edən aşağıdakı beş əsas əlaməti** ayırmaq olar:

1. **Bu. Beynəlxalq ticarətdə iri müntəzəm sövdələşmələrin qiymətləri olmalıdır.**
2. **Həmin sövdələşmələr xüsusi deyil, kommersiya xarakteri daşımalıdır.**
3. **Sövdələşmələr azad dönər valyutaya görə bağlanmalıdır.**
4. **Sövdələşmələr ya ixrac, ya da idxal istiqamətli olmalıdır.**
5. **İxrac və ya idxal əməliyyatları azad rejiminə malik bazarlarda baş verməlidir, daha doğrusu, elə bir şəraitdə ki, istənilən satıcı (alıcı) bu bazarda sövdələşməni başa vura bilsin.**

Dünya qiymətlərinin müəyyən olunmasında qarşıya çıxan çətinliklərə baxmayaraq, hər bir əmtəə üzrə elə qiymətlər seçmək olar ki, onlar müasir beynəlxalq ticarət üçün daha nüfuzlu sayılmaqla dünya qiymətləri anlayışına uyğun olsun.

**Konkret bazar şəraitindən asılı olaraq aşağıdakılar dünya qiymətləri sayılır:**

**- əsas ixracatçı ölkələrin sərbəst dönər valyutasında ifadə olunan ixrac qiymətləri;**

**- müvafiq valyuta rejiminin mövcudluğu şəraitində xammalın əsas ixracatçıları sayılan inkişaf etməkdə olan ölkələrdən daşınan xammalın qiymətləri;**

**- iri Qərbi Avropa bazarlarının idxal qiymətləri.**

Bəzi məhsullar üçün bu, ən mhüm ixracatçı və idxalatçı ölkələrin qiymətləri, digərləri üçün isə birjaların, auksionların və digər iri beynəlxalq ticarət mərkəzlərinin qiymətləridir. Məsələn, alüminium üzrə bu, Kanadanın ixrac qiymətləri, kauçuk üzrə Sinqapur birjalarının qiymətləri, xəz malları üzrə Nyu-York və London auksionlarının qiymətləridir və s.

Müasir şəraitdə dünya qiymətləri praktiki olaraq müəyyən əmtəə üzrə əsas malgöndərənlərin ixrac qiymətləri və həmin əmtəənin ən mühüm idxal mərkəzlərində idxal qiymətləridir. Hər iki halda sərbəst dönərli valyuta ilə ödənilən adi müntəzəm iri kommersiya tipli müstəqil əməliyyatların qiymətləri nəzərdə tutulur.

Ən mühüm ticarət mərkəzlərində bu və ya digər əmtəənin idxal qiymətləri, yəni başlıca olaraq qərbi Avropa limanlarının KAF və SİF qiymətləri üstünlüyə malikdirlər, çünki onların vasitəsilə ayrı-ayrı malgöndərənlərin əmtəənin təyinat yerinə çatdırılması ilə bağlı müxtəlif nəqliyyat məsrəflərini əks etdirən müxtəlif kəmiyyətli FAB ixrac qiymətləri bərabərləşdirilir. Məhz ixracat yüklərinin əsas axınları gedən, müxtəlif ölkələrin ixracatçıları və idxalatçıları görüşən İngiltərənin və qitənin beynəlxalq əhəmiyyət kəsb edən birjalarında əmtəənin keyfiyyət və digər xüsusiyyətlərindən asılı olan dünya qiymətlərinin bütöv şkalası konkret olaraq formalaşır.

Xeyli dərəcədə eynicinsli və standartlaşdırılmış xammal əmtəələri haqqında söhbət gedərkən müasir dünya qiymətləri haqqında məsələ nisbətən sadələşir. Bazarlarda müxtəlif keyfiyyət və digər xarakterik xüsusiyyətlərlə təqdim olunan sənaye məmulatlarının, xüsusən də maşın və avadanlıqların dünya qiymətləri haqqında məsələ daha mürəkkəb əşraitdə həll olunur. Lakin bu sahədə də alıcı, ona müxtəlif ölkələrdə təklif olunan maşınların müxtəlif şəkilli konstruksiya xüsusiyyətlərinə baxmayaraq, onların qiymətlərini müqayisə edir və müvafiq təhlil yolu ilə hansı avadanlığın özünə daha çox uyğun və daha ucuz başa gəldiyini müəyyən edir. Buna oxşar təhlili satıcı, satış qiymətinin müəyyən olunmasından qabaq aparır. Bu zaman güc vahidinə, məhsuldarlığa və digər parametrlərə görə hesablanmış xüsusi çəki qiymətləri böyük əhəmiyyət kəsb edirlər.

Konstruktiv, texniki-iqtisadi və digər göstəricilərə görə fərqlənən maşın və avadanlıqlar bazarında dünya qiymətləri dedikdə, dəqiq müəyyən edilmiş xarakteristikaya malik həmin maşın tipii və növü üzrə ən mühüm malgöndərən firmaların ixrac qiymətləri başa düşülür. Hər bir ixracatçı maşınları alıcılarla razılaşdırılmış qiymətlərə satsa da, onların əsasında satıcı və alıcı üçün ən vacib meyar sayılan avadanlığın dünya qiymətləri duyur.

Dövlət – inhisarçı kapitalizminin müasir inkişaf mərhələsində bazarda hakim qiymətlər anlayışı iri kommersiya əməliyyatları nəticəsində yaranan daha nüfuzlu bazar qiymətləri ilə əvəz olunur.

Müəyyən olunmuş qiymətlərdən müxtəlif ölçülü güzəştlərin verilməsi ilə şərtlənən bazar və alıcı kateqoriyaları üzrə differensiallaşmış qiymətlər sisteminə inhisarların tətbiqi ilə əlaqədar olaraq güzəştlər tutulan bazis qiyməti dünya qiyməti sayılacaqdır. Lakin ayrı-ayrı sövdələşmələr bağlanarkən tətbiq edilən güzəştlərin dəqiq ölçüsünü müəyyən etmək çətinlik törədir. Yalnız güzəştlərin bütün mürəkkəb sistemini və ayrı-ayrı əmtəə qrupları və əmtəələr üzrə sorğu qiymətlərinə tətbiq edilən digər düzəlişlər aparmağı bilməklə bu və ya digər əmtəə bazarında bağlanacaq faktiki sövdələşmələrə uyğun gələn həqiqi qiymət səviyyəsini müəyyən etmək olar.

**Müasir təcrübədə güzəştlərin aşağıdakı əsas növləri tətbiq edilir:**

**- əmtəə alqısında nəğd hesablaşmalara görə, miqdarına və ya seriyalılığa görə;**

**- preyskurant qiymətlərindən ümumi güzəştlər (çünki preyskurant qiymətlər əsaəsn xırda topdansatış ticarət üçün əvvəlcədən təyin edilir);**

**- diler güzəştləri (satış üzrə daimi nümayəndələrə və ya vasitəçilərə);**

**- xüsusi güzəştlər (sifarişlərinə satıcıların xüsusilə maraqlı olduğu imtiyazlı alıcı kateqoriyaları üçün);**

**- mövsümi güzəştlər və i.a.**

Satıcı əgər, əmtəənin satış qiymətini aşağı salmaq əvəzinə birbaşa güzəştlərin köməyilə alıcıya fraxt üzrə güzəştlər, imtiyazlı və ya faizsiz kreditlər verirsə. Pulsuz xidmətlər göstərirsə və s. onda açıq güzəştlər bəzən gizli güzəştlər kateqoriyasına keçir.

Kapitalist ticarətində praktiki olaraq heç bir sövdələşmə satıcının ilkin olaraq tələb etdiyi qiymətlər üzrə bağlanmır. Danışıqlar prosesində əldə edilən güzəştlərin miqdarı aşağıdakı amillərlə müəyyən edilir: konyunkturanın vəziyyəti ilə, malgöndərənin istehsal güclərinin yüklənməsi il əvə hətta ayrı-ayrı ölkələrdə qəbul edilmiş ticarət ənənələri ilə. Ticarət güzəştlərinin miqdarı həm də satıcı və alıcı arasındakı münasibətlərin xarakterindən asılıdır.

Qarşılıqlı əvəz olunan məhsulların rəqabətinin güclənməsi, tələb və təklif arasında əlverişsiz nisbətin yaranması, konyunkturanın ümumi pisləşməsi və s. ilə əlaqədar zəruriyyət yarandıqda, güzəştlər inhisarlara elan olunmuş qiymətlərdə asanlıqla düzəlişlər aparmaq imkanı verir.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Beynəlxalq ticarətdə qiymətlər çoxluğu və ona müəyyən edən amillər hansılardır?
2. Dünya bazarında hansı qiymət növlərindən istifadə olunur?
3. Kontrakt qiymətlər harada istifadə olunur?
4. Azad və qapalı qiymətlərin əsas xüssuiyyətləri və əhəmiyyəti nədən ibarətdir?
5. Məmulat və bazis məmulat qiymətlərini aydınlaşdırın?
6. Dünya qiymət növlərinin qarşılıqlı əlaqəsi və onun əsas əlamətlərini göstərin.

## TESTLƏR

**1. "Azad" bazar qiymətlərinə aşağıdakılardan hansı aid deyil?**

A) hərrac qiymətləri;
B) birja qiymətləri;
C)) regional iqtisadi qrupların qiymətləri;
D) torq qiymətləri
E) sabit qiymətlər

**2. "Qapalı" bazarlar qiymətlərinə aşağıdakılardan hansı aid deyil?**

A) firmadaxili ticarət qiymətləri;
B)) birja məzənnəsi;
C) regional iqtisadi qrupların qiymətləri;
D) xüsusi preferensial razılaşma qiymətləri.
E) inhisar qiymətləri

**3. Dünya qiymətlərinə aşağıdakılardan hansı aid deyil?**

A) FAC, FOB və CİF qiymətləri;
B) müqavilə qiymətləri;
C) birja məzənnəsi, hərrac və torq qiymətləri;
D) iri firmaların təklif qiymətləri və faktiki sövdələşmə qiymətləri;
E)) daxili topdansatış qiymətləri

**4. Xarici iqtisadi əlaqələrdə liberallaşma tendensiyası:**

A)) Xarici iqtisadi əlaqaların inkişafına Mane olan müxtəlif maneələrin azalması;
B) İdxal və ixracın lisenziyalaşması;
C) İdxal və ixracın könüllü məhdudlaşdırılması;
D) Daxili bazarın xarici rəqabətdən müdafiəsi;
E) Daxili vergitutma və aksizlər.

**5. Müasir inflyasiyanın genişlənməsinə təsir göstərən "qeyri-pul" amillərinə nə aiddir?**
A) pul kütləsinin muxtariyyətli hərtəkatinə təsir göstərən amillər;
B) pul tədavülünün tezləşməsinə təsir göstərən amillər;
C) məhsul dövriyyəsindən nisbətən aslılı olmayan amillər;
D)) inkişaf etmiş ölkələrin iqtisadiyyatının inhisarlaşması;
E) aşağı qiymətlərlə mövsümi satışlar.

**6. Aşağıdakı komponentlərdən hansının dəyişməsi pul vahidinin qiymətdən düşməsinə təsir göstərə bilər?**
A)) məhsul və xidmətlərin qiymətlərinin məcmusu;
B) pul vahidi tədavülünü;
C) kreditin faiz dərəcəsi;
D) aksept ödəmələrin xüsusi çəkisi;
E) işsizliyin səviyyəsi.

**7. Müqavilə qiymətləri aşağıdakılardan hansından asılı olaraq möhkəm, hərəkətli və sürüşkən qiymətlərə bölünür?**
A) qiymətlərin hesablanması metodundan;
B) məhsulun çatdırılması şərtindən;
C)) qiymətlərin təsbit olunma üsulundan;
D) kommersiya düzəlişlərinin daxil edilməsi metodundan.
E) təsdiq edilmə metodundan.

**8. Kommersiya düzəlişləri nəyin hesabına müqavilə qiymətlərinə daxil olur?**
A) kəmiyyət, seriyalılıq, məhsul dövriyyəsi, ödəmə şərtlərinin hesabına;
B) məhsulun çatdırılması şərti hesabına;
C) öz daimi agentləri və satış üzrə başqa vasitəçiləri olan istehsalçılar hesabına;
D)) məhsulun sınaq partiyaları və sifariş;
E) satış mövsümündə olmayan əmtəənin alınmasına verilmiş firmadan əvvəllər alınmış köhnə əmtəənin qaytarılmasına.

**9. Daxili bazardakı satış qiymətlərindən fərqli olaraq, ixrac qiymətlərinə aşağıkılardan hansı daxildir?**
A) Başlanğıc maya dəyəri;
B) Kalkulyasiya edilmiş mənfəət;
C) Başqa ölkəyə çatdırılma ilə əlaqədar əlavə xərclər;
D) Gömrük rüsumları.
E)) Nəqliyyat xərcləri.

**10. Diler güzəştləri nədir?**
A) Satıcılar tərəfindən daxili bazarın alıcıları üçün fəaliyyət göstərən güzəştlərdən yüksək olaraq əcnəbi alıcılara əmtəə satışı zamanı təqdim olunan güzəştlərdir;
B) Sifariş və məhsulların sınaq partiyalarına olan güzəştlərdi;
C) Həmin firmadan yeni məhsul almaq şərtilə əvvəlcədən alınmış köhnə məhsulu firmaya geri qaytararkən olan güzəştlərdir;
D)) İstehsalçıların öz daimi agentlərinə və satış üzrə digər vasitəçilərinə təqdim etdiyi güzəştlərdir;
E) Məhsul hərəkəti kanalları üzrə xüsusi güzəştlərdir.

**11. Xammal dünya bazarının differensiallaşdırılmasının əsas amilləri aşağıdakılardır:**
A) İnhisarlaşmış rəqabət;
B) İdxal və ixracın coğrafi təmərküzləşməsinin səviyyəsi;
C) Uyğun istehsalın inhisarlaşma səviyyəsi;
D) Xammalın hasilatı şərtlərinə nisbətində struktur dəyişmələrinin səviyyəsi;
E)) «a» və «b» bəndləri.

**12. FOB və SİF şərtlərində qiymətlər fərqləndirilir**
A) Ticarət əlavəsinin kəmiyyəti qədər;

B)) Nəqletmə xərclərinin kəmiyyəti qədər;
C) Ödəniş şərtləri ilə;
D) Gömrük rüsumu ödənişinin kəmiyyəti qədər;
E) Bazar şərtləri ilə.

**13. Dünya bazarında texnoloji biliklər digər əmtəələrdən seçilir:**

A) İstehsalın böyük serialılığı ilə;
B) Mənəvi köhnəlməninin aşağı tempi ilə;
C)) Texnoloji biliklərin yaranmasına əməyə istifadə olunan istehsal vasitələrinin dəyəri əlavə olunmur və bu biliklər tətbiq olunan müəssisənin son məhsulunun dəyərinə daxil edilmir;
D) İstehsalın ərazi bölgüsü;
E) Mənəvi köhnəlmənin yüksək tempi.

**14. Royaltinin hesablanmasının ən geniş yayılmış metodu hansıdır?**

A) "Xərclər+mənfəət" metodu;
B) Tam xərclər metodu;
C) Ekstrapolyasiya metodu;
D) Ümumi məhsul dövriyyəsi dəyərindən faizlə;
E)) Lisenziyalı məhsulun satış dəyərindən faizlə;

**15. Royalti dərəcəsi necə müəyyən edilir?**

A) İllik royaltilərin toplanması ilə;
B) Əldə olunmuş gəlirə əsaslanan ayrı-ayrı sövdələşmələrin dəyərlərinin vurulması ilə;
C)) İllik royalti məbləğinin dolayı vergilər və yığımlar çıxılmaqla xalis satışın illik dəyərinə nisbəti ilə;
D) Hazırkı müddətə olan razılaşma fəaliyyəti dövrünə olan sahibkara ödənilmiş texnologiyalar, royaltinin ümumi məbləğinin hasilinin məbləği kimi;
E) Pauşal toplam ilə.

**16. Royalti dərəcəsinin formalaşmasının korrektə edən amillərinə nə aid edilmir?**

A) İstehsal və kommersiya riskinin dərəcəsi amili;
B)) İllik əlavə mənfəətin kəmiyyətini formalaşdıran amillər;
C) Alternativ texnologiya tərəfindən rəqabət amilləri;
D) Məhsul bazarının inhisarlaşdırılması;
E) Elmi-texniki tərəqqinin təsiri.

**17. Dünya bazarında texnologiyanın alışa məqsədyönlülüyü növbəti şərtlərin yerinə yetirilməsi ilə müəyyən olunur:**

A) Texnologiyanın qiyməti onun istehsalına sərf olunan xərclərə bərabər olmalıdır;
B) Royaltinin həcmi texnologiyanın kommersiya mənimsəməsinə xərclərin artımı ilə düz mütənasibdir;
C) Müəyyən bazarda texnologiyanın istifadə hüququna məxsusi sahiblik;
D)) Texnologiyanın qiyməti alternativ variantda kapital qoyuluşunun minimal fərqinə və onun kommersiya çatdırılmasına texnologiyanın istehlakçı məsrəflərinə bərabər və yaxud artıq olmalıdır;
E) Royalti dərəcələri dolayı vergilərin və yığımların çıxılması ilə xalis satışın illik dəyərinə bərabər olmalıdır.

**18. Texnoloji biliklərin dünya bazarında istehlakçısı uzunmüddətli vaxt dövründə ilkin əlavə mənfəətin səviyyəsinin saxlanması zəmanətinə malikdir.**

A) Rəqabətli texnologiyaların üstün müqayisəsi və yaxud bərabər qiymətliliyini bazara təqdim etmə qabiliyyətinə malik bir neçə satıcıların mövcudluğu halında;
B) Patentlərlə mühafizə olunmayan texnoloji qərarların və işləmələrin yüksək payında;
C)) Ancaq texnologiyanın müəyyən bazarda istifadəsinə istisna hüququna malik olmaqla;
D) Texnoloji biliklərin və işləmələrin alternativ növləri tərəfdən rəqabətin kəskinləşməsi;
E) Elmi texniki tərəqqinin sürətlənməsi şəraitində.

**19. Dünya bazarında yeni texnologiyanın yayılması halında:**
A) Faktiki əlavə mənfəət hesablama ilə müqayisədə artacaqdır;
B)) Faktiki əlavə mənfəət hesablama ilə müqayisədə azalacaqdır;
C) Yeni əlavə mənfəətin bazarı tam tutmasının son həddi halında faktiki əlavə mənfəət həmçinin onun hesablama nisbəti kimi sıfıra yaxınlaşacaqdır;
D) İstehsalın tənəzzülü olacaqdır;
E) Tələb artacaqdır.
**20. İxrac kalkulyasiyasının daxili kalkullyasiyadan fərqli xüsusiyyətinə aid deyil:**
A) Nəqliyyat xərcləri
B) Maliyyələşmə xərcləri
C)) Əmtəənin sığorta məsrəfləri
D) Qablaşdırma məsrəfləri
E) Reklam xərcləri
**21. Nou-Hau bu:**
A) Kommersiya əlavələrinin və güxəştlərinin formasıdır;
B) Vergi növüdür;
C) Qiymətdə nəqliyyat məsrəflərinin uçotu metodudur;
D)) Texnoloji biliklərin tətbiqinə müvəqqəti hüquqdur;
E) Göstərilən xidmətlərin qiymətidir.
**22. Royalti nədir?**
A) Kredit dərəcəsidir;
B) Vergi tutulmalarıdır;
C)) Razılaşma fəaliyyəti müddəti ərzində texnoloji bilik istehlakçılarının gəlirlərindən illik tutulmalardər;
D) Məhsul həcmində yeni texnologiyanın istifadəsindən olan istehsal payıdır;
E) İstehsal xərclərinə qənaətin ölçüsüdür.
**23. Texnologiyanın qiyməti nə ilə hesablanır?**
A)) razılaşmanın fəaliyyət göstərdiyi dövr ərzində istehlakçıların gəlirlərindən illik ayırmalar ilə;
B) texnoloji biliklərin istehsalına çəkilən maddi və əmək xərclərinin dəyəri ilə;
C) xərclənmiş resursların və mənfəətin dəyəri ilə;
D) mənfəət və vergi dərəcələrini, maya dəyərini ilə;
E) Topdansatış qiymətləri və ticarət əlavələri ilə.
**24. Dünya bazarında biliklərin ötürülürməsi həyata keçirilir:**
A) Patentlərin istifadəsinə liseziyaların satışı vasitəsilə;
B) Texnologiyaların satışı vasitəsilə;
C) Birgə elmi tədqiqat işlərinin vasitəsilə;
D) Lisenziyalaşmayan nou-haunun satışı vasitəsi;
E)) «a» və «d» bəndləri
**25. Texnoloji biliklərin faydalılıq göstəricilərinin ümumiləşdirilməsinə xidmət edir:**
A) İstehlakçı səmərəsi;
B) Vəsaitlərin qənaət ölçüsü;
C)) Mövcud sahə üzrə adi orta ilə müqayisədə əlavə gəlirlərin həcmi;
D) İstehsal gücünün artırılması;
E) Əmək məhsuldarlığının artırılması.
**26. Aşağıdakılardan hansı texnologiyanın yaranması üzrə əmək xərclərinin əvəz olunması mənbəyi kimi çıxış edir?**
A) Yeni istehsala qoyulan investisiyalar;
B) Normal sahibkarlıq mənfəəti;
C)) Yeni texnologiyanın istifadəsi hesabına adi, orta mənfəətə nisbətdə artma kimi çıxış edən və verilmiş müəssisə tərəfindən əldə olunan mənfəətin bir hissəsi;

D) Yeni texnologiyanın istifadəsi ilə istehsal olunan məhsulun reallaşdırılmasından əldə olunan ümumi məcmu gəlir.
E) Texnologiyanın topdansatış qiyməti.

**27. Texnoloji biliklərin hüqiqi qiyməti nədən asılıdır?**
A) Rəqabətin dərəcəsindən;
B) İstehsalın (satışın) həcmindən;
C) Yeni texnologiyanın tətbiqi zamanı istehsal xərclərinə qənaətin ölçüsü;
D) Yeni texnologiyanın istifadəsi ilə məhsul həcmində istehsal payı
E)) «b», «c», «d» bəndləri.

**28. Pauşal məbləğ aşağıdakının əsasında müəyyən edilir**
A) İllik xalis satış dəyərindən faizlə hesablanmış illik royalti
B) t ilində ödənilməli olan royaltini t ili üçün diskontlaşdırma əmsalına vurmaqla;
C)) t ilində ehtimal olunan royaltinin diskontlaşdırma dəyərindən məbləği
D) Əlavə mənfəət payını texnologiya istehlakçısının çevrilmiş əlavə mənfəətə vurmaqla
E) «a» və «c» bəndləri əsasında

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT


1. Герчикова И.Н. маркетинг и международное коммерческое деолololo. М., Внешторгиздат, 1991
2. Левшин Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990
3. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюектура и цены. М., Международные отношения, 1987.
4. Липсиц И.В., Коссов В.В. Инвестиционный проект, методы подготовки и анализа. И., ББК, 1996.
5. Лорин А.Н. Ценообразование во внешнеэкономической деятельности промышленной фирмы. М., Международные отношения, 1993.
6. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
7. Основы предпринимательской деятельности. Под ред. В.М.Власовой. М., Финансы и статистика. 1996.
8. Портер М. Международная конкуренция. М., Международные отношения. 1993.
9. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
10. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.
11. Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б.Рычкова. М., Прогресс, 1992.
12. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov və başqaları. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı, 1997.
13. И.Ш.Караев, Ш.А.Агабеков. И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку . 1999.

# Mövzu 3.

## BEYNƏLXALQ TİCARƏTDƏ QİYMƏTLƏRİN DİNAMİKASI

3.1. Qiymətlərin dinamikasını müəyyən edən iqtisadi amillər;

3.2. Dünya ticarətində qiymət indeksləri;

3.3. Beynəlxalq ticarətdə bazar qiymətləri dinamikasının təhlili;

Özünü yoxlama sualları;

İstifadə olunan ədəbiyyat siyahısı və məlumat mənbələri; Testlər.

## 3.1.QİYMƏTLƏRİN DİNAMİKASINI MÜƏYYƏN EDƏN İQTİSADİ AMİLLƏR

Dünya qiymətlərinin formalaşması və dinamikasının qanunauyğunluqları və xüsusiyyətləri təkcə əsas ixracatçı ölkələrin istehsal şəraitinin dəyişməsi ilə deyil, həm də başlıca idxalat ölkələrinin tələbatının dəyişməsi ilə əlaqədar amillərin fəaliyyət spesifikası ilə şərtlənir. Müxtəlif əmtəələrin və əmtəə qruplarının dünya qiymətlərinin dinamikası bütöv bir sıra qiymətəmələ gətirən amillərin mürəkkəb, bəzən isə ziddiyyətli təsirinin nəticəsi sayılır. Həmin amillər içərisində aşağıdakları əsas saymaq olar:

- İctimai-zəruri əmək məsrəflərinin dəyişməsi, daha doğrusu, beynəlxalq mübadilə sferasında dövr edən əmtəələrin dəyərinin dəyişməsi (dəyər amili);
- Tələb və təklif nisbətlərinin dəyişməsi (konyunktura amili);
- Beynəlxalq ticarət sahəsində kapitalist dövlətlərinin iqtisadi siyasəti (dövlət-inhisar tənzimlənməsi amili);
- Valyuta bazarının vəziyyəti (valyuta-maliyyə amili);
- Dünyada hərbi-siyasi vəziyyət (siyasi amil).

Şübhəsiz ki, həmin amillər içərisində ilk iki amil qiymətlərin əmələ gəlməsində və dəyişməsində xüsusi rola malikdir ki, bu da aşağıdakı iki səbəblə bağlıdır.

Birincisi, qiymətlərin başlıca dəyişmələri, xüsusilə də uzunmüddətli dövrdə dəyişmələri qiymətlərin dəyər əsasını formalaşdıran istehsal xərclərindəki irəliləmələrlə, habelə dəyişməsi qiymətlərin istehsal xərclərindən kənarlaşmasına səbəb olan bazar konyunkturu ilə müəyyən olunur. İkincisi, digər amillərin qiymətə təsiri ya xərclr vasitəsilə, ya da tələb və təklif arasındakı nisbtlər vasitəsilə baş verir.

Dövlət-inhisar tənzimlənməsi amilinin qiymətə təsirini nəzərdən keçirək. Ayrı-ayrı hallarda qiymət kəmiyyətləri ya inhisarlar tərəfindən (kapitalın güclü təmərküzləşməsi və mərkəzləşməsi şəraitində), ya da dövlət tərəfindən (iqtisadiyyatın tənzimlənməsi funksiyası kimi) dəyişilə bilər. Əlavə olaraq inhisarlar və ya dövlət inzibati yolla qiymətin kəmiyyətini və onun dəyişmə həddinlərini müəyyən edə bilərlər və i.a. Təcrübədə qiymətlərin inzibati olaraq bu cür müəyyən edilməsi həmişə qısa vaxt ərzində həyata keçirilir ki, bu da qiymət kəmiyyəti ilə bazarın real iqtisadi şərtləri arasında ciddi ziddiyyətlərin əmələ gəlməsinə imkan vermir. Bundan başqa, qiymətlərin inzibati olaraq müəyyənləşdirilməsi zamanı (qiymət kəmiyyətinin, onun müəyyən edilməsi dövrünün, inzibati yolla müəyyən edilməsi formalarının seçilməsi) həm dövlət və həm də inhisarlar bazarın vəziyyətini, xərclərin hərəkət meyllərini nəzərə alırlar.

İndii isə son 20 il ərzində ayrı-ayrı amillərin qiymət dinamikasına təsirini təfsilatı ilə nəzərdən keçirək. Təhlil məlumatlarından aydın görünür ki, dinamikanın xarakterində və qiymət nisbətlərində daha böyük dəyişikliklər 70 - ci illərin ortalarında və 80-ci illərin ortalarında baş vermişdir.

70 – ci illərin ortalarında qiymətlərin dinamika və nisbətlərinin dəyişməsi kapitalizmin sosial-iqtisadi ziddiyyətlərinin kəskinləşməsinin nəticəsi sayılır ki, bu da beynəlxalq əmtəə dövriyyəsinə göndərilən əmtəələrin istehsal xərclərinin yüksəldilməsində, inflyasiyanın kəskin surətdə güclənməsində, energetika və valyuta-maliyyə böhranında, sənaye cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan kapitalist ölkələri arasında ziddiyyətlərin artmasında, bazarın dövlət-inhisar tənzimlənməsinin böhranında ifadə olunur.

Dünya ticarətində qiymətlərin artımı beynəlxalq mübadilənin iştirakçısı olan əsas ölkələrin daxilində baş verən proseslərlə sıx bağlıdır, əsas ixracatçı ölkələrin milli qiymətləri isə dünya bazar qiymətlərinin formalaşmasında əsas baza kimi çıxış edir. Bu bir daha təsdiq edir ki, dünya qiymətlərinin formalaşmasına və hərəkətinə təsir edən başlıca amil istehsal xərcləri sayılır.

Qiymətlərin əmələ gəlməsində əmtəə hazırlanmasına çəkilən xərclərin müəyyənedici rolu onunla əlaqədardır ki, istehsal xərcləri, bir qayda olaraq, istənilən qiymətin, o cümlədən dünya bazar qiymətinin strukturunda daha böyük xüsusi çəkiyə malikdir və odur ki, onların dəyişməsi bilavasitə qiymətlərin dinamikasında əks olunur.

Dünya qiymətlərində xərclərin ümumi yüksək payı olduqda konkret əmtəə qiymətlərində istehsal xərclərinin xüsusi çəkisi eyni olmur ki, bu da onların qiymətlərə müxtəlif təsirinin yaranmasına səbəb olur. Əgər biz deyək ki, xərclərin xammal və hazır məmulatlara təsirini təhlil etsək, onda görərik ki, ümumi qanunauyğunluq istehsal xərclərinin xammal əmtəələrinin qiymətlərinə nisbətən hazır məmulatların qiymətlərinə güclü təsirindən ibarət olacaqdır.

İstehsal xərcləri ilə, xammal əmtəələrinə nisbətən hazır məmulatların qiymətləri arasındakı böyük qarışılıqlı əlaqə hazır məmulatlara dünya qiymətlərinin daha sərbəst, sabit dəyişmələrin spesifikasını və xammal əmtəələrinə qiymətlərin sıçrayışlı hərəkətinin mümkünlüyünü qabaqcadan müəyyən edir. Qiymətlərin dəyişməsinin bu meyli 70-ci illər üçün də səciyyəvi idi.

Tələb və təklif arasındakı nisbətlərə qiymətlərin təsiri bazarda əmtəə kütləsinin dəyişməsi vasitəsilə onun əmtəə tələbatında və alıcıların tədiyyə qabiliyyətinin səviyyəsində irəliləmələrdən asılı olaraq artması və ya azalması yolu ilə baş verir. Aydındır ki, əmtəəyə olan tələbin dəyişməz qaldığı şəraitdə onların bazara göndərilməsinin genişləndirilməsi qiymətlərin səviyyəsinin aşağı düşməsinə səbəb olur, əmtəə kütləsinin dəyişməz qaldığı şəraitdə tələbin artması qiymətlərin yüksəlməsinə doğru aparır.

**Tələb və təklif arasındakı nisbətlərin qiymətlərə təsir miqyası rəqabətdən asılıdır. Rəqabət nə qədər güclü və bazar nə qədər azad olsa, onda həmin amilin qiymətə təsiri bir o qədər əhəmiyyətli olar. Əksinə, «qapalı bazar» və məhdud rəqabət şəraitində tələb və təklifin qiymətə təsiri zəifləyir.**

70-ci illərdə dünya qiymətlərinin hərəkətinə daha əhəmiyyətli təsiri yanacaq energetika probleminin kəskinləşməsi göstərmişdir. Onilliyin birinci yarısında başlayan yanacaq-xammal böhranı 70-ci illərin sonunda yeni qüvvə ilə meydana çıxdı.

70-ci illərdə yanacaq-xammal qruppu əmtəələrinə qiymətlərin artımı ilə eyni vaxtda inkişaf etmiş kapitalist dövlətləri hazır məhsul bazarında inkişaf etməkdə olan bir sıra ölkələrin (Braziliya, Argentina, Sinqapur, Qon-konq və s.) rəqabəti ilə üz-üzə qaldılar ki, bu da həmin əmtəə qrupuna qiymətlərin artım tempinin ləngiməsi ilə başa çatdı.

**Dövlət** tənzimlənməsi **tədbirləri dünya qiymətlərinin dinamikasına bilavasitə təsir göstərir**. Mövcud qiymətləndirmələrə görə, xarici ticarətin ümumi həcminin 40-50 %-inə və sənaye malları üzrə dünya ticarətinin 20%-nə yalnız qeyri-tarif tənzimlənməsi tətbiq olunur. Hesablamalar göstərir ki, qəbul olunan dövlət tədbirləri nəticəsində fransız və yapon firmalarının qiymət üzrə rəqabət qabiliyyəti 7-10%, ingilis firmalarının 5%, qərbi alman və Amerika firmalarının rəqabət qabiliyyəti 3%-dən çox artmışdır.

70-ci illərdə **dünya qiymətlərinin artma meylinə malik olmasının bir amili də inflyasiya proseslərinin kəskin surətdə güclənməsidir.** Dünya qiymətlərinə inflyasiyanın təsiri iki səbəblə bağlıdır. Birincisi, onun müxtəlif miqyasları və müxtəlif əmtəə qiymətlərinə təsiri ilə. İkincisi, onunla ki, daxili bazarlarda valyutaların qiymətdən düşməsi onların əvvəlki valyuta məzənnlərinin saxlanması şərti ilə baş verir. Əgər inflyasiyanın dərəcəsi ölkələr üzrə eyni, bütün əmtəələr üzrə bərabər olsaydı və yaxud da ayrı-ayrı valyutaların faktiki qiymətdən düşməsi valyuta məzənnələrinin eyni vaxtda aşağı düşməsi ilə müşaiyət olunsaydı, onda inflyasiya prosesləri dünya qiymətlərinə təsir göstərməzdi, çünki onda onlar sadəcə olaraq qiymət miqyasının ümumi dəyişməsini göstərirdilər.

Ölkələr üzrə qeyri-bərabər inflyasiyanın dünya qiymətlərinə təsiri hər şeydən əvvəl, ayrı-ayrı ölkələrin xarici ticarət dövriyyəsinin və bütün dnya ticarətinin strukturunda baş verən dəyişikliklər vasitəsilə həyata keçirilir. Böyük dərəcədə inflyasiya bürümüş ölkədə daxili qiymətlərin yüksəlməsi Milli istehsal xərclərinin və əmtəə dövriyyəsinin nisbətən artmasına səbəb olur və beləlilklə də dünya bazarında onların rəqabət qabiliyyətini aşağı salır. Bunun nəticəsində dünya bazarında müvafiq əmtəələrin tələb və təklifinin dəyişməsinə təsir göstərən ixrac azalır və idxal artır. Həm ixrac və həm də idxal olunan əmtəələr üzrə tələb, təklifi ötüb keçməyə başlayır. Yekun olaraq dünya qiymətləri əvvəlcə ölkənin xarici ticarət dövriyyəsinin nomenklatur əmtəələri üzrə, daha sonra isə digər əmtəələr üzrə artmağa başlayır.

Tələb və təklif arasında nisbətlərin dəyişməsi vasitəsilə təsirdən başqa, inflyasiya dünya qiymətlərinə həm də müəyyən əmtəələrin əsas malgöndərənlərinin istehsal xərcləri vasitəsilə təsir göstərir. Bu cür təsir müəyyən əmtəələr ixrac edən ölkələr üçün inflyasiya nəticəsində daxili qiymətlərin və xərclərin orta yüksəlişini əks etdirən ölçülərə uyğun gəlir. Beynəlxalq əmək bölgüsündə iştirak edən ölkələrin ixrac mallarının istehsal xərclərinin inflyasiyanın təsiri altında artması nəticəsində dünya qiymətini tənzimləyən xərclərin səviyyəsi yüksəlir və qiymətin özünün kəmiyyəti dəyişir. Dünya ölkələrində inflyasiya proseslərinin qeyri-bərabərliyi və bu ölkələrin müxtəlif məhsullarla beynəlxalq əmək bölgüsündə qeyri – bərabər iştirakı ayrı-ayrı dövlətlərdə olduğu kimi, dünya bazarında da qiymətlərin müxtəlif artım templərini şərtləndirir.

Dünya qiymətlərinin dinamikasına və onların dəyişmə meyllərinə yuxarıda sadaladığımız xalis iqtisadi amillərdən başqa, həm də 70-ci illərdə dünyada yaranmış **hərbi siyasi** vəziyyət xeyli dərəcədə təsir göstərmişdir. 70-ci illərin əvvəlində ABŞ-ın Vyetnama etdiyi təcavüz xammal əmtəələri və hər şeydən əvvəl, mineral xammal bazarlarının konyunkturuna böyük təsir göstərdi. Hərbi münaqişə və Yaxın Şərqdə vəziyyətin kəskinləşməsi neft ixrac

edən ölkələr tərəfindən neft embarqosunun qoyulmasına gətirib çıxardı. Bütün bunlar isə xammal əmtəələri bazarında qiymətlərin yüksəlməsinə səbəb oldu.

Dünya qiymətlərinin sabit artımı 80-ci illərin əvvəllərinə qədər müşahidə olundu və dünya kapitalist bazarında qiymət dinamikasının meyllərində özünəməxsus «suayırıcı» rolunu oynadı.

**Qiymətlərin hərəkətində köklü dəyişikliklərin başlıca səbəblərindən biri 80-ci illərin əvvəllərində başlamış dərin iqtisadi böhran oldu.** Üç ildən çox qısamüddətli ləng canlanma dövrləri yeni dərin istehsal tənəzzülü ilə əvəz olundu. Yalnız 1983-cü ilin sonuna sənaye cəhətdən inkişaf etmiş aparıcı kapitalist ölkələrində dövri yüksəliş fazası müşahidə olunmağa başlayır. Lakin uzunmüddətli böhrandan sonra sənaye istehsaının fəallaşması çox davam etmədi. Artıq 1985-ci ildə ABŞ-da sənaye istehsalının artımı 2%-ə qədər aşağı düşdü. Bu isə öz növbəsində işgüzar fəallığın kəskin surətdə zəiflənməsinə səbəb oldu.

80-ci illərdə burjua dövlətlərinin hökumətləri tərəfindən qəbul edilmiş **antiinflyasiya tədbirləri dünya qiymətlərinin dinamikasına böyük təsir göstərdi.**

80-ci illərin başlanğıcında ləng ümumtəsərrüfat konyunkturu və bu dövr üçün səciyyəvi olan kapitalist iqtisadiyyatının əksinhisar tənzimlənməsinin güclənməsi dünya qiymətlərinin artım templərinin yavaşımasına gətirib çıxaran yeganə səbəblər deyildi. Yanacaq-xammal əmtəələrinin və hər şeydən əvvəl, neftin qiymət səviyyələrinin dəyişməsi dinamikaya nəzərəçarpacaq dərəcədə təsir göstərirdi. Enerjiyə və yanacağa qənaət texnologiyasından istifadəyə keçidlə yanaşı işgüzar fəallığın ümumi tənəzzülü dünya bazarında neftə olan tələbin əhəmiyyətli dərəcədə azalmasına və onun xeyli ucuzlaşmasına gətirib çıxardı. Artıq 1982-ci ildə neftin qiymət indeksi özündən əvvəlki ilə nisbətən 94 bənd aşağı düşdü. Daha sonra, bu meyl daha da gücləndi və 1985-ci ildə 1981-ci ildə nisbətən neftin qiymətinin aşağı düşməsi 422 bənd və ya 20% təşkil etdi.

Lakin bununla belə, yuxarıda sadalanan amillərin əhəmiyyətinə və vacibliyinə baxmayaraq, 80-ci illərdə dünya qiymətlərinin dəyişmə dinamikasının meylinə daha böyük təsiri müasir kapitalizmin valyuta-maliyyə mexanizminin böhranı və hər şeydən də əvvəl, ABŞ dolları məzənnəsinin tərəddüdləri göstərdi. **Müasir şəraitdə əsas kapitalist dövlətlərinin valyuta məzənnələrinin nisbəti dünya ticarətində qiymət dinamikasına təsir göstərən başlıca amillərdən biridir.**

Ümumən qeyd etmək olar ki, **dünya ticarətində qiymətlərin vəziyyətinə və dinamikasına valyuta amilinin daha intensiv təsiri** o dövrlərdə meydana çıxır ki, beynəlxalq pul bazarının konyunktur vəziyyəti valyuta məzənnələrini, öz alıcılıq qabiliyyətlərinin bərabərliyi nisbətlərindən ayırmağa başlayır. Ona görə də valyutanın beynəlxalq rolu nə qədər yüksək olarsa, onun vəziyyəti daha çox dərəcədə dünya qiymətlərinin dinamikasında əks olunar. Buna oxşar vəziyyət 80-ci illərdə yaranmışdı. Kapitalizmin valyuta-maliyyə sisteminin zəifləmək bilməyən böhranı şəraitində dolların obyektiv əsası olmadan kəskin surətdə bahalaşması buna gətirib çıxardı ki, müxtəlif Milli valyutalarda ifadə olunan dünya qiymətlərinin dinamikası tamamilə əks istiqamət aldı.

1985-ci ilin əvvəlindən ABŞ dollarının məzənnəsinin xeyli aşağı düşməsi müşahidə olundu. Beynəlxalq bazarda milli valyuta nisbətlərinin dəyişməsi tezliklə həm də dünya qiymətlərinin səviyyəsində hiss olunmağa başladı: artıq 1986-cı ildə bəzi xammal və ərzaq növlərinin qiymətləri artdı.

Əgər 80-ci illərin sonuna qiymət dinamikası haqqında danışsaq, onda qeyd etmək lazımdır ki, xammalın dünya qiymətləri sahəsində zəif artan meyli saxlanmışdır. Buna aşağıdakı bir sıra amillər kömək etmişdir:

- dünya kapitalist bazarında bir çox xammal əmtəələri növlərinin həddən artıq təklifi saxlanılan OESR üzvi olan ölkələrin əksəriyyətində kifayət dərəcədə ləng inkişaf edən təsərrüfat konyunkturu;

- aparıcı ixracatçılar və onların təşkilatları, o cümlədən NİÖT tərəfindən aparılan qiymətlərin sabitləşdirilməsi siyasəti.

Bununla yanaşı, 1988-ci ildə ABŞ-da əlverişsiz hava şəraiti, AİB çərçivəsində vahid kənd təsərrüfatı siyasətinin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinin azaldılması, kənd təsərrüfatı məhsuluna daha sürətli qiymət artımı tempinə səbəb oldu.

Hazır sənaye məmulatlarının dünya bazarında qiymət artımına meyl gücləndi. Buna xammal və yanacağın bahalaşması, inflyasiya meyllərinin yüksəlməsi, aparıcı kapitalist ölkələri və onların qruplaşmalarının xarici iqtisadi siyasətində tətbiq edilən proteksionizm və ayrı-seçkilik, xarici ticarət və tədiyyə balanslarının qeyri-tarazlığı kimi amillər daha da təkan verdi.

Emal sənayesi məhsullarının bazarında qiymətəmələgətirən amillərin fəaliyyəti və hazır məhsullara qiymətlərin dinamikası öz istehsal xüsusiyyətinə və həmin əmtəələrin reallaşmasına görə xammal əmtəələri bazarlarına nisbətən başqa xarakterə malikdir.

Birincisi, xammal əmtəələrindən fərqli olaraq emal sənayesi məhsullarının istehsalı, xammal hasilatı və istehsalı coğrafi cəhətdən məhdudlaşsa belə, istənilən regionda təşkil oluna bilər. Ona görə də eyni tipli emal sənayesi məhsulu istehsalına xərclərin səviyyəsindəki fərqlər xammal sahələrində olduğundan xeyli azdır və inhisar istehsalının əmələgəlməsi imkanları xammal əmtəələri bazarlarına nisbətən azdır.

İkincisi, emal sənayesinin sahələri üçün buraxılan məhsulun sürətli təzələnməsi və müxtəlif firmaların müəssisələrində istehsalın təşkili üçün şəraitin mövcudluğu xarakterikdir ki, bu da bazarda rəqabət mübarizəsinin yüksək səviyyəsini şərtləndirir.

Üçüncü, emal sənayesində xammal sahələrinə nisbətən, istehsala ETT-nin nailiyyətlərinin tətbiqi üçün böyük imkan vardır.

Dördüncüsü, xammal sahələrinə nisbətən hazır məmulatlara dünya qiymətlərinin artımına və kəskin tərəddüdlərinə əks təsir göstərən meyllər nəticəsində əmələ gələn istehsalın dövrü tərəddüdlərinin müəyyən təsirlərinə baxmayaraq, emal sənayesində məhsullara qoyulan qiymətlər qısamüddətli konyuktur dəyişmələrinə bir qədər az həssasdırlar.

Eyni zamanda, bir sıra amillər hazır məmulatların qiymətlərinin yüksəlməsinə kömək edir. Belə ki, xammalın, yanacağın qiymətinin artması, əmək haqqı məsrəflərinin inflyasiya artımı istehsal xərclərini yüksəldir. Bundan başqa, ayrı-ayrı hazır məmulat növləri (kimyəvi məhsullar, nadir avadanlıq növləri) üzrə bazarların inhisarlaşdırılmasının kifayət dərəcədə yüksək səviyyəsi firmalara bazarda qiymətləri diktə etməyə imkan verir. Və nəhayət, yeni, daha keyfiyyətli məhsul istehsalı ilk vaxtlar xeyli miqdar maliyyə xərcləri tələb edir, lakin həmin məhsulun buraxılışı mənimsənildikcə, bu xərclər aşağı düşməyə başlayır. Emal sənayesində buraxılan məhsulun təzələnməsi çox yüksək olduğundan yeni, daha bahalı məhsul buraxılışı prosesi daimi sayılır ki, bu da bütövlükdə ayrı-ayrı sahələr üzrə xərclərin artımına kömək edir.

Göstərilən amillərin fəaliyyəti xammal əmtəələrinə nisbətən emal sənayesi məhsullarına dünya qiymətlərinin daha müntəzəm, kəskin sıçrayışlar olmadan dəyişməsi haqqında xəbər verir.

80-ci illərin I yarısında qiymətlərin aşağı düşməsinin ümumi meyli çərçivəsində xammalın dünya qiymətlərinin ixtisar olunması hazır məlumatlara nisbətən daha böyük olmuşdur. Belə ki, 1981-1985-ci illərdə hazır məmulatların dünya qiymətlərinin orta illik aşağı düşmə tempi 3,6% xammala isə 2 dəfə yuxarı olmuşdur.

Təhlil göstərir ki, 1985-ci ilə qədər xammalın dünya qiymətləri hazır məmulatlara nisbətən bir qədər yüksək olmuş, lakin 1985-ci ildən başlayaraq isə buna əks meyl müşahidə olunmuşdur. Hazır məhsula qiymətin artması ilə

eyni vaxtda xammalın qiyməti yüksək sürətlə aşağı düşmüş və bu da şərti xammal vahidinin alıcılıq qabiliyyətinin aşağı düşməsin təsir göstərmişdir. 1987-ci və 1988-ci illərdə xammalın və hazır məhsulun qiymət nisbəti rekord səviyyəsində – 1:1,8 nisbətində müəyyən olundu, emal sahələrinin məhsullarının alıcılıq qabiliyyəti məhz 1,8 dəfə yüksəldi.

İnkişaf etmiş və inkişaf etməkdə olan kapitalist ölkələrinin hazır məhsullarının qiymət nisbətlərinə yeni sənayeləşmiş ölkələrin (YSÖ) timsalında baxaq. Son illər dünya kapitalist təsərrüfatında və xüsusilə də xarici iqtisadiyyat sferasında YSÖ-nin rolu yüksəlməyə doğru meyl etməkdədir. Onların ixracatında əsas yeri emal sənayesinin məhsulları tutur ki, bu da həmin ölkələrin xarici bazara göndərdikləri məhsulların dəyərinin təxminən 80%-i deməkdir. Sənaye məhsulunun dünya bazarında YSÖ-nin müvəffəqli fəaliyyəti hər şeydən əvvəl, əsas emal sənayesi sahələrinin xarici oxşarlarına nisbətən daha yüksək rəqabət qabiliyyətinə malik əmtəələr buraxmaq imkanı ilə şərtlənir.

YSÖ məhsullarının rəqabət qabiliyyətliliyi bir çox amillərdən birbaşa asılılıqda yerləşir. Əmək məhsuldarlığı və əmək haqqına gedən xərclər birinci dərəcəli əhəmiyyət kəsb edirki, bunlar də həmin ölkələrdə inkişaf etmiş kapitalist ölkələrinə nisbətən xeyli aşağıdır. YSÖ-nin emal sənayesində aşağı istehsal xərcləri öz növbəsində onlara, əmtəənin qiyməti kimi rəqabət qabiliyyətliliyin çox mühüm amilindən istifadə etmək imkanı verir. Əgər yapon istehsalçıları və ixracatçıları üçün müasir dövrdə dünya bazarında rəqabət mübarizəsinin başlıca aləti əmtəənin keyfiyyəti sayılırsa, YSÖ üçün əsas rəqabət əmələ gətirən amil reallaşdırılan məhsulun qiyməti sayılır.

Tikin, ayaqqabı, toxuculuq, elektron və elektrotexnika, polad tökmə, dəzgahqayırma və avtomobil məhsullarının dünya bazarında Asiyadan olan YSÖ-nün əmtəələri Qərbin oxşar əmtəələrindən xeyli ucuzdur.

ABŞ-da Cənubi Koreyanın videomaqnitofonları Yaponiyanın videomaqnitofonlarına nisbətən bütövlükdə təxminən 30% ucuz satılır. Bu isə Cənubi Koreyanın firmalarına 80-ci illərin ortalarına satışın həcmini 24 mlrd. dollara qədər artmağa və bu əmtəələrin Amerika bazarının təxminən 10%-ni ələ keçirməyə imkan vermişdir. Cənubi Koreyanın «Lakki qoldstar» transmilli korporasiyasının videomaqnitofonları Qərbi Avropada 360 dollar qiymətinə satılır ki, bu da Avropanın oxşar mallarından orta hesabla 20% ucuzdur. «Tevu» firmasının mikrodalğalı sobaları Fransada 165 dollara və yaxud yerli istehsalçıların qiymətlərindən 36% aşağı qiymətlərə reallaşdırılır.

YSÖ trəfindən buraxılan elektron texnikaya aşağı qiymətlər qoyulması qərb rəqiblərində xüsusi həyəcan doğurur. «Xyonde» Cənubi Koreya firmasının «Bu çip» fərdi kompüteri 1986-cı ildə Amerika bazarında 830 dollara satılmışdır ki, bu da Amerikanın «İBM» firmasının oxşar məmulatlarından və yapon şirkətlərinin məhsulundan 41% ucuzdur. 1987-ci ildə ABŞ-da onlardan 50 min ədəd satılmışdır ki, bu da Amerikanın fərdi kompüter bazarının 4%-nə uyğun gəlmişdir.

Qiymət amili YSÖ-yə Yapon əmtəələri ilə rəqabət aparmağa təkcə üçüncü dünya ölkələrinin bazarlarında deyil, həm də Yaponiyanın özündə də imkan verir. Özü də bu cür rəqabətə inkişaf etmiş kapitalist ölkələrinin əksəriyyəti çox çətinliklə davam gətirirlər. Cənubi Koreyanın elektron və elektrotexnika sənayesinin məhsulları (televizorlar, video maqnitofonlar, yuyucu maşınlar, soyuducular və s.) bütövlükdə yapon oxşarlarından 20-30% ucuzdur.

Dünya bazarında qiymətlərin təxminən elə bu cür nisbəti YSÖ-nün avtomobil sənayesinin məhsulları üçün səciyyəvidir. Yapon yüngül avtomobillərinin əsas modelləri Amerika bazarında orta hesabla 8 min dollarla 10 min dollar arasında satıldığı halda, Cənubi Koreya maşınları 5-7 min dollar qiymətlərində reallaşdırılır. ABŞ-da ən aşağı qiymətlə Cənubi Koreyanın «Xyonde» firmasının «Poni» markalı yüngül avtomobili satılır ki, bunun da dəyəri 1987-ci ildə cəmisi 4995 dollar təşkil etmişdir. Öz növbəsində

yaxın illərdə Cənubi Koreya şirkətlərinin ciddi rəqibi Malayziya firmalarf ola bilər. Belə ki, onlar özlərinin «Proton Saqa» markalı yüngül avtomobillərini ABŞ-da daha aşağı qiymətlə satacaqlar.

Qiymət rəqabəti təkcə inkişaf etmiş kapitalist ölkələrinin deyil, həm də inkişaf etməkdə olan dövlətlərin bazarlarında da meydana çıxır. Sinqapurda, məsələn Cənubi Koreyanın avtomobil məhsulunun qiymətləri Yaponiyanın oxşar məhsullarının qiymətlərindən 20% aşağıdır ki, bu da yerli bazarın təxminən 13%-ni ələ keçirməyə imkan vermişdir.

Qeyd etmək lazımdır ki, əsas satış bazarlarında öz mövqelərini möhkəmlətmək məqsədilə YSÖ şirkətləri bəzən qiymətləri istehsal xərclərindən aşağı müəyyənləşdirirlər. Məsələn , Kanada hökuməti araşdırmalar aparmaqla Cənubi Koreyanın «Xyonde» firmasının yerli bazarda öz məhsuluna dempinq qoymaqda günahlandırmışdır. Müəyyən edilmişdir ki, «Poni», «Stellar» və «Eksel» firmalarının avtomobilləri Kanadada dempinq qiymətləri ilə satılır (orta hesabla istehsal xərclərindən 16,2-31,8% aşağı).

Bütövlükdə yalnız 1987-ci il ərzində Cənubi Koreya firmaları dempinq qiymətləri ilə xarici bazarda 15 növ sənaye məhsulu, o cümlədən yüngül avtomobillər, rəngli televizorlar, kübrə və kimyəvi mallar, gəmi, polad və polad məmulatları satmışlar.

Sadalanan misallar sübut edir ki, qiymət amilindən istifadə etməklə YSÖ-dən olan şirkətlər sənaye məhsulunun dünya bazarına çox sürətli yayılmasını həyata keçirirlər.

Yaranmış vəziyyət, 60-cı illərdə yapon əmtəələrinin əsas əmtəə bazarlarına daxil olmağa başladığı vaxtları xatırladır. O vaxt yapon firmaları məhsullarının ixracının genişlənməsinin başlıca səbəbi aşağı qiymətlər idi ki, bu da onların rəqiblərinə nisbətən daha ucuz əmtəələr istehsal etmək qabiliyyəti ilə şərtlənir. Hal-hazırda bu qabiliyyətə daha çox dərəcədə YSÖ şirkətləri malikdir.

## 3.2. DÜNYA TİCARƏTİNDƏ QİYMƏT İNDEKSLƏRİ

BMT-nin statistikası beynəlxalq ticarət üçün səciyyəvi olan böyük miqdarda qiymətlər sırasına malikdir. Həmin qiymətlər sırası **ixrac və ya idxal qiymət indekslərinin** hesablanmasında istifadə olunur. Qiymət sıralarının ümumi miqdarı 53 əmtəə üzrə 450-yə çatır. O cümlədən 49 əmtəə üzrə 424 sıra ixrac və idxal qiymətləri tətbiq olunur ki, bunun da 227 sırası bilavasitə ixrac qiymətləridir.

BMT-nin qiymət indeksləri dərc olunan digər oxşar qiymət indekslərinə nisbətən daha əhatəli olub, müasir dünya ticarətinə daha uyğun gələn struktura malikdir.

**BMT-nin statistikası dünya ticarətində aşağıdakı qiymət indekslərini müntəzəm dərc edir:**

**1. Beynəlxalq ticarətdə iştirak edən əmtəələrin ixrac qiymətlərinin məcmu indeksləri.** Bu zaman xammal əmtəələrinə və sənaye məmulatlarına qiymətlərin qrupp indeksləri ayırılır.

**2. Xammala və ayrı-ayrı əmtəə qruplarına bölünməklə ərzağın ixrac qiymətləri indeksləri.**

3. Bir tərəfdən sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələri, digər tərəfdən inkişaf etməkdə olan ölkələr tərəfindən aparılan **xammal və ərzağın ixrac qiymətləri indeksləri.**

4. Dünyanın hazır məmulat ixracının 88%-ni əhatə edən 11 ölkənin (Belçika, Lüksemburq, Kanada, Fransa, İtaliya, Yaponiya, Hollandiya, İsveç, İngiltərə və ABŞ) xarici ticarət statistikasının məlumatları üzrə **sənaye**

**məmulatlarına xüsusi ixrac qiymətləri indeksləri.** Həmin ölkələrin rəsmi indekslri əsasında BMT statistikası müvafiq məcmu indeksləri hesablayır.

**5. Əlvan metallara ixrac qiymətləri indeksləri** (sənye məmulatlarının indeks yarımqrupu) BMT-nin statistikasından məlum olur ki, beynəlxalq ticarətin siyasi və iqtisadi şərtləri dünya qiymətlərinə tələb və təklifə nisbətən daha böyük təsir göstərirlər. Ona görə də bu indekslər dünya ticarətində fəaliyyət göstərən beynəlxalq ticarət razılaşmaları, öz valyutalarının dönərliyinə münasibətdə ayrı-ayrı ölkələrin siyasəti, ticarət üzərində hökumət nəzarəti, daşınma məsrəfləri və s. kimi amillərin təsirini əks etdirir.

Onu da nəzərə almaq lazımdır ki, BMT-nin beynəlxalq ticarətdə dərc etdiyi qiymət indeksləri kifayət qədər dəqiq alıt sayılmır, belə ki, onlar alıcılara verilən güzəştləri, habelə digər faktiki sövdələşmə şərtlərini kifayət dərəcədə əks etdirmir.

**Mudi indeksi.** ABŞ bazarının qiymətlərini əks etdirir və cəmi 15 xammal əmtəəsini əhatə edir. O, hər gün dəyişməz çəki ilə hesablanmaqla, baza kimi 31.12.1931-ci ilin məmulatlarına əsaslanır. Qeyd olunan bu nöqsanına, habelə az miqdar əmtəəni əhatə etdiyinə görə Mudi indeksi ticarətin müasir strukturuna uyğun gəlmir. Bu indeksin tətbiqini məhdudlaşdıran bir cəhət də ondan ibarətdir ki, o, yalnız ABŞ bazarında istifadə olunmaq üçün nəzərdə tutulub. Gümüş, lom və dəri xammalı müstəsna olmaqla indeks üçün Amerika birjalarının qiymət təyin olunması (nəğd əmtəələrə) tətbiq edilir, bununla belə hər bir əmtəə bir qiymət sırası ilə verilir.

**Reyter indeksi** sterlinq zonasının qiymətlərini əks etdirir və 21 əmtəəni əhatə edir. Burada, qiymətlərin təyin olunması əksər hallarda İngiltərə limanlarının sif şərtləri ilə mal göndərilməsinə aid edilən birja əmtəələri üstünlüyə malikdirlər. Reyter indeksinin Mudi indeksindən üstünlüyü ondan ibarətdir ki, bu indekslər daxili qiymətlərdən çox ixrac qiymətlərinə istinad

edir və İngiltərə bazarına yönəlib. Odur ki, Reyter indeksinin göstəricisi dünya qiymətlərinin səviyyə və dinamikasına nisbətən daha yaxındır.

**Dou-Cons indeksi** 12 ərzaq əmtəəsi üzrə hesablanır. Dou-Cons indeksinin xüsusiyyəti onun iki variantda, məhz nəğd əmtəə üçün vəsövdələşmə vaxtı üçün hesablanması sayılır. O, başlıca olaraq, daxili bazar üçün əhəmiyyət kəsb edən ABŞ birjalarının qiymət təyin olunmasına istinad edir, həm də əmtəə dəstinə və onların çəkilərinə görə yalnız ABŞ üçün səciyyəvidir.

Qiymət indekslərinin öyrənilməsi, onlardan düzgün istifadə olunması dünya kapitalist bazarında qiymətəmələgəlmənin spesifik şəraiti nəzərə alınmaqla xüsusilə mühüm əhəmiyyət kəsb edir.

## 3.3. BEYNƏLXALQ TİCARƏTDƏ BAZAR QİYMƏTLƏRİ DİNAMİKASININ TƏHLİLİ

Son illərdə dünya bazarında qiymətlərin əmələ gəlməsi probleminin öyrənilməsi daha böyük ziddiyət təşkil edir. Bu isə hər şeydən əvvəl, müasir dünyada xarici iqtisadi əlaqələrin artmasından və bu əlaqələrə xidmət edən qiymətlərin dinamikasının yüksəlməsindən irəli gəlir.

Xarici iqtisadi əlaqələrin genişləndirilməsi özündə istehsalın daha mürəkkəb və yetkin formalarına keçidi əks etdirən müasir təsərrüfat həyatının beynəlmiləlləşdirilməsinin qanunauyğun meylini ifadə edir.

İndiki şərait ölkə iqtisadiyyatını xarici dövlətlərin və beynəlxalq təşkilatların üzünə açmadan nə onların maliyyə imkanlarına arxalanmaq, nə də qabaqcıl texnika və texnologiya əldə etmək yolu ilə ümumi tərəqqiyə nail olmaq olar.

Beynəlxalq əmək bölgüsü dünya təsərrüfatının yaranmasına və inkişafına, habelə dünya ticarətinin meydan gəlməsinə gətirib çıxartdı. Dünya bazarı – dünya təsərrüfatının və dünya ticarətinin inkişafının qanunauyğun nəticəsidir.

Dünya bazarı – ölkələr və müxtəlif ölkə müəssisələri arasında onların beynəlxalq əmək bölgüsündə iştirakı əsasında formalaşan alqı-satqı sistemidir (əmtəələrin, xidmətlərin, kapitalın, pulun, iş qüvvəsinin alqı-satqısı).

Qızılın dünya puluna çevrilməsi ilə eyni anda dünya əmtəə qiymətləri yarandı.

Dəyər qanunu-qiymətin əmələ gəlməsinin əsası olmaqla əmtəə təsərrüfatının əsas qanunlarından biri sayılır. Dəyər qanunu qiymətin hərəkətinin əsasıdır.

Dünya bazarında qiymətin əmələ gəlməsi proseslərini tənzimləyən beynəlmiləl dəyər adətən müvafiq əmtəələrin milli dəyərindən azdır. Dünya ticarəti miqyasında qiymətin daha aşağı dəyər əsaslarının formalaşması dünya bazarında qiymət əmələ gətirmə proseslərinin aşağıdakı xüsusiyyətləri ilə şərtlənir.

1. Sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrində dünya bazarına müxtəlif istehsal sahələrindən əmtəəlik məhsulların hamısı daxil olmur, bir qayda olaraq onun böyük bir hissəsi xarici bazarda deyil, daxili bazarda reallaşdırılır.

2. Dünya bazarında əmtəələri reallaşdıran istehsalçılar istehsal xərclərinin səviyyəsinə görə hər hansı bir ölkənin milli bazarında çıxış edən istehsalçılara nisbətən xeyli fərqlənir.

3. Dünya bazarına mal göndərilməsi, bir qayda olaraq daha böyük rəqabət qabiliyyətinə malik sahibkarlar, yəni aşağı istehsal xərcləri səviyyəsinə malik istehsalçılar tərəfindən həyata keçirilir.

Beynəlxalq ticarətdə əmtəələrin mübadiləsi bilavasitə dəyərlə deyil, istehsal qiymətləri ilə tənzimlənir.

İstehsal qiyməti istehsal xərcləri və orta mənfəətin məcmuyundan ibarətdir. İstehsal qiyməti əmtəələrin satış qiyməti sayılmır. İstehsalın beynəlmiləl qiyməti – dünya qiymətinin ilkin əsasıdır. Dünya qiymətləri dünya bazarında beynəlmiləl istehsal qiymətinin pula ifadəsidir. Onun dünya bazarında formalaşmasının əsasını beynəlmiləl dəyər təşkil edir.

Dünya qiyməti istimai zəruri keyfiyyətə malik əmtəələrin beynəlmiləl dəyərini (istehsal qiymətini) pul formasında ifadə edir.

Beynəlxalq bazarda dünya qiymətlərinə təsir göstərən amillərdən biri valyuta maliyyə amilidir. Valyuta məzənnələrinin qeyri-sabitliyi, valyuta zonalarının mövcudluğu və valyuta məhdudluğu ona gətirib çıxarır ki, müxtəlif valyutalarda qiymətlər eyni olmur.

Dünya ticarətində bütün əmtəə və qeyri – əmtəə sövdələşmələrinin ödənilməsi valyuta məzənnəsi əsasında həyata keçirilir. Valyuta məzənnəsi – müəyyən bir ölkənin pul vahidinin digər ölkələrin ölkələrin valyutasında ifadə olunmuş qiymətidir. Dünya bazarında satılmış və ya alınmış əmtəələrin dəyəri valyuta məzənnəsi üzrə həmin əmtəəni satan və ya alan dövlətin milli valyutasına, yaxud da başqa ölkələrin azad dönərli valyutası ilə əvəz edilə bilən digər bir dövlətin valyutasına çevrilir.Çox vaxt bu məqsəd üçün ABŞ dolları, AFR markası, İngiltərə funt sterlinqi, fransız frankı və s. istifadə edilir.

Ölkənin valyuta məzənnəsinin aşağı düşməsi ixracatçılara «valyuta mənfəəti» adlanan əlavə mənfəət qazanmağa imkan verir.

Müasir şəraitdə milli valyutanın dönərliyi sözün geniş mənasında özündə milli iqtisadiyyatın dünya bazarı ilə əlaqə mexanizmini ifadə edir, həmin əlaqənin möhkəmliyi və səmərəliliyi isə valyuta məhdudiyyətlərinin sərtliyi ilə müəyyən olunur.

Milli valyutanın dönərliyi onun rəsmi bazar məzənnəsi üzrə ölkələrin valyutasına azad alı – satqıçıdır.

Beynəlxalq ticarət təcrübəsinə əsaslanaraq dünya qiymətini xarakterizə edən aşağıdakı 5 əsas əlaməti ayırmaq olar:

1. Bu, beynəlxalq ticarətdə iri müntəzəm sövdələşmələrin qiymətləri olmalıdır.
2. Həmin sövdələşmələr xüsusi deyil, kommersiya xarakteri daşımalıdır.
3. Sövdələşmələr azad dönərli valyutaya görə bağlanmalıdır.
4. İxrac və ya idxal əməliyyatları azad rejimə malik bazarlarda baş verməlidir, daha doğrusu, elə bir şəraitdə ki, istənilən satıcı (alıcı) bu bazarda sövdələşməni başa vura bilsin.

Konkret bazar şəraitindən asılı olaraq aşağıdakı dünya qiymətləri sayılır:

- əsas ixracatçı ölkələrin sərbəst dönər valyutasında ifadə olunan ixrac qiyməti;

- müvafiq valyuta rejiminin mövcudluğu şəraitində xammalın əsas ixracatları sayılan inkişaf etməkdə olan ölkələrdən daşınan xammalın qiyməti;

- iri Qərbi Avropa bazarlarının idxal qiymətləri.

Müasir şəraitdə dünya qiymətləri praktiki olaraq müəyyən əmtəə üzrə əsas malgöndərənlərin ixrac qiymətləri və həmin əmtəənin Ən mühüm idxal qiymətləridir. Hər iki halda sərbəst dönərli valyuta ilə ödənilən adi müntəzəm iri kommersiya tipli müstəqil əməliyyatların qiymətləri nəzərdə tutulur.

Ən mühüm ticarət mərkəzlərində bu və ya digər əmtəənin idxal qiymətləri, yəni başlıca olaraq Qərbi Avropa limanlarının KAF və SİF qiymətləri malikdirlər, çünki onların vasitəsi ilə ayrı-ayrı mal göndərənlərin əmtəənin yerinə çatdırılması ilə bağlı müxtəlif nəqliyyat məsrəflərini əks etdirən müxtəlif kəmiyyəti FAB ixrac qiymətləri bərabərləşdirilir. Məhz ixrac

yüklərinin əsas axınları gedən müxtəlif ölkələrin ixracatçıları görüşən İngiltərənin və qitənin beynəlxalq əhəmiyyət kəsb edən birjaları da əmtəənin keyfiyyət və digər xüsusiyyətlərindən asılı olan dünya qiymətlərinin bütöv şkalası konkret olaraq formalaşır.

Dünya qiymətlərinin formalaşması və dinamikasının qanunauyğunluqları və xüsusiyyətləri təkcə əsas ixracatçı ölkələrin istehsal şəraitinin dəyişməsi ilə deyil, həm də başlıca idxalat ölkələrinin tələbatının dəyişməsi ilə əlaqədar amillərin fəaliyyət spesifikası ilə şərtlənir. Müxtəlif əmtəələrin və əmtəə qruplarının dünya qiymətlərinin dinamikası bütöv bir sıra qiymətəmələgətirən amillərin mürəkkəb, bəzən isə zidiyyətli təsirinin nəticəsi sayılır. Həmin amillər isərisində bunları əsas saymaq olar:

- ictimai – zəruri əmək məsrəflərinin dəyişməsi, daha doğrusu, beynəlxalq mübadilə sferasında dövr edən əmtəələrin dəyərinin dəyişməsi (dəyər amili);

- tələb və təklif nisbətlərirnin dəyişməsi (konyuktura amili);

- beynəlxalq ticarət sahəsində kapitalist dövlətlərin iqtisadi siyasəti (dövlət – inhisar tənzimlənməsi amili);

- valyuta bazarının vəziyyəti (valyuta-maliyyə amili);

- dünyada hərbi-siyasi vəziyyət (siyasi amil).

Dünya qiymətlərinin formalaşmasına və hərəkətinə təsir edən başlıca amil istehsal xərcləri sayılır. Qiymətlərin əmələ gəlməsində əmtəə hazırlanmasına çəkilən xərclərin müəyyənedici rolu onunla əlaqədardır ki, istehsal xərcləri, bir qayda olaraq, istənilən qiymətin, o cümlədən dünya bazar qiymətinin strukturunda daha böyük çəkiyə malikdir və odur ki, onların dəyişməsi bilavasitə qiymətlərin dinamikasında əks olunur.

Tələb və təklif arasındakı nisbətlərə qiymətlərin təsiri bazarda əmtəə kütləsinin dəyişməsi vasitəsilə onun, əmtəə tələbatında və alıcıların tədiyyə

qabiliyyətinin səviyyəsində irəliləmələrindən asılı olaraq artması və ya azalması yolu ilə baş verir.

Tələb və təklif arasındakı nisbətlərin qiymətlərə təsir miqyası qərabətdən asılıdır. Rəqabət nə qədər güclü və bazar nə qədər azad olsa, onda tələb və təklif amilinin qiymətə təsiri bir o qədər əhəmiyyətli olur. «Qapalı bazar» və məhdud rəqabət şəraitində tələb və təklif amilinin qiymətə təsiri zəifləyir.

Dövlət tənzimlənməsi tədbirləri dünya qiymətlərinin dinamikasına bilavasitə təsir göstərir. Dünya qiymətlərinin artma meylinə malik olmasının bir amili də inflyasiya proseslərinin kəskin surətdə güclənməsidir. Bunun qarşısı isə qəbul edilən antiinflyasiya tədbirləri ilə alınır ki, bu da öz növbəsində dünya qiymətlərinin dinamikasına böyük təsir göstərir.

Müasir şəraitdə əsas kapitalist dövlətlərin valyuta məzənnələrinin nisbəti dünya ticarətində qiymət dinamikasına təsir göstərən başlıca amillərdən biridir.

Müasir beynəlxalq ticarətdə qiymətlərin dinamikasının proqnozlaşdırılması mümkündür.

Xammal bazarlarının diferensiallaşdırılmasının ən mühüm amilləri aşağıdakı fərqlər sayılır:

1. İxrac və idxalın coğrafi cəhətdən təmərküzləşdirilməsi dərəcəsindəki fərqlər;
2. Müvafiq istehsalların inhisarlaşdırılması səviyyəsindəki fərqlər.

Dünya bazarı dedikdə, özündə ümumiyyətlə bir sıra əsas əmtəə bazarlarını birləşdirir. Bunlara – energetika əmtəələri bazarı, qara və əlvan metallar bazarı, maşın və avadanlıqlar bazarı, beynəlxalq nəqliyyat tarifləri aiddir. Bunlardan başqa texnoloji bilik və mühəndis xidməti bazarı da fəaliyyət göstərir. Məhz dünya bazar qiymətləri dedikdə, bu bazarlarda yaranan qiymətlər nəzərdə tutulur.

Əsas yanacaq-energetika əmtəələrinin – neftin, qazın, kömürün bazarını nəzərdən keçirək. Yanacağın bu növləri bərpa olunmayan resurslar sırasına aiddirlər. Həmin əmtəələrnin dünya kapitalist bazarlarının formalaşmasına yanacaq resurslarının, ilk növbədə isə neftin coğrafi cəhətdən qeyri-bərabər bölüşdürülməsi təsir göstərir ki, bunun da əsas ehtiyyatları Yaxın və Orta Şərq, Latın Amerikası və Cənubi – Şərqi Asiya ölkələrində yerləşdiyi halda, əsas istehsalçıları ABŞ, Yaponiya və Qərbi Avropa sayılır. Təbii qazın əsas ixracatçıları Niderland, Norveç, Kanada, Əlcəzair, Liviya sayılır.

Dünya kapitalist kömür ticarətində qiymətlərin dinamika və səviyyəsinə görə kokslaşan və energetika Daş kömürlərini fərqləndirirlər. Daş kömürün əsas ixracatçıları ABŞ, CAR, Avstriya, Kanada, Böyük Britaniya sayılır.

Neftə olan qiymətlərin növlərinə və onların müəyyən edilməsi xüsusiyyətlərinə baxaq.

Neft bazarının xarakterik cəhəti onun qiymətlərinin çoxlu miqdarda olmasındadır.

- OPEK üzvü olan ölkələrin hökumətləri tərəfindən müəyyən edilən rəsmi satış qiymətləri;

- OPEK-ə daxil olmayan ixracatçıların rəsmi və ya müəyyən edilən rəsmi satış qiymətləri. Bu qiymətlər həmin ölkələr tərəfindən OPEK-in qiymət səviyyəsindən , bazarın vəziyyətindən, hasilat xərclərindən və s. asılı olaraq müəyyən olunur.

- Müxtəlif düsturlara görə hesablanan qiymətlər, o cümlədən «neft - bek» qiymətləri;

- «Azad» bazarda fəaliyyət göstərən və tələb – təklif nisbətlərinin təsiri altında formalaşan bir dəfəlik sövdələşmə qiymətləri;

- Birja sövdələşməsi qiymətləri. Bu qiymətlər neft birjalarında birdəfəlik sövdələşmə qiymətləri, bazarın inkişaf proqnozları, alver əməliyyatları kimi

amillər nzərə alınmaqla müəyyən edilir və müəyyən dərəcədə qısa müddətli perspektivə bazarın vəziyyətinin indiqatoru sayılır;

- Neft məhsullarının növbəti reallaşması ilə birlikdə idxal ölkələrində neft emalına kontrakt qiymətləri;

- əmtəə mübadiləsi razılaşmalarının qiymətləri.

Bu qiymətlərin ilk üçü müntəzəm kontraktlarda istifadə olunur. Neftin qiymətləri həm də neft məhsullarının qiymətlərindən asılıdır, çünki neft məhsullarının qiymətlərindən «neft - bek» qiymətlərinin hesablanmasında istifadə olunur.

Qiyməti neft məhsullarının qiymətləri əsasında müəyyən edilən hər hansı bir kontraktda dörd başlıca komponent nəzərə alınır: neft məhsullarının çıxış strukturu, neft məhsullarının qiymətləri, neftin nəqli və emal xərcləri, hesabat dövrü.

«Neft - bek» qiymətlərindən daha geniş istifadə edən ölkələr Səudiyyə Ərəbistanı və Nigeriyadır.

Dünya bazarında neftin qiymətinə bir sıra amillər təsir edir. Onlar siyasi amillər, xalis iqtisadi ilkin şərtlər (OPEK üzvü olan ölkələrin istehsal, satış və qiymət siyasətinin kifayət dərəcədə səmərəli əlaqələndirilməsi) və s. Qara metallar bazarı ən mühüm bazarlardan biri sayılır. Çox metallar bazarı Ən mühüm bazarlardan biri sayılır. Çox sahələrdə görülən işin vəziyyəti qara metalluqgiyanın fəaliyyətindən çox asılıdır. Ona görə də qara metalların dünya kapitalist bazarında qiymətəmələgəlmə prosesinin öyrənilməsi son dərəcədə vacib sayılır.

Qara metallara dünya qiymətlərinin formalaşdırılmasında müəyyənləşdirici rolu Ümumi Bazar ölkələrinin ixrac qiymətləri oynayır. Burada qara metal prokatına dünya qiymətləri kimi onun ən iri ənənəvi satıcıları sayılan Qərbi Avropa ölkələrinin ixrac qiymətləri qəbul edilir.

Qara metalların ticarətində sorğu qiymətləri və faktiki sövdələşmə qiymətləri tətbiq olunur. Sorğu qiymətlərinin xüsusiyyəti onların nominal olmasındadır, yəni bu qiymətlər həmişə faktiki satış və aılş qiymətlərinə uyğun gəlir. Sorğu qiymətlərinin nominallığı onun nəticəsidir ki, bu qiymətlər çox vaxt preyskurant qiymətlər sayılır ki, bunlardan da adətən xeyli güzəştlər edilir. Sorğu ixrac qiymətləri adətən ixracatçı ölkələrin FOB – liman şərtləri ilə müəyyən olunur. Nəzərdən keçirilən dünya ixrac qiymətləri adi keyfiyyətli metala Qərbi Avropa ixracatçılarının qoyduqları sorğu bazis qiymətləri sayılır.

Maşın və avadanlıqlar bazarı elmi texniki inqilaba səbəb olan prosesləri xüsusilə aydın əks etdirir və əmtəə nomenklaturasının ümumi genişlənməsində dərin və daimi struktur dəyişmələrinə məruz qalır.

Maşın və avadanlıqlar bütün dünya ixracının 1\4 – ni təşkil edir. Maşın və avadanlıqların dünya bazarının inkişafına və xüsusilə də dünya qiymətlərinin dinamikasına son illər ETİ və energetika böhranı xüsusilə böyük təsir göstərmişdir.

Maşın və avadanlıqlar bazarında qiymətlərin proqnozlaşdırılması üçün «Delfi» metodundan istifadə olunur. Maşın və avadanlığa qiymətlərin dinamikası xüsusiyyətlərindən biri böyük çevikliklə uzlaşan nisbi sabitlik sayılır. Nəticədə maşın və avadanlıqlar bazarında qiymətlərin hərəkəti pilləli xarakter daşıyır. Maşın və avadanlıqlar bazarında növ müxtəlifliyi özünü avtomobil bazarının timsalında daha aydın göstərir.

Belə anlayışlara rast gəlmək olar: dünya avtomobil bazarı, Avropa avtomobil bazarı, Amerika avtomobil bazarı, yapon avtomobil bazarı, Asiya avtomobil bazarı.

Qiymət istənilən hər hansı bir bazarın daha vacib göstəricilərindən biri sayılır. Milli bazarların dünya bazarlarından ayrılma dərəcəsi nə qədər aşağı olsa, onda onlarda baş verən qiymətəmələgəlmə prosesləri arasındakı əlaqə də bir o qədər güclü olacaqdır. Ölkədə müəyyən əmtəə istehsalı və istehlakının

ümumi həcmində onun ixrac və idxalının payı çox olduqca dünya bazarının daxili qiymətəmələgəlməyə təsiri bir o qədər böyük olacaq. Böyük avtomobil şirkətləri bütün müxtəlif cür qiymət əmələ gətirən amilləri nəzərə almağa çalışmaqla, bir tərəfdən fəal surətdə bazara təsir göstərməyə can atırlar, başqa tərəfdən isə, bazarın dəyişmələrinə daimi olaraq uyğunlaşırlar.

Beynəlxalq nəqliyyat tarifi siyasətinin iqtisadiyyatda baş verən proseslərlə sıx əlaqədə nəzərdən keçirilməsi məqsədəuyğundur. Transmilli korporasiyalar çox vaxt dünya nəqliyyat bazarında işləmə mexanizmini ixrac olunan əmtəələrə cəmləməklə nəqliyyat məhsulunun ixracatçıları kimi çıxış edirlər.

Nəqliyyat məhsuluna qiymətəmələgəlmə mexanizmi irir nəqliyyat inhisarları üçün yüksək mənfəət təminatı vasitəsi kimi xidmət edir.

Nəqliyyat bazarları əmtəələrin istehsalı və reallaşması əsasında formalaşır. Nəqliyyat məhsulunun xüsusiyyətləri üzündən vahid dünya nəqliyyat bazarı mövcud deyil. Nəqliyyat növləri üzrə formalaşan hər bir regional dünya nəqliyyat bazarlarına nəqliyyat məhsulu ilə mübadilənin öz prinsipləri, öz hüquqi şərtləri və başlıcası öz nəqliyyat qiymətləri sistemi xasdır.

Qiymət rəqabəti iri nəqliyyat şirkətləri arasında, əsas olaraq birbaşa açıq formada yox (qiymətləri aşağı salmaq vasitəsilə), şəkil dəyişdirilmiş və dolayı metodlarla aparılır. Kölgəli qiymətlər adlancırılan qiymətlərdən (preyskurantlarda elan edilən qiymətlərə nisbətən xeyli güzəştləri özündə əks etdirən faktiki reallaşma qiymətləri) və qiymətlərlə manevretmənin müxtəlif formalarından istifadə olunur.

Kapitalist dəniz gəmiçiliyində beynəlxalq tarif və stavkaların formalaşmasında həlledici rol kartel formasında çıxış edən inhisarlara məxsusdur . Onların geniş yayılmış növləri – konfranslar, pullar və konsorsiumlardır.

Qərbi Avropa ölkələri ararsında ixrac – idxal və tranzit yüklərin daşınmalarına  beynəlxalq tariflər hər bir nəqliyyat növündə ayrıca olaraq yaradılır, onların ümumi tənzimlənməsi yoxdur, amma daxili və benəlxalq tariflər sistemi sıx qarşılıqlı əlaqədə yerləşir.

Dəmiryolu nəqliyyatı tariflərində beynəlxalq və daxili əlaqələr üçün daxili tariflər tətbiq edilir. Beynəlxalq dəmir yolu tariflərinin daha geniş yayılmış formaları ittifaq, birbaşa və tranzit tarifləridir. Onların əsası daxili tariflər sayılır.

İttifaq tarifləri özündə tarif stavkaları ilə iki və daha çox (bəzi tariflərdə 10) ölkə üzrə daşınma məsafəsinə görə daşınma haqlarının ödənilməsi qaydalarının məcmusunu birləşdirir. İttifaq tarifləri müəyyən yüklər üçün və konkret daşınma istiqamətləri üçün tətbiq olunur.

İttifaq tariflərində ödəmələr hər bir ölkənin dəmir yolları üzrə daşınma məsafəsinə görə  ayrıca (payçı) stavkalar şəklində verilir.

İki ölkənin  və ya iki qonşu dəmir yolunun iştirak etdiyi ittifaq tariflərini birbaşa tariflər adlandırmaq qəbul edilmişdir.

Tranzit tarifləri iki növbədə müəyyən olunur: quru sərhəd yolu ilə əlaqə üçün və dəniz və yalnız çay limanları vasitəsilə əlaqə üçün. Qərbi  Avropada ümumi vahid tranzit tarifləri yoxdur, onlar ölkələr tərəfindən birtərəfli qaydada elan olunur və yaxud da tranzit daşımalara daxili tariflər tətbiq olunur.

Dəniz nəqliyyatının tarifləri və fraxtları bazar konyukturunun kəskin tərəddüdlərinə meylli vəziyyətin ən mühüm göstəricilərindən biri sayılan dünya kapitalist fraxtları bazarlarının qiymətləri özünün son dərəcə qeyri-sabitliyi ilə fərqlənirlər.

Dəniz limanlarının dəyəri tariflər və fraxtlar formasında ifadə olunur. Fraxtlar – gəmi sahiblərinin başlıca olaraq inhisarlaşdırılmamış gəmiçilikdən

aldığı daşıma haqqı formasıdır. Onlar özlərində dünya fraxtı bazarında tələb və təklifdən və digər konyuktur amillərdən asılı olaraq nisbətən azad formalaşın dəniz daşınması qiymətini birləşdirir.

Fraxtlar, bir qayda gəmiçilik birjalarında bazar ticarəti əsasında formalaşır. Onların səviyyəsinə dəniz nəqliyyatının xərcləri əhəmiyyətli dərəcədə təsir gööstərir.

Xətti tarif stavkaları göndərənin kim olmasındaın asılı olmayaraq enyi bir istiqamətdə daşınan eynicinsli bütün yüklər üçün əslində eyni olmalıdır. Düzülüş qaydasına görə 3 növ xətti tarifləri bir – birindən fərqləndirmək olar:

- Yüksək dərəcəli xətti tariflər. Bu tariflərə hər istənilən zaman fraxt stavkalarını tətbiq etmək olar;

- Əmtəələr üzrə xətti tariflər. Bu tariflər daşınan yüklər üçün müxtəlif fraxt stavkalarını özündə birləşdirir;

- Qarışıq xətti tariflər. Bu tariflər əvvəlki iki növ tariflər sisteminin kombinə edilmiş formasıdır.

Avtomobil nəqliyyat tarifləri. Qərbi Avropa ölkələrində beynəlxalq daşımalar sahəsində avtomobil nəqliyyatının fəaliyyəti dövlətin nəzarəti altında yerləşir. Beynəlxalq avtomobil daşımalarına möhkəm müəyyən olunmuş, yəni səviyyəsi xeyli dərəcədə bazar rəqabətindən və dövlət tənzimlənməsindən asılı olan tariflər yoxdur. Avropa İqtisadi Birliyi ölkələri sistemində çəngəli tariflər adlandırılan birtərəfli və ya ikitərəfli tariflər və yaxud da çox vaxt daxili avtomobil və ya dəmiryolu tarifləri bazasında formalaşan son hədd tarifləri fəaliyyəti göstərir. Çəngəli tariflər sistemi mövcud stavka sistemi olmayan yerlərdə sorğu tarifləri ilə tamamlanır.

Hava nəqliyyatı tarifləri. Hava nəqliyyatı dünya bazarlarına nüfuz etmə və onların konyukturundan istifadə etmə imkanları baxımından ən sürətlə hərəkət edən nəqliyyat növüdür.

Hava nəqliyyatı ilə yük daşımalarına görə tariflər özü düzülüş strukturuna görə sadədir. Kütləsi bir neçə kiloqramm olan yük göndərmələri üçün minimum stavka qoyulur. Həmin stavka üzrə ödəmə haqqı, onun normal tarif üzrə ödəmə haqqından aşağı olan halda hesablanır. Əsas (normal) tarif kütləsi 45 kq-a qədər olan yük göndərmələri üçün müəyyən edilir. Kütləsi 45 kq-dan yuxarı olan göndərmələrə haqq, normal tarif stavkaları üzrə 25 5-ə qədər güzəştlə hesablanır. Xüsusilə qiymətli, yüngül çəkili və iri həcmli yüklərin, kitab, qəzet və jurnalların daşınması üçün xüsusi tariflər mövcuddur.

Müəyyən yüklər, istiqamət və məntəqələr üçün habelə konteynetlərin, altlıqların yüngülləşdirilmiş qablaşdırma üsullarının istifadəsində və s. tarifli imtiyazlar sistemindən geniş istifadə olunur.

Texnoloji mübadilə sahəsində beynəlxalq iqtisadi münasibətlərin müstəqil sferasına ayrılaraq texnoloji biliklərin ötürülməsi müxtəlif formalarda və çoxsaylı kanallar vasitəsilə həyata keçirilir. Həmin əsas formalardan aşağıdakıları göstərmək olar:

- patentlərin texnoloji biliklərin tətbiqi üzrə müvəqqəti hüquq ya da istehsal «pou-hay» sunun istifadəsi üzrə verilən lisenziyaların satışı;

- maşınların və avadanlıqların və digər istehsal fondlarının ötürülməsi, texnoloji xətlərin göndərilməsi və s. ilə eyni zamanda müvafiq texnoloji biliklərin və lisenziyalaşdırılmamış «nou-hay» nun satışı.

Texnoloji biliklər beynəlxalq bazarda, kommersiya mübadiləsində iştirak edən əmtəə kimi istehlak və mübadilə dəyərinə malikdir.

Spesifik əmtəə kimi texnologiyanın nəzərdən keçirilən xüsusiyyətləri bu əmtəələrə qiymətlərin formalaşması qanunauyğunluqları üzrə aşağıdakı nəticələrə gəlməyə əsas yaradır:

- texnoloji biliklərin qiymətləri müvafiq texnologiyanın yaradılması üzrə əmək xərcləri ilə müəyyən edilmir;

- texnoloji biliklərin müəyyən növünün qiymətlərinin son hədd kəmiyyəti məlum texnologiyanın mülkiyyətçisi tərəfindən onun istehlakı dövrü (əlavə mənfəətin alınması anından onun itməsi anına qədər) ərzində alınan əlavə mənfəətin məbləğindən ibarətdir.

Əslində isə texnoloji biliklərin son hədd qiyməti ilə satılması mümkündür, çünki bu halda onun istehlakçı üçün faydalılığı itir. Məhz elə buna görə də texnoloji biliklərin həqiqi qiyməti yalnız bütün istehlakçıların əldə etdiyi əlavə mənfəətin bir hissəsidir.

Texnoloji biliklərin qiymətlərinin mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, mülkiyyətçi satıcıya birdəfəlik deyil, istehlakçı tərəfindən əlavə gəlir əldə edilməsinə uyğun olaraq ödənilir.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, dünya bazarında qiymətlərin əmələ gəlməsinə təsir göstərən bir neçə amil var ki, bunlar valyuta məzənnəsi, tələb və təklif, inflyasiya, iqtisadi və siyasi sabitlik, bazarın inhisarlılıq dərəcəsi və başqalarıdır.

## ÖZÜNÜ YOXLAMA SULLARI

1. Dünya qiymətlərinin dinamikası və onu müəyyən edən amillər hansılardır;
2. Beynəlxalq ticarətdə istifadə olunan indeksləri göstərin;
3. Beynəlxalq ticarətdə qiymət dinamikasının proqnozlaşdırılmasının əhəmiyyəti nədən ibarətdir?
4. Bazar konyukturasının proqnozu nədir?

## TESTLƏR

**1. Xarici ticarətin idarəetmə və tənzimlənməsinin iqtisadi alətlərini seç:**

A)) Gömrük rüsumları və yığımları;

B) İdxal və ixracın qadağan olunması və məhdudlaşdırılması;

C) İdxal və ixracın liseziyalaşdırılması;

D) Bərabərləşmiş sərhəd vergi tutulması;

E) Daxili istehsalçılara subsidiyaların verilməsi.

**2. Dəyər, konyunktura, valyuta-maliyyə, siyasi, dövlət-inhisar tənzimlənməsi – bunlar nədir?**

A) daxili bazarın qiymət əmələgətirici amilləri;

B) inflyasiya proseslərinin güclənməsinə kömək edən amillər;

C) dünya qiymətlərinin dinamikasını müəyyən edən iqtisadi amillər;

D)) qiymətlərin dinamikasını müəyyən edən dünya bazarının qiymət əmələgətirici amilləri.

E) defilyasiya proseslərinin güclənməsinə kömək edən amillər

**3. Dünya ticarətində qiymətlər indeksi nə deməkdir?**

A) bu, məhsullara olan ixrac qiymətlərinin ümumi indeksləri, xammala və ərzaqlara olan ixrac qiymətlərinin indeksləri, xüsusi ixrac qiymətlərinin indeksləridir;

B) bu, Dou-Cons, FT, Nikkey, Standart end Pure indeksləridir;

C) Mudi, FT, Fayneşnl Tayms, Dou-Cons, Nikkey, Reyter indeksləridir;

D)) Dou-Cons, sənaye məhsullarına olan xüsusi ixrac qiymətlərinin indeksləridir, məhsullara olan ixrac qiymətlərinin ümumi indeksləridir, Mudi, Reyter indeksləridir;

E) istehlak və pərakəndə satış qiymət indeksləri

**4. İxrac və idxal qiymətlərinin kalkulyasiyasının formal sxemi aşağıdakılardan hansı aid edilməklə daxili qiymətlərin hesablanması zamanı istifadə edilən sxemdən fərqlənir?**

A) Satıcıların və nümayəndələrin komisyon mükafatlandırılması;

B) Alıcının ölkəsində idxal gömrük xərcləri;

C) Qablaşdırmaya çəkilən xərclər, nəqliyyat xərcləri;

D) Maliyyələşdirmə xərcləri;

E)) Sığorta xərcləri və güzlənilməz risklərin örtülməsi üçün zəruri olan ehtiyatlar.

**5. “Sponto” güzəşti nədir?**

A) Mövsüm güzəştidir;

B) Sorğu qiymətləri ilə birgə ümumi güzəştdir;

C)) Nağd hesablaşma hesabına güzəştdir;

D) Məhsulun sınaq partiyalarına olan xüsusi güzəştdir;

E) İxrac güzəştidir.

**6. Kredit şərtlərinə görə qiymətin müəyyən olunması qiymətdə aşağıdakılardan hansının nəzərə alır?**

A) kredit təsiri əmsalı;

B) borc alanlar üçün bank faizinin orta kəmiyyəti;

C)) əmtəəyə görə nağd ödənişlərlə müqayisədə alıcının kreditlə əldə etdiyi əmlak;

D) Borc alanlar üçün bank faizinin orta həcmi ilə;

E) Müqavilənin ümumi məbləğinin kreditləşən hissəsinin payı ilə;

**7. Bonus güzəşti nədir?**

A) Məhsulun sorğu qiyməti ilə təqdim olunan güzəştdir;

B) Məhsulum kəmiyyətini artıran, əvvəlcədən müəyyən edilmiş satış şərtləri zamanı güzəştdir;

C)) Tərəflərin razılaşdığı müddət ərzində əldə edilmiş dövriyyədən asılı olaraq müəyyən şkala üzrə tətbiq olunan güzəştdir;

D) Ödəmə həyata keçirilən zaman şərtlərdən asılı olaraq tətbiq olunan güzəştdir;

E) Preykurant qiymətlərindən güzəştdir.

**8. Aşağıdakı hallardan hansında dünya bazarının daxili qiymət əmələ gəlməyə təsiri daha böyük olar?**

A) İstehsalın təmərküzləşməsi və inhisar səviyyəsi yüksək olduqda;

B) Ticarət-siyasi rejim güclü olduqda;

C) Dünya bazarlarından milli bazarların ayrılması səviyyəsi az olduqda;

D)) Müəyyən əmtəənin idxal və ixracını ölkədə onun istehsal və istehlakına ümumi həcmində payı əhəmiyyətli dərəcədə artdıqda;

E) Ölkə istehsalına rəqabət qabiliyyətliliyi artdıqda.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT


14. Герчикова И.Н. маркетинг и международное коммерческое деолололо. М., Внешторгиздат, 1991
15. Левшин Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990
16. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюектура и цены. М., Международные отношения, 1987.
17. Липсиц И.В., Коссов В.В. Инвестиционный проект, методы подготовки и анализа. И., ББК, 1996.
18. Лорин А.Н. Ценообразование во внешнеэкономической деятельности промышленной фирмы. М., Международные отношения, 1993.
19. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
20. Основы предпринимательской деятельности. Под ред. В.М.Власовой. М., Финансы и статистика. 1996.
21. Портер М. Международная конкуренция. М., Международные отношения. 1993.
22. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
23. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.
24. Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б.Рычкова. М., Прогресс, 1992.
25. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov və başqaları. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı, 1997.
26. И.Ш.Караев, Ш.А.Агабеков. И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку . 1999.

# MÖVZU 4.

## «DÜNYA BAZAR QİYMƏTLƏRİN PROQNOZLAŞDIRILMASI VƏ TƏHLİLİ»

4.1. Qiymət dinamikası proqnozlaşdırılması xüsusiyyətləri;

4.2. Qiymətlərin təhlili;

4.3. Qiymət proqnozunun hazırlanması;

4.4. Proqnozdan istifadə olunması

Özünü yoxlama sualları;

Testlər;

İstifadə olunan ədəbiyyat siyahısı və məlumat mənbələri.

## 4.1. QİYMƏT DİNAMİKASI PROQNOZLAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

Müasir beynəlxalq ticarətdə qiymətlərin dinamikasının proqnozlaşdırılması bu dinamikaya təsir göstərən bütün iqtisadi amillər nəzərə alınmaqla, konkret əmtəə qruplarının real qiymət dinamikasını öyrənmək əsasında mümkündür.

Qiymət dinamikasını proqnozlaşdrmaq son dərəcə mürəkkəbdir. Dünya qiymətlərinin səviyyəsinin proqnozu ehtimal xarakteri daşıyır. Əsas və köməkçi qiymətəmələgətirən amillərin uzlaşması o qədər çoxcəhətlidir ki, birmənalı proqnoz variantının alınması praktiki olaraq mümkün deyildir. Onu demək kifayətdir ki, 70-ci illərin əvvəlinə mövcud olan proqnozlardan heç biri mineral xammala və hər şeydən əvvəl, neftə 70-ci illərin ortalarında baş vermiş sıçrayışlı qiymət artımını əvvəlcədən deyə bilmədi. Bununla əlaqədar olaraq dünya qiymətləri proqnozlarının elmi cəhətdən əsaslandırılmasının gücləndirilməsi vacib və təxirəsalınmaz vəzifə olaraq qalır.

**Qiymət dinamikasının proqnozu bazar konyunkturunun proqnozu ilə son dərəcə sıx bağlıdır.** Konyunktura – bazarda tələb və təklif arasında nisbəti xarakterizə etməklə əmələ gələn iqtisadi vəziyyətdir: qiymət səviyyəsi, əmtəə ehtiyatları, sahə üzrə ehtiyatlar və digər iqtisadi göstəricilər. Bunların arasında ən başlıcaları tələb və təklif arasında nisbət və bu nisbətlə bağlı olan əmtəənin qiymətidir. Konyunkturanın proqnoz hüdudları (proqnozu aparılan müddət) il yarımdan yuxarı deyil, çünki müasir bazar üçün xarakterik olan sürətli dəyişmələr üzündən daha uzunmüddətli proqnozlar az etibarlı olurlar.

Tələb yalnız tədiyyə qabiliyyətli tələb kimi, müəyyən **qiymətlərlə** alıcının pul ödəməyə hazır olduğu əmtəənin həcmi kimi nəzərdən keçirilir**.** Təklif – istehsalçıların müəyyən qiymətlərlə satmağa hazır olduğu əmtəənin həcmidir.

**Qiymət, «əmtəə-pul» mübadiləsi nisbətini əks etdirməklə bazardakı vəziyyəti daha etibarlı və universal göstəricisidir.** Aparıcı ölkələrdə (müəyyən əmtəənin ayrı-ayrılıqda istehsalçıları, istehlakçıları və ixracatçıları olan ölkələrdə) topdansatış və ixracat qiymətlərinin dinamikası (onların indekslərinin əsasında) nəzərdən keçirilir. Qiymətlərin dəyişməsinin əsas səbəbləri, onların yeni texnologiyanın meydana çıxması ilə, xammal və yarımfabrikatların qiymətlərinin dəyişməsi, əmək məhsuldarlığının artımı, inflyasiyanın təsiri, valyuta məzənnələrinin dəyişməsi ilə əlaqəsi, habelə ticarətin metod və formaları təhlil olunur. Qiymət sahəsində rəqiblərin siyasəti, qiymət-əmələgəlmənin dövlət tənzimlənməsi açıqlanır. Əsas istehsalçı ölkələrdə (ixracatçılarda) və istehlakçı ölkələrdə (idxalçılarda) maraq doğuran əmtəələrə qiymətlərin səviyyəsi müqayisə edilir.

Əmək tutumu prosesini azaltmaq məqsədilə VNİKİ-də qiymət konyunkturunu (əsas təhlil obyektini) proqnozlaşdırmaq üçün çoxamilli statistik metodlardan, xüsusilə də çoxaddımlı reqressiya təhlili metodundan istifadə olunur. Bundan başqa, hesablamalarda seqmentli reqressiya və başlıca komponentlər metodları tətbiq olunur. Bütün bunlar digər proqnoz üsulları, o cümlədən də məhdud dərəcədə EHM-in tətbiqini nəzərdə tutan üsullarla yaxşı uzlaşır. Bu metodlar sırasına öz sadəliyi ilə adamı cəlb edən «Delfi» metodu aiddir. Həmin metodun iştirakçıları öz proqnozlarını təkcə statistik informasiyalar əsasında deyil, həm də digər amillərin, o cümlədən intuitiv qiymətləndirmələrin (ekspert qiymətləndirmə metodu) təsiri altında verirlər. Bu metodika universal hesab edilir. «Delfi» metodu maşın və avadanlıq bazarının proqnozlaşdırılması üçün tövsiyə olunur.

Xammal əmtəələri üzrə dünya bazarlarının proqnozuna gəldikdə isə, demək lazımdır ki, burada əsasən riyazi modellər müvəffəqiyyətlə istifadə

olunur. Onların köməyilə VNİKİ-də artıq on ildən çoxdur ki, dünya qiymətlərinin səviyyəsi və xammal əmtəələrinin istehlakı haqqında kifayət qədər obyektiv, etibarlı proqnozlar alırlar. Mis, sink, alüminium və natural kauçuk bazarları üçün reqression tipli çoxamilli iqtisadi-riyazi modellər, həmin əmtəələr üzrə dünya qiymətlərinin proqnozlaşdırılmasında müvəffəqiyyətlə tətbiq edilmişdir.

Bütün proqnozlar dünya bazarında qiymət sahəsində baş verən proseslər haqqında təxminən informasiya verirlər. Lakin, müasir dünyada qiymətlərin dəyişməsi keçmişə nisbətən daha intensiv baş verir və bəzən də partlayış xarakteri daşıyır, ona görə də istənilən proqnoz qiymətləndirmələr, dünya təsərrüfatında meydana çıxan yeni faktların və şəraitin təsirindən şübhə altına düşə bilər.

Beynəlxalq əmək bölgüsünün dərinləşməsi, elmi-texniki tərəqqinin sürətlənməsi, dünya iqtisadiyyatının ayrı-ayrı hissə və hadisələrinin qarşılıqlı əlaqəsinin və qarşılıqlı asılılığının artması, böhran hallarının daha da inkişafı dünya təsərrüfatının potensial olaraq daha yüksək dərəcəli qeyri-sabitliyinə aparır. Dünya bazarında nisbətən uzun müddətli sakitliyin qorunub saxlanması ehtimalı daim azalır. Dünya bazarında potensial qeyri-sabitliyin əlamət və amlləri, elmi –texniki tərəqqinin təsiri altında iqtisadiyyatın, elm və texnikanın müxtəlif sahələrində prinsipial çevrilişlərin baş verəsi olur. Bütün bunlar dünya təsərrüfatının struktur və nisbətlərində daimi düzəlişlər aparır və eyni zamanda dünya bazarında qiymətin vəziyyətini dəyişdirir.

Kapitalist bazarında dünya qiymətlərinin dinamikasını daha uzunmüddətli perspektivə proqnozlaşdırmaq çox mürəkkəbdir. Bu işi YEK və YUNKTAD-ın mütəxəssislri görürlər, lakin bu proqnozların təxminiliyi lap çoxdur, belə ki, qiymətəmələgətirən amillərin miqdarı çox olduğundan onların qiymətlərə təsiri çox mürəkkəb və ziddiyyətlidir.

Dünya iqtisadiyyatında və ticarətində inkişaf templərini və struktur irəliləmələri modelləşdirərkən YEK və YUNKTAD-ın tərtib etdikləri dünya qiymətlərinin proqnozlarına istinad edilir. Daha dəqiq proqnoz qiymətləndirmələri (iki variant üzrə bazis və sürətli artım üzrə) YUNKTAD-ın katibliyində hazırlanır. 1988-ci ildə yerinə yetirilmiş proqnoz variantında nəzərdə tutulurdu ki, 1986-1990-cı illərin tənəzzülündən sonra 90-cı illərdə yanacaq-energetika əmtəələrinin qiymətlərində sürətli artım müşahidə olunacaqdır ki, bu da iqtisadi konyunkturanın ümumi candanması və həmin resursların artmaqda olan qıtlığı ilə əlaqədardır. İnvestisiya qoyulmayan hazır məmulatlara və xammal əmtəələrinə qiymətlərin artımı ərzaq və avadanlığa qiymətlər artımını xeyli dərəcədə ötüb keçəcəkdir. Sürətli inkişaf ssenarisinə görə, xammala qiymətlərin qabaşlayıcı artım templərinin mümkünlüyü nəzərdə tutulurdu ki, bu da inkişaf etməkdə olan ölkələr üçün əlverişli nəticələr əldə etməyə imkan verəcəkdi.

YEK-də hazırlanmış ümumiqtisadi perspektiv özündə dünya bazarındakı vəziyyətə dair bir neçə alternativ proqnozları birləşdirir. Minimum varianta görə neftin nominal qiyməti 2009-cu ildə bir barrel üçün 80 dollara çatacaq. Lakin 1990-cı ilin dəyişməz qiymətləri ilə yenidən hesablanmaqla və dolların qiymətdən düşməsi nəzər alınmaqla həmin əmtəənin bir barrelinin real qiyməti artmayaraq 16-17 dollar təşkil edəcəkdir. Proqnozun maksimum variantına görə neftin dünya qiyməti nominal hesablamalarla 2009-cu ildə 44 dollara qədər artacaqdır, real hesablamalarla isə onun bir barrelinin qiyməti cəmi 75 dollar təşkil edəcəkdir ki, bu da 1990-cı ildəkindən aşağı deməkdir.

Konkret xarici ticarət kontraktlarının qiymətlərinin müəyyən edilməsi üçün bazis rolunu oynayan dünya bazarında əmtəə qiymətlərinin təhlilinə və proqnozuna həmişə böyük diqqət verilir.

Müasir şəraitdə xarici iqtisadi əlaqələrin səmərəliliyinin daha da genişlənməsi və yüksəldilməsi üzrə qoyulmuş vəzifələrin yerinə yetirilməsi işində həmin məsələlərin əhəmiyyəti daha da artır.

Dünya bazar qiymətlərinin öyrənilməsində başlıca məsələlər aşağıdakılardır:

Birincisi, təhlil edilən müddətdə baş verən dəyişikliklərin qiymətləndirilməsi də daxil olmaqla faiz və ya kəmiyyət ölçü vahidlərində verilmiş anda qiymət səviyyəsinin müəyyən edilməsi, ikincisi, proqnozun işlənib hazırlanması, yəni perspektiv üçün qiymət təmayülünün tərtib edilməsi.

Dünya bazar qiymətləri yuxarıda artıq deyildiyi kimi az və ya çox dərəcədə istənilən idxal və ya ixrac kontraktı qiymətlərinin müəyyən edilməsi üçün bazis olduğundan dünya qiymətlərinin təhlil və proqnozu məsələlərinə daha dəqiq şəkildə baxılmalıdır.

## 4.2. QİYMƏTLƏRİN TƏHLİLİ

Qiymətdə baş verən dəyişikliklərin aşkara çıxarılması və dərk edilməsi üçün təkcə qiymətləri təhlil edilən konkret bazarda vəziyyət deyil, eləcə də qarışıq bazarların və ümumtəsərrüfat konyunkturunun inkişaf meyllərini bilmək çox vacibdir. Bu məlumatlar qiymətlərdə inflyasiyanın, rəqabətin, istehsal gücünün yüklənməsi dərəcəsinin, tədiyyə şərtlərindəki dəyişikliklərin və digər amillərin təsirini nəzərə almaq imkanı verir.

Qiymətlərin təhlili həm də əmtəənin keyfiyyətini və onun digər texniki-iqtisadi parametrlərini xarakterizə edən göstəricilərin nəzərdən keçirilməsini tələb edir.

Beləliklə, qiymətlərin təhlilinə baş verən dəyişikliklərin kəmiyyət qiymətləndirilməsindən başlayaraq qiymət səviyyəsində bu və ya digər dəyişiklikliyi doğuran amillərin aşkara çıxarılması və nəzərdən keçirilməsi kimi kompleks məsələlər daxildir. İstehsal texnologiyasında, əmtəənin istehsalı şəraitində, həmin əmtəələrlə beynəlxalq ticarətin həcm və istiqamətində, firmanın strukturunda və sairədə baş verən dəyişikliklərin öyrənilməsi qiymətlərin dəyişməsi təmayülünü daha aydın başa düşməyə imkan verir. Buradan belə bir nəticə çıxır ki. qiymətlərin təhlilinin əsası – əmtəənin istehsalı və reallaşması sferasında baş verən dəyişikliklərin öyrənilməsidir. İstehsal gücünün yüklənməsi dərəcəsinin və elmi-texniki tərəqqinin təsiri altında istehsal texnologiyasının yeniləşməsi proseslərinin tədqiqi də çox vacibdir.

Beynəlxalq əmtəə dövriyyəsinin dəyişən strukturu və həcmi, dünya ixracatında (ümumi və ya hər hansı bir aylıq əmtəə qruplarının) bir çox ölkələrin xüsusi çəkisinin artması və digərlərinin payının azalması, eləcə də bu dəyişmələrin səbəbləri – bütün bunlar qiymət tğəhlilində nəzərə alınmalıdır.

Dünya bazar qiymətlərinə valyuta məzənnəsinin tərəddüdü də daxil olmaqla pul-kredit sferası da əhəmiyyətli dərəcədə təsir göstərir.

Yuxarıda qeyd edilən amillərin qiymətlərə təsirinin kəmiyyət qiymətləndirilməsi bu və ya digər əmtəənin qiymət səviyyəsini və dinamikasını xarakterizə edən müvafiq göstəricilərin cəlb edilməsi yolu ilə aparıla bilər. Əmtəənin qiymətlərinə ayrı-ayrı amillərin təsiri dərəcəsi, müddətliyi (davamlılıq) və vaxtı (zamanı) həmin əmtənin istehsalı, dövriyyəsi, istehlakı prosesində baş verən konkret şərtlərlə müəyyən olunur. Bu isə həmin əmtəənin ictimai təkrar istehsalı prosesində hansı yeri tutmasından, müvafiq bazarda ümumtəsərrüfat konyunkturu və situasiyası arasında qarşılıqlı asılılıq və əlaqələrin obyektiv şəkildə mövcudluğundan, bazarda konyunkturanın inkişaf xüsusiyyətindən çox asılıdır.

Əmtəənin özünü yaxşı bilmədən qiymətlərin səviyyəsi haqda düzgün təsəvvür yaratmaq olmaz. Buna görə də qiymətlərin təhlilinə keçməzdən əvvəl, qiymətləri müəyyən olunan əmtəələrin keyfiyyət xarakteristikası ilə tanış olmaq lazımdır. Bilmək lazımdır ki, verilmiş əmtəənin istehlakçısı hansı təsərrüfat sahələridir və hansı həcmdə istehlak edirlər, əmtəənin ayrı-ayrı növlərinə tələb və təklifinin xüsusiyyəti necədir?

Məsələn, taxta-şalban bazarında vəziyyəti öyrənərkən həmin əmtəənin başlıca istehlakçıları olan tikinti sənayesinin, gəmiqayırmanın, sellüloz-kağız, tara-qablaşdırma və mebel sahələrinin inkişafını təhlil etmək lazımdır. Dizel bazarında çıxış edərkən müxtəlif gclü dizellərin tətbiqi sahəsinin və ona olan tələbin xüsusiyyətinin nəzərə alınması zəruridir.Stasionar və gəmi dizellərinə qiymətlərin və ona olan tələbin dinamikası bir-birindən çox fərqlənir və bu qrupp dizellərin istehsalı və istifadəsi xüsusiyyətini bilmədən həmin növ avadanlığa olan tələb həcmində və qiymət səviyyəsində baş verən dəyişiklikləri başa düşmək və bu dəyişiklikləri əvvəlcədən görmək çox çətindir. Əlvan metallar bazarı araşdırılarkən, burada  istehsalın, ticarətin və qiymətlərin dinamikasında elə spesifik müəyyənedici keyfiyyətlər nəzərə alınmalıdır ki, onların vasitəsilə əlvan metallar bir sıra sənaye sahələrində geniş şəkildə istifadə olunur. Belə ki, yüksək elektrik keçiricisinə malik olan miss elektrotexnika sənayesində xüsusilə böyük rol oynayır.

Paslanmaya və üzvi turşuların təsirinə qarşı böyük sabitliyi ilə fərqlənən qalay başlıca olaraq konserv sənayesi tərəfindən istehlak edilir.

Buna görə də miss və qalay üzrə dünya qiymətlərinin düzgün təhlili və proqnozu elektrotexnika və ya konserv sənayesində işin vəziyyətini bilmədən ağlasığılmazdır.

Beləlikılə, hansı bir əmtəənin seçilməsindən  asılı olmayaraq onun xarakteristikasını və başlıca tətbiq sahələrini bilmək zəruridir. Bu zaman həmin əmtəənin bu və ya dicər sahədə istehsalın ümumi həcmində xüsusi çəkisi

heç də dəyişilməz qalmır və texniki-tərəqqinin və digər amillərin təsiri altında müəyyən vaxt ərzində çox dəyişilir.

Buna görə də hər bir əmtəənin istehlakı sferasında baş verən dəyişikliklərə daim riayət etmək lazımdır. Bu dəyişikliklərtəkcə istehsal və reallaşma həcminə deyil, həm də qiymətlərə bilavasitə təsir göstərir.

Beləliklə, baş verən dəyişikliklərin səbəblərinin və ya nəzərdə tutulan tərəqqinin davamlılığının, müddətliliyinin düzgün başa düşülməsi üçün təkrar istehsalın tsikli gedişində konkret əmtəələr olan tələb əsas əmtəə qrupları üzrə tələb və təklifin hərəkətini təhlil etməklə araşdırılmalıdır.

**İstehsal alətləri.** Bu əmtəə qruppu üçün bir qayda olaraq təklifin tələbə uyğunlaşması tempinə bilavasitə təsir göstərən hazırlanmanın uzu niş müddətliyi xarakterikdir: İş müddəti nə qədər uzundursa, təklifin tələbə uyğunlaşması bir o qədər yavaş gedir və əksinə hazırlanma müddəti nə qədər qısadırsa uyğunlaşma bir o qədər tez baş verir. Məsələn, elektrik stansiyaları üçün energetika avadanlıqlarının – güclü boru generatorların, buxar sobalarının, atom reaktorlarının hazırlanması müddəti – iki – üç il təşkil edir. Metal emal edən avadanlıqların böyük bir hissəsinin istehsal tsili çox uzun müddətlidir. Bununla yanaşı, məsələn, paltaryuyan maşının hazırlanması müddəti bir neçə saatdan ibarətdir. Hazırlanma müddətində belə fərq istehsal və təklifin tamamilə müxtəlif dinamikasını şərtləndirir.

Metal emal edən avadanlıqların hazırlanmasının uzunmüddətliyi üzündən ona olan tələbin aşağı düşməsi istehsalın və təklifin ləng ixtisarını doğurmur. Tələbin aşağı düşməsi halında, yüksək tələb dövründə əvvəllər alınmış sifarişlərin yerinə yetirilməsi hesabına istehsalın həcmi artır.

Hətta tələbin kəskin aşağı düşməsi zamanı da iri bahalı avadanlığın hazırlanmasını axıra çatdırmaq, həmin hazırlıq işinin haradasa yarıda kəsilməsinə və sadəcə olaraq sərf olunmuş materialların və əməyin itirilməsinə nisbətən daha məqsədəuyğundur. Məsələn, gəmilərin və böyük güclü boru

generatorların, prokat poladların və uzun müddətli istehsal tsiklinə malik digər maşın və avadanlıq növlərinin hazırlanmasının dayandırılması ilə təkcə iş kəsilmir, həm də istehsalın birləşmiş (əlaqəli) aktı da kəsilir. Əgər tikinti artıq davam etdirilmirsə, demək olar ki, onun istehsalı zamanı istehlak olunmuş istehsal və əmək vəsaitləri yersiz sərf olunmuşdur. Məhz buna görə də aşağı ümum təsərrüfat konyunkturası müddətində tələbin aşağı düşməsi zamanı uzunmüddətli istehsal tsiklinə malik əmtəələrin istehsalı davam etdirilir və hazırlanma müddəti nə qədər uzundursa, tələbdə baş verən dəyişikliklərin, istehsalın və təklifin həcmində əks olunması üçün daha çox vaxt tələb olunur.

İctimai istehsalın I (istehsal təyinatlı məhsullar istehsalı) və II (geniş istehlak əmtəələri istehsalı) bölmələrinin sahələri üçün istehsal alətlərinə olan tələb və təklifin dinamikasında da bəzi fərqlər vardır.

Birinci bölmə sahələri üçün bir çox istehsal vasitələrinin buraxılışı müxtəlif dövlət-inhisarçı tədbirlərin güclü təsiri altındadır. Bunların siyahısına – hərbi sifarişlər, yəni sənaye sahələrinin inkişafı üçün (müxtəlif növ proqnozların yerinə yetirilməsinə olan büdcə ayırmaları), atom elektrik stansiyalarının tikintisi, yolların salınması üçün görülən tədbirlər daxildir. Həmin tədbirlərin təsiri iqtisadi tənəzzül şəraitində tələbin aşağı düşməsini bir qədər azaldır.

İstehsal vasitələri bazarında dövlət inhisarçı tədbirlərin təsiri II bölmənin sahələri üçün bir qədər zəifdir. Hərbi xərclərin səviyyəsində dəyişiklik, sözsüz ki, ayaqqabı sənayesi üçün istehsal avadanlıqlarının həcminə nisbətən, dəzgahqayırma və ya elektrotexnika sənayesi üçün istehsal avadanlıqlarının həcminə daha çox təsir edəcəkdir. Eyni zamanda II bölmə üçün istehsal vasitələri bazarı I bölmə üçün istehsal vasitələri bazarına nisbətən əhalinin tədiyyə qabiliyyətli tələbinin dinamikasından daha çox asılıdr. Belə ki, ümumtəsərrüfat konyunkturasının pisləşməsi, məcmu tələbin aşağı düşməsi energetika avadanlığı bazarına daha güclü təsir edəcəkdir. Nəticə etibarilə II

bölmə sahələri üçün istehsal vasitələrinə olan tələb, I bölmə üçün istehsal vasitələrinə olan tələbə nisbətən istehsal tsiklinin gedişində əmtəələrə olan tələb dəyişilməsinin ümumi qanunauyğunluğundan daha az kənarlaşır.

**Xammal və yarımfabrikatlar.** I və II bölmələrdə istifadə olunan xammal və yarımfabrikatlara olan tələb və təklifin hərəkəti istehsal vasitələrinə olan tələb və təklifin hərəkətini izləyir. Doğrudur, burada yalnız bir nəzərə çarpacaq fərq mövcuddur: xammal və yarımfabrikatlara olan tələb və təklifin bütün dəyişmələri həddindən artıq tez və kəskin baş verir. Bu, onunla izah olunur ki, mineral xammalın alınmasının istehsal dövrü istehsal avadanlığının hazırlanması dövründən həddindən artıq qısadır.

Bundan başqa onu da nəzərə almaq lazımdır ki, üzvi əmələgəlmiş xammal və yarımfabrikat təklifinin həcmi və dinamikası nəzərə çarpacaq dərəcədə onun əmələ gəldiyi sferasının xüsusiyyətlərindən asılıdr. Məsələn, taxta-şalban bazarında yeni təklif ancaq meşə tədarükü mövsümünün başlanmasından sonra əmələ gələ bilər. Kauçuklu ağac lateki (kauçuk hazırlanan kauçuk daşıyan ağacın şirəsi) 6-7 sonra yaşından verilir. Buna görə də natural kauçukun istehsalının genişlənməsi qeyd olunmuş dövrdə müəyyən olunur. Kakao-baboa bazarında təklifin artması yeni ağacların yetişdirilməsi üçün zəruri olan vaxtla bağlıdır. Ağaclardan məhsulun yığımı təqribən əkindən 5-7 il sonra başlayır.

Buna oxşar vəziyyətə verilmiş əmtəə təklifinin həcminin dəyişilməsi müddətinin, həmin əmtəənin istehsalının müddətilə müəyyn olunan bir çox bazarlarda təsadüf edilir. Belə əmtəələr üçün təklifin tələbin dəyişməsinə uyğunlaşması yavaş-yavaş baş verir v qeyd olunmuş istehsal dövründən asılı olur.

Qeyri-üzvi xammal və emaledici sənayenin məhsulunun bir çox növlərinə olan tələbə təklifin uyğunlaşmasında iş başqa cür qurulur. Neftin, filizin, kömürün hasilatı, qara metalların istehsalı tələbə müvafiq olaraq tez bir

zamanda dəyişilir. Məsələn, kapitalist ölkələrinin qara metallurgiya sənayesində bir qayda olaraq istehsal güclərinin qeyri-qənaətbəxş yüklənməsi müşahidə olunur. Belə bir şəraitdə tələbin artması halında poladın əridilməsinin genişləndirilməsi və bazarda onun təklifinin yüksəldilməsi üçün çox vaxt tələb olunmur.

Əksinə , tələbin aşağı düşməsi zamanı istehsal həcmi əridilmənin azaldılması yolu ilə tez bir zamanda ixtisar oluna bilər.

**Yaşayış üçün zəruri vasitələr.** Bu qrupp əmtəələrin istehsalının həcm və quruluşu ölkələrdən asılı olaraq çox geniş diapozonda tərəddüd edir. Hər bir ölkənin milli və iqlim xüsusiyyətləri nəzərə alınmaqla sənaye və mədəni səviyyə nə qədər yüksəkdirsə, bir qayda olaraq yaşayış minimumu və yaşayış vasitələrinin istehlakı bir o qədər çox olacaqdır. Və əksinə, inkişaf səviyyəsi nə qədər aşağıdırsa, istehlak həcmi də bir o qədər az olur. Lakin yaşayış vasitələrinin istehlakı və müvafiq olaraq onlara olan tələb və təklif böyük tərəddüdlərə məruz qalmır. Bu da həmin qrupp əmtəələrin böyük bir hissəsinə tədiyyə qabiliyyətli tələbin nisbətən sabitliyi ilə izah olunur.

İnsanlar tərəfindən yeyinti məhsullarının istehlakı mümkünlüyü məhduddur və fizioloji minimum və maksimum arasında fərq isə çox deyildir. Tsiklin gedişində yaşayış vasitələrinə olan tələbin tərəddüdlüyü məhz yuxarıdakı fikirlə izah olunur. Məsələn, əgər çörəyin qiyməti hətta 10 dəfə azaldılarsa, inkişaf etmiş kapitalist ölkələrində onun istehlakı həcmi çətin ki, çox artsın.

Uzunmüddətli istifadə olunan əmtəələr. Bu əmtəə qrupunun istehsal həcminə birbaşa və bilavasitə təsir edən əsas amil əhalinin tədiyyə qabiliyyətli tələbinin səviyyəsidir. Buna görə də uzunmüddətli istifadə olunan istehlak əmtəələrinin qiymətlərinin təhlili zamanı tədiyyə qabiliyyətli tələbdə baş verən dəyişikliklərin, eləcə də istehsalın strukturunda baş verən dəyişikliyin nəzərə alınması vacibdir.

Qeyd edildiyi kimi, yaşayış üçün zəruri vasitələrə olan tələb və təklif çox az dəyişilir. Belə ki, tədiyyə qabiliyyətli tələbin səviyyəsində baş verən dəyişiklik bu əmtəə qrupuna müqayisəli dərəcədə çox az təsir göstərir. Uzunmüddətli istifadə olunan əmtəələrin bazarında tamamilə başqa vəziyyət müşahidə olunur. Tədiyyəqabiliyyətli tələb səviyyəsinin cüzi dərəcədə aşağı düşməsi (ixtisarı) tez bir zamanda bu qrupp əmtəələrin istehsalı və satışı həcmində özünü büruzə verir. Bu, onunla izah olunur ki, minik avtomobilləri, televizorlar, soyuducular, mebellər kifayət qədər bahadırlar, həmçinin yeyinti məhsulları və paltar kimi birinci dərəcəli zəruri məhsul deyildirlər. Buna görə də böhran zamanı və ya hətta böhranqabağı vəziyyətdə istehsal həcminin azalması, işsizliyin artımı və tədiyyəqabiliyyətli tələbin aşağı düşməsi gözlənildikdə əhali ilk növbədə uzunmüddətli istifadə olunan əmtəələrin alışını azaldır və ya tamamilə dayandırır. Ümumtəsərrüfat konyunkturasının canlanması zamanı zəruri yaşayış vasitələrinin alınmasına nisbətən, uzunmüddətli istifadə olunan əmtəələrin alınmasının genişlənməsi imkanı daha çoxdur. Və bu genişlənmə həm iqtisadi tənəzzül müddətində ödənilməyən tələb hesabına, həm də alıcı kontingetinin bir qdər mütləq artımı hesabına baş verir.

Uzun müddətli əmtəələrdən birinin – avtomobillərin satış həcminin illər üzrə dəyişməsi (xüsusilə ABŞ üçün) sənaye istehsalınınümumi indeksinin dəyişməsinə uyğun gəlir: iqtisadi tənəzzül illərində ümumi-təsərrüfat konyunkturasının ixtisarı və canlanması dövründə artımı.

Yaşayış üçün zəruri olan vasitələrlə – ərzaq məhsulları ilə iş tamamilə başqa cürdür. Ümumi konyunkturanın dəyişməsi zamanı onların satış həcmi demək olar ki, dəyişmir. Satışın dəyərinin illər üzrə çox da nəzərə çarpmayan artımı istehlakın genişlənməsini deyil, başlıca olaraq qiymətin inflyasiyalı artımını əks etdirir.

Əmtəələrin müxtəlif qruplarına tələb və təklifin hərəkətinin xüsusiyyətləri yuxarıda qeyd olunanlardan ibarətdir.

Konkret əmtəələrin istehsalı və istehlakı xüsusiyyətinin öyrənilməsi ayrı-ayrı əmtəə bazarlarında qiymətlərin hərəkətində baş verə bilən dəyişiklikləri daha yaxşı başa düşməyə və əvvəlcədən görməyə imkan verir. Fərz edək ki, təbii kauçuka və dəmir filizinə tələb 50% artıb. Dəmir filizi sənayesinin inkişafının müasir səviyyəsində filiz bazarındatəklifin artan tələbə uyğunlaşması nisbətən tez baş verir və qiymət səviyyəsində nəzərə çarpacaq dəyişmə baş verməyə bilər. İstehsalının genişlənməsi üçün xeyli dərəcədə çox vaxt tələb olunan təbii kauçukla iş başqa cür qurulur. Artan tələbə istehsal həcmini tez bir zamanda uyğunlaşdırmanın qeyri-mümkünlüyü təbii olaraq öz ardınca qiymətin kəskin artımını doğurur.

Deyilənlərdən belə bir nəticə çıxarmaq olur: bütün digər şərtlərin bərabərliyi zamanı təklifin dəyişən tləbə uyğunlaşması nə qədər tez baş verərsə, qiymət tərəddüdü bir o qədər az olur və əksinə, o nə qədər yavaşdırsa, qiymət tərəddüdü daha çox olur.

## 4.2.QİYMƏT PROQNOZUNUN HAZIRLANMASI

Qiymətlərin proqnozlaşdırılması xaricdə sənaye firmaları eləcə də müxtəlif kommersiya və elmi-tədqiqat təşkilatları tərəfindən aparılan bütün bazar tədqiqatlarında mühüm yer tutur. Gələcək dövr üçün qiymətin hərəkəti perspektivinin qiymətləndirilməsi bazara çıxış amilin müəyyən edən həlledici şərtlərdən biridir. Qiymət proqnozunun vəzifəsini aşağıdakı kimi ifadə etmək olar: proqnozlaşdırılan dövr üçün, verilmiş bazara tsiklik və qeyri-tsiklik xarakterli müxtəlif amillərin təsirini əks etdirən bir sıra digər göstəricilərin nəzərdə tutulan dəyişiklikliyi əsasında qiymətlərin hərəkətinin qiymətləndirilməsi.

Proqnozun hazırlanması çox mürəkkəb və çətin bir prosesdir. İş ondan ibarətdir ki. müasir inkişaf şəraitində tələbi təşkil edən təmayüllər tez-tez

dəyişmir, yəni keçmişdə qiymət dinamikasının müəyyən edən amillərin qarşılıqlı əlaqələri gələcəkdə tamamilə başqa cür ola bilər. Proqnozun hazırlanması çətinliyi həm də kifayət qədər tam və etibarlı məlumatların alınmasının mürəkkəbliyi ilə şərtlənir. İlkin məlumatlara xas olan aşağıdakı çatışmamazlıqları qeyd etmək olar:

1) Əmtəənin reallaşması haqqında kəmiyyət və dəyər məlumatları həmişə kifayət qədər tam və dəqiq olmur.
2) Proqnozun tərtib edilməsi zamanı istifadə olunan müxtəlif iqtisadi amillər həmişə lazımi dərəcədə böyük bir dəqiqliklə təsvir edilmir və gecikdirilməklə nəşr olunur.
3) Ayrı-ayrı sahələr üzrə məlumatlar çox vaxt köhnə və müqayisəyə gəlməyən olur.

Bundan başqa, proqnozların tərtib edilməsi zamanı firma və korporasiyaların informasiyalarından istifadə edilir ki, onlar da yeni avadanlıq haqqında, öz istehsalının çatışmayan cəhətləri və ya daha perspektivli əmtəələrin yaradılması haqqında məlumatları bilərəkdən gizlədirlər. Məhz buna görə ankentləşdirmənin yayılmış metodları ilə alınan informasiyanı tam və doğru saymaq olmaz. Bu isə öz növbəsində amillərin özünü doğrultmayan seçilməsinə gətirib çıxarır. Sonra isə bu amillərin əsasında proqnoz qurmağa cəhd edilir.

Hazırda proqnozlaşdırmanın çoxlu növləri mövcuddur ki, onları da aşağıdakı kimi qruplaşdırmaq olar: ekstrapolyasiya, ekspert qiymətləndirmə, iqtisadi-riyazi metodlar və birinci üç qrupa daxil olan metodların müxtəlif şəkildə uzlaşdırılması.

Ekstrapolyasiya metodları. Ekstrapolyasiya praktiki olaraq keçmiş dövr ərzində bazar konyunkturasını xarakterizə edən mühüm göstəricilərin statistik sıralarının işlənməsi yolu ilə həyata keçirilir. Keçmişdə bazarın inkişaf meylləri və sürətini müəyyən edən əsas səbəblər təhlil edilir. Həmin təhlilin əsasında proqnozlaşdırılan dövrə statistika sıraları tərtib olunur.

Keçmişdə baş verən meyllərin proqnozlaşdırılan dövrə köçürülməsinin müxtəlif üsulları mövcuddur. Məsələn, düzxətli statistik ekstrapolyasiya keçmiş dövrlərin sadə mexaniki uzadılmasını nəzərdə tutur. Lakin faktiki proqnozlaşdırılan dövrün şərtlərini tamamilə təkrar etmədiyindən iqtisadi proqnozlaşdırma zamanı belə bir ekstrapolyasiyanın tətbiqi mümkünlüyü məhdudlaşır. Buna görə də keçmişin qiymət səviyyəsini və dinamikasını müəyyən edən amillərin əmələ gəlməsi mümkünlüyünü uçota almaqla keçmiş dövrlərdə düzəliş aparılmasını nəzərdə tutan ekstrapolyasiya geniş yayılmışdır.

**Ekspert qiymətləndirmə metodları** keçmişdə ümumtəsərrüfat və əmtəə konyunkturasının inkişaf meylini öyrənməklə verilmiş anda həqiqi vəziyyəti təhlil edən mütəxəssislərin biliklərinin, təcrübələrinin intuisiyalarının istifadə edilməsinə əsaslanır. Optimal ekspert qiymətləndirmə, həm bir neçə mütəxəssis arasında fikir mübadiləsi və bu əsasda vahid qiymətin tanınmasına, həm də bir-birilə münasibətdə olmayan bir neçə mütəxəssisin ekspert qyimətlərinin emalına əsaslanır.

Bununla əlaqədar «beyin hücumu» metodunu qeyd etmək olar. Bu zaman proqnoz kollektiv mütəxəssis qruppu tərəfindən hazırlanır. Qrupla ekspert qiymətləndirmənin digər müxtəlif növlü metodlarına «Delfi» metodu aiddir. Bu, 60-cı illərin əvvəlində «Rend» amerikan korporasiyası tərəfindən hazırlanmışdır. Bu zaman bir sıra ekspertlərin yazılı sorğusu yolu ilə hər bir mütəxəssisin proqnoz qiymətləndirilməsi aşkar edilir. Ekspertlər arasında müzakirələrin və fikir mübadiləsinin aparılması istisna edilir. Sorğuların nəticəsində isə bal qiymətləndirilməsini nəzərə alaraq hər bir ekspertin etibarlılığı müəyyən olunur.

3. İqtisadi riyazi metodlar. Bir sıra keçmiş illərin məlumatları əsasında qiymət (funksiyanın göstəricisi) və əmtəə bazarının digər konyunktur göstəriciləri (arqument göstəriciləri) arasında mürəkkəb və ya sadə funksional asılılıqları əks etdirən riyazi modellər qurulur.

Yuxarıda qeyd edildiyi kimi, istənilən bazarın konyukturasının inkişafına çoxlu sayda müxtəlif amillər təsir göstərir. Eyni zamanda heç bir model konyuktur əmələ gətirən amillərin hamısını özünə daxil etmək halında deyildir. Buna görə də iqtisadi-riyazi proqnozlaşdırmanın müvəffəqiyyətinin ən mühüm şərtlərindən biri təkcə keçmişə deyil, həm də gələcəyə aid olan vacib amillərin qiymət dinamikasına təsirini əks etdirən göstəricilərin seçilməsidir.

Bu məsələnin həll edilməsi üçün, hər şeydən əvvəl, çoxlu sayda göstəricilərdən elələrini seçmək zəruridir ki, onlar qiymətlə daha sıx korrelyasiya əlaqələrinə malik olsun. Bu qiymət proqnozu hazırlanan bazarın konyukturasının bir sıra xarakterik göstəriciləri arasında korrelyasiya əmsallarının hesablanması yolu ilə edilə bilər.

Korrelyasiya əmsalının hesablanması üçün neçə və hansı arqument göstəricilərinin seçilməsi məsələsi öyrənilən halların keyfiyyətin təhlil etməklə həll olunur.

Korrelyasiya əmsalının hesablanması, sonra isə korrelyasiya-reqressiv tənliklərin qurulması və həll edilməsi seçilmiş göstəricilər arasında qarşılıqlı əlaqələri kəmiyyətcə qiymətləndirməyə və nəticə etibarıilə digər konyuktura göstəricilərinin müvafiq dəyişmələrinin nəticəsi kimsi qiymət dəyişməsini proqnozlaşdırmağa imkan verir.

Yuxarıda qeyd olunanları nəzərə almaqla, hər hansı bir əmtəənin qiymətinin hərəkəti proqnozu aşağıdakı tənliyin həll edilməsi yolu ilə müəyyənləşdirilir. (yalnız asılılığın düzxətli formaları)

$$y = a+b_1x_1 + b_2x_2 + \ldots+b_nx_n$$

burada y – asılı dəyişən (qiymət); $x_1$, $x_2$ …., $x_n$ – müxtəlif müstəqil dəyişənlər (konyunktur göstəricilər sırası, bunların dəyişilməsindən asılı olaraq qiymət dəyişir);

$b_1$, $b_2$,…., $b_n$ – y –in $x_1$, $x_2$…, $x_n$ – dən asılılıq kəmiyyətini göstərən reqressiya əmsalı;

a – $x_1$, $x_2$,…., $x_n$ – dən əlavə digər amillərin qiymətə təsirini nəzərə alan əlavə əmsal.

Göstərici arqumentlərə ($x_1$, $x_2$,….,$x_n$) müxtəlif rəqəm mahiyyətini verərək, yeni proqnoz dövründə bu göstəricilərin dinamikasının qiymətləndirilməsini qurmaqla verilmiş tənliklə proqnozlaşdırılan dövrə qiymətləri hesablamaq olar.

Ekstrapolyasiya, ekspert qiymətləndirilməsi və iqtisadi-riyazi modelləşdirmənin müxtəlif uzlaşmaları.

Qeyd etmək lazımdır ki, məhz həmin metodlar indiki zamanda böyük əhəmiyyət kəsb edirlər. İş ondan ibarətdir ki, hətta EHM-lər kimi səmərəli alətdən istifadə edilən iqtisadi-riyazi metodlar bazasında bütün korrelyasiya əlaqələri hesablanan keçmiş müddətlə müqayisədə proqnozlaşdırılan dövrdə qiymətəmələgətirən metodlarının keçirdiyi dəyişmələri nəzərə almır. Buna görə iqtisadi-riyazi metodların tətbiqi ciddi məntiqi təhlilə və ekspert qiymətləndirməyə uyğun olaraq aparılan zəruri dəyişikliklərlə müşaiyət olunmalıdır. Faktiki olaraq bu metodların istifadəsi ekstrapolyasiyasız ağlasığmazdır. Modelləşdirmə zamanı o, birincisi reqressiya tənliklərinin əmsallarının və parametrlərinin hesablanması və ikincisi, ekzogen (qeyri-iqtisadi) dəyişənlərin müəyyən edilməsi üçün zəruridir.

Digər tərəfdən, ekstrapolyasiya özü də müasir şəraitdə iqtisadi-riyazi modelləşdirmə olmadan qeyri-səmərəlidir. Axı elmi ekstrapolyasiya proqnoza müəyyən düzəlişlərin daxil edilməsini nəzərdə tutur. Həmin düzəlişlər keçmiş dövrlə müqayisədə proqnozlaşdırılan dövrdə iqtisadi şərtlərin dəyişməsi

mümkünlüyünü nəzərə alırlar. Belə məlum olur ki, bu dəyişikliklərin kəmiyyət qiymətləndirilməsi riyazi modelləşdirilmənin köməyilə daha dəqiq şəkildə aparıla bilər.

Buradan nəticə çıxartmaq olar ki, ekstrapolyasiyanın ekspert qiymətləndirilməsinin və iqtisadi-riyazi modelləşmənin müxtəlif cür vəhdəti proqnozlaşdırmanın optimal metodudur. Bu və ya digər əmtəə bazarının xüsusiyyətindən (yuxarıda baxılanlardan başqa) asılı olaraq proqnozlaşdırmanın digər metodları da tətbiq edilə bilər. Məsələn, texniki cəhətdən mürəkkəb, uzun müddətli hazırlanma dövrünə malik olan məmulatların istehsal xərclərinin və qiymətinin perspektivdə qiymətləndirilməsini indiki zamanda xərclər haqd məlumatlarvə onların proqnozlaşdırılan inflyasiya sürətinin köməyilə düzəliş etmək əsasında tərtib etmək olar.

Bu metodun təkmilləşdirilmiş variantı müvafiq komplektləşdirici məmulatların, materialların əldə ediləcəyi konkret zaman intervalını nəzərə alaraq hər bir komplekt üçün ümumi xərclərin müstəqil proqnozlaşdırılmasını nəzərdə tutur. Belə yanaşma son nəticədə digər metodlardan istifadəyə nisbətən istehsala ümumi istehsal xərclərinin daha real proqnozunu qurmağa imkan yaradır. Təkcə xərclərin deyil, həm də qiymətin proqnozlaşması zamanı sürüşkən qiymət düsturundan istifadə nəzərdə tutulur.

Məlum olduğu kimi, bu düsturlar bəzən uzunmüddətli istehsal dövrünə malik sənaye avadanlıqların (nəqliyyat vasitələri də daxil olmaqla) kontrakt qiymətlərinin müəyyən edilməsi üçün tətbiq edilir.

Bu halda sifarişçinin tədarükçü ilə hesablaşmaq istədiyi qiymət avadanlığın hazırlanması dövründə sərf olunan istehsal xərclərində dəyişikliklərdən asılı olaraq müəyyən olunur. Materialların qiymətindən və əmək haqqının dəyişməsindən asılı olan yekun sürüşkən qiymətin düsturu aşağıdakı kimidir.

$$P_1 = P_0\{A\frac{a_1}{a_0} + B\frac{b_1}{b_0}K<C\}$$

Burada $P_1$ – avadanlığın son qiyməti, $P_o$ – avadanlığın bazis qiyməti A – qiymətdə materiallara çəkilən xərcin payı, B – qiymətdə əmək haqqına olan xərclərin payı (A və B qiymətin sürüşkən hissəsini təşkil edirlər), S – qiymətin dəyişməz hissəsi, $a_o$ – materialların bazis qiyməti, $b_o$ – əmək haqqının bazis dərəcəsi, $a_1$ – materialların qiyməti, $b_1$ – sürüşkənliyin hesablanması dövründə əmək haqqı dərəcəsi.

Sürüşkənlik düsturu adlanan bu düsturlar proqnoz məqsədi üçün də istifadə edilə bilər. Proqnoz sürüşkən qiymətlər hesablandığı kimi aparılır. Fərq ondan ibarətdir ki, sürüşkənlik formasında kontrakt qiymətinin müəyyən edilməsi zamanı sifariş avadanlığının hazırlanması dövründə materiala qiymətlərin və əmək haqqı dərəcəsinin hərəkəti haqda məlumatlar qoyulur. Proqnoz zamanı isə bu məlumatlar (nə qədər ki. onlar gələcək dövrə aid edilirlər) da qiymətləndirilmiş olur.

Materiallara qiymətlər və əmək haqqı dərəcəsi haqda məlumatların proqnozunun alınması adətən aşağıdakı qaydada aparılır: keçmiş dövr üçün materiallara qiymətlərin və əmək haqqı dərəcəsinin statistik sıraları qurulur və keçmişdə bu, göstəricilərin hərəkətinin xüsusiyyətlərini və sürətini müəyyən edn əsas səbəblər təhlil edilir. Bu təhlilin əsasında proqnozlaşdırılan dövrə sıralar qurulur.

Müvafiq aylar üzrə, sürüşkənlik dövrü adlanan proqnozlaşdırılan dövrə istehsal xərclərinin statistik sıralarında olan məlumatlar sürüşkənlik düsturunda qoyulur və bu yolla maşınların qiymətlərinin proqnozlaşdırılan dəyişmələri müəyyən olunur. Ürüşkənlik düsturlarının, sürüşkənlik dövrünün, bazis kəmiyyətlərinin və sürüşkən qiymətlərin hesablanmasını müəyyən edən digər məlumatların seçilməsi maşın və avadanlıqlara sürüşkən qiymətlərlə kontraktların və təkliflərin öyrənilməsi əsasında aparılır.

Məlum olduğu kimi, proqnozlaşdırmanın istənilən metodunun istifadəsi zamanı proqnozun dəqiqliyinə bir çox amillər təsir edir. Verilmiş halda proqnozlaşdırılan qiymət dəyişməsinin kəmiyyəti proqnozlaşdırılan dövr üçün istehsal xərcləri dinamikasının düzgün qiymətləndirilməsindən, sürüşkənlik düsturunun müxtəlif qiymət elementlərinin xüsusi çəki nisbətləri və sürüşkənlik dövrünün seçilməsindən, əmək məhsuldarlığı artımına düzəlişlərdən və sürüşkən qiymətlər şəraitində sifarişlərin verilməsi zamanı təhlil edilən və nəzərdə tutulan bütün digər amillərdən asılıdır.

Yuxarıda qeyd olunan istənilən metodlardan biri vasitəsi ilə qurulan proqnozun düzgünlüyü, hər şeydən əvvəl, təhlilin möhkəmliyindən, yəni keçmişdə qiymət dinamikasının meyllərivə sürətlərinin nə qədər və ciddi təhlil edilməsindən asılıdır. Bundan başqa, qiymət ölçüsünün dəqiqliyi və obyektivliyi aydındır ki, proqnoz dövrü ölçüsündə həm proqnoz qarşısında qoyulan vəzifələrlə və həm də bazarın xüsusiyyəti ilə müəyyən olunur. Məsələn, birja əmtəələrinə qiymətin proqnozu, adətən, qısa müddətə hazırlanır.Belə ki, bu əmtəələrin qiymətləri həddindən artıq tez-tez və kəskin baş verən tərəddüdlərə məruz qalır.

Rüblük, yarımillik, maksimum il həddində hər hansı bir konkret əmtəə bazarının inkişaf prespektivi qiymətləndirilən qısamüddətli konyunktur proqnozlarla yanaşı, son illərdə əmtəə bazarının 5-10-15 ilə inkişaf təmayülünün proqnozlaşdırılması geniş yayılmışdır.

Uzunmüddətli proqnozlaşdırmanın əhəmiyyətinin artmasını aşağıdakı səbəblərlə aydınlaşdırmaq olar:

Birincisi, bazara yeni əmtəələrin daxil edilməsinə və istehsalın mənimsənilməsi müddətliliyinin dəyişilməsi və xərclərin kəskin artmasına gətirib çıxaran elmi-texniki inqilabın təsiri ilə. Belə şəraitdə firmalar əmtəə bazarlarının uzunmüddətli proqnozlaşdırılmasına və onların nomenklaturasına yüksk diqqət yetirmək məcburiyyətində qalırlar. Belə

proqnozlaşdırmanın əsasında kapital qoyuluşunun həcm və strukturu, elmi tədqiqatların istiqaməti və firmanın istehsal və kommersiya fəaliyyətinin digər vacib cəhətləri müəyyən olunur.

İkincisi, beynəlxalq ticarətdə uzunmüddətli sazişlərin xüsusi çəkisinin artması baş verir ki, bu da bu razılaşmalar dövründə əmtəələri uzunmüddətli əmtəə sazişlərinə daxil edilən bazarların konyunkturasını xarakterizə edən, əmtəələrin qiyməti, əmək haqqı dərəcəsi və digər göstəricilərin hərəkətini qiymətləndirən proqnozların işlənməsini stimullaşdırır.

Aydındır ki, belə proqnoz çətin ki, proqnozlaşdırılan dövr ərzində baş verə bilən müxtəlif konyunktur tərəddüdlərin ölçüsünü və müddətliyini düzgün və dəqiq nəzərə alsın. Artıq qeyd edildiyi kimi, istənilən əmtəə bazarının inkişafı müxtəlif amillərin təsiri ilə müəyyən olunur ki, onların bir hissəsi əvvəlcədən alına bilmir. Belə ki, şansları əvvəlcədən bütünlükdə tam dəqiqliklə ölçmək cəhdi şarlatanlıq və ya etibarsız bir iş olardı, çünki söhbət iqtisadiyyatın inkişafının əsas meyllərinin, konkret halda isə təkrar istehsal tsikllərinin dövriliyindən asılı olaraq qiymətin proqnozlaşdırılmasından gedir. Məhz bu mənada uzunmüddətli proqnozlaşdırma nəinki mümkündür, həm də zəruridir.

## 4.3. PROQNOZDAN İSTİFADƏ OLUNMASI

Proqnoz qiymətləndirmənin praktiki dəyəri onun vaxtında və düzgün istifadə olunmasındadır. İdxal zamanı valyuta xərclərinin və ixrac zamanı valyuta daxil olmalarının kəmiyyəti bütün digər bərabər şərtlərlə qiymətin səviyyəsindən asılıdır. Bütün xarici ticarət əməliyyatlarında qiymətin düzgün müəyyn edilməsi operativ iş təcrübəsində konyunkturanın öyrənilməsi nəticələrinin reallaşması ilə əlaqədardır.

Proqnoz qiymətlərin ehtimal olunan hərəkətini qiymətləndirir. Qiymətin mümkün artması və ya aşağı düşməsindən asılı olaraq əmtəənin reallaşması və ya tədarükü taktikası dəyişir. Nəticədə konyunkturanın proqnozu ilə idxalatçı və ya ixracatçının operativ taktikası arasında birbaşa əlaqə mövcud olur.

Əgər, məsələn, inkişaf perspektivi qiymətin aşağı düşməsindən ibarətdirsə, ixracatçı görək bu əmtəələrin qiymətləri hələ aşağı düşməmiş və ya az düşdüyü halda, heç olmasa satış üçün nəzərdə tutulan əmtəə partiyasının böyük hissəsini reallaşdırmaqdan ötəri, hətta qiymətdən əlavə güzəştlərə də getməklə satışı tezləşdirməyə cəhd etməlidir. Əksinə, qiymətin artma meylində ixracatçı görünür, qiymət maksimuma çatmayana qədər gözləmə mövqeyi tutaraq onun reallaşmasına tələsməyəcəkdir. İdxalçının taktikası isə aydındır ki, bunun əksinə olacaqdır: qiymətlərin artması zamanı tədarükün tezləşdirilməsi və qiymətlərin aşağı düşməsi zamanı onların ixtisar edilməsi.

Lakin proqnozun daha böyük valyuta səmərəlilyi ilə praktiki reallaşması ilk baxışda olduğu kimi sadə deyildir.

Birincisi, satışın genişlənməsi bazarın tutumu ilə məhdudlaşır. Hər bir əmtəə üçün öz bazar tutumu mövcuddur. O, elə əmtəə miqdarı ilə müəyyən olunur ki, həmin miqdar əmtəə bazarda ay, rüb və ya il ərzində reallaşa bilir. Ona görə də, əgər hər hansı bir əmtəə bazarının tutumu ayda 500 min vahid olub, satıcılar isə 900 min vahid satmaq istərlərsə, bu qiymətlərin kəskin surətdə aşağı düşməsinə gətirib çıxaracaqdır. Belə ki, təklif tələbi 3 dəfə üstələyəcək və satılmalı olan əmtəə miqdarının 2/3 hissəsi reallaşmamış qalacaqdır.

İkincisi , onu nəzərə almaq lazımdır ki, bazarın tutumu dəyişən kəmiyyət sayılmır. Konyunkturanın pisləşməsi zamanı o azalır, canlanması zamanı isə, o artır. Dövri və qeyri-dövri xarakterli müxtəlif amillərin təsiri altında əmtəə bazarı tutumunun dəyişməsi bəzən son dərəcə çox nəzərə çarpan olur. Enerjidən istifadənin səmərəliliyinin yüksəldilməsi və alternativ mənbələrin

daha geniş tətbiqi nəticəsi kimi 80-ci illərdə neft bazarı tutumunun kəskin surətdə ixtisar olunması buna misal ola bilər. Nəticədə neftə dünya ixrac qiymətlərinin indeksi 1982-ci ildə 109-dan1988-ci ildə 56-ya endi (1980-ci il=100).

Üçüncüsü, idxalçıların və ixracatçıların maraqları bir-birinə daban – dabana ziddir. Buna görə də, əgər qiymətin aşağı düşməyə başladığı dövrlərdə ixracatçılar satışı sürətləndirməyə başlayırlarsa, idxalçılar, əksinə, qiymətlərin daha da aşağı düşməsini gözləməklə tədarükü ixtisar edirlər.

Qiymətin uzunmüddətli artım meylinin mövcudluğu dövründə idxalçılar öz tədarüklərini genişləndirməyə hazır olduqları halda, ixracatçılar sonradan daha yüksək qiymətlərə satmaq məqsədilə əmtəələri özlərində saxlayırlar.

Beləliklə, düzgün proqnozu daha böyük səmərəliliklə reallaşdırmaqdan ötrü həm bazarın tutumunu, onun dəyişdirilməsi imkanlarını, həm də rəqiblərin və əksagentlərin operativ taktikasını və bir sıra digər amilləri nəzərə almaq lazımdır.

Bəs idxalçının və ya ixracatçının bazarda nə qədər uğurla çıxış etdiyini necə müəyyən etmək olar?

Hər şeydən əvvəl, keçmiş dövr üçün proqnozun düzgünlüyünü yoxlamaq lazımdır. Əgər proqnoz qeyri-düzgün tərtib olunubsa, səhvlərə gətirib çıxaran səbəblər aşkara çıxarılır. Əgər proqnoz özünü doğruldubsa, onda həmin düzgün proqnozun əməli fəaliyyətdə necə istifadə olunması yoxlanılır. Bu yoxlama sövdələşmə qiymətlərinin, hesabat dövrünə bazar qiymətlərinin səviyyəsi ilə müqayisə olunması yolu ilə aparılır. İxrac zamanı valyuta gəlirinin kəmiyyətivə ya idxal zamanı valyuta tədiyyələrinin məbləği qiymət proqnozundan istifadənin meyarı sayılır.

**Hər bir əmtəə və hər bir sövdələşmə üzrə proqnozdan istifadənin qiymətləndirilməsi özündə aşağıdakı iki cəhəti birləşdirməlidir: 1) sövdələşmə tarixinin yoxlanılmasını, yənikonyunktura şərtlərinə əsaslanmaqla bazara çıxış**

**dövrü və ya vaxtı nə dərəcədə düzgün seçilmişdir; 2) sövdələşmə bağlanan dövrün rəqabət bazarı qiymətləri ilə müqayisə etməklə sövdələşmə qiymətlərinin yoxlanmasını.**

Proqnozdan istifadənin qiymətləndirilməsinin ümumi sxemi belədir. Bununla yanaşı, əmtəədən, onun istehsalı və reallaşmasının konkret şərtlərindən asılı olaraq bəzi xüsusiyyətlər də mövcuddur ki, onları yuxarıda qeyd etdiklərimizə əlavə olaraq xarici ticarət qiymətlərinin müəyyənləşdirilməsində nəzərə almaq lazımdır.

Birjə əmtəələri bazarlarında, xarici ticarət sövdələşmələrində proqnozun istifadə edilməsinin qiymətləndirilməsi bir qədər sadədir. Belə ki, gündəlik nəşr olunan qiymətqoymanın mövcudluğu aparılan əməliyyatların faydalığının təhlilini sadələşdirir. Birja əmtəələrinin alqı və ya satqı orta çəki qiymətlərinin sövdələşmə dövrünün müvafiq birja qiymətqoymaları ilə müqayisə edilməsi, həm bazara çıxış üçün məqamın seçilməsinin düzgünlüyünü, həm də sövdələşmə qiymətlərinin bazar qiymətləri səviyyəsindən kənarlaşma kəmiyyətini asanlıqla yoxlaman imkanı verir.

Əmtəə birjalarında qiymətləri təyin edilməyən xammal və yarımfabrikat bazarına daxil olarkən də qiymət proqnozlarından istifadənin səmərəliliyi də təxminən bu cür müəyyən olunur. Fərq yalnız ondadır ki, bu halda qiymət oriyentiri birja qiymətqoyması deyil, sorğu qiymətləri sayılır.

Keçmiş dövr üçün bir sıra sorğu qiymətlərinin təhlili, onların artması və ya azalması bazara daxil olmaq üçün məqamın nə qədər dərəcədə düzgün seçilməsini göstərirlər.

Avadanlıqların alqı və satqısında proqnozdan istifadənin yoxlanılması özynə, bütün digər əmtəələrdə olduğu kimi, bazara daxil olma məqamı üzrə seçmənin düzgünlüyünün və habelə kontrakt qiymətlərin, kontraktın imzalandığı dövrün rəqabət qiymətləri səviyyəsinə uyğunluğunun yoxlanmasını daxil etməlidir.

Avadanlığın göndərişi üzrə kontraktın bağlanması məqamının nə dərəcədə düzgün seçilməsi haqqında məsələni qiymətlərin sonrakı dəyişmələri üzrə araşdırmaq olar. Məsələn, əgər sövdələşmə bağlandıqdan sonra qiymətlər aşağı düşürsə, bu, o deməkdir ki, alış üçün məqam düzgün seçilməmişdir və nəticə olaraq bazara çıxış bir qədər uzadılmalıdır. Müqavilə bağlandıqdan sonra qiymətlərin dəyişməsi haqqında təsəvvür yaratmaq üçün həm avadanlığın nəşr olunmuş qiymət indekslərindən, həm də operativ olaraq alınan informasiyalardan, yəni ixracatçı firmalardan daxil olan təkliflərdən istifadə olunur.

Beləliklə, sənaye avadanlığının bazara çıxış məqamının yoxlanılması nisbətən sadə şəkildə aparılır. Bundan başqa, qiymətlərin nisbi sabitliyi və bir sıra digər səbəblər üzündən sənaye avadanlığı bazarına daxil olmaq üçün məqamın seçilməsi digər əmtəələrlə ticarətə nisbətən o qədər də böyük əhəmiyyət kəsb etmir.

Kontrakt qiymətlərin səviyyəsinin yoxlanılması üzrə iş isə başqa cür qurulur. Avadanlıq bazarının proqnozundan istifadə edilməsinin qiymətləndirilməsi üçün kontrakt qiymətlərin səviyyəsinin yoxlanması digər əmtəələrə nisbətən daha böyük çətinliklə həll edilən əsas məsələlərdən sayılır. Bu çətinliklər avadanlığın qiymətinin müəyyən edilməsi və hesablanmasının spesifik cəhətləri ilə izah olunur.

Xammal əmtəələrindən və yarımfabrikatlardan fərqli oalraq, avadanlıqlar üçün orta çəkili sövdələşmə qiymətlərinin orta illik bazar qiymətləri ilə müqayisəsi metodu düzgün sayılmır. Maşın və avadanlığın xarici ticarət dövriyyəsinin böyük, müxtəlif formalı və sürətlə təzələnən nomenklaturası, istənilən maşınqayırma sahəsi məhsullarının müxtəlif növü, konstruksiyası və ölçü tipləri – bütün bunlar sövdələşmələr üzrə hər hansı bir orta göstəricidən istifadə mümkünlüyünü istisna edir və onların hər birinin fərdi təhlilini tələb edir.

Yoxlama kontraktların imzalanmasına qədər tərtib edilən hesablamaların və əsaslandırmaların öyrənilməsindən başlanır. Məsələn, idxal kontraktı üzrə 10 min elektrik mühərrikinin göndərişi üçün səviyyəsini yoxlamaq lazımdır. Verilmiş sifariş üzrə rəqabət vərəqindən görünür ki, idxal edilən elektrik mühərriklərinin qiymət hesablamalarının əsasında AEQ (AFR), «Alstom» (fransa), «Ceneral elektrik» (Böyük Britaniya) firmalarının tiklif və sifarişləri üzrə oxşar maşınların müasir qiymətləri durur, Qərbi Avropada bu firmalar elektrotexnika avadanlıqlarının ən iri istehsalçıları v ixracatçıları sayılırlar və onların qiymətləri də tam nüfuzludurlar.

Həmin firmaların qiymətlərini müqayisə edərkən hesablamalara texniki və kommersiya şərtləri ilə daşınma fərqi qədər düzəlişlər edilmişdir: elektrik mühərriklərinin güclərində olan fərqlərə mümkün güzəştlər, düzəlişlər, dövrlərin sayı, miqdar, ödəmə şərti, göndərmə müddəti, zəmanətin şərtləri və i.a.

Beləliklə, verilmiş konkret halda qiymətin hesablanması düzgün aparılmışdır. Belə ki, kifayət qədər inam təlqin edən rəqabət materialları cəlb edilmiş və müxtəlif firmaların qiymətlərinin müqayisə edilməsi zamanı bütün zəruri düzəlişlər aparılmışdır. Və əgər kontrakt üzrə qiymət, bu cür əvvəlcədən hesablanmış qiymətin səviyyəsini üstələmirsə, onda yoxlamanı qurtarmış hesab etmək olar.

Lakin kontrakt qiymətlərinin səviyyəsinin yoxlanması çox vaxt heç də əvvəlcədən tərtib edilmiş hesablama ilə tanış olmaqla məhdudlaşmır və əlavə rəqabət materiallarının cəlb olunmasını tələb edir. Bunu, hesablanma və ya kontrakt qiymətlərin səviyyəsi şübhə doğurduğu bütün hallarda etmək zəruridir. Tutal ki, yoxlanılan hesablama kifayət miqdarda rəqabət materiallarını əhatə etmir və yaxud əksinə, hesablamada rəqabət tfkliflərindən və sifarişlərindən çox istifadə edilmiş, lakin onlar inam doğurmur. Rəqabət materiallarının şübhəliyi bir sıra hallarda müəyyən olunur. Birincisi, qiymətləri hesablamada istifadə olunan firmalar ola bilsin ki, verilmiş avadanlıqların

aparıcı istehsalçıları və ixracatçıları deyildirlər və ona görə də bunların qiymətləri səciyyəvi deyildir. İkincisi, qiymətlər oal bilsin ki, kommersiya şərtləri ilə göndərmələr və ya texniki-iqtisadi parametrlər üzrə kifayət dərəcədə müqayisə olunmayan rəqabət materialları əsasında hesablanmışdır.

Nəhayət, üçüncüsü, kontrakt üzrə qiymət sadəcə olaraq əvvəlcədən hesablanmış qiymətə uyğun gəlməyə bilər. Bu, əksagentlə əlavə danışıqlar nəticəsində göndəriş şərtlərində aparılan dəyişmələr, hesablamada nəzərə alınmayan hər hansı bir yeni cəhətin aşkara çıxarılması səbəbindən baş verə bilər.

Beləliklə, əgər əvvəlcədən aparılan hesablamalar kontrakt qiymətləri kifayət dərəcədə əsaslandırmırsa və yaxud hesablanma və kontrakt qiymətlər arasında böyük kənarlaşma mövcuddursa, onda hesabat dövrünün daha bir neçə rəqabət qiymətlərinin müqayisə edilməsi yolu ilə əlavə yoxlama keçirilir. Bu zaman aydındır ki, kontrakt qiymətlərin hesablanmasına göstərilən metodoloji xarakterli tələblər yerinə yetirilməlidir.

Bu cür müqayisə əsasında nəticə çıxarılır ki, kontrakt qiymətlər rəqabət qiymətlərinin səviyyəsində yerləşir, yoxsa ki, onlardan yuxarı və ya aşağıdır.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. 1.Dünya bazar qiymətlərinin təhlili və proqnozlaşdırılması xüsusiyyətlərini göstərin.
2. Əsas əmtəə qrupları üzrə tələb və təklif nisbətlərinin təhlili necə aparılır?
3. Qiymət proqnozlaşdırılmasının işlərinin hazırlanması metodlarını göstərin.
4. Delfi metodu nədir?
5. Dünya ticarətində proqnozların tətbiqi xüsusiyyətlər nədən ibarətdir?
6. Xarici ticarət sövdələşmələrində proqnozdan istifadənin qiymətləndirilməsi metodikası hansıdır?

## TESTLƏR

**1. Dünya qiymətlərinin dinamikasının proqnozlaşdırılması metodlarına aşağıdakılardan hansı aiddir?**

A) ekspert qiymətləndirmələr metodları, bal ilə qiymət qoyma metodu, xüsusi güstəricilər metodu, aqreqat metodu;

B) ekstrapolyasiya metodu, reqressiya analizi metodu, orta xərclər metodu, ekspert qiymətləndirmələr metodları;

C) iqtisadi-riyazi metodlar, ekstrapolyasiya və ekspert qiymətləndirmələr metodları, parametrik metodlar;

D)) ekstrapolyasiya, ekspert qiymətləndirmələr, iqtisadi-riyazi metodlar və bu metodların müxtəlif uyğunluğu.

E) korelyasiya-reqresiya metodu

**2. Dünya bazarın qiymətlərin proqnozlaşdırılması zamanı müxtəlif strukturları təyin edilmə kriteriyaları aşağıdakılardan hansıdır?**

A)) ölçü, xarakter, kapitalın təmərküzləşməsi və ixtisaslaşma dərəcəsi;

B) firmaların bazarda ekspansiyası;

C) diversifikasiya dərəcəsi;

D) Müəyyən inhisar quruluşunun məhsulunun xüsusi çəkisi;

E) Üfiqi və şaquli inteqrasiyasının dərəcəsi.

**3. Qiymətlərin dünya bazarında proqnozlaşdırılmas zamanı nəzərə alınan diversifikasiya nədir?**

A) Müəyyən sahədə iri şirkətlərin payının artmasıdır;

B) Bir iri şirkətin müəyyən sahəyə aid olan istehsalının xüsusi çəkisinin bir yerə toplanmasıdır;

C)) Başqa sahədə olan iri şirkətlərin əsas sahəsi ilə birbaşa istehsal əlaqəsində olmayan həmin şirkətlərin başqa sahələrə daxil olmasıdır;

D) Böyük şirkətlərin əsas sahəyə münasibətdə istehsalın və ya tədavülün növbəti pilləsi kimi çıxış edən digər sahələrdə genişlənməsi.

E) Qiyməti aşağı salmaq cəhdidir.

**4. Xarici ticarətin müqavilə qiymətləri aşağıdakılardan hansıdır?**

A) pərakəndə satış qiyməti;

B)) faktiki sövdələşmə qiymətləri;

C) proqnoz qiymətləri;

D) nəşr edilən sorğu qiymətləri

E) preyskurant qiymətləri

**5. Nağd hesablaşma zamanı qiymətlərin səviyyəsi nə ilə müəyyən edilir?**

A) Rəqabət qiyməti ilə;

B) Kredit təsiri əmsalı ilə;

C) Müqavilənin ümumi məbləğində növbəti ödəmənin payı ilə;

D)) Verilmiş məhsul kreditinə görə alıcıdan alınan illik faizlə;

E) Bunlardan hez biri ilə müəyyən edilmir;

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT

27.Герчикова И.Н. маркетинг и международное коммерческое деолололо. М., Внешторгиздат, 1991

28.Левшин Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990

29.Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюектура и цены. М., Международные отношения, 1987.

30.Липсиц И.В., Коссов В.В. Инвестиционный проект, методы подготовки и анализа. И., ББК, 1996.

31.Лорин А.Н. Ценообразование во внешнеэкономической деятельности промышленной фирмы. М., Международные отношения, 1993.

32.Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.

33.Основы предпринимательской деятельности. Под ред. В.М.Власовой. М., Финансы и статистика. 1996.

34.Портер М. Международная конкуренция. М., Международные отношения. 1993.

35.Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.

36. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.

37.Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б.Рычкова. М., Прогресс, 1992.

38. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov və başqaları. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı, 1997.

39.И.Ш.Караев, Ш.А.Агабеков. И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку . 1999.

# MÖVZU 5.

## DÜNYANIN İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ DAXİLİ QİYMƏTƏMƏLƏGƏLMƏNİN METODOLOJİ ƏSASLARI

5.1 Bazar dəyəri və qiymətlərin formalaşması mexanizmi ;

5.2 İnkişaf etmiş ölkələrdə firmalarda qiymətlərin formalaşması metodları.

Özünü yoxlama sualları;

Testlər;

İstifadə olunan ədəbiyyat siyahısı və məlumat mənbələri.

## 5.1. BAZAR DƏYƏRİ VƏ QİYMƏT

Kapitalist ölkələrində bazar, əmtəə-pul münasibətləri sistemində mərkəzi ünsürlərdən biri olmaqla, ictimai əmək bölgüsü əsasında ayrı-ayrı istehsalçılar arasında əlaqələrin hökmran və müəyyənedici üsulu kimi çıxış edir. Bazar mexanizm əmtəə sahiblərini təsərrüfat həyatının bütün sahə və sferalarındakı işin vəziyyətilə məlumatlandırır, onların məhsullarının ictimai faydalılığını müəyyən edir, istehsal proqramlarının istiqamətini və dəyişmə xarakterini göstərir. Pulun əmtəəyə mübadiləsi, izafi dəyərin reallaşdırılması, dəyər formalarının dəyişilməsi prosesləri məhz bazarda baş verir. Kapitalist istehsalı şəraitində bazar ictimai istehsalın tənzimləyicisi kimi çıxışedir. Əmtəə istehsalı strukturunun mübadiləyə və ictimai tələbatın strukturuna kortəbii uyğunlaşması, tələb və təklifin bir-biri ilə uzlaşmasının son dərəcə mürəkkəb və ziddiyyətli prosesi məhz bazar vasitəsilə tənzimlənir.

Bazar mexanizminin əsas elementləri qiymət, tələb və təklifdir. Qiymət ilk növbədə maddi istehsal sferasında, onun qarşılıqlı əlaqələrində, səviyyə və nisbətlərində baş verən dəyişiklikləri əks etdirən daha dərin təsərrüfat proseslərinin ümumiləşdirici göstəricisidir. Eyni zamanda qiymətlərə, onların strukturuna, səviyyə və dinamikasına tədavül sferasında baş verən dəyişikliklər: təklif və alıcı qabiliyyətli tələbin nisbəti, əmtəə ehtiyatlarının miqdarı, tədavüldə olan pulun miqdarı və s. əhəmiyyətli təsir göstərir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, qiymətlərə bir sıra iqtisadi, sosial və siyasi xarakterli çox mürəkkəbamillər təsir göstərir. Kapitalist təsərrüfatında əmtəələrin konkret qiymətləri və onların dinamikası həmin amillər məcmusunun kompleks və eynivaxtlı təsirinin nəticəsi kimi çıxış edir. Qiymətəmələgətirən amilləri sxematik qaydada aşağıdakı kimi göstərmək olar. (şəkil 1.)

Qiymətəmələgətirən amillər dedikdə, qiymətlərin səviyyəsi və dinamikasına təsir göstərən obyektiv olaraq mövcud olan qanunauyğunlar və şərait başa düşülür. Qiymətlərə təsir edən amilləri qiymətlərin səviyyə və hərəkətinə uzun müddət, sabit təsir göstərən əsas amillərə və əhəmiyyətsiz dərəcədə, müvəqqəti təsir gücünə malik ikincidərəcəli amillərə bölmək olar. Bir çox amillər bir-biri ilə qarşılıqlı əlaqəyə girməklə bəzi hallarda və yaxud da dövri olaraq qiymətləri onların əsas hərəkət meyllərindən müəyyən qədər kənarlaşdırırlar.




**Şəkil 1. Əsas qiymət əmələ gətirən amillər**

İİQ – ictimai istehsal qiyməti;

İİX - ictimai istehsal xərcləri;

OM – orta mənfəət;

TbTfH – tələb və təklifin nisbəti;

Tb – tələb;

Tf – təklif;

QBT – qiymətlərin birbaşa tənzimlənməsi;

QİT – qiymətlərin inhisar tənzimlənməsi;

QDT – qiymətlərin dövlət tənzimlənməsi;

PSb – pul sferasının vəziyyəti;

PAQ – pulun alıcılıq qabiliyyəti;

BM – valyuta məzənnəsi;

ƏK – əmtəənin keyfiyyəti;

MGh – malgöndərişinin həcmi;

ASQM – alıcı və satıcıların qarşılıqlı münasibətləri;

ÖŞ – ödəniş şərtləri;

FQ – franklaşdırılmış qiymətlər.

Beləliklə, inkişaf etmiş kapitalist ölkələrinin daxili bazarlarında qiymətlərin hərəkətini onların səviyyəsinin yüksəldilməsinə, eləcə də aşağı salınmasına təsir edən amillər çoxluğu müşaiyət edir. Bu zaman aşağıdakı xarakterik hadisələr müşahidə olunur: qiymətlərin çoxluğu, yaranan tərəddüdlərin amplitud və müddətlərinin müxtəlifliyi, qismən də qiymətlərin hərəkətinin yerli xarakteri, bir neçə qiymətin nisbi sabitliyi (müxtəlif

istiqamətli amillərin qarşılıqlı tarazlaşması nəticəsində) və s. Əgər qiymət dəyişiklikləri yalnız bir amilin təsiri altında baş versəydi, onda o daha aydın ifadə olunardı və onun öyrənilməsi çox sadələşərdi. Bazarda tələb və təklifin müxtəlif nisbətləri formalaşa bilər. Əgər tələb əmtəə təklifindən əhəmiyyətli dərəcədə yüksəkdirsə, onda söhbət «satıcı bazarı» haqqında gedəcəkdir. Belə bazar üçün aşağıdakılar xarakterikdir: istənilən əmtəə və xidmətlər, hətta onlar alıcının tələblərinə tam vacib verməsə də bazarda tezliklə satılır, çınki, belə bazarlarda ən mühümü onların olmasıdır. Əmtəənin kəmiyyəti başlıca rol oynayır, keyfiyyətə diqqət minimum səviyyədədir. Satışdan əvvəlki və satışdan sonrakı xidmətlər haqqında söhbət gedə bilməz, alıcı ilə satıcının ilk görüşünə həm də sonuncu kimi baxılır. Əmtəənin çeşidi kasaddır, istehsalının həcmi aşağıdır, rəqabət yozdur: istehsalçının bazara çıxartdığı məhsulu alıcı almaq məcburiyyətindədir. «Satıcı bazarı» üçün yüksək qiymətlərin nisbi sabitliyi və bazar subyektlərinin (alıcıların və satıcıların) nisbətən yüksək fəallığı, müasir sövdələşmələrin sayının artımı xarakterikdir.

«Alıcı bazarı»nda isə vəziyyət başqadır. Burada məhsul seçilməsi imkanları mövcuddur. Alıcı müxtəlif istehsalçılar tərəfindən buraxılan məhsulların ayrı-ayrı növlərini müqayisə edir, öz zövqü ilə məhsulun istehlak xassələri, bu xassələrlə qiymətlər arasındakı uyğunluğu qiymətləndirir. Nəticədə məhsulun bu və ya digər növünə üstünlük verilir. Başqa sözlə, «alıcı bazarı» üçün təklifin tələbdən üstünlüyü xarakterikir.

Bu, ona gətirib çıxarır ki, müxtəlif tələbatları ödəyən ayrı-ayrı məhsullar alıcının gözü qarşısında rəqabət aparırlar, istehsalçılar və ticarətçilər isə qiymət və ticarət siyasətindən, reklam və satışa təsirin digər metodlarından istifadə edir, öz aralarında rəqabət apararaq bu prosesi daha da qızışdırırlar.

Müasir beynəlxalq bazar və inkişaf etmiş kapitalist ölkələrinin daxili üçün «alıcı bazarı» kimi müəyyən olunan vəziyyət xarakterikdir. O, bazar qiymətlərinin aşağı salınması və yerinə yetirilən sövdələşmələrin sayının azalması ilə xarakterizə olunur. Bunun nəticəsində bazar aşağı konyunktura

vəziyyətinə (qiymətlərin aşağı olması və subyektlərin passivliyi) keçir. Əmtəə təklifinin tələbdən yüksək olması şəraitində alqı-satqı sövdələşmələri alıcı qiymətləri üzrə həyata keçirilir. Bazar qiymətlərinin alıcı qiymətləri kimi formalaşması onu bildirir ki, faktiki qiymət əmtəənin bazar dəyərinin səviyyəsindən aşağı olur.

İstənilən bazar (istər alıcı bazarı, istərsə də satıcı bazarı olsun) differensiallaşdırılmış olur. Məsələn, satış bazarı reallaşdırılan əmtəələrin növləri üzrə differensiallaşdırılır. Müasir dövrdə inkişaf etmiş kapitalist ölkələrində nə qədər ki, alıcı bazarı hökmran mövqe tutur, istehsal firmaları, konsernlər alıcı tələbinin öyrənilməsinə böyük diqqət yetirirlər. Müəssisələrin marketinq fəaliyyəti üzrə mütəxəssisləri deyirlər: «nə istehsal etməy nail olmusunuzsa, onu satmağa çalışmayın, heç bir şübhə olmadan sizdən nə alınacaqsa, onu da istehsal edin».

İstehlakçı bazarı bir neçə sektora bölünür ki, onlardan hər biri əmtəə və xidmətlərin ayrı-ayrı keyfiyyətlərini müxtəlif formada qiymətləndirən, qiymət dəyişikliklərinə müxtəlif formada reaksiya göstərən alıcılardan ibarətdir. Kapitalist firmalarının marketinq üzrə mütəxəssisləri istehlakçıların qiymətlərə reaksiyasının bir neçə variantını müəyyən etmişlər və hər hansı məhsul növü ilə bazara çıxdıqda onları nəzərə almağı məsləhət görürlər.

Qiymətlərin psixoloji həddləri – xüsusi bir qiymət kəmiyyəti olub, bu həddə qiymətlərin səviyyəsindən asılı oalraq satış həcmi kəskin surətdə arta və yaxud da azala bilər. Məsələn, supermarketlərin rəhbərləri qiymətləri əmtəələrə münasibətdə alıcıların davranışındakı fərqləri nəzərə almaqla müəyyən edirlər, qiymətlər 1 dollardan azacıq aşağı və yaxud yuxarı səviyyədə fərqlə müəyyən edilir. Belə ki, qiyməti 89 sent olan əmtəə 98 sentə bərabər qiymətlə də müvəffəqiyyətlə satıla bilər, lakin qiymət 1,09 dollar olarsa, fərq böyük (arzuolunmaz) səviyyədə olacaqdır.

Müxtəlif dərəcəli məhsullara qiymət şkalası – qiymətlərin müəyyən edilməsində alıcının nəzərə alınmalı olan digər qavrayışıdır. Məmulatların bir çox növləri ənənəvi olaraq istehsalçıların və ticarətçilərin uyğunlaşmalı olduqları qiymət şkalasına malikdir. Misal olaraq ledenslərin pərakəndə bazarını göstərmək olar. Ənənəvi olaraq onların hər vahidi 5,25,30 və yaxud 40 sent üzrə qiymətləndirilir. Qənnadı firmasının rəhbəri qiymət şkalası üzrə öz məhsulunun kateqoriyasını seçərək, ledensin kəmiyyətini, qarışığın tərkibini və inqrediyentin keyfiyyətini, agent və pərakəndə əlavələri dəyişərək çalışır ki, son məhsulun qiyməti seçilmiş kateqoriyaya uyğun olsun. Rəqabət aparan iki ledensin qiyməti eyni – 25 sent ola bilər, lakin onlardan birinin çəkisi 1 unsiya, digərinin çəkisi1,25 unsiya, yəni qiymətlərin faktiki fərqi 25% olacaq.

Qiymətəmələgəlmənin məhsulun təyinatına istiqamətliliyi – eyni bir məhsul bir neçə təyinata malik ola bilər, ancaq satışın daha faydalı olması üçün o elə qiymətləndirilməlidir ki, təyinata uyğun olsun. Hədiyyə və yaxud hədiyyələr kataloqu üçün alınan yeni məhsul yüksək qiymətlərlə də yaxşı satılır . çünki, alıcı özünün bahalı hədiyyə almaq qabiliyyətinə malik olmayan adam kimi qəbul edilməsini arzulamaz. Kitabların qiymətləri də həmin qaydada müəyyən olunur: möhkəm cildli kitablara yumşaq cildli kitablara nisbətən 5,2 dəfə yüksək qiymətlər qoyulur, çünki yumşaq cildli kitablar o qədər də etibarlı deyillər.

Bazar dəyəri və onun ətrafında tərəddüd edən bazar qiymətləri sahədaxili rəqabət prosesində formalaşır ki, o da bazarda çıxış edən ayrı-ayrı istehsalçıların məhsullarının fərdi dəyərlərini ictimai dəyərə yaxud bazar dəyərinə, yəni sahə üzrə orta dəyərə yaxınlaşdırır. Beləliklə, məhsulun sahədaxili orta dəyəri yaranır və o adi şəraitdə üstünlük təşkil edən əmtəə kütləsinin dəyəri ilə tənzim olunur. Adi şərait dedikdə, tələb və təklif arasında təxmini uyğunluq şəraiti başa düşülür. Bununla belə , əgər mövcud tələblə müqayisədə əmtəə kütləsi kifayət deyilsə, onda bazar dəyərini əlverişsiz

şəraitdə istehsal olunan məhsullar tənzimləyirlər; əmtəə kütləsinin artıq olduğu şəraitdə isə  bazar əlverişli şəraitdə istehsal olunan məhsullarla tənzimlənir.

İnhisar bazar dəyəri real orta sahəvi istehsal şəraitinə deyil, tamamlanan istehsal şəraitinə deyil, tamamlanan istehsal şəraitinə əsaslanır.

Bazar qiymətlərinin bazar dəyəri ilə müəyyən olunmasında iki hala baxaq (cədvəl 1.). Birinci halda qiymətlər orta istehsal şəraitinə, ikinci halda isə əlverişsiz istehsal şəraitinə əsaslanırlar. Birinci halda satış qiymətlərinin cəmi (160) həqiqi istehsal qiymətlərinin cəminə bərabərdir. İkinci halda isə satış qiymətlərinin cəmi 1,5 dəfə istehsal qiymətlərinin cəmindən yüksəkdir.

Cədvəl 1.

Bazar qiymətlərinin bazar dəyəri ilə müəyyən olunması

| Göstəricilər | Yaxşı | Orta | Pis | Yekun |
|---|---|---|---|---|
| İstehsal şəraiti<br>Fərdi qiymət | 5 | 10 | 15 | - |
| Məhsulun miqdarı | 3 | 10 | 3 | 16 |
| Həqiqi istehsal qiyməti a | 15 | 100 | 45 | 160 |
| Bazar dəyəri a) | 19 | 10 | 10 | - |
| Satış qiyməti a) | 30 | 100 | 30 | 160 |
| Əlavə mənfəət a) | 15 | - | -15 | - |

| | | | | |
|---|---|---|---|---|
| Bazar dəyəri b) | 15 | 15 | 15 | - |
| Satış qiyməti b) | 45 | 150 | 45 | 240 |
| Əlavə mənfəət b) | +30 | +50 | - | - |

a) azad rəqabət şəraiti; b) inhisar rəqabəti şəraiti (rəqəmlər şərtidir).

Bazar qiymətləri orta istehsal şəraitinə əsaslanarkən onların aşağıya doğru kənarlaşması əlverişsiz istehsal şəraitinə malik müəssisələrdə təkrar istehsalın qarşısını alır yaxud onu çətinləşdirir. Əgər bazar qiymətləri istehsalçıların əsas kütləsinin istehsal şəraitinə  əsas kütləsinin istehsal şəraitinə əsaslansa, onda qiymətlərin  aşağı salınması kapitalist təkrar istehsal prosesinin özünü təhlükə  altında qoyardı. Bu  baxımdan istehsalın təmərküzləşməsi və inhisarlaşmasını nəzərə alaraq göstərmək olar ki, bazar qiymətləri tədricən azalma meyli qabiliyyətlərini itirərlər. Azalma meylləri ilə yanaşı bazar qiymətlərinin yüksəlməsinə səbəb olan amillər də fəaliyyət göstərirlər (istehsal güclərinin xroniki qaydada tam yüklənməsi, inhisarlaşdırılmış sahələrə kapitalı nazad buraxılışının məhdudlaşdırılması, dövlət inhisarçı qiymətəmələgəlmə sistemi, çünki tərəqqinin nailiyyətlərinin inhisarlaşdırılması və s.).

İstehsal qiymətləri məhsulun satış qiymətləri sayılmır. Konkret əmtəə qiymətləri istehsal qiymətləri əsasında formalaşır, onunla üst-üstə düşməklə bu və ya digər dərəcədə ona meyllidir.

## 5.2. FİRMALARDA QİYMƏTLƏRİN FORMALAŞDIRILMASI METODLARI

Əvvəlki bölmələrdə iri inhisarçı şirkətlər tərəfindən qiymətlərin formalaşdırılmasını müəyyən edən obyektiv qanunauyğunluqlar: istehsalın və kapitalın təmərküzləşməsi, onun əsasında əmtəə bazarlarının inhisarlaşma dərəcəsinin artması, inhisar (qiymət və qeyri-qiymət) rəqabətinin forma və metodları və s. təhlil edilmişdir.

Qiymətlər mühüm element kimi yeni məhsulun satışından əldə edilən gəliri müəyyən edirlər. Məhsulun həcmi və reallaşdırılması müddəti, onun istehsalının mənfəətliyi, uyğun olaraq, ilkin kapital qoyuluşlarının özünüödəmə müddəti, eləcə də qiymətləndirilən əmtəənin gələcəyi və firmanın maliyyə vəziyyəti qiymətlərin hansı səviyyədə düzgün müəyyn edilməsindən asılıdır. Ona görə də şirkətlər qiymətləri müəyyən edərkən onlara təsir edən ən müxtəlif amillər nəzərə almağa çalışırlar. Hər şeydən əvvəl, bu amillər qrupu firmaların sahəvi mövqeləri və sahənin xüsusiyyətləri ilə əlaqədardır ki, onlar da istehsalın və alıcıların təmərküzləşmə dərəcəsi ilə; yeni firmaların sahəyə buraxılması şərtləri ilə; firmanın bazardakı vəziyyəti və təsiri ilə; firmanın malik olduğu bazar payı ilə; rəqabət aparan firmaların bazardakı mövqeyi və rəqiblərin mümkün fəaliyyətləri (qiymət siyasəti, xidmət siyasəti, məhsulun inkişafı və s. sahələrində) ilə müəyyən olunurlar.

Məhsulun və onun bazardakı vəziyyətinin xarakteristikası mühüm əhəmiyyət kəsb etməklə, həmin məhsulun istehlakçı üçün faydalılıqları, onun həyat tsikli mərhələsindən, həmin məhsulun bütün məhsul sırasının dəbləri ilə əlaqəsindən, həqiqi və mümkün əvəzedicilərin olmasından, onların bazardakı mövqeyindən asılıdır. Firmaların bazar siyasətin məsələlərinə müəyyən mənfəət normasının əldə edilməsi, yeni məhsulların buraxılışı, mövcud

bazarların genişləndirilməsi və yeni bazarların mənimsənilməsi və s. kimi bazar məqsədləri aid edilməklə böyük diqqət yetirilir.

Qiymətləri müəyyən edərkən müxtəlif mükafatlandırıcı proqramlar, firmanın reklam mövqeləri, istifadə edilən satış bazarları, göndəriş şərtləri, məhsulların coğrafi bölgüsü, göstərilən xidmət və zəmanətlər, nəqliyyat xərclərinin ödənilməsi şərtləri, güzəşt və əlavə ödəmələrin kəmiyyəti nəzərə alınır. Eləcə də istehsal xərclərindən kənarda fəaliyyət göstərən amillər (keçmişdəki və gələcəkdəki istehsal xərcləri, avadanlığın gözlənilən yüklənmə norması, istehsal həcmi və xərclərin əlaqəsi, firmanın üstəlik xərclərində əmtəənin payı və s.) nəzərə alınır. Bundan başqa qiymətləri müəyyən edərkən yenidənsatış qiymətləri, ehtiyat hissələrinin qiymət və təmir, istismar prosesindəki məsrəflər uçota alınır. İstehlakçının davranış psixologiyasının təhlilinə də böyük diqqət yetirilir.

Firmaların qiymət haqqındakı qərarlarını 2 qrupa ayırmaq olar: yeni məhsullara qiymətlərin müəyyən edilməsi və məhsulun həyat tsikli mərhələsinin, istehsal və bazar şəraitinin dəyişməsi ilə əlaqədar mövcud qyimətlərin dəyişdirilməsi.

Müasir iqtisadi təcrübədə yeni məhsullara qiymət qoyulmasına bir-birinə zidd olan iki yanaşma mövcuddur: 1) sonralar tədricən azaldılacaq nisbi yüksək qiymətlərin təyin edilməsi. («qaymaq yığılması» metodu);

2) uzunmüddətli perspektiv üçün hesablanmış aşağı qiymətlərin qoyulması.

İlkin yüksək qiymətlər onlar haqqındakı qərarların risqinin əhəmiyyətli dərəcədə aşağı salınmasına, qiymətəmələgəlmə səhvlərindən uzaq olmağa imkan verir, çünki yüksək qiymətlərin aşağı salınması heç bir çətinlik törətmir. Eyni zamanda belə hallarda satışın stimullaşdırılması üzrə intensiv fəaliyyət tələb olunur.

Aşağı qiymətlər siyasətini qəbul edən firma nəzərə almalıdır ki, onlar istehlakçıların məhsulun keyfiyyəti haqqındakı təsəvvürlərinə mənfi təsir göstərə bilərlər. Belə amillərin uçota alınmaması böyük itgilərə gətirib çıxara bilər.

Yəni məhsullara münasibətdə şirkətlərin qiymət siyasəti real təcrübə şəraitində yalnız alternativ metodlardan deyil, həm də aralıq variantlardan istifadə edilməsini tələb edir. Bu, qiymət seqmentləşdirilməsi siyasəti yaxud bazarın tam əhatə edilməsi, mənimsənilməsi məqsədilə yeni məhsullara qiymətlərin təcili aşağı salınması siyasəti ola bilər. Məsələn, «Teksas İnstrumenie» şirkəti texnologiyanın təkmilləşdirilməsi və kütləvi istehsalın təşkili hesabına istehsal xərclərini azaldaraq yeni məhsulların qiymətlər sisteminin aşağı salınması siyasətini həyata keçirmişdir. Bu yolla öz bazar payını genişləndirərək və rəqibləri sıxışdıraraq şirkət cib kalkulyatorları bazarında və bir sıra digər bazarlarda başlıca mövqeləri ələ keçirə bilmişdir. Bir çox şirkətlər də dünya bazarında oxşar siyasət aparırlar ki, bu da əhəmiyyətli dərəcədə onların müvəffəqiyyətinə səbəb olur.

Tam yeni məhsullara münasibətdə qiymət qərarlarını olduğu kimi qəbul etmək bir qədər mürəkkəbdir. Əgər əmtəə özlüyündə dəyişdirilmiş, təkmilləşdirilmiş variantdırsa və yaxud firmanın məhsul dəstini tamamlayırsa, onda ona qiymətlər müəyyən edərkən bazis kimi oxşar məhsulların qyimətlərindən istifadə olunur. Bazis məhsullarının və yeni məhsulların istehlak xassələri və qiymət səviyyələri nisbətlərinin uyğunluğu dərəcəsi həm də istehlakçıların məlumatlılığı dərəcəsindən asılıdr.

Marketinq çərçivəsində dəqiq bazar təhlili şirkətlərə qiymətəmələgəlmə məsələlərini əsaslı şəkildə həll etmək, qiymət siyasəti seçmək və zəruri halda ona düzəlişlər etmək imkanı verir. Məhsul və bazarın inkişafı ilə əlaqədar marketinq strategiyası da dəyişir ki, uyğun olaraq qiymətəmələgəlmə proseslərind məqsəd funksiyalarına da düzəlişlər edilir. Nə vaxt məhsul öz inkişafının ən yüksək nöqtəsinə çatır – bazar kifayət qədər inkişaf edir,

istehsal ahəngdar olur, bu zaman qiymətlərin müəyyən edilməsində aşağıdakı məqsədlər tipik xarakter daşıyırlar: 1) müəyyən mənfəət faizinin qazanılması; 2) nəzərdə tutulan bazar payına nail olunması və onun saxlanması; 3) rəqabət şəraitinə uyğunlaşma; 4) buraxılan məhsulun müəyyən nomenklaturasının təmin edilməsi. Kifayət qədər konkret olan bu məqsəd funksiyaları son nəticədə firmaların fəaliyyətinin başlıca məqsədinə nail olunmasına – maksimum mənfəətin əldə edilməsinə tabe edilmişdir. Məsələn, konkret bazar şəraitində şirkətlər özünü rəqabətdən qorumaq və bununla da gələcəkdə öz varlığını təmin etmək üçün aşağı qiymətlər təcavüzkar strategiyasını seçə bilər. Uzun vaxt dövrü mövqeyindən seçilmiş qiymət siyasəti daha yüksək mənfəət məbləğinin qazanılmasına şərait yaradar, lakin qısamüddətli planda o az cəlbedicidir.

Nə qədər ki, şirkətlər bazar qiymətlərini qabaqcadan müəyyən edən amillər çoxluğunu qiymətləri müəyyən edərkən uçota almaq imkanına malik deyillər, onda konkret qiymət praktikasında onlar bəzən bir və ya bir neçə başlıca amillərin təsirini ayırd edirlər. Nəticədə şirkətlərin istifadə etdikləri qiymətəmələgəlmə metodları əhəmiyyətli dərəcədə bir-birindən fərqlənə bilər, yəni onlardan hər biri özlərinin bazar davranışı, onun konyukturası barədə təsəvvürlərini əsas götürür, xüsusi məqsədlərinin həyata keçirilməsinə çalışırlar. Bundan başqa şirkətlərin qiymət praktikası onun maliyyə vəziyyəti, ölçüsü, daxili strukturu ilə müəyyən olunur.

İri şirkətlərin qiymət təcrübəsinin təhlili qiymətəmələgəlmə prosesinə kifayət qədər geniş olan bir neçə yanaşmanı ayırmağa imkan verir:

1. Məcmu istehsal xərclərinə əsaslanan qiymətəmələgəlmə (məcmu xərclər metodu).

Bu metodun mahiyyəti məhsul vahidinə çəkilən bütün xərclərin, başqa sözlə məcmu istehsal xərclərinin hesablanmasından ibarətdir. Hazır məhsul istehsalı üçün zəruri olan bütün xərclər şərti olaraq birbaşa və dolayı xərclərə bölünməklə, istehsal edilmiş məhsulların ayrı-ayrı növləri üzrə qruplaşdırılır.

Bu zaman birbaşa xərclər bilavasitə onların istehsalı ilə bağlı olduğu məhsullara aid edilir, dolayı xərclər isə dolayı xərclərin dərəcələri yaxud faizlər şəklində firmaların istehsal etdikləri məhsul növləri üzrə mütənasib bölüşdürülür. Məcmu xərclərin hesablanmış məbləğinə firmanın əldə etməli olduğu mənfəət şəklində faiz əlavələri də əlavə olunur.

Bu metod tətbiqi baxımdan sadə olsa da bir sıra çatışmamazlıqlara malikdir: müəyyən dərəcədə tələb və rəqabət şərtlərinə əhəmiyyət verilməməsi; müəssisənin gəlirində məhsul vahidinin payının təhrif edilməsi və s. Bazar amillərinin müəyyən dərəcədə təsirini əks etdirmək üçün bu metodun müxtəlif təkmilləşdirilmiş variantları yaradılmışdır, məsələn «çevik əlavələr» metodu, yəni xərclərin hesablanmış kəmiyyətinə differensiallaşdırılmış faiz əlavələri metodu. Əlavələrin kəmiyyəti bu və ya digər əmtəənin perspektiv satış və tələb şərtlərinin qiymətləndirilməsi səviyyəsindən asılıdır. Bütövlükdə tədqiqatlar göstərir ki, iri Amerika şirkətlərinin 83%-i öz nominal və preyskurant qiymətlərini bu metodun və onun dəyişmələrinin bazasında müəyyən edirlər. Bunlar nisbi sabit qiymətlərdir. Faktiki sövdələşmə qiymətləri isə dəyişkəndir və bazar amillərinin hərtərfli uçotunu tələb edir.

2. Şirkətin ümumi gəlirində məhsul vahidinin payını uçota alan və birbaşa istehsal xərclərinə əsaslanan qiymətəmələgəlmə.

Bu metod daha təkmildir. O, çoxamilli əsasdan istifadə edir, qiymətləri formalaşdıran kompleks şərtləri, o cümlədən tələbin vəziyyətini, rəqabət şərtlərini uçota almağa çalışır. İstehsal xərclərinə qiymətlərin əsas bazası kimi deyil, onları müəyyən edən amillərdən biri kimi baxılır.

Birbaşa xərclər metodundan istehsal güclərinin əhəmiyyətli dərəcə yüklənməsi dövründə yaxud şirkətlərin yeni bazara çıxışının müəyyən dövrlərində istifadə olunur: belə hallarda qiymətdə dəyişən xərclərdən azacıq yüksək səviyyədə müəyyən edilir. Bu metod həm də standartlaşdırılmış, zəif differensiallaşdırılmış məhsulların xarici bazarlarda güclü rəqiblə üzləşdiyi vaxt iri şirkətlərin ixracat təcrübəsində təibiq edilir.

3. Rəqiblərin qiymət fəaliyyətinə əsaslanan qiymətəmələgəlmə.

Adətən, belə yanaşma ya spesifik rəqabət şəraitinin uçotu cəhdləri ilə, ya da onunla bağlıdır ki, müəyyən bazarlarda formalaşmış olan «qiymətlərdən liderlik» sistemi şirkətləri liderlərin qiymət məzənnəsini izləməyə məcbur edir.

4. Konkret məhsul üçün alıcıların ödəməyə hazır olduqları qiymətlərin qoyulmasınavə istehlakçıya meyllik əsasında qiymətəmələgəlmə.

Birinci iki metoddan istehsal xərclərinin bu və ya digər formasının hesablanmasında istifadə edilir, digər hallarda qiymətlər firmaların fəaliyyətindən kənar şərtlərlə, məsələn, bazar liderinin qiymət siyasəti ilə yaxud məhsulun istehlakçı tərəfindən potensial qiymətləndirilməsi ilə müəyyən edilir. Sonuncu metod bəzən alıcıların konkret sifarişlərinin yerinə yetirilməsində tətbiq edilir. Bu halda qiymətlər əhəmiyyətli dərəcədə istehsalçı və istehlakçıların gücləri nisbətindən asılı olacaqdır.

## ÖZÜNÜ YOXLAMA SUALLARI:

1. İnkişaf etmiş ölkələrdə qiymətəmələgəlməyə hansı amillər təsir göstərir?
2. İnkişaf etmiş ölkələrin firmaları tərəfindən qiymətlərin formalaşmasının hansı metodları vardır?
3. İnhisarçı firmalarının bazar qiymət siyasətinin mahiyyəti nədən ibarətdir? Firmanın qiymətəmələgəlmə yanaşmaları hansı istiqamətlərdə aparılır?
4. Tam xərclər qiymətəmələgəlmə metodunun mahiyyəti nədən ibarətdir?
5. İnkişaf etmiş ölkələrdə istehlakçıya istiqamətlənmə metodu tətbiqi xüsusiyyətləriniizah etmək.

## TESTLƏR

**1. Nə vaxt biz "alıcı bazarı ilə" iş görürük?**

A) təklif məhsullara olan tələbi nəzərə çarpacaq dərəcədə artırdıqda;

B) məhsul seçimində geniş imkanlar açıldıqda;

C) tələb məhsullara olan təklifi nəzərə çarpacaq dərəcə artırdıqda;

D)) məhsul çeşidi kasıbdır, istehsal miqyası böyük deyil, rəqabət yoxdur.

E) məhsul seçimində imkanlar yoxdur

**2. Valyuta məzənnəsi nədir?**

A) ölkənin ödəmə vasitəsidir;

B) xarici valyutadır, xarici valyutada qiymətli kağızlardır;

C)) milli valyutanın başqa ölkənin pul vahidində qiymətidir.

D) milli valyutanın qızıl məzənnəsidir

E) milli valyutanın əmtəə qiymətidir

**3. Milli valyutanın dönərliliyi nədir?**

A) dünya bazarı ilə milli iqtisadiyyatın əlaqə mexanizmidir;

B) ölkənin valyutasının sərbəst alışı və satışı hesabına ölkənin tədiyyə balansının tənzimlənməsi uzun məhdudiyyətlərin olmamasıdır;

C)) milli valyutanın rəsmi bazar kursuna görə başqa ölkələrin valyuta kursuna azad alışı və satışıdır;

D) valyuta mübadiləsinə kəmiyyət normasının olmamasıdır;

E) xarici ödəmələrin həyata keçirilməsi üçün məhdudiyyət yoxdur, idxala olan vergilər aradan qaldırılıb, vahid valyuta kursu müəyyənləşib.

**4.Pauşal məbləğ dedikdə aşağıdakılardan biri başa düşülür**

A) Razılaşma dövründə texnoloji bilik istehlakçıları gəlirlərindən illik ayırmalar;

B) İstehsal və ya satış həcmindəq ayırmalar

C)) Razılaşma dövründə texnologiya alıcısının satıcıya ödəməyə hazır olduğu məbləğ;

D) «a» və «c» bəndləri

E) «b» və «c» bəndləri

**5. Fraxt nədir?**

A) Beynəlxalq dəmiryol tariflərinin daha geniş yayılmış formalarıdır;

B)) Əsasən qeyri inhisarçı gəmiçilikdə trampovlu gəmi sahibləri tərəfindən daşınma haqqının forması;

C) Avtomobil nəqliyyatında beynəlxalq tariflərdir.

D) Hava nəqliyyatında beynəlxalq tarifləri;

E) Heç biri.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT


1. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev «Dünya bazar qiymətləri» dərs vəsaiti Bakı, 1997
2. Q.S.Bayramov «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı, 2001
3. В.К.Ломакин «Мировая экономика», 2003-год.
4. Е.Д.Холевинская, Н.Крозе «Мировая экономика» 2005 год

# MÖVZU 6.

## DÜNYA BAZARININ KONYUNKTURASI VƏ QİYMƏTLƏR

6.1. İqtisadi konyuktura onun formalaşması və inkişafının əsas amilləri;

6.2. Xarici ölkələrin əmtəə bazarlarında konyuktura göstəriciləri;

6.3. Konyukturanın öyrənilməsi metodları və üsulları;

Özünü yoxlama sualları

Testlər

İstifadə olunan ədəbiyyat və informasiya mənbələri;

# 6.1. İqtisadi konyuktura, onun formalaşması və inkişafının əsas amilləri

Konyuktura sözü latınca «conyuktural», italyanca «conjing» sözündən olmaqla geniş mənada qarışılıqlı əlaqədə keçid vəziyyətlərinin, şəraitin və əlaqələrin məcmuyunu ifadə edir. V.Zombart iqtisadi konyukturanın məzmununu «hər bir konkret müddətdə bazar münasibətlərinin ümumi vəziyyəti» kimi müəyyən etmişdir. Belə ki, bu münasibətlər ayrı-ayrı təsərrüfatların taleyinə əhəmiyyətli dərəcədə təsir göstərirlər.

Dar mənada konyuktura hadisələrin yaxud proseslərin, xüsusən də işlərin böhran (kritik) vəziyyətini əks etdirir.

Beləliklə, konyuktura anlayışı bir vəziyyətdən digərinə keçidi müəyyən edən və bir-biri ilə qarşılıqlı əlaqədə olan şəraitlərin məcmusunu özündə cəmləşdirir. Konkret şəkildə iqtisadi konyuktura isə konkret tarixi mərhələdə xalq təsərrüfatının inkişafının təkrar istehsal prosesinin bazar şəraitini müəyyən edir.

Konyukturanın  bir neçə xarakterik cəhəti vardır. Onun birinci cəhəti qeyri-daimiliyi, dəyişkənliyi və tez-tez tərəddüd etməsidir. Bəzi tərəddüdlər konyukturaya qısa müddətdə təsir göstərən qüvvələrin fəaliyyətini əks etdirir, digərləri isə bazar konyukturasının vəziyyətinə təsir edən amillərin nəticələri kimi çıxış edirlər.

Konyukturanın ikinci cəhəti onun müstəsna ziddiyyətlilyidir. Bu. Onunifadə olunur ki, konyukturanın müxtəlif göstəriciləri eyni bir zaman müddətində əks meyllərin-yüksəliş və tənəzzül meyllərinin mövcudluğunu sübut edir.

Göstəricilərə misal olaraq 2005-2008-ci əllərdə ABŞ-da sənaye istehsalının sahə indekslərinin dinamikası göstərilə bilər. Həmin müddətdə sənaye

istehsalının məcmu indeksi 40 faiz yüksəldiyi halda elektrotexnika sənayesində istehsal indeksi 90 faiz yüksəliş, neft emalı sənayesində məhsul buraxılışı bazis ilinin səviyyəsində qalmış, qara metallurgiyada isə 12 faiz aşağı düşmüşdür.

Konyukturanın üçüncü cəhəti onun qeyri-bərabərliyidir. Bu cəhət xüsusən müxtəlif inkişaf göstəricilərinin dinamikası istiqamətlərinin eyni, inkişaf sürətlərinin (templərinin) müxtəlif olduğu dövrdə daha aydın hiss olunur.

Müstəsna ziddiyyətlilyinə baxmayaraq konyukturanın dördüncü cəhəti ictimai kapitalın təkrar istehsalı prosesində yaranan ziddiyyətlərin vahidliyidir.

Konyuktura eldementlərinin ümumi əlaqələrinin mövcudluğunu aşağıdakı misal əsasında ifadə etmək olar.

1956-cı ildə İngiltərə, Fransa və İzrailin Misirə qraşı təcaüzü nəticəsində Süveyş kanalı müvəqqəti olaraq sıradan çıxarılmışdır və Yaxın Şərq nefti Avropaya yalnız ətrafı ilə çıxarıla bilirdi. Nəticədə:

a) fraxt dərəcələrinin artması baş verdi, belə ki, Süveyş kanalının bağlanması neftin Avropaya daşınması məsafəsini artırdı və bazarda neft çatışmamazlığına gətirib çıxardı:

b) Yaxın Şərq neftinin Qərbi Avropa ölkələrinə göndərilməsini sərfsiz etdi, çünki Qərb yarımkürəsindən neft alınması daha ucuz başa gəlməyə başladı. Bu da öz növbəsində iki qarşılıqlı əlaqədar vəziyyət yaratdı: ABŞ-da neft hasilatının artması və Yaxın Şərqdə neft hasilatının azalması.

v) ABŞ-a Kanada neftinin göndərilməsinin artırılmasına stimul yaratdı. ABŞ-neft sənayesi eyni zamanda daxili bazarın tələbatını ödəmək və Avropaya neft ixrac etmək imkanlarından məhrum oldu.

q) Qərbi Avropa ölkələrində neft çatışmamazlığı neft məhsulları istehlakının səmərələşdirilməsini məcbur etdi.

d) Qərbi Avropa ölkələrində Polşa, Almaniya və Amerika kömürünün satışı üçün əlverişli konyunktura yarandı.

Bu misal, təkrar istehsal prosesinin ayrı-ayrı elementlərinin əlaqələrinin reallığını və ardıcıl oalarq hər bir hadisəyə təcrid edilmiş şəkildə deyil, digərləri ilə ümumi baxılmasının zəruriliyini göstərir.

Konyunkturanın beşinci xüsusiyyti ondan ibarətdir ki, bütün təkrar istehsal prosesinə bilavasitə  bazar ifadəsində baxılır. Məlum olduğu kimi konkret təkrar istehsal prosesi istehsal və mübadilə proseslərinin əksliklərinin vahidliyini özündə əks etdirir, uyğun oalarq mübadilə sferasının təkrar istehsal prosesinə gətirdiyi bütün əlavə qeyri-sabitlik elementləri konyunkturanın öyrənilməsinin predmeti olmalıdırlar. Konyunkturanın öyrənilməsində yalnız daxili mübadilə sferasının elementləri təhlil olunmur, həm də beynəlxalq münasibətlərin, beynəlxalq ticarətin və dünya bazarının təsiri üçota alınır, çünki, beynəlxalq mübadilə sferası müxtəlif ölkələrdə istehsal edilən əmtəələrin «toqquşduğu», milli istehsal qiymətlərinin dünya istehsal qiymətlərinə. Milli qiymətlərin dünya qiymtlərinə çerildiyi sahədir.

Təcrübəyə ümumtəsərrüfat konyunkturasını, iqtisadiyyatın ayrı-ayrı sahələrinin və ayrı-ayrı əmtəə bazarlarının konyunkturasını fərqləndirirlər.

Ümumtəsərrüfat və əmtəə bazarları yonyunkturasının hərəkətinin əsasını iqtisadiyyatın inkişafının tsiklik qanunauyğunluqları təşkil edir.Əmtəə bazarlarında baş verən dəyişikliklləri araşdırmaq üçün qiymət tərəddüdlərinin, ehtiyatların hərəkətinin və digər göstəricilərin dəyişilməsinin təsbit edilməsi kifayət deyildir. Bazar konyunkturasının elmi təhlili iqtisadiyyatın inkişafının tsiklik qanunauyğunluqlarının, o cümlədən tsiklik hər bir fazasının xarakterik əlamətlərinin və bir fazadan digərinə keçid şərtlərinin (belə ki, konyunkturanın hərəkətində əsaslı dönüşlər bu  keçidlərdə baş verir) öyrənilməsini tələb edir. Bir konyuktura böhrana, tamamilə başqası isə yüksəlişə  xasdır.

Bazar konyukturasının təhlili və proqnozu metodologiyasının vacib elemeti tsiklik amillərin xarakteri və fəallığının, tsiklin fazasının, tsiklin digər fazaya keçid müddətinin vəə perspektivdə onun dinamikasının müəyyən edilməsidir.

Bütövlükdə iqtisadiyyatın onun ayrı-ayrı sahələrinin inkişafının uzunmüddətli proqnozunun mövcudluğu bazar konyukturasının tədqiqinin mütləq şərtidir.

Bununla bərabər konyuktura tsiklə münasibətdə müəyyən müstəqilliklə xarakterizə olunur. Yüksəliş fazasında konyunkturanın pisləşməsi və əksinə, böhran və durğunluq dövründə işgüzar fəallığın müvəqqəti canlanması müşahidə edilə bilər. Bu, o deməkdir ki, tsiklik qanunauyğunluqlardan əlavə konyunkturanın inkişafına qeyri-tsiklik adlanan digər amillər də təsir göstərir.

Qeyri-tsiklik amillər qrupuna öz təbiətinə görə inkişafı tsiklik xaarkter daşımayan bütün proses və səbəblər aid edilir. Lakin, bu amilələrin əksəriyyəti tsiklik amillər kimi konkret tsiklin inkişafı gedişinə müəyyən təsir göstərirlər, onun fərdi cizgilərini yaradırlar, tsiklin inkişafı mexanizminə dəyişikliklər gətirirlər.

Konyukturaya təsir edən daimi fəaliyyət göstərən amillərə aşağıdakılar aid edilir:

- elmi-texniki tərəqqi;

- istehsal və kapitalın təmərküzləşməsi;

-dövlət-inhisarçı tənzimləmə;

- inflyasiya;

- əmtəələrinistehsalı və istehlakında mövsümilik.

Daimi fəaliyyət göstərməyən qeyri tsiklik amillərə isə –

- sosial ziddiyyətlər;

- kortəbii hadisələr;

- möhtəkirlik amilləri;

-daxili və beynəlxalq siyasi böhranlar aid edilir.

Hər iki qrupp amillər və konyunkturanın formalaşması elementləri bir-biri ilə sıx əlaqədə eyni zamanda və bir-birinin gücləndirməklə yaxud əksinə, biri digərinin təsir gücünü zəiflətməklə fəaliyyət göstərirlər.

Müəyyən dövrlərdə bir və ya bir neçə daimi fəaliyyət göstərən amsillər bu və ya digər bazarın konyunkturasının formalaşmasında əhəmiyyətli rol oynayırlar. Lakin müqayisədə nadir hallarda olsa da elə vəziyyətlər yaranır ki, müvəqqəti amillər bütün iqtisadiyyat üzrə konyunkturanı müəyyən edən amillər rolunu oynayır.

Qeyri-tsiklik amillər hər bir konkret tsiklin inkişafı xüsusiyyətlərini müəyyən edir, ona fərdi, təkrarolunmaz cizgilər verirlər. Konyunkturanın formalaşmasında bu amillərin əhəmiyyəti olduqca müxtəlifdir. Ümumtəsərrüfat konyunkturasının formalaşmasında onların rolu və təsir gücü ayrı-ayrı əmtəə bazarlarının konyunkturasına onların təsiri ilə müqayisədə olduqca zəifdir. Müvəqqəti və təsadüfi amillərin tez-tez konyunktura əmələ gətirən amillər kimi çıxış etdiyi əmtəə konyunkturası (xüsusən xammal və kənd ətəsərrüfatı əmtəələri ) sferasında bu amillərin fəaliyyəti daha güclüdür.

Sistemlərin bir vəziyyətdən digərinə keçidində, yəni qeyri-tarazlıq vəziyyətlərində mühüm makrogöstəricilərin dəyişməsi meylləri yalnız və bir o qədər onalrın qarşılıqlı fəaliyyəti deyil, həm də xarici sosial-iqtisadi və siyasi amillərlə müəyyən edilirlər. Belə hallarda makrogöstəricilərin artım sürətləri arasında dəyişikliklərə baxılması daha məqsədəuyğundur.

## 6.2. Xarici ölkələrin əmtəə bazarlarında konyuktura göstəriciləri

Əmtəə bazarının öyrənilməsi konyunkturanın inkişafını izləmək üçün göstəricilər sistemini müəyyən etməyə imkan verir. Əmtəə konyunkturası göstəricilərinin ümumi sxemi aşağıdakı kimi ola bilər:

1. Ölkələr və firmalar üzrə bütövlükdə əmtəə istehsalının növləri və mərhələlri üzrə statistika vardırsa, onların dinamikasında əhəmiyyətli fərqlər mövcuddursa, onda bazarın ümumi qanunauyğunluqlarının öyrənilməsi ilə kifayətlənmək tövsiyyə edilmir, ayrı-ayrı əmtəə qruplarına diqqət yetirmək lazım gəlir. Ayrı-ayrı ölkələrin və firmaların rəqabət qabiliyyəti haqqında informasiyanın yığılması xüsusən vacibdir.

İstehsal haqqında bir neçə ilin göstəricilərinə baxmaq lazımdır. Bir neçə il üzrə göstəricilərin təhlili istehsal həcmində baş verən əsas dəyişiklikləri aşkar etməyə və inkişafın ümumi meyllərindən müxtəlif tərəddüdləri ayırmağa kömək edir. Əldə olunan nəticələr bu və ya digər ölkənin dünya bazarında rəqabət qabiliyyəti haqqında, qüvvələrin paylanmasında, istehsal xərclərində və s. baş verən dəyişikliklər haqqında fikir yürütməyə imkan verir.

2. Ölkələr, sahələr və firmalar üzrə bütövlükdə əmtəə istehlakı. Buraya hökmət və firmaların ayrı-ayrı əmtəələrin istehlakını formalaşdıran yaxud məhdudlaşdıran tədbirləri aiddir. İstehlakın firma və sahəvi strukturunun öyrnəilməsi adətən ən çətin və əmək-ttumlu proses olsa da bazarın vəziyyətinin xarakteristikası üçün müstəsna vacibdir.

3. Hökumətin, sənayenin, alıcıların, satıcıların anbarlarında və yolda olan əmtəə ehtiyatları. Əmtəə ehtiyatlarının hərəkəti istehslı dinamikasından geri qalır. Onlar istehsalın tənəzzülünün, böhranın başlanğıcında maksimuma çatır, durğunluq fazasından canlanma fazasın keçid dövründə, yəni istehsalın genişlənməyə başladığı dövrdə minimuma qədər ixtisar olunur. Bu zaman

müxtəlif əmtəələrin ehtiyatlarının dəyişməsi bir-birindən fərqlənir. Xammal və hazır məmulatların ehtiyatlarının hərəkətindəki fərqlər daha aydın ifadə olunur. İtstehsal həcmi və xammal ehtiyatlarının ölçüsü arasında birbaşa əlaqə mövcuddur: istehsalın genişlənməsi ehtiyatların artırılmasını tələb edir; istehsal azalan zaman ehtiyatlar da azalır. Xammal ehtiyatlarının həcmi həmçinin, göndəriş şərtlərindən , yəni sürətdən, ardıcıllıq və etibarlılıqdan da asılıdır. Bütün bunlar istehsal prosesinin fasiləsizliyi üçün zəruridir.

4. Hazır məmulat ehtiyatlarının hərəkəti tsiklin gedişində istehsal həcminin hərəkətinə əks istiqamətdə baş verir, yəni istehsal artarkən ehtiyatlar azalır və əksinə. Hazır məmulat ehtikatlarının artması tələbin azalması və konyunkturanın pisləşməsini əks etdirir.

5. Xarici ticarət – müəyyən əmtəənin ixracının və idxalının fiziki və dəyər ifadəsində həcmi (ölkələr və valyuta zonaları üzrə), ticarət və siyasi tədbirlər və s. Bu bölmədə əmtəənin daşınması üçün tonnajın fraxtlaşdırılması haqqında informasiyaya, fraxt dərəcələri, əmtəənin ixracı yaxud idxalına kreditlər haqqında məlumatlara xüsusi diqqət yetirilir.

6. Pul-kredit mferası. Pul tədavülünün mühüm qanunauyğunluğu canlanma və yüksəliş fazalarında tədavüldə əmtəə kütləsinin artması, qiymətlərin, əmək haqqının və s. artması ilə əlaqədar onun genişlənməsidir. Böhran və durğunluq dövründə real təkrar istehsalın ixtisarı pula tələbatı azaldır və tədavül sferasında pul kütləsinin ixtisarına və onların dəfinə (xəzinə) kimi toplanmasına səbəb olur.

Kredit üzrə uçot fiziki – bank kapitalının qiyməti- xüsusən səciyyəvidir. Uçot faizi yüksələn konyunkturanın son mərhələlərində yüksəlir və böhran anında ən yüksək nöqtəyə çatır. Onun aşağı dşməsi adətən durğunluq dövrünün sonuna təsadüf edir. Vəziyyətin kəskinliyi yumşalır, kapitala tələb azalır, kapitalın əlavələrini axtaranların sayı isə artır. Bu zaman metal ehtiyatları və qoyuluşları da artır. Ləğvetmə dövrünün ardınca canlanma baş verir: dövriyyə vəsaitlərinin alınması imkanlarının asanlaşması pula olan tələbi artırır. Yüksəliş fazası qyimətlərin qalxması və kapitala görə faizlərin

yüksəlməsi ilə müşayiət olunur. Tələbin artması nəticəsində bank nəğdiliyi azalır ki, bu da yaxınlaşan böhranın birinci əlamətidir; o, bank uçotunun artması və qoyuluşların azalması ilə xarakterizə olunur. Qalan ehtiyatların müdafiəsi üçün uçot faizi yüksək qaldırılır. Bu tədbirə böhran haqqında xəbər verən başlıca vasitə kimi baxılır, onun tətbiqi nəticələri isə heç də həmişə müvəffəqiyyətli olmur.

Bankların qarşılıqlı hesablaşmaları yaxud hesablama palataları üzrə məmuatlar böyük əhəmiyyətə malikdir. Hesablama palatalarının məqsədləri aşağıdakılardan ibarətdir: Bank işinin müasir inkişafı səviyyəsində hər bir bankda digərlərinə münasibətlər üzrə öhdəliklər toplanır.Bir bank digərinə, eyni zamanda ikinci bank birinciyə borcludur. Bütün borc məbləğinin ödənilməsi əvəzinə borclar ararsında fərqli ödəməklə qarşılıq iddiaların yerinə yetirilməsi daha sərfəlidir. Hesablama palatalarının əməliyyatlarının kəmiyyəti bank dövriyyəsinin genişlənməsi göstəricisidir. Bu da əmtəə dövriyyəsinin artmasını əks etdirir.

Qiymətli kağızların emissiyası da konyunktura göstəricisidir. Qiymətli kağızların emissiyası dedikdə əsas kapitalın genişlənməsi və yeniləşdirilməsi yaxud vəsaitlərinin artırılması üçün sərbəst pul ehtiyatlarının səfərbər edilməsi məqsədilə onların bazara buraxılışı başa düşülür. Bəzən emissiya rekonversiy, Yəni bir qiymətli kağızın digəri ilə əvəz edilməsi məqsədilə həyat keçirilir.

Səhmlərin məzənnəsinin dəyişməsinə ssuda faizinin tərəddüdləri də təsir göstərir. Ssuda faizinin aşağı düşməsi zamanı səhmləri məzənnəsi yüksəlir və əksinə.

## 6.3. Konyukturanın öyrənilməsi metodları və üsulları

Azərbaycanda müstəqil ölkə kimi tam iqtisadi sistemi yaradılması və təsərrüfatçılıq mexanizmi kimi bazar münasibətlərinin qəbulu ölkə iqtisadiyyatının idarə olunmasında dünya təcrübəsində sınaqdan çıxış müsbət nəticəli üsulların tətbiqini zəruri edir. Çünki, bazar münasibətləri əsasında qurulan təsərrüfatçılıq mexanizmi ilk növbədə ölkə iqtisadiyyatının, dünya təsərrüfat sisteminin üzvi tərkib hissəsinə çevrilməsini, yəni onun dünyaya açılmasını tələb edir. Bu halda təbii ki, bir sıra iqtisadi proseslərin, iqtisadi kateqoriyaların məqsədləri və mahiyyəti dünya təcrübəsinə uyğunlaşdırılmalıdır. Belə proseslər arasında qiymətqoyma, maliyyə-kredit münasibətləri, pul valyuta siyasəti, xarici iqtisadi fəaliyyət və s. ilk növbə baxılmalıdır. Çünki, ölkənin xarici aləmlə ilkin təmas xətləri bu proseslərdən keçir.

Uzun illər ərzində «qapalı» SSRİ iqtisadiyyatı tərkibində formalaşmış Azərbaycan iqtisadiyyatında dünya konyunkturasına müvafiq xarici iqtisadi fəaliyyət, həmçinin qiymətqoyma, pul-kredit siyasətinin olması praktiki cəhətdən qeyri mümkün idi.

Son bir neçə ilin təcrübəsi göstərir ki, bu səbəblərdən həmin sahələrin işində indiyədək dünyada çoxdan sınaqdan çıxmış və hamılıqla qəbul edilmiş yaxınlaşmalar və metodlar demək olar ki, tətbiq edilmir. Ancaq aparılan tədqiqat və müşahidələr göstərir ki, səmərəli və məqsəd-yönlü nəticələr almaq üçün məhz müasir Azərbaycan iqtisadiyyatının ən mühüm funksional problemlərinin həlli dünya praktikasında qəbul edildiyi kimi konyunktura tədqiqatlarına əsaslanmalıdır. Bəs konyunktura tədqiqatları necə və hansı ardıcıllıqla aparılmalıdır. Dünya təsərrüfat konyunkturası dünya bazarında qiymətqoymaya necə təsir edir.

Konyunktura tədqiqatı iqtisadiyyatı cari vəziyyətinin müxtəlif göstəricilərin vasitəsilə xarakterizə olunmasıdır. Dünya konyunkturası ayrıca götürülmüş ölkə və ya ümumdünya miqyasında iqtisadi prosesin inkişafına təsir edən faktorlar və şərtlərin toplusudur. Ona görə də ümumi təsərrüfat, sahə və ayrıca məhsul, əmtəə bazarlarının konyukturası kimi təsnifat mövcuddur.

Ümumi təsərrüfat konyukturası dünya iqtisadiyyatının və ya ayrıca bir ölkə iqtisadiyyatının hər hansı bir dövrdə olan vəziyyətini xarakteriə edir və bunun üçün geniş təkrar istehsal prosesinə bütövlükdə baxılır. Əmtəə bazarı konyukturası isə ayrı-ayrı məhsulların istehsalı və satışı sahəsindəki, cari dəyişiklik və meylləri öyrənir. Konyukturanın öyrənilməsi bazarın vəziyyətinə təsir edən faktor və göstəricilərin təhlilini nəzərdə tutur. Belə amillər konyuktura yaradan faktorlar deyilir. Konyunktura yaradan amillər iki böyük qruppa bölünür.

Birinci qruppa iqtisadi inkişaf dövrləri və onların əsas müəyyənləşdiriciləri aiddir. Böhran əmtəə qiymtələrinin düşməsi, kredit gərginliyi, aksiyaların kursunun düşməsi, topdan və pərakəndə ticarətin azalması, uçot dərəcəsinin qalxması, istehsal gücünün azalması, işsizliyin artması, əhalinin ödəmə qabiliyyətinin azalması və s.

Tənəzzül-istehsal dayanır, qiymətlərin düşməsi dayanır, lakin elə an gəlir ki, istehsalın artımı hələ olmur, ancaq istehsalın azalması da dayanır, qiymətlər artmır, lakin onun aşağı düşməsi dayanır, in yerləri artmır, işsizlərsə çoxalmır, ehtiyatların artımı kəsilir. İstehsal azaldığına görə əmtəə ehtiyatları azalır, yəni tənəzzüldən canlanma dövrünə keçid yaxınlaşır.

Canlanma – durğunluq inkişafı ilə əvəz olunur, əsas kapitalın kütləvi təzələnməsi başlanır, bir sıra mallara tələb artır, qiymətlər qalxır, borc kapitalına çoxalır, gəlir artır:

Yüksəliş – sənaye istehsalı sürətlə artır, əsas kapitalın kütləvi təzələnməsi ilə yanaşı yeni müəssisələrin  tikilməsi başlanır, tikinti materialları, xammal, yanacaq, avadanlıq və s. tələb artır, təklif tələbi ödəyə bilmir.

İkinci qrupp konyunktura yaradan faktorlara qeyri dövrü faktorlar deyilir və onlar da öz növbəsində daimi və qeyri-daimi fəaliyyət göstərmələri ilə fərqlənirlər. Daimi fəaliyyət göstərən qeyri-dövrü fatkorlara iqtisadi inkişafın xarici şəraitinin dəyişməsi, elmi-texniki tərəqqi, manopoliyaların və dövlətin təsiri, iqtisadiyyatın hərbiləşdirilməsi, inflyasiyanın təsiri aiddir. Epizodik, qeyri-daim təsir göstərən qeyri-dövrü faktorlara isə məhsul istehsalının mövsümiliyi, sosial münaqişələr, siyasi böhranlar və həmçinin təbii fəlakətlər aiddir.

Konyukturanın yuxarıda göstərilən faktorların təsiri ilə  dəyişməsi aşağıdakı  kimi iqtisadi göstəricilərin vasitəsilə qiymətləndirilə bilər. a) maddi istehsal sferası göstəriciləri – faydalı qazıntıların istehsalı, kənd təsərrüfatı və sənaye məhsullarının həcmi, o cümlədən istehsalın dolayı göstəriciləri – məşğulluq, əmək haqqı  fondu, iş həftəsinin uzunluğu; b) daxili əmtəə dövriyyəsi göstəriciləri- Milli bazarların vəziyyətini xarakterizə edir: Topdan və pərakəndə satış həcmi, əhalinin tədiyyə qabiliyyətli tələbi, əmtəə ehtiyatların hərəkəti, daxili daşımalar həcmi; v) xarici ticarət göstəriciləri – idxal, ixrac və əmtəə dövriyyəsi həcmi; q) pul-kredit sferası göstəriciləri aksiyaların kursu, uçot dərəcəsi, müflisləşmənin sayı, bank depozitləri və s.; d) investisiya həcmi göstəriciləri- burada sifarişlərin həcm göstəriciləri-buraya həm müəyyən vaxtda verilmiş sifarişlərdən ibarət portfel və həm də müəyyən dövr ərzində daxil olunan sifarişlərin həcmi aiddir; j) Qiymətlər konyukturanın öyrənilməsində ən vacib göstəricidir. Çünki, qiymətlər konyukturanın cəmləyici və göstərici rolunu oünayır və onun dəyişməsində bütün digər göstəricilər öz əksini tapır. Bundan başqa qiymətlər təcrübi cəhətdən ən əlverişli göstəricidir. Konyukturanın öyrənilməsi – bazarda yaranmış vəziyyətin təhlili və  onun qiymətləndirilməsi, həcminin inkişaf meylinin

proqnozlaşdırılması məqsədini güdür. Ona görə də konyuktura tədqiqatı bir sıra vacib cəhətləri nəzərə almaqla, aparılmalıdır. Belə ki, cəmiyyətin iqtisadi həyatının müxtəlif cəhətlərinin qarşılıqlı əlaqəsinin mövcudluğu, hər hansı bir bazarın müəyyən meylinin avtomatik surətdə digərinə köçürülməsinin yolverilməzliyi, bazarlarda stabilliyin olmaması üzündən konyuktura müşahidələrinin fasiləsiz aparılması vacibliyi konyukturanın öyrənilməsinin mərhələlərlə və müəyyən ardıcıllıqla aparılmasını şərtləndirir.

Təcrübələr göstərir ki, iqtisadi göstəricilərin dinamikası və dəyişmələri səbəbinin öyrənilməsi aşağıdakı ardıcıllıqla daha dolğun nəticələr verir. İlkin mərhələdə konyuktura təhlil olunur. Onun üçün ardıcıl olaraq istehsal, tələb və təklif, beynəlxalq ticarət və qiymətlər araşdırılır. İkinci mərhələdə konyuktura proqnozlaşdırılır. Burada ümumi təsərrüfat konyukturu, istehlak, istehsal, beynəlxalq ticarətin inkişafı və qiymətlərin dinamikasının perspektivi müəyyənləşdirilir.

Qeyd etdiyimiz kimi konyukturanın vəziyyətini xarakterizə edən ən əsas göstəricilərdən biri qiymətdir. Dünya bazarlarında qiymətqoymanın spesifik cəhətlərə malik olması, dünya qiymətlərinin daxili qiymətlərdən fərqli olaraq bir sıra əlavə faktorların təsiri ilə formalaşması meyli konyuktura tədqiqatlarında bu problemə xüsusi yaxınlaşmanı tələb edir. Dünya bazarında qiymətqoymanın əsasını təbii ki, həmişə olduğu kimi dəyər təşkil edir. Lakin burada qiymətin dəyər əsasından fərqlənməsinin qiymətləndirən bir sıra təsiredici amillər vardır. Belə amillərə ilk növbədə dövrü inkişafın qanunauyğunluqları aiddir. Məhz dövrü inkişafın təsiri ilə formalaşan tələb və təklif dəyər qanununu dünya bazarında meylin istiqamətləndiricisinə çevirir, real bazar qiymətlərinin faktiki dəyərdən xeyli uzaqlaşması üçün şərait yaradır. Aydındır ki, müxtəlif əmtəə qrupları üçün bu uzaqlaşma müxtəlifdir. Məsələn, gündəlik təlabat malarının və ya xammal və materiallarla hazır məhsulların, sənaye məhsulları ilə mövsümi və tez xarab olan məhsullara qiymətqoymada dövrü inkişafın faza və xüsusiyyətlərinin təsiri eyni deyildir.

Qiymətlərin səviyyəsinə və dinamikasına təsir edən ikinci qrupp faktorlar transmilli karporiyalar və beynəlxalq sahə birliklərinin (əsasistehsalçıların) dünya qiymətlərini nizamlamaq cəhdi adı ilə inhisarçı qiymətləri müəyyənləşdirmək meylidir. Ölkə daxilində antiinhisar tədbirlərin aparılması bütün dünyada hamılıqla qəbul edilmiş qaydada çevrilsə də dünya bazarında belə tədbirlərin hazırlanması xüsusilə də kollektiv inhisarçı qiymətqoyma ilə mübarizə aparılması əməli cəhətdən mümkün deyildir. Çünki, əslində dünya bazarında qiymət üzərində tam inhisarçı olmaq üçün ümumi dövriyyədə 30-40%-ə malik olmaq kifayətdir.

İnhisarçı qiymətqoymada dövlətin rolu da əhəmiyyətlidir. Belə ki, dövlət özünün daxili qiymət siyasəti, ixrac və idxal üçün kömrük tarifləri və vergilər vasitəsilə daxili qiymətlərin səviyyəsi ilə dünya qiymətləri arasında fərq yaratmağa və beləliklə ixrac mallarının rəqabət qabiliyyətin artırmağa, daxili bazarı xarici malların ekspansiyasından qorumağa çalışır. Bunun üçün daxili qiymətqoymada və gömrük tarififndə inhisarçılıq xüsusi rol oynayır. Doğrudur, son dövrlərdə dünya bazarında, ölkələrarası ticarətdə ticarət və tarif haqda baş saziş və s. vasitələrlə qayda-qanun yaradılması üçün mühüm tədbirlər görülür.

Qiymətlərin səviyyəsinə təsir edən mühüm birparametr də inflyasiya və mili valyuta kurslarının dəyişdirilməsi siyasətidir. Lakin qeyd edilməlidir ki, milli valyutanın «sərbəst dəyişən» kursunun müəyyənləşdirilməsi son dərəcə ehtiyatlılıq tələb edir, belə siyasət ancaq daxili istehsal və istehlakın stabilliyi və dəqiq idarə olunması şəraitində arzu olunan nəticə verə bilər. Dünya təcrübəsi göstərir ki, milli valyuta kursunun aşağı düşməsini stimullaşdırmaqla «valyuta dempiqi» siyasəti heç də uzunmüddətli dövr ərazində müsbət nəticələr vermir.

Dünya bazarına çıxarılacaq malların qiymətlərinin müəyyənləşdirilməsi qaydaları da müxtəlifdir. Hal-hazırda belə məhsulların qiymətləndirilməsi üçün üç üsuldan daha çox istifadə edilir.

1. Qiymətlərin istehsal xərcləri əsasında müəyyənləşdirilməsidir. Bu halda məhsulun ixrac qiyməti istehsal xərcləri ilə orta səviyyəli gəlirin cəmindən ibarət olur. Bu həm də istehsal qiymətlər adlanır. Bazar qiyməti isə istehsal qiymətinin üzərinə konyunkturanın vəziyyəti, göndərmə və ödəmə şərtləri, kommersiya riskləri, alıcının digər müxtəlif tələbləri və s. ilə əlaqədar müxtəlif əlavə və güzəştlərin nəticəsində alınır.

2. Məhsulun istifadə olunmasının iqtisadi nəticəlrinə görə qiymətlərin müəyyənləşdirilməsi. Bu halda bazarda rəqabət aparan malların qiyməti xərcini ödəmə müddəti və ya mənfəət norması (istehsal təyinatlı məhsullar üçün) ilə, illik istismar xərcləri və müəyyən olunmuş müddət ərzində istismar xərclərinin (istehlak təyinatlı məhsullar üçün) müqayisəsi əsasında müəyyənləşdirilir.

3. Orta bazar qiymətləri əsasında qiymətlərin müəyyənləşdirilməsi müxtəlif mənbələrdən alınan və bir-biri ilə rəqabət aparan materialların istifadə edildiyi təqdirdə təchizatçı və istifasdəçilərin, müvafiq istehsal sahələrinin vəziyyəti, müvafiq əmtəə konyunkturasının öyrənilməsi əsasında orta bazar qiymtələri tapılır. Bunun üçün qiyməti müəyyənləşdirilən əmtəənin əsas xarakteristikası həmin sahədə aparıcı istehsalçı və istehlakçıların müvafiq məhsulları ilə müqayisə edilir və bu zaman eyni texniki iqtisadi keyfiyyətli məhsulların bərabər qiymətə malik olması prinsip əsas götürülür. Bunun üçün qiymətqoymanın parametrik metodu adlı üsul geniş tətbiq olunur. Bu metodun əsas məğzi qiymətlə məhsulun parametrləri (keyfiyyəti, növü, gücü məhsuldarlığı və s.) arasındakı asılılıqdan geniş istifadə olunmasıdır.

## ÖZÜNÜ YOXLAMA SUALLARI:

1. İqtisadi konyunktura nədir?
2. Dünya əmtəə bazarının konyukturası dedikdə nə başa düşülür;
3. Konyukturaya təsir göstərən əsas amillər hansılardır;
4. Dünya əmtəə bazarının konyukturasının öyrənilməsinə hansı göstəricilər sistemi təsir göstərir?
5. Konyukturanın öyrənilməsi metodları hansılardır?
6. Xammal , maşın və avadanlıq bazarında konyukturanın öyrənilməsi xüsusiyyətlərini göstərin.
7. Ayrı-ayrı əmtəə bazarlarında konyuktura və qiymət arasındakı qarşılıqlı əlaqə necə təhlil olunur?

## TESTLƏR:

**1. Dünya əmtəə bazarının konyunkturası dedikdə başa düşülür:**

A) Müxtəlif iqtisadi göstəricilərin dəyişməsi ilə müəyyən olunan iqtisadiyyatın hal-hazırkı vəziyyəti;

B) Təkrar istehsalın dövrülüyünün konkret prosesi;

C)) Dünya təkrar istehsalında hər hansı sferasının inkişafına ayrıca götürülmüş ölkənin iqtisadi vəziyyətinə, dünya təsərrüfatının inkişafına təsir edən amillər və şərtlərinin məcmusu;

D) Dünya təsərrüfatının qanunauyğunluğu

E)

**2. Dünya əmtəə bazarının konyunkturasının öyrənilmə göstəricilərinə aid deyildir?**

A) Material istehsalı sahəsinin göstəriciləri;

B) Daxili əmtəə dövriyyəsinin göstəriciləri;

C) Xarici ticarət göstəriciləri;

D)) Ölkənin Milli gəlirinin və alıcılıq qabiliyyətinin səviyyəsinin dinamika göstəriciləri.

E) Maliyyə – kredit sahələrinin göstəriciləri.

**3. Qiymətlərin ölçü vahidi, bazis qiymətləri, valyuta qiymətləri, qiymətlərin təsbit olunma yolu və qiymətlərin səviyyəsi – bunlar nədir?**

A) dünya ticarət bazarı konyukturasının struktur elementləridir;

B) dünya bazarı həcminin göstəriciləridir;

C)) alqı-satqı müqaviləsinin əsas elementləridir;

D) rəqabət qabiliyyətliliyin göstəriciləridir.

E) əmək məhsuldarlığı göstəricisidir

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT


5. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev «Dünya bazar qiymətləri» dərs vəsaiti Bakı, 1997
6. Q.S.Bayramov «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı, 2001
7. В.К.Ломакин «Мировая экономика», 2003-год.
8. Е.Д.Холевинская, Н.Крозе «Мировая экономика» 2005 год

# MÖVZU 7.
## «DÜNYA BAZARINDA İNHİSARLARIN QİYMƏT STRATEGİYASI»

7.1. İnhisar bazarı şəraitində dəyər qanunun fəaliyyəti;
7.2. İnhisar mənfəəti və onun sərhədləri;
7.3. İnhisar rəqabəti və qiymətlər;
7.4. Kapitalist istehsalı sistemində kiçik biznesin rolu.
7.5. Qiymətlərin inflyasiya artımı.
Özünü yoxlama sualları.
Ədəbiyyat
Testlər

### 7.1. İNHİSAR BAZARI ŞƏRAİTİNDƏ DƏYƏR QANUNUNUN FƏALİYYƏTİ

İstehsalın təmərküzləşməsi dərəçəsinə körə bütün struktur çoxcəhətliliyini şərti olaraq üç növə bölmək olar: mütləq inhisar, oliqopoliya və oliqopolistik struktur. Oliqopolistik strukturda inhisarın nə birinci və nə də ikinci növünə aid edilməyən müəssisələrin istehsal və bazar fəaliyyəti üstünlük təşkil edir.

İnkişaf etmiş kapitalist ölkələrində iqtisadiyyatın əsas sahələri və bazarlar *dliqopoliya növunun quruluşu* ilə xarakterizə olunur. həmin quruluş çərçivəsində hökmran mövqeni məhdud saylı iri konsernlər və şirkət ittifaqları tutur ki, bunların da payına mövçud sahənin (bazarın) istehsalının böyük və yaxud da üstünlük təşkil edən hissəsi düşur. Oliqopoliya dedikdə, elə bir vəziyyət başa düşülür ki, bu zaman iqtisadiyyatın hər hansı sahəsində hökmranlığı bir inhisar deyil, bir neçə inhisar ələ keçirir. Bu inhisarlar qarşılıqlı rəqabəti zəiflətmədən bazar üzərində birkə qrun hökmranlığını həyata keçirirlər. Mütləq inhisarfövqəl'adə dərəçədə nadir haldır, lakin sosialiqtisadi siyasət daha mürəkkəb formada həyata keçirilir və onun iştirakçıları öz aralarında kartel və dikər inhisar birlikləri vasitəsilə möhkəm əlaqə saxlayırlar. Ona körə də bu iki formanın spesifik fərqlərini nəzərə almaqla, onları inhisar adlandıraçağıq.

hər bir ayrıca bazarda inhisar və rəqabətin öz quruluşu və onların birindən dikərinə keçmək dərəcəsi mövçuddur. Bu və ya digər bazar quruluşu növünün müəyyən edilməsi üçün e'tibarlı me'yarın tapılması özlüyündə mürəkkəb nəzəri problemdir. Lakin belə bir təsnifləşdirmənin bə'zi əsas, parametrlərini demək mümkündür.

1) Sahədə əsas məhsul kütləsini istehsal edən iri inhisar birliklərinin nəzarət etdiyi kapitalın ölçüsü və təmərküzləşmə dərəcəsi;
2) həmin inhisar strukturunun bazarda reallaşdırdığıməhsulun xüsusi çəkisi.
3) İstehsal proqramıtaş xarakteri, ixtisaslaşma dərəcəsi,
ETTnin nəailiyyətlərindən istifadənin səviyyəsi, marketinq sisteminin inkişaf dərəcəsi və təkrar istehsalın dikər xüsusiyyətləri;
4) Qiymətəmələkəlmənin prinsipləri, istehsal xərclərinin quruluşu, bazarda mövqe VƏ; rəqiblərin həmin sektoruna daxil olmasından qorunmanın sair şərtləri.

Kapitalist dünyası iqtisadiyyatının müxtədif ölkə və sahələrində **inhisarlaşma dərəçəsi** son dərəcə qeyribərabərdir. Ağır sənayedə, o cümlədən metallurkiya, dağ mədən, kimya, maşınqayırma sahələrində istehsalın təmərküzləşməsi prosesinin daha yüksək tempi müşahidə olunur.

Son 1520 il ərzində aparıçı kapitalist ölkələrində, xüsusilə də iri biznes çərçivəsində kapitalın mərkəzləşməsinə bir firmanın dikərləri ilə birləşməsi və udulmasına doğru kifayətqədər küclü stimullar meydana kəlmişdir. Kapitalların birləşmə və udulma dalğası bütün inkişaf etmiş kapitalist ölkələrinin təsərrüfatını tamamiləbürüdü.

Birləşmə və udulmanın muasir dalğası praktiki olaraq iri biznes strukturunun çərçivəsindən kənara çıxmır. Strukturun böhranı hamıdan çox bazarda hökmranlıq edən daha iri nəhənklər qrupuna zərbə endirdi. Onların həyat qabiliyyətliliyi problemi xırda şirkətlərin deyil, iri şirkətlərin sıxışdırılması hesabına həll olundu. "Meqa birləşmə"nin fəallaşmasına həm də bir qrup ölkələrdə antiinhisar qanunçuluğu fəaliyyətinin açıqaşkar zəifləməsi və onların dikər ölkələri buna birbaşa şirnikləndirilməsi kömək etdi. ABŞda 80çı illərin I yarısında neft sənayesində başlamaqla bütün təsərrüfatı əhatə edən milyardlarla aktivlərin birləşmə və udulması baş vermişdir. halhazırda birləşmə və udulmanın dalğası bütün beynəlxalq aləmə səpələnmişdir.

TMKnın stratekiyasında fəaliyyətdə olan şirkətlərin alınmasına xarici bazarlarda möhkəmlənməyin daha münasib və səmərəli forması kimi baxılır. Bu vaxt üstünlük ən çox iri milli firmalara və ya onların filiallarına verilir. Son illər müxtəlif mənsubiyyətli şirkətlərin aktivlərinin alınması keniş və sür'ətlə baş verir.

Amerika firması "Krayslər", Peco"nun aktivinin bir hissəsini almışdır. "Ford" "Toe Koqyo" aktivinin bir hissəsinin sahibidir. "Ceneral motors" "İsidzu" və "Sudzuki" firmalarının aktivlərinin bir hissəsinə malikdir. Qərbi Almaniya, fransız və yapon firmaları öz növbələrində Amerikanın kimya, metallurkiya, avtomobil vo sair sahələrin müəssisələrini alırlar.

Yeni şəraitdə kapitalın təmərküzləşmosinin başlıça istiqamətləri **üfüqi və şaquli inteqrasiya, diversifikasiya**
arasında mövcud olan nisbətlər hiss olunacaq qədər DƏYİŞİLmişdir. **Üfüqi inteqrasiya** dedikdə, müəyyən sahədə iri şirkətin payının artması, sahə istehsalının daha böyük xüsusi çəkisinin onun əlində cəmlənməsi başa düşülür. **Şaquli inteqrasiya** dedikdə, iri şirkətlərin, onların əsas sahələrinə münasibətdə ardıcıl istehsal və ya tədavül pilləsi kimi yerləşən dikər sahələrə yayılması başa düşülür. **Diversnfikasiya** dedikdə, iri şirkətlərin, onların əsas sahəsi ilə birbaşa istehsal əlaqəsində yerləşməyən dikər sahələrə soxulması nəzərdə tutulur.

Bazarlar probleminin birdənbirə kəskinləşməsi və dünya kapitalist təsərrüfatının beynəlmiləlləşdirilməsi üfüqi inteqrasiyanın müəyyən qədər dirçəlməsinə, yəni firmaların sahəvi bazarda ekspansiyasına səbəb olmuşdur. Bu, daha kiçik ölçülü firmaların istehsal potensiallarını birləşdirmək əsasında qruqoqaşmaqda olan nəhənklərə qarşı durmaq cəhdinin ifadəsi sayılır. Qərbi Avropada, xüsusilə də AFR və Fransada dövlət birsahəli birləşmə və udulmanı müdafiə etməklə, bazarların yapon və amerikan kapitallarından qorunmasına nail oldular.

Ançaq ki, 7080cı illərdə də şaquli inteqrasiya və xüsusən də diversifikasiya öz əhəmiyyətini saxlamaqda davam edirdi. Bir çox hallarda diversifikasiyanın səmərələşdirici yolları kimi onun hüdudlarının daraldılması, texnolokiyaya, xammal bazasına və yaxudda məhsulların bazar əlamətlərinə körə, əsas istehsala yaxın istehsallarda çəmləşdirilməsi baş verirdi. Belə ki, ABŞın aparıcı konqlomeratı "Qolf end Uestern" bir çox istehsal növlərindən imtina etdi və öz fəaliyyətində nəşriyyat işlərinin maliyyə və rekreasiya xidmətlərinin dairəsini məhdudlaşdırdı. Konqlomerat "İTT" son illər 100ə yaxın bölmə və filialları ləğv etdi. Konqlomerat "Litton" bir çox istehsal sahələrini satmaqla yalnız elektronika ilə bağlı elm tutumlu sahələrlə kifayətləndi. Lakin bu, kompaniyaların əsas fəaliyyətləri ilə bağlı olmayan sferaların bir hissəsinin ekspansiya olunmasını istisna etmədi. Məsələn: amerika kompaniyası "Ceneral korporeyşen" rezintexniki istehsalların bir sıra profillərini döndərib aerokosmik biznesə, pla,stik kütlə, alkoqolsuz içkilər istehsalına, avianəqliyyata tətbiq etdi.

hazırkı dövrdə oliqopolistik, struktur iqtisadiyyatın əksər sahələrində üstünlüyə malik olmaqla hökmran rol oynayır. Belə ki, ABŞın e'mal sənayesinin əmtəəlik məhsullarının 2/3yə qədərini istehsal edən sahələrə 4 daha böyük iri şirkət uyğun istehsalın 25dən 100%ə qədərini cəmləşdirirlər.

Oliqopolistik struktur sahənin şirkətləri arasında sahədaxili qarşılıqlı asılılığın yeni formalarının meydana çıxmasını şərtləndirir. Sahədə, ya da müəyyən lokal ərazi

bazarlarında iri şirkətlərin məhdud sayı istehsal və ya bazar siyasətinin bu və ya dikər istiqamətlərində qarşılıqlı tə'sir üçün obyektiv şərait yaradır. Öksər sahələrdə müasir istehsal, xüsusilə ağır sənayedə mürəkkəbdir və kapital tutumludur. Onun inkişafı firma daxilində bir sıra ən mühüm parametrlərin çari və pespektiv planlaşdırması aparılmadan mümkün deyildir. Bu isə xüsusən də qiymətlərdə nisbətən sabit bazar şərtlərini tələb edir. Ona körə də iri şirkətlər arasında hərtərəfli və xüsusən də kəskin qiymət rəqabətinin kenişlənməsi sahədə mənfi nəticələrin alınması təhlükəsini yaradır.

Müasir dövrdə oliqopoliya kapitalist iqtisadiyyatının əksər sahələri üçün xarakterikdir. Keçmişdə belə hallar olmurdu. Toxuculuq sənayesi oliqopolistik struktur mərhələsinə II dünya müharibəsi dövründə daxil olmuşdur. Kənd təsərrüfatına indiyə qədər atomistik struktur xasdır. Bu, tələb və təklifin qısamüddətli tərəddüdlərindən asılı olaraq teztez qiymət dəyişmələrinə səbəb olur: tələbin aşağı düşməsi ilə qiymətlər istehsalın həcminə nisbətən daha sür'ətlə və daha çox aşağı düşür, tələbin artması ilə istehsalın həcmi qiymətlə müqayisədə daha sür'ətlə artır. Atomistik strukturun əlamətlərinə aşağıdakılar aiddir: İstehsalçıların müstəsna dərəcədə çoxlu sayda olmaları, onların Heç biri istehsal və bazarın xeyli böyük hissəsi üzərində ciddi hökmranlıq etmir; sahəyə yeni istehsalçıların daxil olması üçün maneələrin aşağı olması; məhsul nisbətən standartdır; məhsulların əksər növü.üçün ərazi fərqləri əhəmiyyətli qədər deyildir.

İnkişaf etmiş kapitalist ölkələrinin müasir iqtisadiyyatında sahə bazarının təşkilinin **qeyri oliqopolnstik** formalarına nadir hallarda rast kəlinir.

Mütləq inhisarlaşmış bazar «sahələrinə müstəsna hal kimi baxılır.

**Oliqopoliya mexaiizmi** dövlət tənzimlənməsi ilə yanaşı ETTnin sürətlənməsini və onunla əlaqədar istehsalın səmərəliliyinin yüksəldilməsini şərtləndirirlər. Başqa sözlə, məhz sahənin təşkilinin oliqopolik tipi kapitalist ölkələrində məhsuldar qüvvələrin artan inkişafının tələblərinə daha çox uyğun kəddi.

Oliqopoliya çərçivəsi daxilində bazar və xüsusilə də qiymət siyasətində qarşılıqlı əlaqə və yaxud bilavasitə razılaşma baş verir. Oliqopolist quruluşlu sahələrdə ölçülərinə və sinxron dəyişmələrinə körə təxminən eyni olan preyskurant qiymətləri sistemi yarana bilər. Belə vəziyyəti saxlamağa imkan verən keniş yayılmış metodlardan biri qiymətlərdə liderlik deyilən mövqeyinin əldə olunması sayılır.

"Razılaşdırılmış davranış qaydalarının seçilməsi" bu və ya dikər sahənin iri şirkətləri tərəfindən qiymətəmələkəlmə proseslərinə sıx bağlı olan və onları müəyyən edən vahid üsulların bəyənilməsi və qəbul edilməsi də öz mahiyyətinə körə buna oxşardır. (Məsələn: istehsal xərçlərinin hesablanmasının vahid sisteminin, vahid qiymət düsturlarınınₜ vahid keyfiyyət xüsusiyqyətlərinin bəyənilməsi_və_sD İri şirkətlər tərəfindən bu çür üsulların qəbulundan sonra qiymətlər sövdələşmə olmadan da nisbətən asanlıqla razılaşdırıla bilər.

Lakin sərt razılaşdırılmış bazar, xüsusilə də qiymət siyasəti hallarına nadir hallarda rast kəlinir. Rəqabətin əhəmiyyəti həmişə saxlanılır. Doğrudur, oliqopoliya şəraitində r, azad rəqabətdən fərqlənir və buna körə də inhisarçı adını almışdır. Əkər azad rəqabət demək olar ki, müstəsna: dərəçədə qiymətlərin aşağı düşməsi əsasında aparılırdısa, inhisar rəqabəti həm də qeyriqiymət rəqabəti adlandırılan bir çox istiqamətləri və hər şeydən əvvəl, məhsulun çeşid və keyfiyyətinin yaxşılaşdırılmasını, alıçıların vəsaitlərinin, ən çox da reklam əsasında cəlb olunmasını və s. özündə birləşdirir. İnhisar şəraitində bazarın daha küçlü tərəfi istehsalçı sayılır. Lakin buna əks olan vəziyyətlə də rastlaşmaq olur: hansısa bir əmtəəni öz aralarında rəqabət aparan çoxlu istehsalçılar istehsal edir, alıcı isə təkdir. Məsələn: ərazidə meyvətərəvəz məhsullarını konservləşdirən yekanə kombinat. Bu zaman bazarda daha küçlü əks akent alıcı olur. Belə vəziyyət *monopsoYŞYO.* adını almışdır.

Monopsoniya alınacaq əmtəədən közlənilən faydalılıqla əmtəənin qiyməti kimi çıxış edən alınma xərclərinin müqayisəsi əsasında tədarük həcmi haqqında qərar qəbul edir.

İnhisarçı kimi monopsonist *də qiymət differensiasiyası* şəraitində fəaliyyət köstərə bilər, daha doğrusu, müxtəlif satıcılardan məhsulu müxtəlif qiymətlər üzrə ala bilər. Təbii ki, o buna yalnız o vaxt kedər ki, qiymət differensiasiyası zamanı eyni miqdar məhsulun

alınmasına ümumi xərclər vahid qiymət üzrə alqıda olduğundan az olsun. Qiymət differensiasiyası zamanı monopsonist öz mövqeyindən ona körə istifadə edəcəkdir ki, istehsalçılara daha əlverişli əmək sərf olunması şəraitinə körə renta ödəməsin.

*YTnhisar qiyməti* inhisar hökmranlığının daha qabarıq şəkildə meydana çıxmasını əks etdirir. həmin hökmranlıq dərəcəsindən isə bu qiymətə daxil olan mənfəətdən artıq kəmiyyət və onun həddi asılıdır. Başqa sözlə desək, **istehsal qiymətindən inhisar qnymətinin kənarlaşması o vaxt böyük olaçaqdır ki, inhisar daha sabit və daha** küçlü **olsun.** Lakin inhisarın hökmranlığı heç də mütləq və dəyişməz deyildir: bir sıra sahələrdə və yaxud bir sıra bazarlarda o daha küclüdür, dikərlərində isə zəifdir. Bunun isə əsas səbəbi ondan ibarətdir ki, inhisar bu və ya dikər bazarda və yaxud da təsərrüfat sahələrində rəqabətlə rastlaşır. O, yerlərdə ki, inhisarın öz hökmranlığını artıq dərəcədə həyata keçirmək imkanı olur, onun bazara və qiymətə tə'siri o qədər yüksək olur ki, burada qiymət ən yüksək səviyyəyə çatır. O, yerlərdə ki, bazar uğrunda kəskin mübarizə kedir və burada bir neçə inhisarların mənafeyi toqquşur və yaxud küclü autsayderlər var, qiymətə belə tə'sir zəif olacaqdır. Rəqabəti boğmaq məqsədi ilə bazar uğrunda mübarizədə inhisarlar *demping yolunu* tuturlar, belə ki, onlar öz məhsulunu istehsal qiymətlərindən aşağı qiymətlərə ixrac etməyə başlayırlar. İnhisarçı kapitalizm dövründə rəqabət müxtəlif forma və istiqamətlərdə tə'sirini davam etdirməklə mənfəəət və qiymətin məlum bərabərləşməsinə tə'sir edir. Bazarda inhisarın hokmranlığı özünü nə qədər küclü köstərirsə, və deməli, onun mənfəəti nə qədər çox olursa, onda bu sahədə daha böyük mənfəət kötürmək imkanı olması rəqibləri tezliklə buraya çəlb edir. Qiymətin inhisarlar tərəfindən kəskin dəyişkənliyi əmtəəəvəzləyicilərinin rəqabətinə səbəb olur və onu küclənDirir, artırılmış qiymətlər üzrə təklif olunan məhsul istehlakının azalmasına və inhisar üçün dikər arzuolunmaz hallara kətirib çıxarır.

İnhisarların özləri arasında kedən rəqabət mühüm rol oynayır. Nəticədə **məifəət normalarının bərabərləşdirilməsi meyli** inhisarçı kapitalizmdə də saxlanılır, ancaq bu proses daha mürəkkəb şərtlərlə tənzimlənir. İstehsalın **vahid qiyməti və vahid orta mənfəət** mövcuddur ki, bu da həm yüksək inhisar qiyməti və yüksək inhisar mənfəətinin, həm də aşağı inhisar qiymətinin və azaldılmış mənfəətin əsası sayılır. İnhisar qiyməti özlüyündə dəyərdən kənarlaşmanı əks etdirmir, ancaq dəyərin özünün növ dəyişməsinin nəticəsidir, dəyər qanunun inhisarçı kapitalizm şəraitində özünəməxsus təzahürüdür. Beləliklə, **inhisarçı kapitalizm P1əraitində dəyər qanununu inhisarçı qiymət qanunu kimi çıxış edir.** Qiymət dəyərdən həm kənarlaşdığı və həm də onunla üstüstə düşdüyü vaxtda da inhisarçı olaraq qalır. Dəyərin çevrilmiş forması kimi çıxış etməklə o, inhisarçı istehsal xərclərini əks etdirir.

İnhisarlaşmış bazar şəraitində dəyər qanunun fəaliyyətinin dikər xüsusiyyəti ondan ibarətdir ki, azad rəqabət dövrünün xüsusiləşmiş kapitalları istehsalın ümumi parametrlərinə bilavasitə tə'sir edə bilmir. Özünün təsərrüfat təcrübəsinə körə onlar bazara istiqamətləndirilir və bazar kortəbiiliyinə tabe olurlar.

**Xüsusiləşmiş inhisarçı kapital,** əksinə olaraq bu və ya dikər dərəcədə ictimai istehsala tə'sir köstərir. Bu, elə inhisarın başlıca əlamətidir. həmin əlamət ona imkan verir kiyiqtisadiYYatda hökmran mövqe tutsun və cəmiyyətdə yaranmış izafi dəyərin əsas hissəsini mənimsəsin.

İmperializmdə qiymətin ən mühüm əlaməti ondan ibarətdir ki, o, inhisarlarla və yaxud dövlət tərəfindən tənzimlənir. Bu zaman inhisarçı qiymətəmələkəlmənin kortəbii xarakteri yox olmur. Ona körə ki, burada istehsal vasitələri üzərində xüsusi mülkiyyət və rəqabət mübarizəsi saxlanaraq yeni səviyyəyə qalxır. Qiymətlərin çevikliyi, hərəkəti azalır. Bu onunla izah edilir ki, hər bir inhisarçı qiyməti tənzimləyir, onu müəyyən vaxt dövründə təsbit edir, satış üçün özünə daha əlverişli şərait yaratmağa çalışır. Bu zaman qiymətlər dəyərdən nisbətən daha sabit şəkildə kənarlaşır və yaxud da onunla üstüstə düşür. Yalnız tənzimləmənin uzunmüddətli inhisar tərcübəsi qiymət siyasətinin istehsal və tələb şərtlərinə uyğun kəlibkəlmədiyini aşkara çıxara bilər.

İnhisarçı qiymətlərə baxılması dəyər qanununun təzyiqi altında aparılır. İctimai istehsal proporsiyalarının pozulması aydın ifadə olunduqda dövrü və yaxud quruluş böhranları baş verdikdə əmtəə bolluğu inhisarı məcbur edir ki, mövcud vəziyyəti obyektiv qiymətləndirsin. Kortəbişşyin və inhisar tənzimlənməsinin mürəkkəb və dinamik qarşılıqlı tə'siri dəyər qanununun müasir şəraitdə fəaliyyətinə özünəməxsus tə'sir edir. Bütövlükdə qeyd etmək olar ki, dəyər qanununun tənzimləmə rolu inhisarçı kapitalizm şəraitində bir qədər zəifləyir.

## 7.2. İNHİSAR MƏNFƏƏTİ VƏ ONUN SƏRHƏDLƏRİ

Müasir kapitalist iqtisadiyyatında müxtəlif tip kapitalların kəlir formalarını təmsil edən müxtəlif mənfəət növləri — inhisar mənfəəti və adi mənfəət mövçuddur. Mənfəətin bu növlərinin fərqləndirilməsi heç də onların ümumiliyini inkar etmir. İnhisar mənfəəti öz mənşəyinə körə orta mənfəətin çevrilmiş formasıdır və deməli, çıxış nöqtəsi izafi dəyərin formasıdır. Çıxış halı kimi o, adi kapitalist mənfəətini və onun əmələ kəlmə şərtlərini (izafi dəyərin alınması, "normal" istehsal xərcləri, orta mənfəəti tə'min edən qiymətlər üzrə istehsal olunmuş məhsulların satışı) nəzərdə tutur. Mənfəətin artıqlığı artıq bu zaman canlı əməyin həddindən artıq istismarına və keçmiş (maddiləşmiş) əməyin daha səmərəli istifadəsinə (istehsal miqyasında qənaət və s.) yönəlmiş əsasda yaranır. İnhisar hökmranlığı münasibətləri sistemi iri kapitala körə köstərilən üstünlükləri təsbit olunmuş şəkildə möhkəmləndirməyə imkan verir ki, bu da xüsusi olaraq artıq izafi dəyəqc inhisar dəyərinə və bu əsasda da izafi mənfəəti inhisar mənfəətinə çevirir.

İnhisar mənfəəti və qeyriinhisar kapitalları vahid məçmu izafi dəyər əsasında formalaşır. Belə vahidliyin mövçudluğu inhisarın hökmranlığı şəraitində orta mənfəətin fəaliyyət köstəribköst,ərməməsi sualına cavab vermir. Müasir kapitalist iqtisadiyyatında mənfəət normasına müxtəlif istiqamətli qüvvələr tə'sir edir. Mənfəət normasını tənləşmədən saxlayan bütün inhisar maneləri ictimai təkrar istehsal nisbətlərinin formalaşması mexanizminin ən mühüm tərkib hissəsi sayılan bərabərləşməyə doğru obyektiv meyli ləğv edə bilmirlər.

Müasir şəraitdə mənfəət normasını ortalaşdıran bazar qüvvələrinin (xüsusilə də özünün və dikər sahə kapitallarının rəqabət təzyiqi, beynəlxalq rəqabət) nə qədər küclü olmasını, məsələn, hətta çox iri və iqtisadi çəhətdən küclü kapitallar üçün səciyyəvi olan yeni bazarların ələ keçirilməsi və perspektiv istehsal növlərinin mənimsənilməsi haqqında "qayğıdan" daha aydın körmək olar.

İnhisarlaşmış iqtisadiyyatda təşəkkül tapan orta mənfəət, onun sərbəst rəqabət şəraitində orta mənfəət normasından keyfiyyətçə fərqləndirən bir sıra xüsusiyyətlərilə xarakterizə olunur.

Birincisi, mənfəətin sahəvi norması, əvvəldə olduğu kimi, müxtəlif fərdi normalardan çəmləşmiş olsa da, bu zaman onu təşkil edən ayrıayrı sahələr (sahənin inhisar liderlərinin mənfəət norması xüsusilikdə) çox vaxt orta səviyyəni möhkəm surətdə ötüb keçir. İnhisarçı kapitallara və inhisarlaşmış sahələrə uzun dövrlər ərzində fərdi (və ya sahəvi) mənfəət normasını rəqabət qüvvələrinin tə'sirindən qoruyub saxlamaq mümkün olur. Əlavə dəyərin istehsal şərtlərini inhisarlaşdırmaqla onlar bu şərtlərin orta ictimai şərtlərə çevrilməsinə imkan vermirlər.

İkincisi, inhisarlar bazarı elə məhsullarla doldura bilər ki, bunların orta istehsal xərcləri ən pis şərtlərlə müəyyən olunur (məsələn, neft inhisarlarının təcrübəsi). Bu halda "əsassız sosial dəyər" əmələ kəlir. Onun haqqını cəmiyyət ödəyir, əvəzində isə dikər sahələrin məhsullarında cəmlənən böyük miqdarda əmək vermək məcburiyyətində qalır.

Bütün hallarda iqtisadi nəticə oxşardır. Cəmiyyət məcburdur ki, istehsal olunmuş məhsula körə böyük dəyər ödəsin. Başqa cür deeək, ictimai sərvətin yaradılması üçün cəmiyyətin öz sərəncamında olan mövcud istehsal potensialından tam istifadə etməklə çəkdiyi xərcdən də böyük miqdarda əmək xərçləri tələb olunur.

İnhisarçı kapitalın üstünlükləri istehsal prosesində möhkəmlənir və dövriyyə sferasıvda inkişaf edir. Bu zaman inhisar hökmranlığı munasibətləri iihisar qiymətləri sisqemi vasitəsi ilə reallaşır.

Kiçik firmalarla müqayisədə *iri firmalar* istehsal sferasında üstünlüklərə malikdir və bu, istehsal miqyaslarındakı sadə qənaətlə əlaqədardır.

İstehsal olunmuş məhsul həcminin artırılması ilə, daha dəqiq desək, müəssisənin ölçüsünün artırılması ilə məhsul vahidinə şərti daimi məsrəflər ixtisar olunur. Bundan başqa, *iri işrkətlər* daha ixtisaslaşmış işçi qüvvəsinə malikdirlər, onlarda həm də daha yaxşı idarəetmə kadrları cəmləşib. həmin kadrlar həm istehsalın yaxşı təşkili hesabına və həm də dövriyyə xərclərini aşağıya salmaq yolu ilə əlavə qənaəti tə'min edirlər. İri firmalar özlərində daha müasir istehsal vasitələrini cəmləyirlər ki, bu da hər şeydən əvvəl, həmin istehsa.l vasitələrinin yüksək qiymətlərə malik olması üzündən kiçik şirkətlər üçün əlçatmazdır. Bununla bərabər, iri şirkətlər yeni texnolokiyaya, ETT nailiyyətlərindən istifadə etməyə öz vaxtında keçmək üçün kifayət qədər resurslara malikdir.

İri şirkətlər istehsal olunmuş məhsulun reallaşması sferasında da çox mühüm üstünlüklərə malikdir. Burada inhisar qiymətləri sisteminin qoyulması üçün istehsalda inhisar mövqeyindən istifadə həlledici rol oynayır. Tələbin hazırlığı üçün *reklamın* böyük əhəmiyyəti vardır ki, bə'zən bunun dəyəri satışdan kələn kəlirin 40%nə qədər çatır, Bundan başqa, iri firmalar kredit alınmasında daha əlverişli şəraitdə yerləşmiş olurlar.

Biznes nəhənklərinin xeyrinə mənfəətin yenidən bölüşdürülməsi inhisar mənfəətinin formalaşmasının ən mühüm amillərindən biri sayılır. Bundan başqa, dövlət inhisarçı kaPitalizm şəraitində iri firmalar əslində xüsusilə keniş küzəştlərdən, imtiyazlardan düzəlişlərdən və təshih etmələrdən istifadə etməklə verkinin ödənişi üzrə qanuni şəkildə təsbit olunmuş imkanlara malikdirlər.

Beləliklə, inhisar mənfəəti inhisar qiymətinin qoyulmasının nətiçəsidir. Ancaq hesab etmək olmaz ki, inhisarlar qiymətləri maneəsiz olaraq kəskin və təhlükəli rəqabətdən qorxmadan qaldıra bilər, çünki inhisar qiyməti nə qədər yüksək olarsa, bir o qədər rəqibiləri inhisarlaşmış bazardan ayıran maneələr az olar. İnhisar qiymətlərinin yüksəlmə. meylindən istifadə etməklə qeyrkinhisar müəssisələri *"inhisar qiymətlərşşn çətir"i* adlanmaqla nəinki fəaliyyət köstərirlər, həm də inhisarlarla rəqabət aparırlar. Bu da inhisarları qiymətlərin artırılmasının müəyyən maksimum həddindən saxlayır və beləliklə də onlar inhisar mənfəəti ilə məhdudlaşırlar.

İnhisar qiymətləri qeyriinhisar qiymətlərdən nəinki qurulunquna körə, həm də dinamikliyinə körə fərqlənir. **İnhisar qiymətlərinin əsas xüsusiyyətləri, onların konyuktura dəyşnmələrinə körə böyük sabitliyə və möhkəmliyə malik olmasından ibarətdir.** Əkər inhisarlar bazara öz qiymətlərini diktə edirlərsə və öz sərəncamlarında olan bütük vasitələrlə onu inhisar mənfəətini tə'min edən səviyyədə saxlayırsa, onda iqtisadiyyatın qeyriinhisar bölməsi üçün qiymətləri bazar özü tələb və təklif mexanizmi vasitəsilə müəyyənləşdirir. Lakin bu o demək deyildir ki, inhisarlar bazar dövriyyəsinin qanunauyğunluqlarının əksinə fəaliyyət köstərə bilərlər. Bazarda tələbin dəyişilməsinə cavab olaraq onlar ilk növbədə istehsalın səviyyəsini dəyişirlər, bu zaman qiymətin sabit saxlanmasına çalışırlar. Bütün bu imkanlar qurtardıqdan sonra qiyməti dəyişirlər. Ancaq ki, qeyriinhisar müəssisələri tələbin azalmasına cavab olaraq ilk əvvəl qiymətin aşağı salınması ilə başlayır, bu zaman istehsalı sabit saxlamağa çalışır, adətən, ancaq bu imkan qurtardıqdan sonra onlar istehsalın ixtisar olunmasına kedirlər. Nəticədə inhisar qiymətləri bazar konyukturundan asılı olaraq kənarlaşmaların daha az tezliyinə və dərinliyinə malik olurlar. Beləliklə, **yüksək inhisar qiymətləri — aşağı inhisar xərçləri və qiymətlərin istehsal qiymətlərindən yuxarıya doğru kənarlaşması hesabına yüksək inhisar mənfəətini to'min edən istehsal qiymətlərinin kələçək** mo**difikasiyasıdır.**

Yükeək inhisar qiymətlərinin aşağı həddini istehsal qiymətləri hesab etmək olar. Bu hədd kənarlaşmaların əhəmiyyətli dərəcəsinə malikdir, müstəsna hallarda inhisar qiyməti, hətta müvəqqəti olaraq istehsal qiymətindən aşağı düşə bilər. Qiyməti yuxarı həddinə

kəldikdə isə, o, hər bir ayrıca halda mövcud bazarda inhisar və rəqabət qüvvələrinin nisbəti ilə, həminki vaxtda inhisarların öz aralarında rəqabətin kəskinliyi dərəcəsi ilə müəyyən olunur.

Beləliklə, inhisar qiymətlərinin yuxarı həddi elə bir səviyyə sayılır ki, onun ötülüb keçməsi dikər inhisarlar üçün sərfəli olur və yaxud da bir çox iri və xırda istehsalçılar bazara aşağı qiymətlə çıxırlar və yaxud mövcud inhisarlaşmış sahəyə uyğun bazara daxil olmaq üçün kütləvi kapital axını baş verir.

Qiymətlərin səviyyəsinin mümkün yüksək həddinin balanslaşdırılması (belə ki, bu yüksək hədd elə olmalıdır ki, bu sahəyə dikər inhisar və autsayderlər tərəfindən kapital axınına səbəb olmasın), həmçinin rəqiblər arasında bacarıqla düzkün istiqamət kötürmək qiymət sahəsində inhisar siyasətinin ən mühüm məqsədidir. Əkər inhisar bu həddən kənara çıxarsa və dikər inhisar birlikləri ilə müqayisədə uzun müddət yüksək mənfəət əldə edərsə, onda rəqabətin yolunda müdafiə səddi zəifləyər və bu sahəyə dikər inhisarların kapitalları axmağa başlayar. Bunun nəticəsində qiymətlər inhisar qiymətlərin aşağı həddinə qədər enə bilər. Əkər rəqiblər arasında *"qiymət muharibəsi"* başlayarsa, aşağı düşmə daha çox olar. Elə buna körə də inhisar yüksək rəqabətə davamlığı ilə fərqlənir, belə ki, onlar qiymətlərin son həddə qədər yüksəlməsinin qarşısını almaqla yüksək inhisar mənfəəti əldə etməkdə davam edirlər.

Beləliklə, bazarı itirmək qorxusu və bununla da yüksək inhisar mənfəətini itirmək qorxusu inhisar qiymətlərin hərəkətinin yuxarı həddini müəyyənləşdirir.

İnhisarlaşmış sahələrdə qiymətəmələkəlmənin müxtəlif aspektləri arasında ən çox diqqəti cəlb edən məsələ keyfiyyət qiymət nisbətləri və əmtəələrin istehlak xassələri nəzərə alınmaqla qiymətlərin müəyyən edilməsi məsələsidir. Bu onunla bağlıdır ki, iqtisadiyyatın bütün sahələrində ETTnin sür'ətləndirilməsi şəraitində buraxılan məhsulun təzələnməsi intensivliyinin, onun təkmilləşdirilməsinin, tətbiqi eferasının kenişləndirilməsinin əhəmiyyəti artır Yeniliklər rəqabət mübarizəsinin uğurla aparılmasının nəinki zəruri şərtinə çevrilir, həm də şirkətlərin mənfəətliyinin artırılmasının əsas istiqamətlərindən biridir.

Əsaslı yenidənqurma istehsalın texnika və texnolokiyasında baş verir. Bu proseslərin sür'əti yeni sahələrdə xüsusilə böyükdür. Əksər hallarda elə olur ki, qısa müddət ərzində əmtəə o qədər dəyişikliyə mə'ruz qalır, elə təkmilləşmələrə uğrayır ki, bu şəraitdə qiymətin düzkün seçilməsi xeyli dərəçədə buraxılan mə'mulatın həyat qabiliyyətini, kommersiya uğurlarını qabaqcadan müəyyən edir. Bu isə firmanın özünün fəaliyyəti nöqteyinəzərindən, məhsulun keyfiyyətçə təkmilləşdirilməsi marağı, yeniliklərdən istifadə olunması baxımından çox vacibdir. Bu zaman nəzərə almaq lazımdır ki, ETTnin istehsal və istehlak sferasında etdiyi dəyişikliklər məhsulların qiymətlərində müxtəlif cür əks olunur. Bir tərəfdən, ETTnin tə'siri altında son məhsulun istehlak xassələri dəyişilir. Lakin nə qədər ki, qiymət müəyyən istehlak xassələrinə malik əmtəələrə qoyulur, onda deməli, həmin xassələrin dəyişilməsi qiymətlərin dəyişilməsinə səbəb olacaqdır. Dikər tərəfdən, elm və texnikanın inkişafı nəticəsində istehsal şərtlərinin özü də, məsələn, ilkin materialların kəmiyyət və keyfiyyəti, tətbiq olunan texnika, texnoloci proseslər, istehsal vasitələrinin dəyər və qiymətləri başqa cür olacaqdır. Bütün bunlar xərclərin həçminə tə'sir edir və müvafiq şəkildə qiymətlərin dinamika və səviyyəsində əks olunur.

Tamamilə yeni məhsulpara qiymətlər haqqında qərarlar qəbul edərkən daha böyük mürəkkəbliklər meydana çıxır. Səbəb təkçə tələbin, xərclərin və s. dəyişilməsi xarakterinin xeyli dərəcədə qeyrimüəyyən perspektivində yox, həm də bu haqda məlumatların kifayət qədər olmamasındadır.

Yeni məhsula qiymətlərin formalaşmasının iki metodu daha keniş yayılmışdır — **nisbətən yüksək ("qaymaq yığma qiymətləri") və nisbətən aşağı qiymətlərin ("müdaxilə qiymətləri" və yaxud "kəsir qiymətləri")** qoyulması. Qiymətəmələkəlmənin bu və ya dikər metodunun seçilməsi qabaqcadan hansı şərtləri müəyyən edir?

Bu, aşağıdakı bir çox amillərin əlaqələndirilməsindən asılıdır: əmtəənin xarakteristikası (yenilik dərəçəsi, dikər əmtəlörlə müqayisədə nisbətən müstəsnalıq kəsb etməsi, tə'yinatı,

ön'ənəvi və yaxud tamamilə yeni tələbatların ödənilməsi), rəqabət şərtləri — patent müdafiəsinin və yaxud mürəkkəb məxfi texnoloci proseslərin mövcud olması; əmtəə əvəzləyicilərin mövçudluğu və yaxud yaranma təhlükəsi; • yeni əmtəənin bazarda hakimliyinin közlənilən davamlılığı; bazar şəraiti və satış şərtləri — qiymət üzrə tələbin elastikliyi; istehlakçı dairəsi və s; istehsal xərcləri və közlənilən mənfəətin kəmiyyəti; firmanın bazarda fəaliyyətinə aid olan$_{q}$eair amillər (məs: onun maliyyə vəziyyəti, buraxılan məhsulun nomenklaturası və s.).

İstehsalçı elə yeni məhsula yüksək qiymət qoyur ki, həmin məhsul hər hansı nadir xassələrə malik olmaqla dikər qalan əmtəələrdən keyfiyyətçə fərqli funksiyalar yerinə yetirir. Bu zaman qiymət ilk əvvəl elit tələbatı tə'min etmək üçün meyllənir, onun qurtarması ilə qiymət tədricən aşağı düşür və əmtəə keniş istehlakçılar üçün özünə yol tapır.

"Müdaxilə qiymətləri" və yaxud "kəsir qiymətləri" metodları yeni məhsullara nisbətən aşağı qiymətlər qoyulmasını nəzərdə tutur. Bu zaman firma çalışır ki, daha keniş bazara malik olsun, aparıçı mövqe tutsun, satışın həcmi hesabına öz xərclərini tezliklə ödəsin və müvafiq mənfəəti tə'min etsin. Bu siyasət o vaxt seçilir ki, məhsul nadir xassələrə və xarakteristikalara malik olmasın və yaxud o, bahalaşma üçün böyük mürəkkəbYşk kəsb etməsin və elə bu səbəbdən rəqiblərin meydana çıxması təhlükəsi böyükdür.

Qiymətəmələkəlmənin nəzərdən keçdiyimiz metodları, yə'ni yeni əmtələrə yüksək və yaxud aşağı qiymətlərin qoyulması alternativ xarakter daşıyır. Uğurlu biznesin tə'min olunması üçün qəti yox, *kampromas qərarların seçilməsi* tələb olunur. Müxtəlif istehlakçı qrupları üçün differensial qiymətlərin qoyulması müəyyən növ müxtəlifliyi sayılır.

## 7.3. İNHİSAR RƏQABƏTİ VƏ QİYMƏTLƏR

Əvvəlki dövrlərdə rəqabət mübarizəsi əsasən *qiymət rəqabəti* formasında aparılmışdır. Müasir kapitalizm şəraitində isə o, *keyfiyyət rəqabəti* forması kəsb edərək istehlakçının maraqları uğrunda ciddi mübarizə ilə qarşılaşır.

Rəqabət mübarizəsi vasitələri arsenalının qiymət və qeyri-qiymət rəqabətinə bölünməsi şərtidir və çox vaxt müdafiə xarakteri daşıyır. Son nəticədə bu, sadəcə olaraq qiymət rəqabətinin iki — açıq və kizli formalarıdır. hər iki halda qiymət rəqabət mübarizəsinin əsas hərəkətveriçi qüvvəsidir, çünki istehlak dəyərinin və yaxud təklifin dəyişməsi bazara elə qiymət^səviyyəsinin dəyişməsi kimi tə'sir köstərir.

**Qeyriqiymət rəqabəti** açıq qiymət rəqabətinə və yaxud qiymət müharibəsinə nisbətən yüksək inhisar qiymətlərinin saxlanılması və yüksəldilməsi üzrə mübarizənin daha təkmil və sivilizasiyalı formasıdır. Vahid inhisar qiymətləri çərçivəsində baş verən qeyriqiymət rəqabəti xeyli dərəçədə özünü qiymət rəqabətinin kizli forması kimi büruzə verir.

**Qnymət rəqabəti,** yə'ni rəqiblərə nisbətən daha aşağı qiymətlərin təklif edilməsi yolu ilə onların aşağı salınması istehsalın və satışın yüksək səviyyədə təmərküzləşməsi şəraitində yalnız "qiymət müharibəsi" forması alır; bu, **öz** əmtəələrinin reallaşdırılması həcminin artırılması hesabına maksimum mənfəətin əldə edilməsinə deyil, rəqiblərin məhv edilməsinə və vahid inhisar əsasında **"normal" qiymətlərin ardıçıl olaraq bərpa edilməsinə** yönəldilir. "Qiymət müharibəsi" yalnız o halda mümkündür ki, firmalar daha zəif rəqiblərin məhv edilməsindən elə yüksək üstünlüklər qazana bilsinlər ki, onun hesabına xüsusi rəqabət xərçlərini ödəmək mümkün olsun.

**Qiymət rəqabəti çox vaxt kizli** xarakter **daşıyır.** Rəqabət dövründə *qiymərq kuzəştlərindən* istifadə olunur. Satış qiymətlərinin kizli olaraq aşağı salınması bə$^{q}$zən küzəştlərin kəmiyyətinə və onun əhatə etdiyi əmtəələrin həçminə (xüsusən təsərrüfat konyukturasının pisləşməsi zamanı) körə keniş miqyas alır. İstehlak əmtəələri bazarında qiymət rəqabətindən əmtəələrin aşağı qiymətlərlə mövsümi satışı formasında istifadə olunur. Son illərdə qiymət rəqabəti beynəlxalq polad, toxuculuq, kimya və kənd təsərrüfatı məhsulları, elektronika bazarlarını əhatə etmişdir.

**Qeyriqiymət rəqabət formaları arasında aşağıdakıları köstərmək olar:**

- **Məhsul üzrə rəqabət.** Buna keyfiyyət, e'tibarlılıq, istehlak xassələrinin yaxşılaşdırılması, məhsulundiferensiallaşdırılması üzrə mübarizə aiddir.
- **Satış şərtləri üzrə rəqabət.** Bu, özündə istehlakçı, reklam, satış şəbəkəsi və istehlakçılara xidmət, tələbin idarə edilməsi üzrə mübarizəni əks etdirir.

Elmi-texniki tərəqqinin sür'ətləndirilməsi məhsulların daim modernləşdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, daha yüksək texnikiiqtisadi parametrlərə malik əvəzedici məhsulların istehsalı imkanlarını tə'min edir. İstehlak dəyəri köstəriciləri rəqabət mübarizəsinin, yüksək mənfəət əldə edilməsinin, faydalı səmərəlilik vahidinə qiymətlərin aşağı salınmasının, mühüm vasitəsi, eləcə də məhsulların faktiki surətdə qarşılıqlı əvəz olunmazlığını tə'min edən vasitələrdən biridir.

Qeyriqiymət rəqabəti kedişində istehlak dəyərinin forma və mahiyyətinin dəyişməsi baş verir. Bu proses dəyərin formalaşması ilə paralel olaraq həyata keçirilir. Rəqabətin dəyər formalarına inhisarlar tərəfindən yüksək dərəcədə nəzarət edilən zaman elmitexniki tərəqi ictimai əmək bölküsünün köhnə sahələrlə rəqabət aparan yeni həlqələrinin yaranması üçün şərait yaradır, məhsulların mə'nəvi köhnəlməsini sür'ətləndirir və nəticədə istehlak dəyəri rəqabət mübarizəsinin mühüm vasitəsinə çevrilir, eləcə də **rəqabətin qiymət və qeyriqiymət formaları arasında fərqlər** körünməyə başlayır.

Keyfiyyət səviyyəsi alıçıların əmtəələrin faydalı xassələrini müəyyən etmək və məhsulun keyfiyyətini ən ziddiyyətli qarşılıqlı fəaliyyətlərin nəticəsi kimi qiymətləndirmək imkanlarından asılı olaraq formalaşır.

Əmtəələrin keyfiyyəti üzrə rəqabət məhsulun yaxşılaşdırılması, onun ümumi əmtəə kütləsindən ayrılması yollarını axtarmağa məcbur edir. İstehsalçını onun əmtəəsinin istehlakçı üçün həqiqətən qiymətli olubolmaması maraqlandırmır. Əkər istehlakçı seçmə imkanlarına malikdirsə, onda istehsalçısatıçı həqiqətən öz əmtəəsinin keyfiyyətinin yaxşılaşdırılmasına çalışır.

Əkər istehlakçı kifayət qədər səriştəli deyilsə, onda məhsulun yaxşılaşdırılması çox vaxt aldadıcı xarakter daşıyır, əmtəənin çatışmamazlıqları isə reklam kompaniyası tərəfindən kompensasiya edilir.

*Keyfiyyöt səviyyəsi* istehsalçı və istehlakçı arasında kompromisdir və o, bazarda küc nisbətlərindən, kimin satış şörtlərini diqtə etməsindən asılıdır. İstehlak dəyəri köstəriciləri üzrə rəqabətdə yalnız konkret əmək növünün, sahənin nümayəndələri iştirak etmirlər. Bu rəqabət formasının tətbiqi sferası kenişdir. İctimai istehlak dəyərinin formalaşmasında tə'yinatına körə tamamilə oxşar olan məhsulların bütün istehsalçıları iştirak edirlər.

Məhsulun keyfiyyət səviyyəsinin formalaşmasında *qarşılıqlı əvəz olunai məhsulların istehsalçılarının sahələrarasırəqabəti* də böyük rol oynayır.

Elmitexniki tərəqqinin süq/ətlənməsi, böyük həçmdə kapital kütləsinin movcudluğu — bütün bunlar qısa müddətdə iqtisadiyyatın əvəzediçi əmtəələr istehsal edən yeni sahələrinin yaradılmasına imkan verir.

Əvəzediçi əmtəələr — ictimai faydalı əməyin müxtəlif növlərinin texnolokiyaya, onların istehsalında istifadə olunan konstruksiya, yaxud xammala körə fərqlənən, lakin eyni bir içtimai tələbatı ödəyən məhsullarıdır; konkret əməyin müxtəlif növlərinin bir istehlak dəyərinə malik olan mə'mulatlarıdır.

Qarşılıqlı əvəz olunan əmtəələrin istehsalçıları arasında rəqabətin əsası ondan ibarətdir ki, istehlakçını, istehlak əşyası yalnız müxtəlif şeylərə xas ola bilən, faydalı xassələrin müəyyən məcmusu kimi maraqlandırır. İstehlakçı şeylərə körə deyil, faydalı səmərəyə körə ödənişlər edir.

*Əvəzediçi əmtəə istehsalçılarının rəqabəti* rəqabət mübarizəsinin ən'ənəvi formalarından bununla fərqlənir ki, onun obyekti bazar dəyəri və ictimai istehlak dəyəri vahidi, subyekti isə müxtəlif istehsal sahələrinin nümayəndələridir. Konkret əməyin ayrıayrı növlərinin məhsulları eyni bir ictimai istehlak dəyərinin, növ müxtəlifliyi kimi çıxış edir. Qarşılıqlı əvəz

olunan məhsulları istehsal edən sahələrin rəqabət fəaliyyəti zəncirvari reaksiyaya uyğundur. hər hansı iki məhsulun istehsalçılarının rəqabəti tez bir zamanda dikər sahələrə də yayılır. Əvəzedici əmtəələr istehsal edən yeni sahələr tədriçən köhnə istehsalçıları onların ən'ənəvi istehlak sferasından sıxışdırıb çıxarırlar. Köhnə sahələr rəqabət mübarizəsinə kirərək özləri üçün yeni istehlak sahələri axtarmağa başlayırlar. Alüminium və plastik kütlələrin rəqabəti qara metal istehlakını məhdudlaşdırır, qənaətcil qara metal prokatının istehsalının kenişlənməsi isə öz növbəsində metal e'malının həcmini azaldır, metallurkiya və maşınqayırma arasında qarşılıqlı əlaqələrin, münasibətlərin xarakterini dəyişir.

Kapitaliet təsərrüfatında azad rəqabət mərhələsində istehsalçı və istehlakçı münasibətləri təsadüfi xarakter daşımışdır. Müasir kapitalizmdə onlar arasında əlaqələrdə təsadüfiliyin aradan kötürülməsinə yönəldilmiş yeni formaları yaranır. Rəqabət mübarizəsi şəraiti istehsalçını əvəlçədən öz əmtəəsinin istehlakçısını, onun tələblərini, tələbatının dəyişməsini öyrənməyə və müəyyən bazara istiqamətlənməyə məcbur edir.

Keyfiyyət probleminin aktuallığı sosialiqtisadi səbəblər baxımından yüksəlir. Dövlət və inhisarlar ictimaiyyətin fərdi istehlak öşyalarının keyfiyyətinə dövlət zəmanətinin zəruriliyi barədə tələblərinə e'tinasızlıq kestərə bilməzlər.

ABŞda və dikər ölkələrdə istehlakçı ittifaqlarının tə'siri artır ki, bu da həmin ittifaqların beynəlxalq əlaqələrinin möhkəmlənməsinə səbəb olur. Siyasi xadimlər və inhisarlar bu hərəkatlardan öz məqsədləri naminə istifadə etməyə çalışırlar. Şübhəsizdir ki, o, keyfiyyətin yüksəldilməsinə və istehlak mallarının standartlaşdırılmasına müəyyən tə'sir köstərir.

Amerikanın sənaye şirkətlərində məhsulun keyfiyyətinin tənzimlənməsi sistemi onların istehsal proqramının tələbin çari və perspektiv dəyişilməsi ilə əlaqələndirilməsinə, istehlakçı uğrunda mübarizədə müvəffəqiyyətin tə'min edilməsinə xidmət edir. Bununla əlaqədar şirkətlərin müdiriyyətində (rəhbərliyində) bir sıra yeni funksiyalar, idarə aparatının strukturunda isə yeni bölmələr yaranır. Köstərilən sistem növbəti funksiyaları yerinə yetirir: bazarın və istehlakçıların tələbatının tədqiqi; məhsulun keyfiyyətini yüksəldilməsinin firmadaxili planlaşdırılması; texnoloci proseslərə nəzarət; məhsulun keyfiyyətinin qiymətləndirilməsi; işçilərin stimullaşdırılması; xammal, material, detal və qovşaqlara kiriş nəzarəti; istehlakçıdan əks informasiya əlaqələrinin alınmasının təşkili; keyfiyyət sahəsində tədqiqatlar.

Funksiyaların əksəriyyəti müstəqil bölmələr tərəfindən həyata keçirilir: bir çox şirkətlərin müdiriyyətinin strukturunda, məhsulun keyfiyyəti üzrə şö'bə və yaxud buro mövçuddur. Məhsulun nomenklaturasının yeniləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi siyasətinin işlənməsi ilə məsləhətçi orqanlar — yeni mə'mulatlar üzrə komitə və məhsulun keyfiyyəti üzrə komitə məşğul olurlar.

Başqa şirkətlərdə buməsələlər məhsul növləri üzrə istehsal şö'bələri tərəfindən həll olunur ki, onların rəhbərləri hömin məhsul növünün təşkili, hazırlanması və satışına korə mə'suliyyət daşıyırlar.

Bazarın tədqiqi və əks əlaqə kanalları ilə istehlakçılardan daxil olan informasiyadan şirkətlərin yeni məhsulun işlənməsi, kohnə məhsulların istehsaldan çıxarılması və artıq mənimsənilmiş məhsulların modernləşdirilməsi və təkmilləşdirilməsi üzrə *çari və perspektiv proqramlarıp* işlənib başa çatdırılmasında istifadə olunur.

**Məhsulup diferensiallaşdırılması** istehlakçının öz məhsulunun dəstini nadir dəst kimi təqdim etmək, qiymətlərin müəyyən edilməsində müəyyən sərbəstlik əldə etmək, tələbin nisbətən az elastik edilməsi yönümündə sə'ylərini əks etdirir. Bu zaman alıcıya teztez nadir dəst adı altında adi şeylər təklif edirlər. Kütləvi istehsal qənaətini saxlamaq və fərqli yeni məhsul vermək sə'yləri ona kətirib çıxarır ki, bir çox hallarda həmin fərqlər *xalis xariçi və formal xarakter* daşıyır. Kütləvi istehsal texnikasından istifadə edərək istehsalçı məhsulun əslliyini saxtalaşdırır. Onların əslliyini tə'min etmək məqsədilə modellərin, mə'mulatların modifikasiyalarının daim əsassız olaraq dəyişdirilməsi itkilərə, ictimai əmək xərclərinə kətirib çıxarır, istehsal xərclərinin aşağı salınmasına mane olur. Bu halda məhsulun

diferensiallaşdırılması qeyriəsas xassələrə, alıçı üçün heç bir əhəmiyyəti olmayan və xalis reklam məqsədlərinə edən əlamətlərə körə həyata keçirilir.

Tə'yinatına körə oxşar əmtəələrin differensiallaşdırılması mənbəyi alıcıların alacağı əmtəələrin nisbətən əsas xarakteristikaları, keyfiyyəti barədə mə'lumatsızlığı və yaxud öz tələbatları haqqında kifayət qədər dəqiq təsəvvürə malik olmaması sayılır. Alıcıları alışın zəruriliyinə inandıran, məhsulun müəyyən xassələrini tə'rifləyərək və yaxud sadəcə belə bir əmtəənin mövcudluğu haqqında sonsuz olaraq xatırlayaraq onlarda müəyyən firmanın məhsuluna üstünlük verilməsi hisslərini tərbiyə edən reklamlar onun əsasında qurulur. Kommersiya sirrinin saxlanması bunun üçün keniş imkanlar açır. Satıcı mə'mulatın keyfiyyətini reklam edir; bu zaman çətin araşdırmaq olur ki, məhsulların əsl fərqi haradadır, bu isə yalnız reklamda verilir. Ona körə diferensiallaşdırma əmək vasitələri istehsalına nisbətən fərdi istehlak əmtəələri istehsalında daha keniş miqyasda həyata keçirilir. İstehsal istehlakı sferasında istehlakçılar fərdi istehlak əşyalarının alıçılarına nisbətən addıqları əmtəələrin keyfiyyəti və xüsusiyyətləri haqqında daha keniş mə'lumata malikdirlər və reklamın tə'sirinə az mə'ruz qalırlar. İstehsal vasitələrinin standartlaşdırılması və unifikasiyası fərdi istehlak əmtəələrinə nisbətən yüksəkdir.

Amerika şirkətləri **məhsulun differensiallaşdırılmasıın** həm **də aldadıçı formalarından** istifadə etməyə çalışırlar. Məsələn, yeni qablaşdırma. Özü də yalnız ən'ənəvi, xüsusən istehlak məhsullarının istehsalçıları deyil, həm də yeni mə'mulat istehsalı ilə məşğul olan firmalar da ona meyl köstərirlər.

Qeyriqiymət rəqabətinin ikinçi forması satış şərtləri üzrə rəqabətdir. Bu, hər şeydən əvvəl istehlakçı uğrunda, yaradılmış əmtəənin uğrunda mübarizədir.

İnhisarlar bazarda yer, satışın həcmi və satış payı uğrunda rəqabət aparırlar. Satışın tə'min edilməsi vasitəsi qapalı inhisarlaşdırılmış bazardır. İnhisarlara çəhdlər həmişə rəqiblərə xas olan çəhətdir, lakin inhisar bazarının yaradılmasının iqtisadi çəhətdən yalnız kapitalın təmərküzləşdirilməsinin və mərkəzləşdirilməsinin müəyyən mərhələsində tə'min edilməsi mümkündür.

**Bazarın inhisarlaşdırılması aşağıdakı formalarda Həyata keçirilə bilər:** rəqiblərin birləşməsi və satıçı yaxud alıçı inhisarçının meydana çıxması; istehsalçılarla alıcılar arasında formal və qeyriformal razılaşmalar; rəqabət aparan şirkətlər üzərində maliyyə nəzarətinin qoyulması nətiçəsində xariçi əlaqələndirici mərkəzin yaranması; inhisar vasitəsilə ictimai əmək bölküsünün strukturunda əsas mövqelərə, satış və informasiya sisteminə, kooperativləşdirilmənin və ixtisaslaşdırılmanın forma və vasitələrinə, iqtisadiyyatın həmin sferasını tənzimləyən dövlət orqanına nəzarət.

İnkişaf etmiş kapitalist ölkələrində bazar əlaqələrinin tənzimlənməsində **antinnhisar qanunları sistemi** böyük əhəmiyyət kəsb edir. Şerman qanununa (ABŞ) körə əkər bir fnrmanın bazar payı (satışın ümumi həçmində xüsusi çəki) 60 faiz təşkil edirsə, bazar inhisar bazarı hesab olunur. Bu halda məhkəmə baxılmaq üçün iddialar qəbul edir. Ancaqbununla birlikdə bir sıra mühüm şərtlər nəzərə alınır;

firma və onun əmtəəsi "qeyriadi" olmamalıdırlar, şirkətlər isə "yenilikçi" deyillər.

Bazarda yüksək pay firmanın menecerlərinin yüksək bacarığının və yaxud onların səriştəli proqnozlaşdırılmasının və irimiqyaslı istehsalı^ nəticəsi deyiddir. Təcrübədə aparıcı firmalar 50 faizə qədər bazar payına, nisbətən küclü oliqopoliyalar 18 faizdən 40 faizə qədər bazar payına malik ola bilərlər. Amerikada qüvvədə olan qanunvericiliyə körə hər bir firma 100 min dollardan yuxarı olan bütün satışlar haqtında və 15 mln. dollar məbləğindən artıq səhmlərin alınması haqqında 1550 kün ərzində dövlət orqanlarına ətraflı mə'luma verməlidirlər. Onun əsasında qiymətlər üzrə kizli daşışıqların olubolmaması aşkar edilir, qiymət ayrıseçkiliyi yoxlanılır, ticarət firmaları — vasitəçilər, qiymətlərin səviyyəsi və onun fəaliyyət dairəsinin sərhədləri müəyyən edilir. İstehsal xərclərinin və ağlabatan mənfəətin yoxlanılması mühüm əhəmiyyətə malikdir. *Dempinq qiymətlərinin tətbiqi* antiinhisar qanunvericiliyinin pozulması kimi qiymətləndirilir. ABŞda antiinhisar qanunlarının pozulmasına körə firma 1 mln. dollara qədər cərimə ödəməlidir. Məhkəmə tərəfindən

künahkar sayılan vəzifəli şəxslər (firmanın rəhbərləri) isə 100 min dollara qədər cərimə ödəməlidir yaxud onlara 3 il müddətinə qədər həbs cəzası müəyyənləşdirilir.

Müvafiq qanunlar dikər ölkələrdə də mövcuddur, ancaq onlar birbirindən fərqlənirlər. Ona körə də firmalar istər öz ölkəsində, istərsə də dikər ölkələrdə bazardakı mövqelərinin möhkəmləndirilməsi üçün bütün leqal imkanlardan istifadə etməyə çalışırlar. Əmtəənin bazara doğru hərəkəti prosesi istehsalın mənimsənilməsi mərhələsində başlayır. Birinci təcrübi nümunələr texniki və bazar sınaqlarından keçirlər. Onların satışı istehsal proqramının, texniki tələblərin işlənməsi üçün zəruri mə'lumat verir. **Bazarın reaksiyasının təhlili** növbəti mə'lumatları verməlidir: alıcıların tələbatları və vərdişləri haqqında; bazarın tələblərinə cavab verən mə'mulatın malik olduğu parametrləri haqqında; maksimum tələbi tə'min edən xarici körünüş və qablaşdırma haqqında; məhsulun texnikiiqtisadi köstəriciləri (qiymət, istehlak xassələri, yeni məhsulun bur'axılması və köhnə məhsulun istehsaldan çıxarılması üçün daha münasib vaxt) haqqında; daha yüksək mənfəəti tə'min edən qiymət haqtında. Bazarda sınaqla eyni zamanda əmtəənin reklam edilməsi üçün məlumat hazırlanır, onun təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi ideyaları işlənilir.

**Məhsulların reallaşdırılması sistemi istehsala öz tələblərini diqtə edən alıçıların diferensiallaşdırılmasının uçotu əsasında qurulur.** Nəticədə iri şirkətlərin əmtəələrinin nomenklatura və çeşidi olduqça müxtəlifdir; onlar külli miqdarda ölçünöv və modifikasiyalar buraxırlar. Əmtəələrin standartlaşdırılması və unifikasiyası tələbin kenişləndirilməsi maraqlarına tələblərinə tabe edilmişdir. İnhisarların ticarət rəqabətinin stratekiya və taktikası məhsulun satışına səbəb olan bütün amillərin — mə'mulatların istehlakçılara çatdırılması yollarının, bazar mübarizəsi vasitələrinin: reklam, ticarət xidmətləri və s. uçotu ilə işlənilir. Reklam müxtəlif alıcı qruplarına münasibətlər üzrə diferensiallaşdırılır və hər bir halda əmtəənin özünəməxsus xüsusiyyətləri köstərilir, Müvəffəqiyyət isə alıcıların üstünlük verməsi qanunauyğunluqlarının uçotundan, onların davranışının sosial, sosioloci və psixoloci amillərinin öyrənilməsi dərəcəsindən asılıdır.

**Tələbin stimullaşdırılmasının mühüm vasitəsi istehlakçılara xidmətin keyfiyyətidir.** Xidmətlər tə'mir və qulluq, mübadilə yaxud əmtəənin qaytarılması, maliyyə kreditinin verilməsi, əmtəənin tezliklə istehlak yerinə çatdırvşması formalarında köstərilir. İstehsalçı şirkətlər satışı həyata keçirən, texnikanı müşahidə edən, texniki xidmət stansiyaları, ehtiyat hissələrinin köndərilməsi bazasını, hər bir satılan maşının texniki səviyyəsinin uçotu sistemini yaradan akentdiler şəbəkəsinə malikdirlər. Xidmət köstərilməsi zəmanət verilmiş öhdəliklərin, eləcə də pullu xidmətlərin yerinə yetirilməsi xarakteri daşıyır. Sənaye avadanlığının köndəriçisi onun istehsala buraxılışını, zəmanət dövründə və sonra ona texniki xidməti, orta və əsaslı tə'miri həyata keçirir, ixtisaslı kadrların hazırlanmasını tə'min edir, öz maşın və avadanlıqları üçün ehtiyat hissələri buraxır.

*Məhsul satışı istehsalçı və pstehlakçı arasında ikitərəfli informasıya mubadiləsini nəzərdə tutur.* İstehsalçı alıcıya əmtəənin mövcudluğu və onun keyfiyyəti haqqında mə'lumat köndərir. Alıcı da öz növbəsində potensial tələb, məhsulun alınması ilə əlaqədar problemlər və rəqabət haqqında mə'lumat təqdim edirlər. İstehlakçı ilə əlaqələr pul. xərçləri tələb edir: alıçılar n»ə qədər çox olarsa, xərclər də bir o qədər yüksək olur. Vasitəçilər bu funksiyanı nadir hallarda uçuz yerinə yetirə bilərlər. Vasitəçilərin və yaxud ixtisaslaşdırılmış informasiya şəbəkəsinin mövcudluğu əlaqə kanallarının strukturunu sadələşdirir.

## 7.4. KAPİTALİST İSTEHSALI SİSTEMİNDƏ KİÇİK BİZNESİN ROLU

Hələ 80-ci illərdə sənaye çəhətdən inkişaf etmiş kapitalist ölkələrinin iqtisadiyyatında kiçik biznesin rolu əhəmiyyətli dərəcədə artmışdır. həmin dövrdə yalnız ABŞda 14 milyondan çox, Yaponiyada 7 milyon, Böyük Britaniyada 1,4 milyon (müqayisə üçün köstərmək olar ki, keçmiş SSRİdə isə 12 mindən çox kiçik müəssisə) xırda şirkətlər fəaliyyətdə olmuşdur. İnkişaf etmiş kapitalist ölkələrində fəaliyyət köstərən bütün

şirkətlərin 9698 faizini kiçik və orta firmalar təşkil edir. hazırda ABŞda ümumi milli məhsulun (ÜMM) 4550 faizə qədəri, Almaniyada 48 faizi, Yaponiyada 6570 faizi, Böyük Britaniyada isə 20 faizi qeyriinhisarçı bölmənin payına düşür.

Zaman keçdikcə kiçik şirkətlərin elmiistehsal və kommersiya təçrübəsi yeni əlamət və funksiyalar əldə edir. Məhsuddar qüvvələrin kələcək inkişafı və sosialiqtisadi problemlərin həlli də əhəmiyyətli dərəçədə **kiçnk biziesin** uğurlu **təsərrüfat fəaliyyəti** ilə əlaqədardır. İstehsalın tədricən dərinləşən ixtisaslaşması və diferensiallaşdırılması şəraitində onun səmərəliliyi istehsaltexnoloci tsiklin tərkib elementlərinin ictimai uyğunlaşdırılmalarından daha çox asılı olmağa başlayır. Bu, iri ticarətsənaye şirkətlərinin tərəf müqabilləri və subpodratçıları kimi çıxış edən kiçik, ixtisaslaşdırılmış firmaların əhəmiyyətini daha da yüksəldir. Məsələn, Almaniyanın "DaymlerBens" və "Folksvaqen" kimi avtomobil istehsal edən nəhənk şirkətlərinin hər birində submalköndərən firmaların sayı 30 minə çatır.

İnhisarçı nəhənklərin subpodratçıları kimi çıxış edərək kiçik firmalar eyni zamanda nisbətən müstəqil iqtisadi siyasət aparmağa çalışırlar. Kiçik biznesin müvafiq stratekiyası slmitədqiqat və təçrübikonstruktor işləri (ETTKİ) sferasında öz konkret ifadəsini tapır. 80ci illərin ortalarında yalnız ADŞda xüsusi tədqiqat laboratoriyaları olan və intensiv elmi işləmələri həyata keçirən 15 minə yaxın kiçik firmalar olmuşdur.

Məcmu kapital qoyuluşlarında bu sferaya düşən payın normal olmasına baxmayaraq (ABŞda 6%, Almaniyada və Yaponiyada 1214 faizə qədər) kiçik biznes çoxlu mühüm innovasiya və yyeniliklərin işləyənləri sayılırlar. Misal olaraq köstərmək olar ki, 70ci illərdə ABŞ iqtisadiyyatında yaranan bütün elmi ixtiraların 43 faizini kiçik firmalar yaratmışdır.

ETTKİ sferasında sanballı nailiyyətlərin əldə edilməsi kiçik biznes tərəfindən aparılan elmi axtarışların yüksək səmərəliliyi sayəsndə mümkün olmuşdur. ETTKİnə yönəldilmiş hər bir dollara körə ABŞda kiçik firmalar iri şirkətlərə nisbətən 2,5 dəfə çox ixtiralar yaradırlar.

Bundan başqa kiçik biznes yaradılmış ixtiranı istehsala orta hesabla bir il tez tətbiq edir ki, bu zaman inhisarçı nəhənklərin anoloci xərcləri ilə müqayisədə əlaqədar xərçlər 25 faiz aşağı düşür. Müasir şəraitdə satışın ümumi həcmində ETTKİnə xərclərin xüsusi çəkisi köstəricisinə körə kiçik sənaye firmalarının iri şirkətləri qabaqlaması nadir hal deyildir. Bir sıra kiçik şirkətlərdə bu köstərici 1012 faizə çatır.

Onlarla və hətta yüzlərlə layihəni eyni zamanda həyata keçirmək məçburiyyətində olan iri şirkətlərdən fərqli olaraq xırda şirkətlər öz sə'ylərini məhsulların biriki, bə'zi hallarda isa bir neçə növünün işlənməsində təmərküzləşdirirlər.

Kiçik biznesin əsasən texnoloci proseslərin deyil, məhsulların yeni növlərinin işlənməsinə meylliyi faktı da özünə diqqəti cəlb etməyə bilməz. Kommersiya təçrübəsi sübut edir ki, bazara yaxın oxşarları olmayan əmtəələrlə çıxış yüksək maliyyə risqi ilə bağlı olsa da satıcını daha yüksək mənfəətlə tə'min edir.

Kiçik dinamik şirkətlərin sür'ətli inkişafı vəzifələrinə uyğun seçilmiş elmitexniki stratekiya istehsal edilən əmtəələrin nomenklaturasının teztez yeniləşməsi baş verən təsərrüfatçılıq sferaları üçün daha məqbuldur.

ETTKİ sferasında elmitexniki fəaliyyətin xarakteri, kiçik şirkətlərə sənayenin ən qabaqçıl, tez inkişaf edən sahələrində istehsalı kenişləndirməyə imkan verir. Biotexnolokiya, mikroelektronika, telekommunikasiya avadanlığı bütün bunlar heç də kiçik biznesin yüksək kommersiya maraqları sahələrinin tam siyahısı deyil.

ETTKİnin yerinə yetirilməsinin təşkilati formaları sahəsində yeni anlayışlardan biri də kiçik sənaye firmalarının mütləq iştirakçıları olduğu **"elmi park"larıp** yaradılmasıdır. Bir qayda olaraq iri universitetlərin elmi laboratoriyaları əsasında yaradılan müvafiq parklar kiçik biznesə öz elmitexniki proqramlarının reallaşdırılmasında əlavə imkanlar yaradır.

Son illərdə sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrinin milli təsərrüfatlarında **"risqli" ("vençur") firmaları** yaradılmasına başlanılmışdır. həmin firmalarda xariçi mənbələrdən, o cümlədən inhisarçı nəhənklərdən vəsaitlərin kötürülməsi (borc alınması) yolu ilə kiçik sənaye şirkətlərinin perspektiv işləmələri, tədqiqatları maliyyələşdirilir.

ETTKİnin həyata keçirilməsinin belə forması xarici iqtisadi ədəbiyyatda **"veeçur biznesi"**, ayrılan müvafiq vəsait isə **"risq kapnta**lı" adı almışdır.

Kiçik, perspektivli firmaların maliyyələşdirilməsi sənayeticarət nəhənklərinə kiçik biznesin texniki yeniliklərinə keniş daxilolma imkanları verir və həm də inhisarçıları yüksək mənfəətlə tə'min edir. Məsələn, ABŞda avans edilmiş "risq kapitalı"na mənfəət norması 35 faiz təşkil edir ki, bu da Amerika sənayesində ortalaşdırılmış mənfəət normasından 33,5 dəfə yüksəkdir.

**Müasir dövlətinhisarçı kapitalist iqtisadiyyatında kiçik biznesin rolupup küçlənməsi prosesi öz ifadəsini maliyyəkredit sferasında tapır.** Uzun müddət hadisələri passiv müşahidə edən, sərbəst kapital bazarında inkişaf edən kiçik firmalar son illərdə *qiymətli kaqızların alqısatqısının fəal iştirakçılarına* çevrilmişlər. Kiçik şirkətlər zəruri kapitalın əldə edilməsi məqsədilə hər şeydən əvvəl, öz səhmlərini fond bircalarında satmağa başlayırlar. Müvafiq maliyyə təcrübəsi xırda və orta sahibkarlığa olduqça böyük məbləğdə kapitalın kötürülməsinə zəmin yaradır. YSiçik, perspektivli firmaların səhmlərinin tə'yin edilən qiymətlərinin onların nominal dəyərindən 68 dəfə yüksək olması da artıq nadir hal deyildir.

Kiçik biznesin dövlət tərəfindən mükafatlandırılması tədbirləri sistemində **küzəştln verki** əhəmiyyətli.yer tutur. Ondan əsasən İnkiltərədə fəal istifadə olunur. Yaponiyada kiçik müəssisələr (20 nəfərə qədər üzvü olan müəssisələr) heç bir kirov qoyulmadan yalnız müəyyən assosiasiya və ya maliyyə fondunun zəmanəti altında kredit alırlar. Beləliklə, bu kün nəhənk müəssisələrin mövçudluğu artıq kapitalist iqtisadiyyatın inkişafının mübahisəsiz olaraq əsas əlaməti kimi çıxış etmir. Kiçik biznesin təsərrüfat təcrübəsi kiçik firmaların kapitalist dünyasında ciddi mövqeləri mənimsəməyə qabil olan real iqtisadi qüvvə kimi tanınmasına əsas verir. Bu, həm də iri inhisarçınəhənklərin deyil, "kiçik" iqtisadiyyatın qısa müddətdə iqtisadiyyatın struktur yenidən qurulması problemini həll etməyə qadir olduğunu sübut edir.

## 7.5. QİYMƏTLƏRİN İNFLYASİYA ARTIMI

İnkişaf etmiş kapialist ölkələrində qiymətəmələkəlmə probleminin, qiymət sist.eminin və qiymətlərin dinamikasının nəzərdən keçirilməsi tədqiqatçını müasir mərhələdə inflyasiya problemi, onun xüsusiyyətləri və inkişaf meylləri ilə üzləşdirir.

Son illərdə **inflyasiya** qiymətlərin fomalaşmasına yalnız bilavasitə deyil, həm də təsərrüfatın inkişafı şərtlərinin məcmusu vasitəeilə çoxtərəfli tə'sir köstərən xüsusi növ qiymətəmələkətirən amilə çevrilmişdir.

**İnflyasiyanın xarakteri, onun dərinliyi, miqyası və artım sür'əti** onu ayrıayrı kapitalist ölkələrinin və bütövlükdə dünya təsərrüfatının iqtisadi inkişafının mühüm amillərindən birinə çevirir.

Bir tərəfdən, əmtəələrin dəyərinin yüksəlməsi və bununla əlaqədar bahaçılığın artımı, dikər tərəfdən isə, qiymətlərin inflyasiyalı dəyişməsi bir qayda olaraq ayrılıqda mövçud olmurlar. **Yalnız nadir** hallarda **inflyasiyasız ba**haçılığın artması yaxud bahaçılığın artımı olmadan nnflyasnya mümkündür. Adətən bu iki proses bərabər tərəf müqabilləri kimi. deyil, .iearxik qaydada birbiri ilə qarşılıqlı fəaliyyətdə olurlar: müəyyən dövrdə bahaçılığın artımı inflyasiya üzərində, dikər dövrdə isə, əksinə, inflyasiya bahaçılığın artımı üzərində hakim olur. Onların qeyribərabər tərəfdaşlığı ondan mə'lum olur ki, bahaçılığın artımı nə vaxt müstəqil çıxış etmirsə, onda inflyasiya prosesinin bir hissəsinə və onun köstəricilərindən birinə çevrilir. Bu, qiymətlərin və dəyərin formalaşması xüsusiyyətləri ilə izah olunur.

Əmtəə dövriyyəyə onun istehsalına sərf olunmuş əmək xərclərinə uyğun dəyərlə və istehlak dəyəri ilə daxil olur. Dövriyyəyə artıq pul buraxılanda mə'lum əmtəənin qiyməti yüksəlir, lakin bu, onun dəyərinin dəyişməsi nəticəsində deyil, pulun dəyərinin aşağı düşməsi nətiçəsində baş verir. Əmtəənin dəyəri qiymətlərdən fərqli olaraq bu qaydada dövriyyədəki pulun miqdarı ilə müəyyən edilə bilməz.

Real həqiqətdə qiymətlərin ümumi artımı birbaşa deyil, hər şeydən əvvəl, qiymətlərin qeyribərabər dəyişməsi əsasında baş verir. Bunun əss səbəbi müxtəlif əmtəə qrupları dövriyyəsinə pul axınının eyni vaxtda baş verməyən və müxtəlif mə'nalı tə'siridir. Bu zaman pulun qiymətdən düşməsi birdənbirə yox, müəyyən müddətlərlə (laqla) baş verir. Kəyatda qiymətlərin ümumi səviyyəsi əsasən onların qeyribərabər artımı vasitəsilə yüksəlir, eləcə də qiymətlərin qeyribərabər artımı son nəticədə qiymətlərin ümumi səviyyəsinin yüksəlməsinə kətirib çıxarır. Belə mə'nada pulların bu dərəcədə qiymətdən düşməsini inflyasiya hesab etmək olar.

Başlıca kapitalist ölkələrində **kağız pul devriyyəsinin genişlənməsinə səbəb olan əsas amilləri** onların əmtəə dövriyyəsi ilə qarşılıqlı fəaliyyəti əlamətinə körə iki qrupaayırmaq olar:

=> əmtəə dövriyyəsinin kenişlənməsindən nisbi asılı olmayan amillər;

=> əmtəə və xidmətlərin qiymətlərinin yüksəlməsi nəticəsində əmtəə dövriyyəsinin dəyər həçminin kenişlənməsi ilə bağlı olan amillər.

**Birinçi qrup amillər (pul amilləri)** pul kütləsinin hərəkətinə (o cümlədən pul dövriyyəsinin sür'ətlənməsinə) tə'sir köstərir ki, bu da inflyasiya proseslərinin kenişlənməsində ilkin, fəal rol oynaya bilər. **İkinçi qrup amillər** bir qayda olaraq əmtəə və xidmətlərin qiymətlərinin artması ilə əlaqədar pul kütləsinin kenişlənməsini şərtləndirir və bu, pul dövriyyəsi çərçivəsindən kənarda yaranır.

Amillərin pul və qeyripul amillərinə bölküsü şərti olsa da müasir inflyasiya amillərinin analitik öyrənilməsi üçün vaçibdir. Bütün inkişaf Ztmiş kapitalist ölkələri üçün müasir inflyasiyanı stimullaşdıran amillər təxminən eynidir, ançaq müxtəlif ölkələr, eləçə də müxtəlif dövrlər üzrə eyni bir ölkə üçün ayrıayrı amillərin və onların uzlaşmalarının rolu və əhəmiyyəti kəskin fərqlənir. Deyilənlər əsasında pul amillərinin tə'sirini nəzərdən keçirək.

**Pul dövriyyəsi tərəfipdən inflyasiyalı tə'snr** aşağıdakı amillərlə müəyyən edilir:

— müasir pulkredit sisteminin fəaliyyəti xüsusiyyətləri ilə;

Müasir pulkredit sisteminin fəaliyyəti mexanizmi müasir kapitalizm şəraitində kağız pul kütləsinin şişməsi və tədavül kanallarının onlarla doldurulması üçün əl~ verişli zəmin yaradır.

— hərbi xərclərin, sosial tə'minata, səhiyyəyə, təhsilə, elmə, istehsal infrastrukturuna (nəqliyyat, yollar, rabitə, ümumi istifadə müəssisələri) çəkilən xərclərin kəskinartımı ilə;

Müasir inflyasiyanın kenişlənməsinə tə'sir köstərən həlledici qeyripul amilləri aşağıdakılardır:

- inkişaf etmiş kapitalist ölkələrinin iqtisadiyyatının inhisarlaşması;
- kapitalist iqtisadiyyatının ən mühüm bölmələrində istehsal və kapitalın təmərküzləşməsinin artımı əsasında iri şirkətlərin hökmranlığının küclən məsi. həmin şirkətlər açıq və kizli danışıqlar, "qiymətlərdə liderlik" təcrübəsi yolu ilə inhisarlaşmış sahələr çərçivəsində, hər şeydən əvvəl, qiymətlərin aşağı salınmasının aradan qaldırılmasına yönəldilən öz qiymət stratekiyasını razılaşdırır. Bu siyasət qeyriqiymət rəqabəti adlandırılan rəqabətindaha da kenişlənməsi ilə küclənir.

70ci illərdə inflyasiyanın pul və qeyripul amillərinin rolu kəskin artmışdır ki, bu da qiymətəmələkəlmə sferasına strukturenerci, xammmal və ərzaq böhranlarının tə'siri ilə şərtlənmişdir. Bu, idxalın strukturunda enerci, xammal və ərzaq məhsulları yüksək xüsusi çəkiyə malik olan kapitalist ölkələrində daha yüksək səviyyədə oLmuşdur (İnkiltərə, İtaliya, Yaponiya).

***İnflyasiyanın təzahur formaları* müxtəlifdir. Onlardan** aşağıdakıları köstərmək olar:

- ayrıayrı ölkələri əhatə edən yerli (lokal) inflyasiya və ölkələr qrupunu yaxud bütöv rekionları əhatə edən dünya inflyasi yası;
- qiymətlərin artımının kəskin sıçrayışlı xarakter aldığı iti sür'ətli inflyasiya və qiymətlərin tədricən (dönmədən) artdığı sürünən inflyasiya.

- daxili maliyyəiqtisadi amillərin inkişafı ilə şərtlənən inflyasiya və xarici iqtisadi səbəblərlə əlaqə dar "idxal edilmiş" inflyasiya.

İnflyasiya mexanizminin araşdırılması üçün iqtisadi elementlər (komponentlər): əmtəə və xidmətlərin qiymət ləri, kredit, nəğdsiz ödənişlər və qarşılıqlı ödənilən öhdəliklər, pul vahidlərinin dövriyyə sür'əti və pul kütləsinin həçmi arasında funksional səbəbnətiçə asılılığı açar hesab olunur Bu elementlərin asılılığından obyektiv qanun yaranır ki, həmin qanuna körə müəyyən avda dövriyyədə olan pul kütləsi bütün əmtəə və xidətlərin qiymətləri çəmindən kreditlə satılmış əmtəələrin qiymətləri cəmini, habelə qarşılıqlı ödənilən tə'diyyələrin cəmini çıxmaq və ödənilmə vaxtı çatmış tə'diyyələrin cəmini əlavə etmək, həmçinin pul vahidlərinin dövriyyə sür'ətinin uçotu ilə müəyyən edilir. Onda bu qanunu aşağıdakı düsturla ifadə etmək olar:

pul kütləsi;

- əmtəə və xidmətlərin qiymətləri cəmi:

kreditlə satılmış əmtəələrin qiymətləri cəmi;

- qarşılıqlı tə'diyyələrin çəmi;

ödənilmə vaxtı çatmış tə'diyyələrin cəmi;

- pul vahidinin dövriyyə sür'əti.

Yuxarıda köstərilən elementlərdən hər birinin dəyişməsi pul vahidinin qiymətdən düşməsinə tə'sir köstərə bilər. Pul tədavülü mexanizminə onların tə'sirinin xarakterindən asılı olaraq inflyasiya qqrosesləri pulkredit amilləri ilə yanaşı qiymətəmələkəlmə sistemi ilə şərtlənə bilər. Tədavül kanallarının kağızpul amilləri ilə həddən artıq doldurulması köstərilən elementlərin funksional və səbəb nətiçə əlaqələrinə körə qiymətlərin yüksəlməsinə kətirib çıxarır.

İnkişaf etmiş kapitalist ölkələrinin inflyasiya mexanizmində pul kütləsinin artması başlıca olmasa da mühüm və müəyyənediçi rol oynayır. Pul vahidlərinin qiymətdən düşməsi, həmçinin pul vahidlərinin dövriyyə sür'ətinin, nəğdsiz ödənişlərin xüsusi çəkisinin artması, fəaliyyəti üçün elmitexniki tərəqqinin son nailiyyətlərinin tətbiq edildiyi bank sisteminin inkişafı zəruri olan kreditlərin kenişlənməsi kimi dikər *pulkredit amillərinin* tə'siri altında baş verir.

Pulun qiymətdən düşməsi mexanizmində pulkredit amilləri ilə yanaşı *muasir qiymətəmələkəlmə təçrubəsi* də əhəmiyyətli rol oynayır. **Qiymətlərin dinamikası inflyasiyanın kortəbii xarakterini əks etdirir.** Qiymətəmələkəlmənin inhisarçı tənzimlənmösinin və pul sferasının dövlət tənzimlənmösi çəhdlərinin rolunun böyük olmasına baxmayaraq o idarə olunmayan (idarə edilə bilməyən) proses olaraq qalır. Belə kortəbiilik müxtəlif illərdə və ayrıayrı əmtəələr üzrə qiymətlərin artımının qeyribərabərliyini, eləcə də inflyasiyanın xarakterinin dəyişməsi imkanlarını müəyyən edir.

80ci illərin təcrübəsi köstərdi ki, qiymətlərin artım sür'ətlərinin aşağı düşməsi məhsuldarlığın istehsal xərclərini azalmağa imkan yaratmayan zəif artımı və ya aşağı tələb həcmi ilə fərqlənən sahələrdə daha ağrılı keçir. Belə sahələrə hasil edici sənaye, alüminium, mis istehsalı və poladəritmə sənayesi aiddir. Elmitexniki tərəqqi əsasında əmək məhsuldarlığının intensiv artdığı və yeni növ məhsulların buraxılışı həcminin yüksəldiyi sahələr isə, əksinə, qiymətlərin artım sür'ətlərinin aşağı düşməsi zamanı özlərinin səmərəli fəaliyyət köstərə bilmək qabiliyyətlərini sübut etdilər. Beləliklə, inflyasiya sür'ətinin azalması müxtəlif sahələrin şirkətlərinin maliyyə
vəziyyətinin differensiallaşdırılmasına kətirib çıxardı, onların təbəqələşməsi, rəqabət qabiliyyəti zəif olanların sıxışdırılıb çıxarılması prosesini sür'ətləndirdi və bununla da kapitalist ölkələrin iqtisadiyyatının struktur yenidən qurulmasına şərait yaratdı.

İnflyasiya sür'ətinin aşağı düşməsi keniş istehlakçı kütləsinin vəziyyətinə birmə'nalı tə'sir köstərir. Qərb iqtisadçıları belə tə'sirin müsbət təzahürlərini çox yüksək qiymətləndirməyə meyllidirlər. Bu zaman onlar alıcılıq qabiliyyətinin artmasını nəzərə alaraq kuya

istehlakçıların inflyasiya sür'ətinin aşağı düşməsindən bilavasitə udmalarını təsdiq edirlər. Lakin qeyd edilməlidir ki,:

1) köz qabağında olan əmtəələrin ucuzlaşması deyil, yal nız qiymətlərin daha lənk artmasıdır;

2) istehlak xərçlərinin kifayət qədər böyük hissəsi xid mətlərin ödənilməsinə yönəddilir.

**İpflyasiya proseslərinin tənzimlənməsi müasir dövrdə içqimai təkrar istehsala dövlətinhisarçı müdaxilənin aparıçı istiqamətlərindəndir,**

Mə'lum tənzimləyiçi vasitələrdən biri olan "dayanirəli" siyasəti büdcə və kredit alətləri vasitəsilə işküzar fəallığın məhdudlaşdırılmasına və mükafatlandırılmasına əsaslanmışdır. Bununla birlikdə inflyasiyanın dayandırılması çəhdləri adətən durğunluğun yaranmasına kətirib çıxarmışdı ki, bu da dövlət inhisarçı müdaxilənin son məqsədlərinə cavab vermirdi.

Onun əvəzinə iqtisadi artım və əmək məhsuldarlığına uyğun olaraq əmək haqqının və dikər kəlirlərin artımı üçün maksimum səviyyələrin son həddlərinin müəyyən edilməsindən ibarət olan kəlir siyasəti daxil edilmişdir.

Nəzarət altında isə əsasən əmək haqqı olmuşdur. Əmək haqqından əlavə sistematik kəlirlərin qalan növlərinin də tənzimlənməsi son dərəcə məntiqi xarakter daşıdığına körə çox çətin vəzifəyə çevrilmişdir.

**İnkilis iqtisadçısı Fillips tərəfindən irəli sürülmüş xərç inflyasiyası konsensiyası "kəlirlər siyasəti" ilə birləşir.** həmin konsepsiyaya körə inhisarlar tərəfindən qiymətlərin yüksəldilməsi bahalığın ilkin səbəbi yox, istehsal xərcləri artımının, ilk növbədə isə, əmək haqqı artımının nəticəsidir. Konyunkturanı əsas tutmaqla, inhisarların qiymətləri yüksəltmək faktını inkar etməklə in

flyasiyanın özözünə artması "qiymətəmək haqqı" kimi ad qazanmış inflyasiya spiralı şəklində təsvir olunur, bu zaman fəhlə sinfi öz tələblərini məhdudlaşdırmaq yolu ilə ümumi bəlaya (bahalığa) qarşı^birkə mübarizəyə çağırır. "Xərçlər inflyasiyası" koisepsiyasına uyğun olaraq qiymətlər artımının yavaşımasına yalnız işsizlik normasını artırmaqla nail olmaq mümkündür.

Antiinflyasiya siyasətinin mühüm konsepsiyalarından biri də "təklifə meylli iqtisadiyyat" prinsipidir. Yeni konsepsiya əmtəə istehsalının hərtərəfli mükafatlandırılmasını e'lan edir. Onun müəlliflərinin fikrincə, şirkətlərə verki küzəştli etmək: əmək haqqı minimumunu aşağı salmaq, sosial ehtiyaclara büdcə subsidiyalarını kəskin ixtisar etmək yolu ilə kapital təklifinin kenişləndirilməsi üçün şərait yaradılması zəruridir. Bu tədbirlər işküzar fəallığın canlanmasına, yeni kapital qoyuluşlarına, əmək haqqının ümumi səviyyəsinin aşağı düşməsinə və onun artımı həddlərinin qoyulmasına, əmək məhsuldarlığının yüksəlməsinə kətirib çıxarır ki, onlar məcmu halda inflyasiya sür'ətinin aşağı salınmasına imkan verir.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Dünya bazarının inhisarlama formaları hansılardır?
2. İnhisar mənfəətinin əmələ gəlmə səbəblərini göstərin.
3. İnhisar rəqabətinin növlərivə metodları hansılardır.
4. Qiymətlərdə «liderlərin arxasınca getmə» nin səbəblərini göstərin.
5. Qeyri-qiymət rəqabəti formalarını açıqlayın.
6. Dünya bazar qiymətlərinin inflyasion artımı nədir?

## TESTLƏR

**1. İnhisar bazarı şərtləri daxilində dəyər qanunun özünəməxsus təzahürü aşağıdakılardan hansıdır?**

A) bazar dəyəri və qiymət;
B) inhisar rəqabəti;
C)) inhisar qiyməti;
D) dünya bazarında qiymətlərin dəyərdən uzaqlaşması.
E) bazar qiymət.

**2. İnhisar mənfəəti nədir?**

A) sadə mənfəət və onun əmələ gəlməsi şərtləridir;
B)) orta mənfəətin çevrilmiş forması və əlavə dəyər formasıdır;
C) inhisarlaşmış iqtisadiyyatda toplaşan orta mənfəətdir;
D) vahid müştərək əlavə dəyərdir.
E) əlavə dəyər vergisi və aksizlərdir.

**3. İnhisar qiymətinin yuxarı həddi hansıdır?**

A) təkbaşına az xərclərin hesabına təkbaşına yüksək mənfəəti təmin edən istehsal qiymətlərinin modifikasiyası;
B) cari bazarda inhisar və rəqabət qüvvələrinin əlaqəsi;
C)) artım, bir sıra böyük və kiçik istehsalçıların və ya başqa inhisarın daha aşağı qiymətlərlə bazara çıxışını faydalı edən səviyyə;
D) istehsal qiyməti
E) dempinqdir

**4. Aşağıdakılardan hansı qeyri-qiymət inhisar rəqabətinin formalarına aid deyil?**

A) istehlakçı maraqları üçün mübarizə;
B) məhsul üzrə rəqabət;
C) satış şərtləri üzrə rəqabət;
D)) rəqibin qiymətinə nisbətən daha aşağı qiymət təklifi yolu ilə qiymətlərin aşağı salmaq;
E) reklam kompniyasının təsiri ilə alıcının cəlb olunması;

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:


17. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
18. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
19. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
20. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
21. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
22. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
23. Певшин Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992 Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
24. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
25. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
26. Лорин А.Н. Ценоoброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
27. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
28. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.
29. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.
30. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
31. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.

# MÖVZU 8.

## MÖVZU: «BEYNƏLXALQ YANACAQ – ENERJİ RESURSLARI BAZARINDA QİYMƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİ»

8.1. Dünyanın yanacaq-enerji resrusları bazarının differensiallaşdırılması amilləri;

8.2. Təbii qazın və kömrük əsas ixracları və dünya təcrübəsində qiymətlərin formalaşması xüsusiyyətləri

8.3. Beynəlxalq yanacaq-enerji resursları bazarında qyimətlərin dəyişməsinə təsir edən amillər;

Özünü yoxlama sualları.

Testlər

Ədəbiyyat siyahısı

## 8.1. DÜNYANIN YANACAQ-ENERJİ RESRUSLARI BAZARININ DİFFERENSİALLAŞDIRILMASI AMİLLƏRİ

Xammal bazarlarının differensiallaşdırılmasının ən mühüm amilləri aşağıdakı fərqlər sayılır: 1) ixrac və idxalın coğrafi cəhətdən təmərküzləşdirilməsi dərəcəsindəki fərqlər; 2) müvafiq istehsalların inhisarlaşdırılması səviyyəsindəki fərqlər.

Əsas yanacaq-energetika əmtəələrinin – neftin, qazın, kömürün bazarını nəzərdən keçirək. Yanacağın bu növləri bərpa olunmayan resurslar sırasına aiddirlər. Həmin əmtəələrin düny kapitalist bazarlarının formalaşmasına yanacaq resurslarının, ilk növbədə isə neftin coğrafi cəhətdən qeyri-bərabər bölüşdürülməsi təsir göstərir ki, bunun da əsas ehtiyatları Yaxın aə orta Şərq, Latın Amerikası və Cənubi-Şərq Asiya ölkələrində yerləşdiyi halda, əsas istehlakçıları ABş, Yaponiya və Qərbi Avropa sayılır.

90-cı illərdə neft ixracının coğrafi bölgüsündə nəzərə çarpan struktur irəliləmələri baş vermişdir. İnkişaf etməkdə olan ölkələrin neft ixracında xüsusi çəkisi 1979 üzvü olan ölkələrin xüsusi çəkisi 87 %-dən 65,4 %-ə enmişdir. OPEK-ə daxil olmayan Meksikanın xüsusi çəkisi 1,8 %-dən 5,8 %-ə qədər artmışdır. Şimal dəniz neftinin xarici bazarda artmaqda olan göndərmələrin əksi kimi inkişaf etmiş kapitalist ölkələrinin payı 1979-cu ildə 5,6 %-dən 2005-ci ildə 14,9%-ə qədər yüksəlmişdir.

2-ci şəkildə neft bazarında xarici ticarət sövdələşmələrinin əsas növləri verilmişdir. Sövdələşmənin hər bir növü qiymətlərin və onların ayrı-ayrı ünsürlərinin səviyyəsinə təsir göstərir.

Qaz və kömür ixracında inkişaf etmiş kapitalist ölkələrinin payı müvafiq olaraq 2005-ci ildə 60,5 və 99,5 inkişaf etməkdə olan ölkələrin xüsusi çəkisi 39,1 və 0,5% təşkil etmişdir.

Təbii qazın əsas ixracatçıları Niderland, Norveç, Kanada, Əlcəzair, Liviya sayılır. 1980-ci ildən etibarən qazın qiymətinin neftin qiymətinə möhkəm bağlanması uzundən təbii qazın bütün növlərinə qiymət artımı başladı. 2005-ci

ildən sonra Qərbi-Avropa bazarında qiymətlər aşağı düşdü. ABŞ-a göndərilən Kanada qazın qyimətinin aşağı düşməsi daha az nəzərdə çarpırdı.

Aparıcı kapitalist malgöndərənlərindən biri olan Əlcəzair Qərbi Avropa Ölkələrinə (Fransa,İtaliya, Belçika) və ABŞ-a qaz ixrac edir. 1985-ci ildə «Sonotrak» (Əlcəzair) firması Yapon şirkətlərinə hər 1000 $m^3$-nin qiyməti 18 dollara olmaqla (öu ölkənin idxal etdiyi indoneziya qazının qiymətindən 20% aşağı qiymətə) birdəfəlik sövdələşmələr əsasında təbii qaz təklif etmişdir. Qərbi-Avropa bazarının məhdud tutumu, ixrac üzrə böyük imkanları, habelə valyuta vəsaitlərinə xeyli böyük tələbatı Əlcəzairi birdəfəlik sövdələşmələr əsasında satışı genişləndirməyə sövq edir.

## 8.2. TƏBİİ QAZIN VƏ KÖMRÜK ƏSAS İXRACLARI VƏ DÜNYA TƏCRÜBƏSİNDƏ QİYMƏTLƏRİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

Dünya kapitalist kömür ticarətində qiymətlərin dinamika və  səviyyəsinə görə kokslaşan və energetika daş kömürlərini fərqləndirirlər. Daş kömürün əsas ixracatçıları ABŞ, CAR, Avstriya, Kanada, Böyük Britaniya sayılır.

80-ci illərin əvvəllərində kömür bazarında qiymtlərin xeyli yüksəlməsi, 2005-ci ildən sonra isə qiymətlərin son dərəcə aşağı düşməsi müşahidə olunmşdur. 1986-cı ildə kömürün qiymətinin aşağı düşməsi qara metallurgiya tərəfindən kokslaşan kömürə tələbin ixtisar olunmasına, habelə yanacaq surətdə pisləşməsi şəraitində CAR-dan kömür gətirilməsinin artmasına kömək etdi. 1990-cı ildə iran körfəzində baş verən hadisələrin təsiri altında kömürün qiymətinin artması meyli baş verdi.

İndii isə neftə olan qiymətlərin növlərini və onların müəyyən edilməsi xüsusiyyətlərini daha müfəssəl nəzərdən keçirək.

Neft bazarının xarakterik cəhəti onun qyimətlərinin çoxlu miqdarda olmasındadır:

- OPEK üzvü olan ölkələrin hökumətləri tərəfindən müəyyən edilən rəsmi satış qiymətləri;

- OPEK- daxil olmayan ixracatçıların rəsmi və ya sorğu qiymətləri. Bu qiymətlər həmin ölkələr tərəfindən OPEK-in qiymət səviyyəsindən, bazarın vəziyyətindən hasilat xərclərindən və s. asılı olaraq müəyyən olunur.

- Müxtəlif düsturlara görə hesablanan qiymətlər, o cümlədən «neft-bek» qiymətləri;

- «Azad» bazarda fəaliyyət göstərən və tələb-təklif nisbətlərinin təsiri altında formalaşan birdəfəlik sövdələşmə qiymətləri;

- birja sövdələşməsi qiymətləri. Bu qiymətlər neft birjalarında birdəfəlik sövdələşmə qyimətləri, bazarın inkişaf proqnozları, alver əməliyyatları kimi amillər nəzərə alınmaqla müəyyən edilir və müəyyən dərəcədə qısamüddətli perspektivə bazarın vəziyyətinin indiqatoru sayılır;

- neft məhsullarının növbəti reallaşması ilə birlikdə idxal ölkələrində neft emalına kontraktların qiymətləri;

- əmtəə mübadiləsi razılaşmalarının qiymətləri.

Sadalanan qiymət növlərindən ilk üçü müntəzəm kontraktlarda istifadə olunur. Göstərilən bütün qiymət növləri arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Neftin qiymətləri həm də neft məhsullarının qiymətlərindən asılıdır, çünki neft məhsullarının qiymətlərindən «net-bek» qiymətlərinin hesablanmasında istifadə olunur.

2008-ci ilə qədər əsasən orta və uzun müddətli kontraktlara görə reallaşdırılırdı. Birdəfəlik sövdələşmələrə görə reallaşdırılan əmtəələrin həcmi həmin əmtəələrin ümumi ticarət həcminin 2,5%-ni təşkil edirdi. Birdəfəlik sövdələşmə qiymətləri OPEK-in rəsmi qiymətlərinə bütövlükdə yaxın olmaqla bir qədər onları ötüb keçirdi.

208-ci ildən başlayaraq birdəfəlik razılaşma qiymətləri neft bazarında qiymətlərin əmələ gəlməsində həlledici rol oynamağa başladı. Onlar hasilatın səviyyəsinin tənzimlənməsi üzrə ixracatçı ölkələr tərəfindən qəbul edilən qərarlar, habelə alver və digər amillərlə müəyyən olunurdu.

Proqnozlaşdırılmayan siyasi amillər xüsusi ilə praktiki əhəmiyyət kəsb edir. Bazarda neft çtışmadıqda birdəfəlik sövdələşmə qiymətləri artır və neft idxal edən ölkələr birdəfəlik sövdələşmələr üzrə satışı genişləndirməklə özlərini müntəzəm kontraktlardan uzaqlaşdırmağı üstün tuturlar. Əksinə, bazarda neft artıqlığı  olduqda, birdəflik södləşmə qiymətləri rəsmi qiymətlərdən aşağı götürülür və bu zaman artıq, alıcılar müntəzəm kontraktlar bağlamağa üstünlük verirlər.

1981-ci ildən etibarən, neft bazarında təklifin tələbi ötüb keçməsi müşahidə olunan hallarda alıcılar, xüsusilə də 1984-cü ildən müddətli kontraktlar üzrə təsbit olunmuş qiymətlərlə alqını azaltmaqla birdəfəlik sövdələşmə bazarından geniş istifadə etməyə başladılar. Bunun nəticəsində neftlə ticarətin ümumi həcmində birdəfəlik sövdələşmələrin payı 1980-ci ildən 5%-dən 2005-ci ildə 30%-ə qədər artmışdır.

Bazarda meydana çıxan neft artıqlığı ixracatçıları qiymətlərin müəyyən edilməsi üçün müxtəlif düsturlardan istifadə etməyə sövq etdi. Qiymətləri, «net-bek» qiymətləri də daxil olmaqla düstur əsasında müəyyən edilən kontraktlar 1985-ci ildən sonra daha geniş yayılmağa başladı. Əvvəlcə Səudiyyə Ərəbistanı, sonra isə digər aparıcı ixracatçı ölkələr rəsmi satış qiymətlərindən imtina etdilər və onları dünyanın iri ticarət mərkəzlərində (Rotterdam, İtaliyanın,Meksika körfəzinin və s. limanları) neft məhsullarının qiymətlərindən asılı olaraq tərəddüd edən qiymətlərlə əvəz etdilər. Həmin qiymətlər üzrə müntəzəm kontraktlar bağlanırdı. Bu kontraktlar heç olmazsa bir qədər müddətə neft emalı şirkətlərinə zəmanətli mənfəəti, nefti ixrac edənlər isə etibarlı satışı təmin edirdi.

«Net-bek» qiymətləri ilə neftin stışı OPEK üzvü olan ölkələr üçün daha üstün tutulurdu, OPEK-dən kənarda isə  birdəfəlik sövdələşmə qiymətləri üzrə, habelə bazar konyukturu nəzərə alınmaqla müəyyən edilən rəsmi və sorğu qiymətləri üzrə satış hakim idi. «Net-bek» qiymətlərindən və  digər düsturlar üzrə hesablanan qyimətlərdən istifadə  OPEK üzvü olan ölkələrə, qiymətlərə  təzyiq göstərməklə ixracı genişləndirməyə imkan verdi.

Qiymətlərin hesablanmasında düsturlardan istifadə olunması bazarın qeyri-sabit vəziyyətə malik olduğu şəraitdə minimum risklə «ağlabatan» mənfəət normasının uzlaşmasını təmin edir və ixracatçılarla idxalçılar arasında uzunmüddətli münasibətlərin qurulmasına kömək edir. Məsələn, belə bir düstur var ki, həmin düsturla neftin müxtəlif sortlarının kontrakt qiymətləri yüklənmə və ya təyinat məntəqəsinə çatdırılma tarixinə müəyyən edilir. Digər düsturlarda neft və neft məhsullarının qiymətlərindən istifadə olunur. Göndərmənin başlanğıc tarixinə qiymətləri müəyyən edilən bir sıra kontraktlarda düsturlar bazarda qiymətlərin yalnız sonrakı tərəddüdlərinin uçotu üçün tətbiq olunur. Həmçinin əks təsir qüvvəli qiymətlərin qoyulmasından da istifadə olunur.

Emal tarixinə neftin qiymətlərinin hesablanması üçün neft məhsullarının gündəlik dəyişən qyimətlərinin tətbiqi ona gətirib çıxarır ki, nə alıcı, nə də satıcı neftin yüklənib göndərilməsindən sonra uzun müddət onun dəqiq qiymətini bilmirlər. Neft məhsullarının qiymət bazasında hesablanmış eyni bir neft sortunun qiyməti gündəlik olaraq dəyişir. Qiymətlərin müəyyən edilməsinin müxtəlif firmalar tərəfindən istifadə olunan konkret düsturlarının nisbətən tam və etibarlı informasiyanın yoxluğu kontrakta daha yüksək qiymət verə bilən düsturu tətbiq etməyə can atan ixracatçılar arasında mövcud olan qiymət rəqabətinin ən mühüm tərkib hisssi sayılır.

Qiyməti neft məhsullarının qiymətləri əsasında müəyyən edilən hər hansı bir kontraktda dörd başlıca komponent nəzərə alınır: neft məhsullarının çıxış strukturu, neft məhsullarının qiymətləri, neftin nəqli v emalı xərcləri, hesabat dövrü.

Neftin qiymətlərinin hesablanması kontraktda razılaşdırılmış hesabat dövrü ərzində neft məhslları qiymətlərini müvafiq neft məhsulunun çıxımına (çəkisinə və ya həcminə görə faizlə) vurmaqla aparılır. Alınmış nəticələr cəmlənir və neft məhsulunun həmin orta çəki qiymətindən neftin emalına və nəqlinə, sığortaya çəkilən xərclər, idxal rüsumları və s. çıxılır. Alınan fərq neftin axtarılan qyiməti, liman göndərilməsinin fob qiyməti sayılır. «Net-bek»

qiymətlərindən daha geniş istifadə edən ölkələr Səudiyyə Ərəbistanı və Nigeriyadır.

İxracatçılar həm də neftin qiymətini onun bir və ya bir neçə digər sortlarının birdəfəlik sövdələşmə qiymətləri ilə əlaqələndirən düsturlara da müraciət edirlər. Bu üsul «net-bek» şərtlərinə nisbətən sadədir. Lakin bazis sortunun (və ya neft sortlarının) «düzgün» seçimi ola bilsin ki, çətinləşsin. Belə bir problem ən çox da geniş yayılmış sortlara aid edilməyən neftin satışı zamanı meydana çıxa bilər. Bu cür hallarda təcrübədə, adətən, eyni bir neft hasilatı rayonunda və ya «səbətində» həmin sortlara oxşar keyfiyyətli geniş məlum olan neft sortu seçilir. Əgər bu mümkün olmazsa, onda qiymətləri, təsbit olunmuş düzəlişlərdən istifadə etməklə təyinat oayonunda və ya hər hansı bir digər istənilən rayonda üstün olan neft sortlarının qiymətlərinə «bağlayırlar».

## 8.3. BEYNƏLXALQ YANACAQ-ENERJİ RESURSLARI BAZARINDA QYİMƏTLƏRİN DƏYİŞMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

Son illərdə neftlə birja əməliyyatlarının aparılması geniş inkişaf tapmışdır. Neft bazarında qiymət tərəddüdlərinin dairəsi bəzən gün ərzində 8%-ə çatır. Qərb mütəxəssisləri qeyd edirlər ki, valyuta sferasında bu cür tərəddüdlər bank sisteminin iflasına gətirib çıxarmalı idi. Lakin neft bazarı buna uyğunlaşdı. Ticarətin təşkili neft emalı şirkətlərinin təchizatını təmin etməyə və neftin çətinlik çəkmədən satışına imkan verir.

Qiymət tərəddüdlərindən yaranan neqativ səmərənin yumşaldılması üçün arxasında real əmtəə durmayan birja sövdələşmələrindən istifadə olunur. Satıcılar qiymətlərin aşağı düşməsi təhlükəsindən, alıcılar isə bir neçə aylar ərzində onalrın qaldırılması riskindən sığorta oluna bilirlər. Birja, tələb və təklifin vəziyyəti, habelə neftin qiymət səviyyəsi haqqında informasiyanın mənbəyi sayılır.

Neftin və digər enerji daşıyıcıların kapitalist bazarında qiymətəmələgəlmənin özünəməxsus xüsusiyyəti və qiymətlərin dinamikası aşağıdakılarla dinamikası aşağıdakılarla izah olunur. Birincisi, 70-ci illərdə neft istehsalının beynəlmiləl qiymətinin xeyli dərəcədə yüksəlməsi başv erdi. İkincisi, heç bir xammal bazarında qyimətlərin uzun müddətli dinamikası neft bazarında olduğu kimi, inhisar qiymətlərinin bu qədər əhəmiyyətli təsirinə məruz qalmamışlar.

Neft bazarının nadirliyi ondan ibarətdir ki, müharibədən sonrakı dövrdə həmin bazarda böyük bazar gücünə malik inhisarlar çıxış edirdi. 1950-1970-ci illərdə onlar qiymətləri süni olaraq aşağı salınmış səviyyədə saxlamağa nail ola bildilər. Həmin qiymət siyasətinin məqsədi dünya bazarında daş kömür ixracatçılarının tədricən sıxışdırılmasından, iqtisadiyyatın yönümünün ucuz və texnoloji cəhətdən rahat olan yanacaq növünə – neftə istiqamətləndirilməsindən ibarət idi. Bu zaman neft inhisarları əksər ölkələrin energetikasının və iqtisadiyyatının struktur cəhətdən yenidən qurulmasının başa çatacağını gözləyirdilər, çünki yenidən kömürə qayıdış texnoloji cəhətdən mürəkkəb və baha başa gələn proseslərin bərpasına gətirib çıxara bilərdi. Qeyri-elastiki tələb şəraitində neftə olan qiymətin kəskin surətdə yüksəldilməsi mümkün ola bilərdi. Təcrübədə həmin işi OPEK həyata keçirdi, çünki artıq 1973-cü ildə dünya kapitalist neft istehsalı və ixracının xeyli hissəsi və qiymətləri üzərində nəzarəttbu təşkilatın əlinə keçdi.

60-70-ci illərin hüdudlarında yer kürəsinin bütün əsas neft hasilatı rayonlarında hasilat xərclərinin dinamikasında əsaslı dəyişiklik baş verdi. Bunun səbəbi neft hasilatının geoloji-mədən şəraitinin görünməz dərəcədə pisləşməsi oldu. Bu zaman qazma dərinliklərinin artması üzündən yeni neft quyularının kəşfiyyatına və istismarına çəkilən məsrəflər artdığı kimi, onların dəniz şelfi rayonlarında və şimal enliklərdə yerləşməsi və daha böyük sürətlə artırdı. Aydındır ki, bunların səmərəsi Yaxın və Orta Şərqə nisbətən xeyli aşağı idi. Odur ki, hasilata gedən xüsusi məsrəflər artdı. Bu isə nəticədə daha

əlverişli təbii və iqtisadi şəraitlərdə hasil olunan alternativ enerjidaşıyıcıların tətbiqini neftə nisbətən yenidən artırmağa imkan verdi. (Cədvəl 2)

**Cədvəl 2.**

**Enerji resurslarının istehsal xərcləri (neft ekvivalentinin 1 barrelinə görə 2007-ci ilin dolları ilə)**

| | | |
|---|---|---|
| 1 | Neft (Yaxın və orta Şərq) | 0,25-1,0 |
| 2 | Neft (Şimal dənizi) | 7-12 |
| 3 | Daş kömür (ABŞ) | 3-5 |
| 4 | Daş kömür (Qərbi Avropa) | 10-15 |
| 5 | İdxal olunan sıxılmış təbii qaz (ABŞ) | 10-23 |
| 6 | Kömürdən alınmış qaz (ABŞ) | 23-35 |
| 7 | Kömürdən alınmış maye yanacaq (ABŞ) | 30-37 |

- Emalına saxlanılmasına, göndərilməsinə və bölüşdürülməsinə gedən istehsal xərcləri (vergisiz)

Neftin qiymətlərinə siyasi amillər böyük təsir göstərir. İranda daxili vəziyyətin mürəkkəbləşməsi, habelə bu ölkənin İraqla hərbi çəkişməsi, vaxtilə neftin dünyada ikinci və üçüncü ixracatçıları olan həmin ölkələrdən durru yanacaq daşınmasını kəskin surətdə azaltdı və təbii ki, qiymətlər artdı. Buna oxşar şəkildə, 1990-cı ildə İran Tərəfindən Küveytin işğalı İran körfəzi rayonunda növbəti böhrana səbəb oldu. OPEK ölkələrindən daxil olan neftin sorğu qiymətlərinin «zənbili» üzrə çəkilən neftin orta qiyməti aşağıdakı kimi dəyişildi: bir barrelinin qiyməti yanvarda 19,98 dollar, iyunda – 14,05 dollar, avqustda – 24,89 dollar, oktyabrda – 34,98 dollar. Körfəzdə vəziyyətin xüsusilə gərginləşdiyi sentyabr ayında neftin ayrı-ayrı sortlarının bir barrelinin qiyməti 40-41 dollara çatırdı.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Dünyanın yanacaq enerji resursları bazarının differensiallaşdırılması amilləri hansılardır?
2. Neft bazarının səciyyəvi cəhətlərini göstərin;
3. Neft qoyulan qyimətin növlərini hansılardır;
4. Dünya ticarətində təbii qazın qiymətləri necə formalaşır;
5. Kömürün əsas qiymətlərini formalaşması xüsusiyyətlərini göstərin;
6. Beynəlxalq bazarda yanacaq və enerjinin qiymətlərin dəyişməsinə təsir edən amillər hansılardır?
7. Neft bazarında birdəfəlik sövdələşmə qiymətləri hansılardır;
8. Neftin qiymətinin hesablanması formulundan istifadə;
9. Net-bek qiymətləri nədir;
10. Neftə olan qiymətlərin dinamikasını təsir göstərən əsas amillər hansılrdır.

## TESTLƏR

**1. Bazarda məhsul təklifini müəyyən edən hava və iqlim şəraiti, təbii fəlakətlər; dünyada mal ehtiyatının vəziyyəti, mövcud bazarın qiymətlərinə təsir göstərən istehsalın mövsümə uyğunluğu, bir-biri əvəz edə bilmə və qarşılıqlı əlaqə, müxtəlif ölkələrdə və ölkələrin qruplaşmasında ticarət siyasəti, müxtəlif ölkələrdə həyat səviyyəsinin dəyişməsi, dünya konyunkturası və rəqabət, müxtəlif valyuta kursları, faiz dərəcələri, nəqliyyat xərclərinin həcmi – bunlar nədir?**

A) Yanacaq-enerji resurslarının dünya qiymətlərinin dinamikasına təsir göstərən amillərdir;

B) Maşın və avadanlıqların dünya qiymətlərinin dinamikasına təsir göstərən amillərdir;

C) Qara və əlvan metallara olan dünya qiymətlərinin formalaşması xüsusiyyətləridir;

D) Kənd təsərrüfatı məhsullarının dünya bazarlarında qiymətlərin dinamikasını müəyyən edən əsas amillərdir;

E) Elmi-texniki məhsulların beynəlxalq bazar amilləridir.

**2. Birdəfəlik sazişlər, barter kontraktları, xüsusi razılaşmalar, kreditə görə təchizatlar, birja və hərrac ticarəti – bu:**

A) Maşın və avadanlıqların dünya bazarında əmtəə hərəkətinin kanalı;

B) Neft və qazın dünya bazarında əmtəələrin reallaşma qaydasıdır;

C) Kənd təsərrüfatı məhsullarının dünya bazarında ticarət kanalı;

D) Xarici iqtisadi əlaqələrin tənzimləmə metodları

E) «b» və «d» bəndləri.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:


32. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
33. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
34. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
35. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
36. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
37. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
38. Певшин Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
39. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
40. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
41. Лорин А.Н. Ценооброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
42. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
43. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.
44. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.

45. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
46. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.
47. Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992

# MÖVZU 9.

## «BEYNƏLXALQ MAŞIN VƏ AVADANLIQ BAZARINDA QİYMƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİ, BEYNƏLXALQ NƏQLİYYAT TARİFLƏRİ»

### P l AN:

9.1 İnkişaf etmiş dünya ölkələrində maşın avadanlıq bazarının inkişaf xüsusiyyətləri;

9.2. Dünya avadanlıq bazarında sürüşkən qiymət və rəqabət.

9.3. Avropa ölkələrində avtomobilin pərakəndə satış qyimətləri və onun inkişaf xüsusiyyətləri;

9.4 Beynəlxalq nəqliyyat tariflərinin formalaşması və qiymətlərin dövlət tənzimlənməsi

Özünü yoxlama sualları

Testlər

Ədəbiyyat siyahısı

## 9.1 İNKİŞAF ETMİŞ DÜNYA ÖLKƏLƏRİNDƏ MAŞIN AVADANLIQ BAZARININ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Maşın və avadanlıqlar bazarı elmi-texniki inşilaba səbəb olan prosesləri xüsusilə aydın əks etdirir və əmtəə nomenklaturasının ümumi genişlənməsində dərin və daimi struktur dəyişmələrinə məruz qalır.

Maşın və avadanlıqlar bütün dünya ixracının ¼-ni təşkil edir. Onların göndərilməsi bütün hazır məmulatların dünya ixracına və ticarətinə nisbətən daha yüksək inkişaf sürətinə atır.

Maşın və avadanlıqların dünya bazarının inkişafına və xüsusilə də , dünya qiymətlərinin dinamikasını son illər ETİ və energetika böhranı xüsusilə böyük təsir göstərmişdir. Aparıcı kapitalist ölkələrinin sahə strukturunun və energetika balanslarının yenidən qurulması gedişində atom enerjisi və daş kömürlə işləyən yeni maşın və avadanlıq növləri yaradılır, üzvi yanacaq xərclərini aşağı salmağa və geotermal, külək, günəş enerjisi və sairdən istifadəni həyata keçirməyə imkan verən avadanlığa tələb yüksəlir.

Maşın və avadanlıq bazarının xüsusiyyətlərinə geniş əmtəə nomenklaturası aiddir. Sənayenin bütün sahələrinə, kənd təsərrüfatına, nəqliyyata, elmə, məişət və ticarətə xidmət göstərməklə maşınqayırma məhsulları qrupp, tip, model və şəkildəyişmə çoxluqlarına bölünürlər.

Hazır məmulat ixracının strukturunda yığmp maşın və  avadanlıqların payı azalmaqla, komplektləşdirici məmulatların, qovşaqların, aqreqatların və s. xüsusi çəkisinin artması müşahidə olunur. Bu, istehsal və ticarət xərclərinin (xüsusilə də nəqliyyat məsrəflərinin) ixtisar olunmasına kömək edir və qiymətlərin səviyyəsinə təsir edir.

Yuxarıda  qeyd olunan xüsusiyyətlərinə görə maşın və avadanlığın bazar qiymətlərinin tədqiqi və sistemləşdirilmsi çətinləşir. Firmaların preyskurantları, sorğu nəşrləri və kommersiya sənədləşmələri qiymətlər

haqqında məlumatları əks etdirsə də, bunlar kütləvi istehsalın yalnız məhdud məlumat sayını əhatə edir və təxmini sorğu xarakteri daşıyırlar. Belə informasiya məmulatın xarakteristikası haqqında və sövdələşmənin bağlana biləcəyi şərait haqqında kifayət qədər aydınlaq vermir. Ona görə də bu qiymətlərnəzəri və praktiki tədqiqatlar üçün böyük əhəmiyyət kəsb etmir. Daha dəqiq informasiya mənbələri broker məmulatları, kontraktlar, təkliflər (ofertlər) sayılır. Lakin bunlar da,bir qayda olaraq, dərc olunmurlar.

Bazarda yaranan qiymətlər haqqında geniş informasiyaların yoxluğu xarici ticarət fəaliyyəti aparan firma və təşkilatları məcbur edir ki, onlar, həmin əmtəə bazarını tədqiq edən və maşınların texniki-iqtisadi parametrlərini, habelə real qiymətlərini dəqiq öyrənən broker və mühəndis-ekspertlərin xidmətlərinə istinad etsinlər. Konkret bazarın əsaslı təhlili nəticəsində orta dünya qyimətlərinə uyğun gələn qiymətlər müəyyən olunur.

Maşın və avadanlıqlar bazarının əsas xüsusiyyəti maşınqayırma məhsullarının texniki parametrlərinin mürəkkəbliliyi, çoxsaylalağı və dinamikliyi, habelə maşın və avadanlıqların hər birinci, həm də ikinci dərəcəli intensiv mənəvi aşınmaya meylliyi sayılır. Əgər digər əksər əmtəələr vaxt keçdikcə öz istehlak xassələrini itirmədikləri və dəyişmədikləri halda (mineral xammal və yanacaq), satışı müxtəlif səbəblər üzündən ləngiyən hətta ən müasir maşın və avadanlıqlar mənəvi aşınma nəticəsində çox sürətlə öz dəyərinin və istehlak dəyərinin bir hissəsini itirirlər. Uzun müddət təkmilləşməyə məruz qalmayan maşın və avadanlıqlara gəldikdə isə, demək lazımdır ki, onlar bazarda meydana çıxan yeni və ən yeni modellərlə heç ümumiyyətlə rəqabət apara bilmirlər.

Maşın və avadanlıqların qiymətləri onların məhsuldarlığından asılıdır. Eyni şəraitdə avadanlıqlar üçün belə asılılıq aşağıdakı düsturla ifadə oldunur:

$$\frac{P_1}{P_2} = \left(\frac{N_1}{N_2}\right)^n \quad (1)$$

Burada $P_1$ və $P_2$ – müqayisə olunan maşın, aqreqat və ya qurğuların qiymətləri; $N_1$ və $N_2$ – güc, məhsuldarlıq və digər bərabər qiymətli parametrlər, n – qiymətlərin məhsuldarlıqdan qüvvət asılılığını nəzərə alan ləngimə əmsalı. Bu göstərici avadanlığın tipindən və növündən asılı olaraq geniş hüdudlarda, yəni 0,1-lə 1,0 arasında tərəddüd edir. (1) düsturunu başqa cür yazsaq, alarıq:

$$P_1 = P_2\left(\frac{N_1}{N_2}\right)^n \quad (1)$$

Qiymətin hesablanması əslində n kəmiyyətinin müəyyən edilməsinə gətirilib çıxarılır. (1) düsturunun hər iki tərəfini loqarifmləcək, alarıq:

$$\frac{P_1}{P_2} = \left(\frac{N_1}{N_2}\right)^n$$

$$log\left(\frac{P_1}{P_2}\right) = nloq\left(\frac{N_1}{N_2}\right)$$

buradan da

$$n = \frac{log\left(\frac{P_1}{P_2}\right)}{loq\left(\frac{N_1}{N_2}\right)} \quad (2)$$

Müəyyən avadanlıq növü üçün n-in ədədi qiyməti preyskuratlardan, katoloqlardan, kontraktlardan, təkliflərdən və s-dən alınan konkret qiymət və prametrlər (2) düsturunda nəzərə almaq yolu ilə müəyyən edilir. Qiymətlərin ləngimə əmsallarının hesablanmasında meydana çıxan mürəkkəbliyi nəzərə alaraq praktiki işdə həmin göstəricinin kəmiyyəti adətən ədəbiyyat mənblərindən götürülür. Avadanlıqların anbardan satışı v yaxud, məsələn, elektrik mühərriklərinin, kənd təsərrüfatı maşınlarının, avtomobil və digər

standart avadanlıqların qısa müddətlərdə göndəriləməklə satışı adətən, möhkəm qiymətlərlə həyata keçirilir (qiymət kontraktın bğlanma anında təsbit olunur və gələcəkdə heç bir dəyişikliklər aparılması nəzərdə tutulmur).

## 9.2. DÜNYA AVADANLIQ BAZARINDA SÜRÜŞKƏN QİYMƏT VƏ RƏQABƏT

İstehsal təyinatlı mürəkkəb avadanlıqların (yayma maşınları, iri qazanxana aqreqatları, boru generatorları, böyük gücə malik dizel aqreqatları) satışında, habelə uzun müddətli hazırlanma vaxtı tələb edən gəmilərin satışında bəzən sürüşkən qiymətlər tətbiq olunur. Bu zaman alıcının satıcı ilə hesablaşdığı qiymət avadanlığın hazırlanması dövründə istehsal xərclərində baş verən dəyişikliklər nəzərə almaqla müəyyən edilir.

Adətən avadanlığa sürüşkən qiymətlərin qoyulmasının aşağıdakı qaydası tətbiq olunur. Firma təklif olunma tarixinə, qiyməti (bazis qiyməti) və bu qiymətin onu təşkil edən elementlərə qoyulma qaydasını göstərir: məsələn; 45% - işçi qüvvəsinin dəyəri (əməkhaqqı); 40% - xammalın dəyəri, 15% - dəyişməz hissə (mənfəət, əlavə məsrəflər və s.) Satıcı və alıcı arasında danışıqlar prosesində bazis qiymətinin səviyyəsi, habelə qiymətdə xammal və işçi qüvvsinin xüsusi çəkisi təklifə nisbətən dəyişilə bilər. Kontrakda aşağıdakılar təsbit olunur: avadanlığın bazis qisməti; avadanlığın son qiymətinin matnrial qyimətlərinin və əmək haqqı stavkalarının dəyişməsindən asılılığı; sövdələşmənin bağlanma momentinə materialların qyimətləri və əmək haqqı stavkaları (və yaxud onların səviyyəsini əks etdirən indekslər, daha doğrusu bazis qiymətləri və stavkaları).

Adətən son qiymətin material qyimətlərin və əməkhaqqı stavkalarının dəyişməsindən asılılığı sürüşmə düsturu şəklində aşağıdakı kimi müəyyən edilir:

$$P_1 = P_0\left(A\frac{a_1}{a_2} + B\frac{\text{б}_1}{\text{б}_2} + C\right),$$

Burada $P_1$ – avadanlığın yekun qiyməti; $P_0$ – avadanlığın bazis qiyməti; A – qiymətdə material məsrəflərinin payı; B- qiymətdə əmək haqqı məsrəflərinin payı (A və B özündə qyimətin sürüşkən hissəsini əks etdirir); C-qiymətin dəyişməz hisssi; $a_1$ – materialların bazis qiyməti; $b_1$ - əmək haqqının bazis stavkaları, $a_2$ – sürüşmə dövründə materialların qiyməti; $b_2$ – sürüşmənin hesablanması dövründə əmək haqqının stavkaları.

Sürüşkən qiymətlər təkci, avadanlıqların hazırlanması dövründə materialların qiymətlərinin və əmək haqqı stavkalarının mümkün artımı ilə əlaqədar olan əlavə məsrəfləri malgindərəndən sifarişçilərinin üzərinə keçirmir, həm də maşınqayrma firmalarının əlav mənfəət artımı mənbələrini yaradır. Sürüşkən qiymətləri təklif etməklə firmalar adətən əmək haqqı stavkasını yüksəltmək və xammala qiiyməti artırmaq nəticəsində istehsal xərclərinin mümkün artımından özlərini qorumaq zəruriliyinə əsaslanırlar. Ona görə də alıcı üçün daha əlverişlisi sürüşkən qyimətlər deyil, maksimum möhkəm qiymətlərdir. Sürüşkən qiymətlər tətbiq olunduğu hallarda belə alıcı kontraktın imzalanması vaxtına qədər satıcı ilə belə bir sürüşmə şərtini razılaşdırmalıdır ki, sürüşmə qiymətlərinin bazis qiymətlərinə nisbətən artması mümkün dərəcədə minimum olsun.

Maşın və avadanlığa qiymətlərin dinamikası xüsusiyyətlərindən biri böyük çevikliklə uzlaşan nisbi sabitlik sayılır. Nəticədə maşın və avadanlığa qiymətlərin hərəkəti pilləli xarakter daşıyır. Sorğu qyimətlərinin fəaliyyət müddəti hüdudlarında qiymətlərin hərəkəti güzəştlər sistemi və kəmiyyətləri ilə tənzimlənir. Bunlara aşağıdakılar aiddir: ixrac güzəşti, ticarət etməyə görə güzəşt, seriyalılığa və ya miqdara görə güzəşt, diler güzəşti (illik tədarük həcminə görə), nəğd ödəmələrə görə güzəşt, müxtəlif xüsusi güzəştlər və s.

Maşın və avadanlıq bazarının növ müxtəlifliyi özünü avtomobil bazarının timsalında daha aydın göstərir.

## 9.3. AVROPA ÖLKƏLƏRİNDƏ AVTOMOBİLİN PƏRAKƏNDƏ SATIŞ QYİMƏTLƏRİ VƏ ONUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ;

Ədəbiyyatda aşağıdakı anlayışlara rast gəlmək olar: dünya avtomobil bazarı, Avropa avtomobil bazarı, Amerika avtomobil bazarı, yapon avtomobil bazarı. Avtomobil bazarında qiymətlərin əmələ gəlməsini aşağıdakı sxemlə vermək olar (Şəkil 3.)

Həmin sxemi təhlil etməklə görmək olar ki, qiymət istənilən hər hansı bir bazarın daha vacib göstəricilərindən biri sayılır. Onun başqa əlamətləri – ticarət-siyasi rejim, əmtəə nomenklaturası və valyuta əlamətləri ilə yanaşı, qiymət bazarın xarakterini, onun fəaliyyət və inkişaf xüsusiyyətlərini müəyyən edir. Eyni zamanda, milli bazarların dünya bazarından ayrılma dərəcəsi nə qədər aşağı olarsa, onda onlarda baş verən qiymətəmələgəlmə prosesləri arasında əlaqə bir o qədər güclü olacaqdır. Ölkədə müəyyən əmtəə istehsalı və istehlakının ümumi həcmində onun ixrac və idxalının payı çox olduqca dünya bazarının daxili qiymətəmələgəlməyə təsiri bir o qədər böyük olacaqdır. İri avtomobil şirkətləri bütün müxtəlif cür qiymət əmələ gətirən amillər nəzərə almağa çalışmaqla, bir tərəfdən, fəal surətdə bazar şəraitinə təsir göstərməyə can atırlar, digər tərəfdən isə, onun dəyişmələrinə daimi olaraq uyğunlaşırlar. Lakin qiymət siyasətinin bu iki ünsürünün, fəal və passiv ünsürlərinin uzlaşması bazarda yaranmaqda olan konyunkturadan asılı olaraq daim dəyişir. Qiymətlərin müəyyən edilməsində həm də təcrübəaparma siyasətindən istifadə edilir ki, bunun da gedişində müxtəlif bazar bölmələrində alıcıların təklif olunan məhsulların keyfiyyətinə və qyimətinə reaksiyası aydınlaşdırılır.

Səciyyəvi haldır ki, istehlak malları bazarının mühüm bölməsi olan yüngül avtomobillər bazarı üçün həm birbaşa tənzimləmə (pərakəndəsatış qiymətlərinin müvəqqəti «dondurulması» və ya limitlə dəyişdirilməsi yolu ilə), həm də daha geniş yayılmış dolayı metodlar (vergi, valyuta və kredit siyasəti) tətbiq edilir.

Qərbi Avropa ölkələrinin yüngül avtomobil bazarında qiymətəmələgəlmənin xarakterik xüsusiyyətləri dah böyük maraq doğurur. Burada istehsalın və istehlakın aydın ifadə olunmuş regional xarakteri regional proteksionizm siyasətini müəyyən edir (xüsusilə də Qərbi Avropada qeydiyyatdan keçmiş bütün yüngül avtomobillərin 80-85%-i satılan AİB ölkələrində).

Birbaşa və dolayı vergilərin vahid şəklə salınmış dərəcələri olmamasının başlıca səbəbi AİB ölkələrinin öz müstəqil vergi siyasətini müəyyən etmək hüququndan əl çəkmək istəməməsi sayılır, çünki bir qrupp ölkələr üçün vergilərin orta səviyyəyə görə bərabərləşdirilməsi dövlət büdcələrinə daxil olmalarının aşağı düşməsi, digər ölkələr üçün isə pərakəndə satış qyimətlərinin yüksəlməsi ilə bağlı olan təhlükəli sosial hadisələrin yaranması deməkdir. Hal hazırda TVA vergisinin milli stavkaları arasında xeyli fərqlər mövcuddur. Lüksemburqda 10%-dən İtaliyada 35%-ə qədər. Bundan başqa AİB ölkələrinin əksəriyyətindən, məsələn yüngül avtomobilləri alarkən və qeydiyyatdan keçirərkən həcmi bir qayda olaraq avtomobilin sinfindən, onun texniki-iqtisadi parametrlərindən asılı olmaqla əlavə vergilər tutulur. Vergilərin ölçülərində mövcud olan fərq AİB ölkələrinin bazarlarında pərakəndə satış qiymətlərində yaranan fərqlərin səbəblərindən biridir.

EAST üzvü olan ölkələrin əksəriyyətində yüngül avtomobillər dövriyyə vergisinə və digər vergilər cəlb olunurlar. AİB üzvü olan ölkələrdən fərqli olaraq gömrük rüsumlarının ölçüləri və müəyyən edilməsi əsasları burada başqa cürdür.

İstehlakçılar ittifaqının Avropa bürosu AİB ölkələrində yüngül atomobillərin qiymət məsələsinə həsr olunmuş xüsusi məlumat buraxmışdır. Həmin məlumatda yüngül avtomobillərin 30 modelinə 1986-cı ildə ekyu ilə qoyulmuş qiymətlərin müqayisəsi aparılmışdır ki, həmin modellərdən də 16-sının markası 2000 sm-ə qədər işçi mühərrik həcminə bərabər olmuşdur. Burada Qərbi Avropa ölkələri bazarlarında eyni bir maşın modellərinin pərakəndə satış qiymətlərində xeyli fərqlərin mövcud olması qeyd edilmişdir.

Qiymətlərin müqayisəsi nəticəsində məlum olmuşdur ki, pərakəndə satış qiymətlərinin ən yüksək səviyyəsi Danimarkada, ən aşağı səviyyəsi ilə Lüksemburqdadır. Qiymətlərin bir-birindən 2 dəfədən də çox fərqlənməsi vergitutmanın strukturu və kəmiyyəti ilə izah olunur.

İstehsalçı üçün məhsulların reallaşdırılmasından mənfəət əldə etmək üçün məhsulların reallaşdırılmasından mənfəət əldə etmək məsələsi başlıca vəzifə sayılır. Ona görə də bunlar üçün daha böyük əhəmiyyət kəsb edən qiymət netto qiymətlərdir yəni vergilərdən təmizlənmiş pərakəndə satış qiymətləridir.

3-cü cədvəl Qərbi Avropanın müxtəlif bazarlarında satılan yüngül avtomobillərin eyni modellərinə vergi və vergisiz pərakəndə satış qiymətləri verilir (Lüksemburqda avtomobilin netto qiyməti 100 qəbul edilmişdir).

Cədvəl 3.

Ən yüksək pərakəndə satış qiymətləri fəaliyyət göstərən Danimarkanın avtomobil bazarı vergitutmanın yüksək səviyyədə olduğuna görə satıcılar üçün əlverişsiz sayılır, çünki avtomobil Lüksemburqda həmin qiymətin dörddə birinə satıldığı halda, böyük Britaniyada praktiki olaraq bundan idəfə baha qiymətə satılır. Reallaşdırma qiymətlərinin çoxluğu satıcıları çevik qiymət siyasəti aparmağa, satış qiymətləri və həcmləri ilə manevrlər etməyə, mənfəəti maksimumlaşdırmağa can atmağa məcbur edir.

Xarakterik haldır ki, vergisiz pərakəndə satış qiymətlərinin aşağı səviyyəsi qeyd olunan ölkələrdə daha böyük dərəcədə yapon avtomobillərinin bu bazarlara daxil olması hiss olunur. Belə ki, yüngül avtomobillərin ümumi qeydiyyatlarında yapon avtomobillərinin payı Danimarkada 2,5%, Niderlandda 16,2%, Belçika və Lüksemburqda 24,6% təşkil edir. Bu ona görə baş verir ki, yapon avtomobillərin istehsalı daha az istehsal xərclərinə malik olduğu üçün daha böyük dərəcədə yapon avtomobillərinin bu bazarlara daxil

olması hiss olunur. Belə ki, yüngül avtomobillərin ümumi qeydiyyatlarında yapon avtomobillərinin payı danimarkada 2,5%, Niderlandda 26,2%, Belçika və Lüksemburqda 24,6% təşkil edir. Bu ona görə baş verir ki, yapon avtomobillərin istehsalı daha az istehsal xərclərinə malik olduğu üçün daha böyük rəqabət qabiliyyətinə malikdirlər. Yapon şirkətlərinin Qərbi Avropanın avtomobil bazarına daxil olmasının genişlənməsi avtomobil daşınmasının qeyri-bərabər hüquqlu, ayrıseçkilik şərtlərinə malik olmasına baxmayaraq yapon malgöndərənlərinin qiymətlərlə manevr etməyin böyük imkanları ilə izah edilir. Bu qiymətlərin əsasında daha yüksək əmək məhsuldarlığı durur. Pərakəndə satış qiymətlərinin kifayət qədər yüksək nettl səviyyəsi olan ölkələrdə yapon ölkələrdə yapon avtomobillərinin payı xeyli aşağıdır (Britaniyada – 11,9%, AFR-də – 10,9%, Fransada – 3,1% ). Bunun səbəbi yüngül avtomobil satıcılarının böyük sayı arasında daha kəskin rəqabətin olmasıdır.

Böyük Britaniyanın və ABŞ-ın avtomobil sənayesində istehsal xərclərinin böyük olması üzündən (digər Qərbi Avropa ölkələrində və Yaponiyada avtomobilin istehsal xərclərinə nisbətən) avtomobillər daha az rəqabət qabiliyyətli sayılırlar . Eyni zamanda güclü avtomobilqayırmaya malik olan AİB ölkələrində istehlak malları bazarında fəal surətdə tətbiq edilən «milli əmtəəni al» prinsipi xüsusi bazarda milli şirkətlərin mövqeyinin möhkəmlənməsinə yönələn yeni tarifsiz proteksionizm siyasətinin ünsürlərindən biri sayılır. Ölkələrin əksəriyyətində istehlakçılar üstünlüyü milli avtomobil markalarına verirlər və onları daha yüksək qiymətlərlə əldə edirlər, lakin bir sıra hallarda üstünlük idxal atomobillərinə verilir (məsələn ispaniya bazarında).

Müxtəlif milli bazarların netto qiymətlərində böyük fərq «Azad dilerlər» adlandırılan qrupun fəallaşmasına gətirib çıxardı. «Azad dilerlər» ölkələrdən daha aşağı qiymət səviyyəsinə paralel «idxal seriyası» həyata keçirir və onları öz bazarlarında rəsmi surətdə surətdə mövcud olan qiymətlərdən 10-20% aşağı qiymətlərə satırlar. Netto qiymətlərinə və Milli vergitutma sistemlərinin

fərqləri üzərində buna oxşar beynəlxalq alverçilik satıcı firmaların fəaliyyətlərinin iqtisadi nəticələrinə mənfi təsir göstərir, onalrın bazar siyasətinin həyata keçirilməsinə manne olur.

Milli bazarlarda yüngül avtomobillərin qiymt nisbətlərinin dəyişməsinə valyuta məzənnələrinin tərəddüdləri müəyyən təsir göstərir.Bir ölkənin valyuta məzənnəsinin yüksəlməsi digər ölkələrdə avtomobilin qiymətinin yüksəlməsinə səbəb olur və əksinə. Lakin məzənnə fərqlərinin hesabına qiymət tərəddüdləri çox da böyük deyildir.

Elan olunmuş qiymətlərdən (pərakəndə satış qiymətlərinin rəsmi preyskurantlarında müntəzəm olaraq dərc edilən qiymətlərdən) güzəştlər verilməsi təcrübəsi də yüngül avtomobillərin qiymət nisbətlərinin dəyişməsinə təsir göstərir. Güzəştlərin ölçüsü hər bir bazarın xüsusiyyəti nəzərə alınmaqla avtomobil şirkətləri tərəfindən müəyyən edilir. Həmin amilin təsiri alıtnda qiymətlər arasında fərqlər bir sıra hallarda isə artır.

Pərakəndə satış qyimətlərinin səviyyəsinə qiymətlərin artımına dövlət nəzarəti, idxalatçıların və dilerlərin gəlir səviyyələri kimi digər amillər də təsir göstərir.

## 9.4. BEYNƏLXALQ NƏQLİYYAT TARİFLƏRİNİN FORMALAŞMASI VƏ QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

Kapitalist ölkələrinin nəqliyyat sahəsindəki tarif siyasətinin iqtisadiyyatda baş verən proseslərlə sıx əlaqədə nəzərdən keçirilməsi məqsədəuyğundur. Həmin siyasət xarici ticarətlə əlaqədar olduğuna görə buna milli və transmilli inhisarların çox böyük təsiri olur. Transmili korporasiyalar çox vaxt dünya nəqliyyat bazarında işləmə mexanizmini ixracatçıları kimi çıxış edirlər.

Nəqliyyat məhsuluna qiymətəmələgəlmə mexanizmi iri nəqliyyat inhisarları üçün yüksək mənfəət təminatı vasitəsi kimi xidmət edir. «Qiymət liderləri» rolunu oynamaqla onlar qiymətə mənfəətin «məqsədli» normasını müəyyənləşdirirlər və daxil edirlər. Bu normannı şirkət orta hesabla müəyyən

dövr ərzində almalıdır. Normanın bu hissəsi sahə üzrə orta mənfəət normasından hətta vergiləri çıxdıqdan sonra yerdə qalan məbləğdən də yuxarıdır. Mənfəətdən vergilərə «məqsədli» mənfəət normasının hər hansı bir hissəsi kimi yox, nəqliyyat məhsulu istehlakçısının üzərinə keçirilən dolayı verginin özynəməxsus növü kimi baxılır. «Məqsədli» mənfəət normasının nəqliyyat şirkətləri tərəfindən alınması həmin normanın yüksək mənfəət kimi reallaşmasını göstərir.

Nəqliyyat bazarları əmtəələrin istehsalı və reallaşması əsasında formalaşır. Belə ki, əgər əmtəə istehsalı sahəsində kapitalların təmərküzləşməsi və inhisarlaşması əldə olunmuşsa və bu əsasda transmilli şirkətlər bütün mümkün birlik «zonaları» (AİB, EÖUS və s.) fəaliyyət göstərirlərsə, nəqliyyat sahəsində nəqliyyat vasitələrinin bir qədər əlaqəsizliyi mövcuddur. Nəqliyyat müəssisələri son vaxtlara qədər milli xarakterin böyük hissəsini saxlamaqdadır.

Nəqliyyat məhsulunun xüsusiyyətləri üzündən vahid dünya nəqliyyat bazarı mövcud deyildir. Nəqliyyat növləri üzrə formalaşan hər bir regional dünya nəqliyyat bazarlarına nəqliyyat bazarlarına nəqliyyat məhsulu ilə mübadilənin öz prinsipləri, öz hüquqi şərtləri və başlıcası öz nəqliyyat qyimətləri sistemi xasdır.

Transmilli korporasiyaların daxili ticarətin inhisarların özünəməxsus nəqliyyat vasitləri ilə birgə qapalı «firmadaxili» bazar xidmət edir. Burada daşınmanın dəyəri bir qayda olaraq əmtəələrin qiymətinə daxil edilir, «azad» qiymətlər isə sərt şəkildə inhisarlaşdırılır.

Qiymət tənzimləyicisi nəqliyyat vasitələrinin tələb və təklifi sayılan «azad» nəqliyyat bazarı açıq-aydın şəkildə azalmağa doğru meyllidir. Hüquqi, valyuta və xüsusilə də tarif məsələlərini tənzimləmək məqsədilə «azad» nəqliyyat müəssisələrinin konfranslarda, tarif ittifaqlarında, komitələrində və bütün mümkün olan digər beynəlxalq nəqliyyat təşkilatlarında birləşdirilməsi əslində azad sahibkarlıq üçün yer saxlamır.

Nəqliyyatın fəaliyyətinə dövlətin aktiv müdaxiləsi müxtəlif formada ifadə olunur . dövlət tənzimlənməsi özündə, hər şeydən əvvəl, nəqliyyat bölməsinin fəaliyyətini məhdudlaşdıran qanunvericiliyi birləşdirir. Tarif məsələləri ikiqat nəzarət altında – dövlətin və inhisar qruplaşmalarının nəzarəti altında yerləşir. Lakin formal oalarq dövlət orqanları tarifləri nəzərdən keçirirlər və təsdiq edirlər. Dövlət nəqliyyat qiymətlərinin yuxarı sərhəddini müəyyən edir, onların dəyişməsinə nəzarət edir, nəqliyyatın dotasiyası məsələlərinə baxır və s. Beynəlxalq tarif və fraxtlar məsələləri inhisarların nəzarəti altında yerləşir.

Beynəlxalq tariflər və fraxtlar nəqliyyat məhsulunun beynəlmiləl dəyərini ifadə edir ki, bu da onun istehsalına ictimai-zəruri əmək məsrəfləri əsasında formalaşır.

Hər bir nəqliyyat növündə qiymətəmələgəlmənin əsasında Avropa nəqliyyatı tərəfindən hələ onun qurulması dövründə, inhisarların fəaliyyəti dövlət tərəfindən məhdudlanmayan şəraitdə işlənib hazırlanmış prinsiplər durur. Qiymətlərin qoyulmasına onlar daşınma xərcləri mövqeyindən çox öz inhisar mövqeyindən və istehlakçı üçün xidmətlərin əhəmiyyətinin subyektiv qiymətləndirilməsi nöqteyi nəzərindən yanaşırdılar.

Nəqliyyatda sahənin inhisar təşkili və inhisarlaşma şəraitində rəqabət formaları özünə xas olan xüsusiyyətlərə malikdir. İnhisar nəqliyyat qiymətlərinin və inhisar mənfəətinin reallaşması şərtlərinin formalaşması mexanizmləri də fərqlənir. İnhisar nəqliyyat qiymətləri əmtəənin qiymətlərinə nisbətən daha böyük sabitliyə və tələbvə təklifin qısa müddətli tərəddüdlərindən daha az asılılığa malikdir. Nəqliyyat üçün xeyli miqdarda əsas vəsaitləri və daşınma işlərinin həcmini özündə cəmləşdirən məhdud sayda iri nəqliyyat şirkətlərinin mövcudluğu xarakterikdir. Laşınma həcminin bazar tənzimlənməsi və nəqliyyat sahələri üzrə resursların bölüşdürülməsi sahənin inhisar və dövlət tənzimlənməsi ilə sıx surətdə bağlanır. Əgər sənaye istehsalı sahəsində şirkətlər qarşısında özünəməxsus alternativ digər inhisarları hərtərəfli rəqabətin genişlənməsinə istiqamətlənmək və ya bazar siyasətinin ən mühüm istiqamətlərinin razılaşmasına getmək meydana çıxırsa, nəqliyyat

sahəsində rəqabət münasibətləri planauyğun şəkildə təşkil olunmuş kooperasiya və uzun müddətli əməkdaşlıq münasibətləri ilə qarşılıqlı fəaliyyət göstərilir.

Bu daha çox dərəcədə nəqliyyat qiymətləri (tarifləri) siyasətinin və daşınmanın həyata keçirilməsi şərtlərinin razılaşmasına aiddir. Lakin nəqliyyat qiymətlərinin razılaşdırılmış vahidliyi çətin əldə olunan şərtdir. Qiymət dəyişmələrinin ölçüsü və dövriliyi baxımından qiymətlərdə müəyyən razılaşmanı qoruyub saxlamağa imkan verən daha geniş yayılmış metod qiymətlərdə liderlik sayılır. Onun mənası bizim tərəfimizdən yuxarıda izah edilmişdir. Bir qayda olaraq lider kimi müəyyən nəqliyyat sahəsində və ya bu və ya digər yerli ərazi nəqliyyat bazarında ən iri şirkət çıxış edir. Məsələn, dəmir yolu ilə nəqliyyat daşımalarına görə tarifləri müəyyənləşdirərkən bir qayda olaraq əsas istiqamətləndirici kimi daha böyük nəqliyyat daşımaları həcmini yerinə yetirən ölkələrin dəmir yolları götürülür. Bununla belə, lider qyimətləri müəyyən edərkən, təkcə öz xüsusi xərclərinə deyil, həm də rəqiblərin xərclərinin kəmiyyəti haqqında çıxardığı nəticələrə saslanır.

Müəyyən dərəcədə qiymət rəqabətindən imtinanı göstərən qyimətlərdə liderlik təcrübəsi Qərbi Avropa ölkələrinin dəniz nəqliyyatında xətti gəmiçilikdə və dəmir yollarında xüsusilə geniş yayılmışdır. Liderlik sistemi burada müxtəlif yüklərin daşınmasına qiymətlərdə müəyyən dairədə əməl edilməsində, tariflərin dəyişməsi vaxtlarının sinxronluğunda ifadə olunur.

Qiymət rəqabəti iri nəqliyyat şirkətləri arasında, başlıca olaraq birbaşa açıq formada yox (qiymətləri aşağı salmaq vasitəsilə), şəkli dəyişdirilmiş və dolayı metodlarla aparılır. Kölgəli qiymətlər adlandırılan qyimətlərdən (preyskurantlarda elan edilən qyimətlərə nisbətən xeyli güzəştləri özündə təmsil edən faktiki reallaşma qiymətləri) və qiymətlərlə manevretmənin müxtəlif cür formalarından istifadə olunur.

İttifaq tarifləri özündə tarif stavkaları ilə iki və daha çox (bəzi tariflərdə 10) ölkə üzrə daşınma məsafəsinə görə daşınma haqlarının ödənilməsi qaydalarının məcmusunu birləşdirir. Bir qayda olaraq, ittifaq tarifləri

müəyyən yüklər üçün və konkret daşınma istiqamtləri üçün tətbiq olunur. Lakin elə tariflər də var ki, onlar bütün uzaqlıq qurşaqlarında fəaliyyət göstərir və bütün yük nomenklaturasını əhatə edirlər.

İttifaq tariflərində ödəmələr əhr bir ölkənin dəmir yolları üzrə daşınma məsafəsinə görə ayrıca (payçı) stavkaları şəklində verilir. Bəzən bu ödəmələr bütün daşınma məsafəsinə və yaxud onun bir hissəsinə görə iriləşdirilir və müəyyən edilir. İttifaq tarifləri stavkalarının səviyyəsini hər bir ölkə digər ölkələrlə razılaşdırmadan öz rəyinə görə müəyyən edir və dəyişdirir. Əsas kimi, bir qayda olaraq, yüksəlməyə doğru müvafiq düzəlişlər etməklə daxili tarfilərin stavkaları götürülür. Tranzit tariflərin səviyyəsinə rəqabət istiqamətli tariflər birbaşa təsir göstərir. Bir qayda oalraq, müştəriyə daşınmanın həcmindən, yükün növündən, istiqamətindən. Müştərinin (firmanın) vəziyyətindən asılı olaarq ittifaq tariflərindən müxtəlif cür rəsmi və qeyri-rəsmi güzəştlər təklif olunur.

İki ölkənin və ya iki qonşu dəmir yolunun iştirak etdiyi ittifaq tariflərini birbaşa tariflər adlandırmaq qəbul edilmişdir.

Tranzit tariflər iki növdə müəyyən olunur : quru sərhəd yolu ilə əlaqə üçün və dəniz və yalnız çay limanları vasitəsilə əlaqə üçün. Qərbi Avropa ümumi vahid tranzit tarifləri yoxdur, onlar ölkələr tərəfindən birtərəfli qaydada elan olunr və yaxud da tranzit daşımalara daxili tarif tətbiq olunur.

Tranzitə cəlb olunmaq üçün hər bir ölkə, bir qayda olaraq tranzit tarifindən xeyli güzəştlər və digər imtiyazlar təklif edir. Çay və dəniz limanları vasitəsilə tranzit istiqamətləri üçün verilən güzəştlər xüsusilə böyükdür. Ona görə də tranzit tariflərin səviyyəsi açıq-aşkar yüksəldilir. Daşınma haqqının rəsmi şəkildə elan olunmuş səviyyəsi (və yaxud onu nominal adlandırmaq qəbul edilmişdir), bir qayda olaraq, onun həmin tarif üzrə real səviyyəsindən xeyli fərqlənir. Dəniz limanları vasitəsilə istiqamətlərdə tranzit tariflərin stavkaları bəzən nəql olunma xərclərindən aşağı və hətta hərəkət ölçülərindən asılı olan məsrəflərdən aşağı müəyyən olunur. Dəniz limanları xüsusi razılaşmalar əsasında belə hallarda meydana çıxan zərərləri dəmir yollarına

ödəyirlər, bu zaman isə əlavə cəlb olunan daşınma həcmləri bu və digərləri üçün ümumi mənfəət kütləsini artırırlar.

Qərbi Avropa ölkələrinin demək oalr ki, hamısının daxili dəmir yolu tarifləri sistemində ixrac-idxal yüklərinin daşınması üçün müstəsna tariflər geniş təmsil olunmuşdur. Bir qayda olaraq, həmin tariflərə iri inhisarların, AİB, EOUS və s. kimi iqtisadi qruplaşmaların xeyrinə xeyli imtiyazlar qoyulmuşdur.

Dəniz nəqliyyatının tarifləri və fraxtları. Bazar konyukturunun kəskin tərəddüdlərinə meylli vəziyyətin ən mühüm göstəricilərdən biri sayılan dünya kapitalist fraxtları bazarlarının qiymətləri özünün son dərəcə qeyri-sabitliyi ilə fərqlənirlər. Son illər dünya xətti gəmiçiliyində rəqabət bütün mümkün olan hədləri aşmışdır. Sakit Okeanda və Atlantikada əslində açıq fraxt müharibəsi gedir.

Dəniz daşımaların dəyəri tariflər və fraxtlar formasında ifadə olunur. Fraxtlar – gəmi sahiblərinin başlıca olaraq inhisarlaşdırılmamış gəmiçilikdən aldığı daşınma  haqqı formasıdır. Onlar özlərində dünya fraxtı bazarında tələb və təklifdən və digər konyuktur amillərdən asılı olaraq nisbətən azad formalaşan dəniz daşınması qiymətini birləşdirir. Fraxt stavkaları tariflərə nisbətən istehsal qiymətlərinə daha çox dərəcədə yaxınlaşırlar. Müəyyən dərəcədə fraxtların səviyyəsi, həmin yükün oxşar şərtlərlə daşınması üçün rəqabət istiqamətli fraxt stavkalarının təsiri altında formalaşır.

Fraxtlar, bir qayda olaraq, gəmiçilik birjalarında bazar ticarəti əsasında formalaşır. Onların səviyyəsinə dəniz nəqliyyatının xərcləri əhəmiyyətli dərəcədə təsir göstərir.

Tramp tonnajına fraxt stavkaları sabit xarakterə malik deyil; onlar sövdələşmə bağlanan momentə fraxt bazarının şərtlərindən asılı olaraq dəyişirlər, bu zaman əmələ gələnfraxt stavkası bir və ya bir neçə səfərdə fəaliyyət göstərir.

Tramp tonnajının fraxt bazarları onunla xarakterizə olunur ki, bu bazarlara, ümumiyyətlə yüklərin dəniz daşınmalarına tələbatın nisbətən çox da

böyük olmayan hissəsi və müvafiq olaraq, dünya ticarət donanmasının böyük olmayan hissəsi çıxarılır. Dəniz daşınmalarının əsas hissəsi xətti gəmiçilik çərçivəsində, habelə baş kontraktlar üzrə uzun müddətə fraxtlaşdırılmış gəmilərlə həyata keçirilir.

Xətti tarif stavkaları göndərənin kim olmasından asılı olmayaraq eyni bir istiqamətə daşınan eynicinsli bütün yüklər üçün əslində eyni olmalıdır. Lakin bu şərt formal olaraq qalır. Belə ki, demək olar ki, 100 ilə yaxındır ki, kapitalist xətti gəmiçiliyində müxtəlif rəsmi güzəştlər sistemi tətbiq olunur.

Düzülüş qaydasına görə üç növ xətti tarifləri bir-birindən fərqləndirirlər:

Yüksək dərəcəli xətti tariflər. Bu tariflərdə hər zaman fraxt stavkalarını tətbiq etmək mümkündür;

Əmtəələr üzrə xətti tariflər. Bu tariflər yüklər üçün müxtəlif fraxt stavkalarını özündə birləşdirir;

Qarışıq xətti tariflər. Bu tariflər əvvəlki iki növ tariflər sisteminin kombinə edilmiş formasıdır.

Avtomobil nəqliyyatı tarifləri. Qərbi Avropa ölkələrində beynəlxalq daşınmalar sahəsində atomobil nəqliyyatının fəaliyyəti dövlətin nəzarəti altında yerləşir. Beynəlxalq avtomobil daşınmalarına möhkəm müəyyən olunmuş, yəni səviyyəsi xeyli dərəcədə bazar rəqabətindən və dövlət tənzimlənməsindən asılı olan tariflər yoxdur. AİB ölkələri sistemində çəngəli tariflər adlandırılan birtərəfli və ya ikitərəfli tariflər və yaxud da çox vaxt daxili avtomobil və ya dəmiryolu tarifləri bazasında formalaşan son hədd tarifləri fəaliyyət göstərir. Çəngəli tariflər sistemi mövcud stavka sistemi olmayan yerlərdə sorğu tarifləri ilə tamamlanır. Hər bir sistem bölmələrin öz rəylərinə görə istifadə olunur.

Qərbi Avropa ölkələrində beynəlxalq avtomobil daşımalarında tarif stavkalarının səviyyəsinə, qərb terminologiyasında risk dərəcəsi kimi müəyyən edilən amil təsir göstərir. Həmin adı altında sıfır məsafələri adlandırılan məsafənin ölçüsü başa düşülür. Risk dərəcəsinin uçotu tarif stavkasına,

bununla əlaqədar olan məsrəflərin ödənişinin 20-25%-i, bəzən isə 30%-dən çoxu daxil edilmək yolu ilə həyata keçirilir.

Hava nəqliyyatının tarifləri. Hava nəqliyyatı dünya bazarlarına nüfuz etmə və onların konyukturundan istifadə etmə imkanları baxımından ən sürətlə hərəkətedən nəqliyyat növü digər nəqliyyat növlərindən çox böyük qeyri-asılılığa malik olmaqla onların təsirindən müəyyən dərəcədə təcrid olunmuşdur.

Hava nəqliyyatı ilə yük daşınmalarına kapitalist şirkətlərinin beynəlxalq tarifləri öz düzülüş strukturuna görə sadədir. Kütləsi bir neçə kiloqramm olan yük göndərmələri üsün minimum stavka qoyulur. Həmin stavka üzrə ödənmə haqqı, onun normal tarif üzrə ödənmə haqqından aşağı olan halında hesablanır. Əsas (normal) tarif kütəlsi 45 kq-a qədər olan yük göndərmələri üçün müəyyən edilir. Kütləsi 45 kq-dan yuxarı olan göndərmələrə haqq, normal tarif stavkaları üzrə 25 %-ə qədər güzəştlə hesablanır. Xüsusilə qiymətli, yüngül çəkili və iri həcmli yüklərin, kitab, qəzet və jurnalların daşınması üçün xüsusi tariflər mövcuddur. Tariflər, normal tarifə görə güzəşt və ya əlavələrin ölçüsünə görə fərqlənirlər.

Müəyyən yüklər, istiqamət və məntəqələr üçün habelə konteynerlərin, altlaqların yüngülləşdirilmiş qablaşdırma üsullarının istifadəsində və s. tarifli imtiyazlar sistemindən geniş istifadə olunur.




Şəkil 3. Sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrinin avtomobil bazarında pərakəndə satış qiymətlərinin formalaşması.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Maşın və avadanlıqların dünya bazarında özünəməxsus hansı xüsusiyyətlərə malikdir?
2. Maşın və avadanlıqların qiymətləri nədər asılıdır?
3. Maşın və avadanlıqların qiymətlərinin həcmi hansı elementlərlə müəyyən edilir.
4. Dünya ticarətində maşın və avadanlıqlara oaln sürüşkən qyimətlər nəyi nəzərə alaraq müəyyən edilir.
5. Maşın və avadanlıqların sürüşkən qyimətlərlə təchizatı üzrə müqavilələrdə nə göstərilir?
6. Sürüşmə qiyməti nədir?
7. Beynəlxalq nəqliyyat tarifləri və fraktlar nəyi ifadə edir?
8. Dəmir yolu nəqliyyat tarifləri və onların əsas formaları hansılardır?
9. Dəniz nəqliyyatının tarifləri və fraktları nəyi ifadə edir.
10. Avtomobil və vaha nəqliyyatı tarifləri və onların növləri hansılardır?
11. Dünya tarif güzəştləri sistemi nədir?

## TESTLƏR

**1. OPEK-in rəsmi satış qiymətləri:**

A) OPEK qiymətlərinin səviyyəsindən asılı olaraq, OPEK-ə daxil olmayan ixracatçılar tərəfindən müəyyən edilir;

B) Hasilat xərcləri və neft bazarının vəziyyətinə əsasən müəyyən edilir;

C)) OPEK-in qərarlarına müvafiq olaraq OPEK-in üzv ölkələrinin hökumətləri tərəfindən müəyyən edilir;

D) Müxtəlif formullarla hesablanır;

E) Tələb və təklifin nisbətindən asılı olaraq müəyyən edilir.

**2. Neft bazarında birdəfəlik sövdələşmələrin qiymətləri:**

A) Neft birjalarında müəyyən edilir;

B) İdxalçı-ölkələrdə neftin yenidən emal edilməsində müqavilə qiymətləridir;

C))“Azad” bazarda fəaliyyət göstərən və tələb və təklifin əlaqəsinin təsiri nəticəsində yaranan qiymətlərdir;

D) Məhsul mübadiləsi razılaşmalarının qiymətləridir;

E) OPEK-ə daxil olmayan ixracatçıların rəsmi sorğu qiymətləridir.

**3. Neftin qiymətinin hesablanması formulundan istifadə:**

A) Bazarda qeyri-sabit vəziyyət şərtləri daxilində minimal riskin mənfəətin “səmərəli” norması ilə uyğunlaşmasını təmin edir;

B) İxracatçı və idxalçılar arasında uzunmüddətli münasibətlərin bərpa olunmasına yardım edir;

C) OPEK-in üzv-ölkələrinə qiymətlərə təzyiq göstərərək ixracı genişləndirməyə imkan verir;

D)) Yuxarıda qeyd olunan 3 amilin hamısını birləşdirməyə imkan verir;

E) məhsul mübadiləsi razılaşmalarının qiymətləri.

**4. Aşağıdakılardan hansı "Net-bek" qiymətlərinin hesablanması bazası kimi çıxış edir?**

A) OPEK-in rəsmi satış qiymətləri;

B) OPEK-ə daxil olmayan ixracatçıların rəsmi sorğu qiymətləri;

C) "Azad" bazarda birdəfəlik sövdələşmə qiymətləri;

D)) Neft məhsullarının qiymətləri;

E) Neft birjalarında  sövdələşmə qiymətləri.

**5. Neftin qiymətinin neft məhsullarının qiymətlərinə əsasən müəyyən olunması zamanı nə nəzərə alınır?**

A) Bazarda rəqabətin səviyyəsi;

B)) Neft məhsullarının çıxış strukturu;

C) Neft məhsullarının qiymətləri;

D) Sığortanın ölçüsü;

E) Neftin yenidən emal edilməsi  və nəql edilməsinə gedən xərclər.

**6. Neftə olan qiymətlər dinamikasına təsir göstərən əsas amillər hansılardır?**

A) Neftin hasil olunmasının mədən-geoloji şərtlərinin bərpa olunmaz dərəcədə pisləşməsi;

B) Yeni neft quyularının axtarışına  və istismarına gedən xərclərin artması;

C) OPEK-in üzv-ölkələrinin istehsal, satış və qiymət  siyasətinin kifayət qədər effektli koordinasiyası;

D) siyasi amillər;

E)) Yuxarıda göstərilən amillərin kompleks sistemi.

**7. Qərb-Avropa ölkələrinin qara metallarının ixrac qiymətləri:**

A) Faktiki sövdələşmə qiymətləridir;

B) Böyük müqavilələrin qiymətləridir;

C)) Sorğu bazis qiymətləridir;

D) Dünya bazarına olan böyük təkliflərin qiymətləridir;

E) «a» və «b» bəndləri.

**8. Qara metalların sorğu ixrac qiymətləri adətən hansı şərtlərlə müəyyən olunur?**

A) "Franko göndərmə stansiyası"

B) "KAF təyinat stansiyası"

C) "CİF təyinat stansiyası"

D) "Rüsum daxil olmaqla, Franko-alıcı"

E)) FOB – adi keyfiyyətli metala olan Qərb-Avropa ölkələrinin sorğu bazis qiymətlərinin stansiyası.

**9. Bazisdən yayınma halı olduqda metalın qiymətlərinə hansı xüsusi güzəştləri və artıq verilən pullar tətbiq olunur?**

A) Böyük əmtəə partiyasının çatdırılmasında güzəşt və artıq verilən pullar;

B) Eyni keyfiyyətli və baxılan bazarın konyukturasında əlaqədar olan dəyişikliklərlə müxtəlif əmtəə partiyalarının satışında güzəşt və artıq verilən pullar;

C) Dünya ticarətində əmtəə dövriyyəsinin həcminə görə güzəşt və artıq verilən pullar;

D)) Keyfiyyətinə, yaraşığına, qablaşdırılmasına və metal istehsalına olan digər tələblərə görə əhəmiyyətli dərəcədə fərqlənən əmtəələrin satışında tətbiq olunan güzəşt və artıq verilən pullar.

E) «a» və «b» bəndləri.

**10. Qara metalların prokatına olan dünya ixrac qiymətlərinin səviyyəsi aşağıdakılardan hansının təsiri nəticəsində formalaşır?**

A) İstehsalın və satışın dövlət-inhisar tənzimlənməsi;

B) Dünya bazarında rəqabət amili;

C) Tələb və təklifin əlaqəsinin konyuktur amili;

D) Valyuta-maliyyə amili;

E)) Bir-birinə zidd, mğxtəlif istiqamətli amillərin mürəkkəb kompleksi;

**11. Aşağıdakılardan hansı nikel bazarında hakim mövqe tutur?**

A) London metal birjası;

B) Nyu-York birjası;

C)) "İnternational company of Canada" Amerika-ingilis-kanada çoxmilli korporasiya;

D) Heç biri;

E) Çikaqo birjası.

**12. Maşın və avadanlıqların dünya bazarının özünəməxsusluğuna aiddir:**

A) İstehsalın yüksək təmərküzləşmə dərəcəsi;

B) Geniş əmtəə nomenklaturası;

C) Maşınqayırma məhsullarının texniki parametrlərinin mürəkkəbliyi, çoxsaylılığı və dinamikliliyi;

D) İri beynəlxalq şirkətlərin hökrranlılığı;

E)) İntensiv mənəvi köhnəlməyə məruz qalması.

**13. Maşın və avadanlıqların qiymətləri nədən asılıdır?**

A)) İstehsal qabiliyyətindən;

B) ETT-nin inkişafından;

C) Rəqabətin səviyyəsindən;

D) İxtisaslaşma və kooperativləşmə səviyyəsindən.

E) «c» və «d» bəndləri.

**14. Maşın və avadanlıqların qiymətlərinin həcmi aşağıdakı hansı elementlərlə müəyyən edilir?**

A) Müqavilə qiymətləri ilə;

B) Müqayisə edilən maşın, aqreqat və qurğuların qiymətləri ilə;

C)) Güclülük və istehsal qabiliyyəti ilə;

D) Əlavə və güzəştlər sistemi ilə;

E)Ləngimə əmsalı ilə.

**15. Dünya ticarətində maşın və avadanlıqlara olan sürüşkən qiymətlər nəyi nəzərə alaraq müəyyən edilir?**

A) Tələb və təklifi;

B) Dünya bazar qiymətlərini;

C)) Maşın və avadanlıqların hazırlanması müddətində baş verən istehsal xərclərində dəyişiklikləri;

D) Bağlanan sövdələşmə şərtlərini;

E) Çatdırılma müddətləri.

**16. Maşın və avadanlıqların sürüşkən qiymətlərlə təchizatı üzrə müqavilələrdə nə göstərilir?**

A)) Bazis qiyməti və intizam, bu qiymətin onu təşkil edən elementlərə bölüşdürülməsi;

B) Ləngimə əmsalı;

C) Vergi dərəcələri;

D) Sürüşmə limiti;

E) Effektlik əmsalı.

**17. Sürüşmə düsturu aşağıdakılarla müəyyən olunur:**

A)) Avadanlığın yekun qiyməti;

B) Avadanlığın bazis qiyməti;

C) Qiymətdə material əmək ödənişi xərclərinin payı;

D) Kreditin faiz dərəcəsi;

E) Gömrük rüsumunun dərəcəsi.

**18. Aşağıdakı hallardan hansında dünya bazarının daxili qiymət əmələ gəlməyə təsiri daha böyük olar?**

A) İstehsalın təmərküzləşməsi və inhisar səviyyəsi yüksək olduqda;

B) Ticarət-siyasi rejim güclü olduqda;

C) Dünya bazarlarından milli bazarların ayrılması səviyyəsi az olduqda;

D)) Müəyyən əmtəənin idxal və ixracını ölkədə onun istehsal və istehlakına ümumi həcmində payı əhəmiyyətli dərəcədə artdıqda;

E) Ölkə istehsalına rəqabət qabiliyyətliliyi artdıqda.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:

48. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
49. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
50. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
51. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
52. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
53. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
54. Певшин Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992 Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
55. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
56. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
57. Лорин А.Н. Ценоoброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
58. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
59. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.

60. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.
61. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
62. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.
63.

# MÖVZU: 10

## BEYNƏLXALQ TEXNOLOJİ BİLİK BAZARINDA QİYMƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİ

1.Texnoloji biliklərə qiymətlərin normalaşması qanunauyğunluqları;

2.Beynəlxalq texnoloji bilik bazarında qiymətəmələgəlmənin xüsusiyyətləri;

3. Texnoloji biliklər bazarında qiymətəmələgətirən amillər;

4. Royalti dərəcəsinin formalaşması amilləri;

5. Özünü yoxlama sualları;

6. istifadə olunan ədəbiyyat

## 10.1 TEXNOLOJİ BİLİKLƏRƏ QİYMƏTLƏRİN FORMALAŞMASININ ÜMUMİ QANUNAUYĞUNLUQLARI

Müasir beynəlxalq kapitalist bazarı şəraitində texnoloji biliklər bir sıra xarakterik cəhətlərə və xüsusiyyətlərə malik xüsusi əmtəə kimi qəbul edilir ki, həmin xüsusiyyətlər içərisində texnoloji biliklərin yaradılması üzrə əməyin spesifikliyi və bu əmtənin bazarda reallaşdırılması xarakter idə seçilir.

Texnoloji biliklərlə beynəlxalq mübadilənin elmi-texniki məlumatların sadə sahələrarası yaxud regionlararası yerdəyişməsindən başlıca fərqi ondan ibarətdir ki, texnoloji biliklər fəaliyyət formalarının (istehsal, təsərrüfat və s.) birində istifadə üçün nəzərdə tutulur. Bu zaman texnoloji biliklərin istehsal mənimsənilməsi və istifadəsi məqsədilə onların beynəlxalq mübadiləsi xüsusi diqqət kəsb edir.

Texnoloji mübadilə sahəsində beynəlxalq iqtisadi münasibətlərin müstəqil sferasına ayrılaraq texnoloji biliklərin ötürülməsi müxtəlif formalarda və çoxsaylı kanallar vasitəsilə həyata keçirilir. Həmin əsas formalardan aşağıdakıları göstərmək olar:

Patentlərin texnoloji biliklərin tətbiqi üzrə müvəqqəti hüquq ya da istehsal «nou-hay» sunun istifadəsi üzrə verilən lisenziyaların satışı;

Maşınların, avadanlıqların və digər istehsal fondlarının ötürülməsi, texnoloji xətlərin göndərilməsi və s. İlə eyni zamanda müvafiq texnoloji biliklərin və lisenziyalaşdırılmamış «nou-hay» nun satışı.

Texnologiya ilə lisenziyalı mübarizə bir qayda olaraq patentlərin və patentləşdirilməmiş «nou-hay» nun istehsalda istifadəsinə verilən lisenziyaların dünya bazarında satışı vasitəsilə həyata keçirilməklə texnologiyanın müvafiq maddi daşıyıcılarının ixracı ilə əlaqədar olmayan lisenziyaların və texnoloji biliklərin istehsal vasitələrinin göndərilməsini əks etdirən uyğun lisenziyaların satışına ayrılır. Bu və ya digər halda alıcılara

istehsalda uyğun məhsulun digər istehsalçıları ilə müqayisədə müəyyən üstünlüklər qazanmaq imkanı verən texnoloji biliklərdən istifadə hüququ verilir.

Texnoloji biliklər beynəlxalq bazarda, kommersiya mübadiləsində iştirak edən əmtəə kimi istehlak və mübadilə dəyərinə malikdir. K.Marksın təbirincə, istənilən əmtəə, hər şeydən əvvəl, öz xassələrinə əsasən insanların hər hansı tələbatını ödəyən əşyadır. Şeydir və bu nöqteyi-nəzərdən özünün hansısa tərəflərilə istehlakçı üçün faydalı ola bilər. Şeylərin faydalılığı onları istehlak dəyərli edir.

Öz mahiyyətinə görə texnoloji biliklər informasiya xarakteri daşıyan qeyri-maddi məhsuldur və onların faydalılığı maddi daşıyıcılar (texnoloji sənədləşdirmə, insan istehsal, təşkilati, idarə və digər biliklərin, təcrübənin daşıyıcısı kimi və s.) forması ilə deyil, istehsalın səmərəliliyinin yüksəldilməs i, onun təşkilinin təkmilləşdirilməsi, yeni növ məhsulların buraxılışının nizamlanması, onun satışı bazarlarının genişləndirilməsi və reallaşdırılmasının sürətləndirilməsi şəraitinin yaradılması üçün müvafiq cəhətlərilə müəyyən edilir. İstehsal prosesinə aid olan (bazarda reallaşdırılan əmtəə kimi ) hər bir ayrıca götürülmüş texniki və ya texnoloji qərar məzmununa görə nadirdir, prinsipcə isə təkrarolunmazdır və buna görə də hətta həmin istehsal sahəsinə aid olan oxşar əmtəələrlə bilavasitə müqayisə olunmazdır. Bununla birlikdə müasir texnoloji biliklər bir ümumi xassəyə malikdirlər: «zamanla ayaqlaşaraq» öz istehsal fəaliyyətini quran əmtəə istehsalçısı yeni texnologiyanın tətbiqi nəticəsində istehsalda əmək məhsuldarlığının yüksəlməsi hesabına uduş vəziyyətinə çıxır. Texnoloji yenilikləri tətbiq edən müəssisələrdə fərdi əmək məhsuldarlığı onun ictimai səviyyəsindən yüksək olur ki, bu da onların sahiblərini əlavə izafi dəyərlə təmin edir. Hər bir kəşf, ixtira, təkmilləşdirmə və yaxud texnoloji biliklərin digər növləri elmi-texniki tərəqqinin daşıyıcıları kimi çıxış etməklə K.Marksın sözlərinə görə, əməyin texniki proseslərini kökndən inqilabiləşdirmək, kapitalist istehsalı şəraitində isə yüksək mənfəət gətirmək qabiliyyətlərinə malikdirlər. Bu nöqteyi nəzərdən,

konkret növ istehsalda tətbiq edilən, təyinatına görə həmcins olan texnoloji biliklərin müxtəlif növlərinin istehlak xassələri yalnız onlardan istifadə üzrə faydalı səmərənin nisbəti bazasında müqayisə edilə bilər ki, bu da əmək məhsuldarlığına, istehsal xərclərinə, əməktutumluğuna, materialtutumluğuna, enerjitutumluğuna, fondverriminə, vəsaitlərin dövriyyəsinə və istehsalın səmərəliliyinin sair göstəricilərinə təsirdə özünü büruzə verir.

Əmtəə-pul münasibətlərinə əsaslanmış müasir dünya təsərrüfatç şəraitində istehlakçı üçün texnoloji biliklərin faydalılığının ümumləşdirilmiş göstərici müəyyən sahə üçün texnoloji biliklərin istehsalda tətbiqi nəticəsində alına bilən adi orta gəlirlə müqayisə üzrə əlavə gəlirin kəmiyyəti hesab edilir. Yaxşılaşdırılmış istehsal üsulunu tətbiq edən kapitalist eyni sahədə fəaliyyət göstərən kapitalistlərlə müqayisədə izafi əmək kimi iş gününün böyük hissəsini mənimsəyir. Belə əlavə gəlirin mənbəyi cari istismar xərclərinin, məmulatların reallaşdırılması xərclərinin azaldılması. Məhsulun istehlak xassələrini dəyişdirən təkmilləşdirmələr yaxud bazarda yüksək tələbli olan yeni məhsul növlərinin yaradılması və bu sıra digər amillər ola bilər. Bu nöqteyi nəzərdən istehsal xərclərinin eyniliyi şəraitində texnologiya istehlakçısına bərabər mənfəət gətirən texnoloji bilik növləri bərabər faydalılıqlı, qarşılıqlı əvəz olunan kimi çıxış edirlər.

Texnoloji biliklərin onların istehlakçı üçün faydalılığı səviyyəsi üzrə müqayisə edilməsi və faydalı səmərənin kəmiyyətcə qiymətləndirilməsinin mümkünlüyü onu göstərir ki, texnoloji biliklər əmtəə kimi mübadilə dəyərinə, yəni məlum nisbətlərdə digər əmtəələrə mübadilə edilmək qabiliyyətinə malikdirlər.

Texnoloji biliklərin yaradılması üzrə əmək də özünəməxsus xüsusiyyətlər kəsb edir. Bu, əməyin maddi istehsaldakı əməkdən fərqli olan xüsusi növüdür, eləcə də yaradılması üzrə xərclərin texnoloji biliklərin maddi daşıyıcılarının (texniki sənədləşdirmənin hazırlanması, mütəxəssislərin öyrədilməsi və s.) istehsalına əmək xərcləri ilə ölçülməyin qeyri-maddi məhsul yaradan əməkdir. Bundan başqa yeni texnologiyanın yaradılması üzrə əmək elmi axtarışlar və

elmi-texniki işləmələr sferasında sərf edilən əmək növlərindən biridir. O, ayrı-ayrı və o cümlədən qarşılıqlı əvəz edilən texniki qərarların istehsalını, sərf edilən əmək xərclərinin nadirliyini, onların başqa şəraitdə və başqa vasitələrlə prinsipial təkrar istehsal edilməzliyini ifadə edir. Bu, hər şeydən əvvəl tətbiq edilən konkret əməklə üzvi əlaqədə spesifik istehsal vasitələrindən istifadə ilə əlaqədar istehsalın maddi şəraitinin təkrar istehsal edilməzliyi ilə şərtlənmişdir.

Texnologiyanın yaradılması üzrə əmək xərclərinin özündə müəssisələrin layihələşdirilməsi və tikintisi, heyətin öyrədilməsi, mühəndis-məsləhət xidmətlərinin göstərilməsi və s. üzrə işləri bilavasitə tətbiq üzrə əmək xərclərindən fərqləndirilməsi zəruridir. Texnologiyanın yaradılması üzrə əməkdən fərqli olaraq onun tətbiqi üzrə əmək təkrar olunan və kütləvidir: eyni texniki və kommersiya təkmilləşdirmələri çoxlu sayda müəssisələrdə tətbiq edilə bilər. Hətta müxtəlif istehsal sahələrinə aid olan texnologiyanın olduqca müxtəlif növləri fərqli nisbətlərdə olsa da əməyin keyfiyyəti üzrə eyni xərclr tələb edirlər. Ona görə də yeni texnologiyanın tətbiqi üzrə mühəndis-məsləhət xidmətləri bazarında qiymətəmələgəlmə onların istehsalına sərf edilən orta ictimai əmək xərclərinə əsaslanır. Onlara qiymət yeni texnoloji biliklərə qiymətlərin əmələ gəlməsi qanunları ilə deyil, digər iqtisadi qanunlar əsasında formalaşır.

«Texnologiya» əmtəəsinin istehlakının ikinci xüsusiyyəti ondan ibarətdir ki, eyni bir əmtəə eyni zamanda yaxud ardıcıl olaraq çoxlu sayda istehlakçılar tərəfindən istehlak edilə bilər. Bu zaman mühəndis-məsləhət xidmətlərinin göstərilməsi sferasında əlavə əmək sərf olunur, lakin texnoloji biliklərin yaradılmasına əlavə əmək xərcləri tələb olunmur. Onda yeni texnologiyaya görə ödəmə mənbəyi ən azı bir neçə istehlakçının əlavə gəliri olacaqdır. Onun məbləği isə həmin texnologiyanın yaradılması üzrə faktiki xərclərdən xeyli yüksək ola bilər.

Nəhayət, texnologiyanın istehlak edilməsinin üçüncü xüsusiyyəti məhdud vaxtda ayrı-ayrı texnoloji təkmilləşdirmələrdən istifadə edilməsindən ibarətdir. Belə məhdudiyyətin iki əsas amili mövcuddur: texnologiyanın köhnəlməsi və

onun yeni, daha təkmil texnologiya ilə əvəz olunması sürəti; müəyyən texnoloji biliklərin yayılması sürəti, hansı ki, texnologiya istehlakçıları üçün əlavə gəlirin itməsini (yoxa çıxmasını) şərtləndirir. Birinci amil onunla əlaqədardır ki, müəyyən müddət keçdikdən sonra məlum texniki və kommersiya qərarları (yaxud məhsul növü) istehsalın tələblərinə cavab vermir və onların əvəzinə yeni texnoloji qərarlar daxil olurlar. Belə əvəzetmə dövrü bir neçə ildən bir neçə onilliyə qədər müddəti əhatə edə bilər. O, müxtəlif ölkələrdə və regionlarda eyni deyildir. Belə ki, sənayecə inkişaf etmiş ölkələrdə köhnəlmiş texnoloji biliklər sənayeləşdirmə prosesinin inkişafın başlanğıc və orta mərhələsində olduğu inkişaf etməkdə olan ölkələrdə nisbətən yeni texnoloji biliklər kimi tətbiq oluna bilərlər.

İkinci amil məlum yeniliyin onun rəqib istehsalçılar tərəfindən mənimsənilməsi il əlaqədar istehlakçı üçün faydalılığının aşağı düşməsindən ibarətdir. Yeni texnologiya nə qədər tez müəssisələrin əksəriyyətinin əmlakına çevrilirsə, yaxud müəssisələrin çoxu alternativ texnologiyaların köməyi ilə məhsulun yeni növünün istehsalını nə qədər tez mənimsəyirlərsə istehlakçının başlanğıcda aldığı yaxud gözlədiyi əlavə mənfəət rəqabətin təsiri altında bir o qədər tez itir. Bir qayda olaraq, bazarda rəqabət aparan firmalar ararsında məlum texnoloji biliklərin sayının artması buraxılan məhsulun qiymətinin aşağı düşməsinə və kapital vahidinə xüsusi mənfəətin azalmasına gətirib çıxarır.

Texnologiya istehlakçılarının əlavə mənfəətinin yox olması o deməkdir ki, məlum texnoloji biliklər öz yeniliyini və uyğun olaraq mübadilə dəyərini itirmişlər və istehsal üçün istifadə olunan (heç olmazsa həmin ölkə və ya region bazarında), adi texnoloji biliklərə çevrilmişlər.Yeni texnologiyanın yayılması sürəti məlum yeniliyin yaradıcılarının lisenziya siyasətindən, göstərilən texnologiyanı əvəz edə bilən alternativ texniki qərarların olmasından və yayılması sürətindən, eləcə də bir çox digər amillərdən asılıdır. Bir çox hallarda texnologiyanın istehlakı dövrünə onun bazarda yayılması sürəti ilə qoyulan müvəqqəti məhdudiyyətlər həmin texnologiyanın istehsalda

istifadəsinin müvəqqəti sərhədlərinə nisbətən dar olur. Məlum texnologiya alqı-satqı obyekti olmadan əgər müəssisələrin əksəriyyətində texnologiyanın daha təkmil növləri hələ istifadə olunmursa, uzun müddət bir sıra sahələrdə istehsal prosesinin əsasını təşkil edə bilər.

İndi isə texnoloji biliklərin dəyəri nədə təcəssüm (ifadə) olunur ? sualına cavab verək. Texnoloji biliklərin dəyəri, hər şeydən əvvəl, istənilən digər əmtəə kimi istehlak dəyərində, konkret halda istehlakçı üçün faydalı səmərədə. Yəni əlavə mənfəət əldə etmək imkanında ifadə olunur. Faktdır ki, texnoloji biliklər əşya forması kəsb etmirlər.

Belə ki, K.Marksın ifadəsinə görə dəyər sırf ictimai xarakter daşıyır və yalnız bir əmtəənin digərinə ictimai münasibətlərində özünü büruzə verə bilər. Bütün digər əmtəələr kimi texnoloji biliklər «Ə-P-Ə» formulu üzrə pul formasında ifadə olunmuş II dəyərinə, sonra isə əmtəə formasında Ə-dən fərqli Ə istehlak dəyərinə mübadilə edilir.

Texnoloji biliklərin – əmtəələrin əməyin ikili təbiətini ifadə edən dəyəri və istehlak dəyərinin vahidliyini sxematik olaraq aşağıdakı kimi göstərmək olar




ŞƏKİL 1.

Göstərilən sxemdəki «faydalı səmərənin dəyəri» dəyərin çevrilmiş forması olmaqla izafi əməyin yeni texnoloji biliklərin istehlakçısı olan müəssisələrin əlavə mənfətində ifadə olunmuş hissəsi ilə müəyyən edilir.

Spesifik əmtəə kimi texnologiyanın nəzərdən keçirilən xüsusiyyətləri bu əmtəələrə qiymətlərin formalaşması qanunauyğunluqları üzrə aşağıdakı nəticələrə gəlməyə əsas yaradır:

- Texnoloji biliklərin qyimətləri müvafiq texnologiyanın yaradılması üzrə əmək xərcləri ilə müəyyən edilmir;
- Texnoloji biliklərin müəyyən növünün qiymətlərinin son hədd kəmiyyəti məlum texnologiyanın mülkiyyətçisi tərəfindən onun istehlakı dövrü (əlavə mənfəətin alınması anından onun itməsi anına qədər) ərzində alınan əlavə mənfəətin məbləğindən ibarətdir.

QRAFİK 1.




Şəkil 2.

burada ,

$\Delta l$ – təkmilləşdirilmiş texnologiya üzrə istehsal edilmiş məhsul vahidinə əlavə mənfəət məbləği;

$\Delta l'$ – onun növbəti modernləşdirilməsi halında təkmilləşdirilmiş texnologiya üzrə istehsal edilmiş məhsul vahidinə əlavə mənfəət məbləği;

Q – yeni texnologiya üzrə istehsal edilmiş məhsulun həcmi;

$Q \cdot \Delta l$ - texnoloji yeniliklərdən istifadə hesabına müəssisənin (sahənin) ümumi əlavə mənfəəti;

$Q \cdot \Delta l'$- texnologiyanın növbəti modernləşdirilməsi halında ümumi əlavə mənfəət;

▨ ştrixlənmiş sahə yeni texnologiyanın tətbiqi və istifadəsi dövründə (əlavə mənfəətin alınmasının başlanğıcından onun yox olması anına qədər) texnoloji biliklərin son hədd qiymətini göstərir.

- texnologiya istehlakçısının əlavə mənfəətinin məbləği texnoloji biliklərin məlum növünün son hədd qyimətidir ki, bu qiymətlə texnologiya istehlakçısı bütün əlavə gəliri onun mülkiyyətçisinə verir.

Həqiqətdə isə texnoloji biliklərin son hədd qiyməti ilə satılması mümkündür, çünki bu halda onun istehlakçı üçün faydalılığı itir. Ona görə də texnoloji biliklərin həqiqi qiyməti yalnız bütün istehlakçıların əldə etdiyi əlavə mənfəətin bir hissəsidir. Əlavə mənfəətin məlum texnologiyanın istehlakçıları və mülkiyyətçiləri arasında bölünməsi çoxsaylı amillərdən asılıdır və son nəticədə yeni texnologiya bazarında rəqabət şəraiti və ona olan tələb-təklif nisbətləri ilə müəyyən edilir.

Texnologiya istehlakçıları və onun mülkiyyətçiləri arasında rəqabət nəticəsində texnoloji biliklərin həqiqi qiyməti son hədd qiymətinin hərəkətindən ikili asılılıqda olur. Müəyyən texnologiyanın istehlakçılarının sayının artması (məlum dərəcəyə qədər) son hədd qiymətini və onunla bərabər texnologiyanın həqiqi qiymətini yüksəldir. Ona görə də texnologiya mülkiyyətçisi (əgər özü texnologiyadan istehsal məqsədləri üçün istifadə

etmirsə) texnoloji biliklərin mümkün qədər çoxlu sayda istehlakçıların sayının artması ilə əvəz mənfəətin məbləği də (müəyyən həddə qədər) yüksəlir, lakin bir istehlakçı hesabı ilə onun kəmiyyəti azalır və əksinə, əgər məlum texnologiyadan yalnız bir istehlakçı istifadə edirsə, texnoloji biliklərin məcmu son hədd qiyməti nisbi azalır, onların son hədd qiyməti (əlavə mənfəət) isə bir istehlakçı hesabı ilə yüksəlir.

Göstərilənlərə uyğun olaraq qeyd edilməlidir ki, texnoloji biliklərin məlum növünün istehlakçılarının sayı nə qədər çoxdursa, onlar həmin texnoloji biliklərin, mülkiyyətçilərinə əlavə gəlirdən bir o qədər az pay verməyə razıdırlar. Texnologiyanın qiymətinin onun son hədd qiymətinin onun son hədd qiymətinin yüksəlməsi nəticəsində artması texnologiya istehlakçısının əlavə mənfəətində onun mülkiyyətçisinin payının azalması ilə müşaiyət olunur.

Bundan əlavə, müəyyən texnoloji biliklərin sayının artması istehsal şəraitinin qısa müddətdə bərabərləşməsinə, xərclərin nivelirləşməsinə (məhsuldar qüvvələrin inkişafının konkret mərhələsində onların ictimai-zəruri xərclərə çevrilməsi) və əlavə mənfəətin yoxa çıxmasına gətirib çıxarır.

Ona görə də texnologiya mülkiyyətçisinin texnologiyanın işlənib hazırlanmasına çəkilən xərcləri mümkün qədər tez qaytarmaq və əlavə mənfəət əldə etmək kimi cəhdlərinə baxmayaraq nun satış strategiyası texnologiyanın qarşı istiqamətlərdə yayılmasına təsir göstərən ziddiyyətli amillər çoxluğunun təsiri altındadır. Bununla əlaqədar olaraq belə bir nəticə ilə birmənalı şəkildə razılaşmaq olmaz, çünki texnologiya mənəvi cəhətdən köhnəlmədikcə ondan maksimum istifadə etməyə can atmaq, habelə son məhsul vahidinə xüsusi məsrəfləri azaltmağa çalışmaq, texnologiya sahibini onu öz istehsalında daha geniş istifadəyə və buna oxşar əmtəələri digər istehsalçılara satmağa sövq edir. Ayrı-ayrı hallarda maneçilik törədən amillər texnoloji yayılma amilləri üzərində üstünlük təşkil edirlər ki, bu da müasir təcrübədə yeganə hal deyildir. Texnologiya mülkiyyətçisi tərəfindən bu və ya digər satış strategiyasının aparılmasının əsas meyarı texnologiyanın mənəvi cəhətdən köhnəlmədiyi vaxt müddəti ərzində maksimum ümumi mənfəət əldə edilməsindən ibarətdir.

Beləliklə, texnoloji biliklərin həqiqi qiyməti (P) onların istehlakçıların əlavə mənfəət payı bir çox dəyişənlərdən birinci növbədə məhsul istehsalının (satışının) həcmindən (Q), yeni texnologiyanın tətbiqi ilə istehsal xərclərinə qənaətin ölçüsündən (C) və məhsul istehsalının ümumi həcmində yeni texnologiyadan istifadə ilə istehsalın payından (L) asılıdır.

$$P_T=\alpha \cdot f(Q, \Delta C,L) \quad (1)$$

Burada α – əmsalı 0-dan 1-ə qədər olan həddlərdə dəyişir.

$f(Q, \Delta C,L)$ texnoloji bilik istehsalçılarının ümumi əlavə mənfəətini ifadə edir. Bu zaman tələb və təklif nisbətləri α əmsalının kəmiyyətinin müəyyən edilməsinin həlledici amili kimi çıxış edir.

Texnoloji biliklərin qiymətləri inhisar qiymətləridir, çünki bu və ya digər sahəsində müəyyən yeniliklərin alıcılarının sayı bir qayda olaraq bu yenilikləri yaxud onların əvəzedicilərini təklif edən satıcıların sayından çox olur. Əgər söhbət prinsipcə yeni ixtiralardan gedirsə, onda bazarda bir yaxud iki belə mülkiyyətçi olur.

Bu zaman texnologiyanın tətbiqi xərclərə nə qədər yüksək qənaəti təmin edirsə, onun alternativ variantlarının satıcıları arasında rəqabət bir o qədər zəifləyir.

Yuxarıda göstərilənlərə müvafiq olaraq müəyyən texnoloji biliklərin istifadəsindən istehlakçının əldə etdiyi əlavə gəlir nə qədər çox olarsa, məlum texnologiyanın son hədd qiyməti və eləcə də texnologiya mülkiyyətçisinə ödənilən əlavə mənfəət payı bir o qədər yüksək olur. Tələb və təklif nisbətləri məcmu əlavə gəlirin texnologiya istehlakçıları və texnoloji biliklərin mülkiyyətçiləri arasında bölünməsi nisbətlərinə həlledici təsir göstərir.

Texnoloji biliklərin inhisarlaşdırılması dərəcəsinin artması tələblə müqayisədə onların təklifini azaldır və onun təsiri ilə əlavə gəlirin texnologiya mülkiyyətçisinin xeyrinə yenidən bölüşdürülməsi baş verir ki, bu da məcmu əlavə mənfəətdə onun payının artmasına səbəb olur. Digər tərəfdən, bu və ya

digər istehsal sahəsində həmin sahənin məhsulları bazarının genişlənməsi hesabına yeniliklərə tələbin yüksəlişinin və təklifin dəyşməz səviyyəsində texnoloji bilik istehlakçıları bazarda yüksək payın əldə edilməsi üzrə rəqabət apararaq nə qədər ki, əlavə mənfəətdə onların payının müvafiq nisbi azalması istehsal həcmi və məhsul satışının genişlənməsi nəticəsində onun mütləq kəmiyyətinin artması ilə müvazinətləşdirilir (kompensasiya edilir), mülkiyyətçilərə yüksəldilmiş əlavə mənfəət payı ödəyirlər.

Texnoloji biliklərin qiymətlərinin mühüm xüsusiyyəti ondan ibarətdir ki. O, mülkiyyətçi satıcıya birdəfəlik deyil, istehlakçı tərəfindən əlavə gəlir əldə edilməsinə uyğun olaraq ödənilir. Məlum texnologiyanın qiyməti müqavilənin fəaliyyəti dövrü ərzində istehlakçıların gəlirlərindən illik ayırmalardan, yəni royaltidən yaranır (əmələ gəlir). Texnoloji biliklərin qiymətlərinin royalti formasında çıxış etməsi onun iqtisadi mahiyyətindən irəli gəlir. Təcrübədə texnologiyanın qiymətinin onun tətbiqindən əlavə mənfəət əldə edilənədək birdəfəlik ödəmələr, yəni mükafatlı ödəmələr vasitəsilə ödənilməsi hallarına da təsadüf olunur. Lakin texnologiyanın qiymətinin mükafatlı məbləğ şəklində ödənilməsi yalnız royaltinn kapitallaşdırılmasını, başqa sözlə royaltinin vaxtından əvvəl birdəfəlik ödənilməsini özündə ifadə edir.

## 10.2.BEYNƏLXALQ TEXNOLOJİ BİLİK BAZARINDA QİYMƏTLƏRİN ƏMƏLƏ GƏLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Müasir mərhələdə texnologiya ticarəti beynəlxalq bazarın mühüm elementinə çevrilmişdir. Elmi-texniki tərəqqinin sürətli inkişafı, müharibədən sonrakı dövrdə inkişaf etmiş sənaye ölkələrində elm və texnikanın inkişafı, elmi-texniki nailiyyətlərlə, layihə-konstruktor işlərinə, istehsal və idarəetmə təcrübəsi ilə, mühəndis-məsləhət xidmətlərilə mübadilə sferasında beynəlxalq əlaqələrin inkişafına, beynəlxalq bölgüsünün dərinləşməsinə və genişlənməsinə gətirib çıxarmışdır.

Bəs onda texnoloji biliklər bazarında konkret alqı-satqı obyekti nədir? Beynəlxalq texnologiya mübadiləsi iki əsas formada həyata keçirilə bilər – istehsal vasitələrində (maşın və avadanlıqlar, texnoloji xətlər. Başa çatmış istehsal tsiklinə malik müəssisələr) maddiləşmiş (cisimləşmiş) və maddiləşməmiş, lakin elmi-texniki, istehsal iqtisadi, təşkilati və digər mümkün biliklər, eləcə də istehsal təyinatlı təcrübə şəklində çıxış edən formalarda. Təbiidir ki, istehsal vasitələrində madiləşmiş texnologiya mübadiləsi zamanı da bu və ya başqa dərəcədə texnoloji biliklərin ötürülməsi baş verir. Bununla bərabər istehlakçı müvafiq məhsulun (istehsal vasitələri, istehlak şeyləri və s.) hazırlanması texnologiyası, konstruksion xüsusiyyətləri və istehsalı haqqında kompleks bilik əldə edə bilmir. Belə bilikləri ya texnoloji bilik daşıyıcılarının maddi-informasiya formasından – layihə-konstruktor və texnoloji sənədləşdirmədən öyrənmək olar, ya da məsləhətləşmələr vasitəsilə mütəxəssislərlə bilavasitə əlaqə yaxud bilik mübadiləsi, istehsal təcrübəsinin, mühazirələrin mübadiləsi, peşəkar vərdişlərin nümayişi və s. başqa sözlə, bilik və təcrübənin qeyri-maddi formada ötürülməsi yolu ilə əldə etmək olar.

Beynəlxalq texnologiya bazarı inkişaf etdikcə elmi-texniki, istehsal-iqtisadi biliklər və təcrübə mübadiləsi yüksək dərəcədə müstəqil əhəmiyyət kəsb etməyə başlayır. İxtiraların, kəşflərin, istehsal sirrlərinin və «nou-hay» nunbütün mümkün növlərinin istifadəsinə hüquqların verilməsinin müasir şəraitdə bəzən müıvafiq texnikanın göndərilməsi əvvəlcədən yerinə yetirilir və maşın-texniki məmulatları istehsalçılarından asılı olmayaraq ixtisaslaşdırılmış gentlər tərəfindən həyata keçirilə bilər. Bundan başqa bir sıra hallarda elmi-texniki biliklərin və istehsal təcrübəsinin ötürülməsi alınmış biliklərin bazasında müstəqil yaradıla bilən müvafiq texnologiyanın maddi formada göndərişi ilə müşaiyət olunmur.

Son illərdə beynəlxalq bazarda müxtəlif ölkələrin tədqiqat təşkilatları və firmaları arasında kooperasiya əsasında və sifarişlər üzrə yerinə yetirilən istehsal təyinatlı fundamental və tətbiqi tədqiqatların mübadiləsinin rolu artmaqdadır.

## 10.3. TEXNOLOJİ BİLİKLƏR BAZARINDA QİYMƏTƏMƏLƏGƏTİRƏN AMİLLƏR

Texnoloji biliklərin qiymətləri təcrübədə əsasən istehlakçıların ödəmələrindən əmələ gəlir və müvafiq alternativ texnologiyanın mülkiyyətçiləri arasında onlar tərəfindən bağlanmış sövdələşmələrin sayına, müddətinə və royaltinin kəmiyyətinə uyğun olaraq bölüşdürülür (Şəkil 3.)

Texnoloji biliklərin satışı üzrə ayrı-ayrı sövdələşmələr Lt1, Lt2 Lt3 …Lt4

↓ ↓ ↓ ↓

Ayrı-ayrı sövdələşmələrin texnoloji biliklərin qiymətinə bərabər məbləği, PT

↓ ↓ ↓ ↓

Texnoloji biliklərin satışından daxili olan gəlirlərin onların mülkiyyətçiləri arasında bölüşdürülməsi

**ŞƏKİL 3**

$$\sum_{i=1}^{n} \text{Л}_{T_i} = P_T = \sum_{i=1}^{k} \text{Л}_{P_i}$$

Texnoloji biliklərin satışı üzrə ayrı-ayrı sövdələşmələrin qiymətlərinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Belə qiymətlərin müəyyən edilməsi adətən texnologiya istehlakçısının onun mülkiyyətçisinin xeyrinə hər illik mümkün ayırmaların kəmiyyətinin və dövrünün müəyyənləşdirilməsinə əsaslanır.

Texnoloji biliklərlə beynəlxalq ticarətdə royalti dərəcəsinin hesablanması əsas və mürəkkəb problemlərdən biridir. Hakim dünya bazarlarında və mili bazarlarda royalti dərəcələri haqqında statistik məlumatlar praktiki olaraq

yoxdur (bank uçot dərəcələri, səhmlərin məzənnəsinin dəyişməsi və s. haqqında məlumatlardan fərqli olaraq). Bu, ixracatçı firmalar tərəfindən belə dərəcələr haqqında orta bazar məlumatlarından istifadəni əhəmiyyətli dərəcədə çətinləşdirir. Bir neçə sahə üçün «ədalətli» royalti məktəbi mövcuddur. (cədvəl 4.) lakin göstərilən məlumatlar texnologiya idxalçılarına və ixracatçılarına razılaşmalarda royaltinin ölçülərinin müəyyən edilməsinin düzgünlüyünü yalnız təxmini qiymətləndirməyə imkan verir və müasir dövrdə texnoloji biliklərin mübadiləsi aparılan sfera və sahələrin çoxşaxəliliyini əhatə etmir.

**Cədvəl 1.**

| Sahə | Sövdələşmələrin növləri | Royalti dərəcələrinin dəyişməsi həddləri, % |
|---|---|---|
| Əczaçılıq sənayesi | 1) Müstəsna lisenziya<br>2) Qeyri-müstəsna lisenziya | 10-15<br>4-10 |
| Elektronika, optika | | 3-5 |
| Kimya sənayesi | | 2-5 |
| Neft-kimya sənayesi | 1)müstəsna lisenziya<br>2) qeyri-müstəsna lisenziya | 6-ya qədər<br>0,1-1,0 |
| Kütləvi tələbat istehlak malları istehsalı | | 2-3 |
| Ağac emalı və kağız-sellüloz sənayesi | Müstəsna lisenziya | 6 |

İqtisadiyyatın bir sıra sahələri üçün «ədalətli» royalti səviyyəsinin qiymətləndirilməsi nümunəsi

İndi isə royaltinin hesabat dərəcələrinin müəyyən edilməsinə baxaq. Məlumdur ki, dünya təcrübəsində texnologiyanın ötürülməsi üzrə sövdələşmələr onların bazasında bağlanılır. Nə qədər ki, müəyyən konkret

texnologiyanın istifadəsi ilə əlaqədar faktiki əlavə mənfəət haqqında məlumatlar kommersiya sirridir və onun kəmiyyətinin müəyyənləşdirilməsi, hətta texnoloji biliklər istehlakçısının özünə də çətin olur, razılaşmalarda royalti dərəcəsi lisenziyalaşdırılan məhslun xalis satışı dəyərindən, onun mvya dəyərindən ümumi mənfəətindən faizlə yaxud buraxılan məhsul vahidi hesabı ilə pul məbləği şəklində müəyyən edilir. Daha geniş tətbiq edilən metod royaltnin lisenziyalaşdırılan məhsulun satıhı dəyərindən faizlə hesablanmasıdır:

$$R_S = \frac{R}{S} \times 100 \quad (12.3)$$

Burada Rs – xalis satış dəyərindən faizlə royalti dərəcəsi;

R – royaltinin illik məbləği;

S – dolayı vergilərin, yığım və rüsumların çıxılması ilə xalis satışın illik dəyəri.

Göstərilənlərə uyğun olaraq müqavilənin fəaliyyəti dövründə ($t_i$ + $t_n$) texnologiya mülkiyyətçisinə ödənilən royaltinin ümumi məbləği

$$RT = \sum_{i=1}^{n} R_{t_i} = R_S \sum_{i=1}^{n} S_{t_i} \quad (12.4)$$

olacaqdır.

Qeyd etmək zəruridir ki, royalti dərəcəsinin ($R_s$) eyni kəmiyyətlərinə texnoloji biliklər istehlakçısının ümumi mənfəətində tamamilə müxtəlif royalti məbləği uyğun ola bilər və əksinə, satış dəyərindən müxtəlif royalti dərəcələri üzrə mənfəətdən eyni royalti ödəmələri verilə bilər. Bu zaman müxtəlif sahələrdə texnologiya istehlakçılarında satış dəyərinə görə mənfəət normalarındakı fərqlər əsas əhəmiyyət kəsb edir.

5-ci saylı cədvəldə göstərildiyi kimi yüksək rentabelliyə malik istehsal sahələrində texnoloji biliklər istehlakçısının mənfəətindən eyni payı almaq

üçün texnologiya mülkiyyətinə aşağı mənfəətli sahələrə nisbətən yüksək royalti dərəcəsini müəyyən etmək zəruridir.

**Cədvəl 2.**

**Ümumi mənfəətdə royalti payının xalis satışda ümumi mənfəət normasında və royalti dərəcəsindən asılılığı**

| Qoşma sferaları | Xalis satışda ümumi mənfəət norması | Xalis satışdan faizlə royalti dərəcəsi | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1-2 | 2-3 | 3-4 | 4-5 | 5-6 |
| | | Ümumi mənfəətdə royalti payı | | | | |
| Hasiledici sənaye sahələri | 10-20 | 5-20 | 10-30 | 15-40 | 20-50 | 25-60 |
| Sənaye yarımfabrikatları | 20-30 | 3-10 | 7-15 | 10-20 | 13-25 | 17-30 |
| Uzunmüddətli istifadə olunan istehlak malları | 30-40 | 2-7 | 5-10 | 7-13 | 10-17 | 15-20 |
| Qısamüddətli istifadə olunan istehlak malları | 40-50 | 2-5 | 4-8 | 6-10 | 8-13 | 10-15 |
| Elmtutumlu məmulatlar | 50-60 | 1-4 | 3-6 | 5-8 | 6-10 | 8-12 |

Deyilənləri şərti misalla da izah etmək olar. Fərz edək ki, royalti dərəcəsi satış dəyərinin 5%-ni təşkil edir. Yeni texnoloji biliklərdən istifadə etməklə istehsal edilən məhsulun illik satış həcmi – 10 min ədəd, məhsul vahidinin qiyməti – 10 dollar, xalis satışda ümumi mənfəət norması – 40%, yeni texnologiyadan istifadə hesabına illik əlavə mənfəət isə 10 min dollardır. Onda texnoloji biliklərin mülkiyyətçisi, hər il lisenziya alanın əlavə mənfəətinin 50%-i ölçüsündə royalti alır:

10 dol x 10000 ədəd x 0,5 = 5000 dol

yaxud onun ümumi mənfəətinin 17%-i qədər:

5000 dol : (0,3 x 10 dol x 10000 ədəd) x 100 % = 17%.

Tutaq ki, müəyyən vaxt müddəti keçdikdən sonra rəqabətin təsiri altında məhsul vahidinin qiyməti 10 dollardan 9 dollara düşmüşdür. Onda həmin royalti dərəcəsi ilə royaltinin illik məbləği

9 dol x 10000 ədəd x 0,05 = 4500 dol olacaqdır.

Texnologiya istehlakçısının mənfəət norması 21%-ə qədər azalarsa, 10000 ədəd məhsul vahidi istehsalına avans edilmiş kapital xərcləri dəyişməməklə

10 dol x 10000 ədəd x (1-0,3) = 70000 dol olacaqdır.

Ümumi mənfəət isə

9 dol x 10000 ədəd – 70000 dol = 20.000 dollara

Qədər azalacaqdır, yəni mənfəət norması

(20000 x 100): 90000 = 22,2%,

Royalti payı isə (ümumi mənfəətdə) 17%-dən 22,5%-ə qədər

((4500 dol x 100) : 20000 = 22,5%) yüksələcəkdir.

Əgər bu zaman sahənin müəssisələrinin əksəriyyətində mənfəət norması yeni texnologiyanın tətbiqi (əlavə mənfəət həcminin azalması) hesabına artmışdırsa, onda royalti məbləği əlavə mənfəətin həcmindən yüksək ola bilər və növbəti ödəmələr istehlakçının sərəncamında qalan mənfəəti orta sahə səviyyəsindən də aşağı sala bilər. Ona görə də royalti ödəmələrinin müddətinin müəyyən edilməsində texnologiya istehlakçısı onu sabit əlavə gəlirin qazanılmasının zəmanətverici müddəti ilə məhdudlaşdırmağa çalışır.

Texnologiya satıcısının razılığı olmadıqda istehlakçı royalti dərəcəsinin əhəmiyyətli dərəcədə aşağı salınmasını tələb edə bilər.

Əgər alıcıya mövcud texnologiyadan istifadə üzrə müstəqil hüquq verilərsə yaxud o patentləşdirilmişdirsə (bu, texnologiyanın rəqib müəsisələrində sərbəst yayılmasına manne olur), royaltinin ödənilməsi müddəti nisbətən geniş olacaqdır. Lakin bu şəraitdə mövcud sferada alternativ texnologiyalar tərəfindən rəqabət qalmaqda davam edir. Təcrübə royalti ödəmələri müddəti 5 ildən 10 ilədək təşkil edir. Daha uzunmüddətli dövrlər əsasən alıcıya rəqiblərə nisbətən böyük üstünlüklər verən, eləcə də müstəsna istifadə şərtilə patentləşdirilmiş ixtiraların satışı üçün, qəsamüddətli dövrlər isə texnologiya və məhsul növlərinin tez-tez dəyişdiyi sahələr. Həmçinin yardımçı əhəmiyyətli texnoloji biliklərin satışı üçün xarakterikdir.

80-ci illərdə texnologiya bzarının sürətli inkişafı ixracatçı firmalar arasında rəqabəti kəskinləşdirmiş, ölkələr arasında texniki yeniliklərin dövriyyəsi sürətləndirmişdi. 80-ci illərin sonunda texnologiyanın ötürülməsi haqqında lisenziyalaşdırılmış və digər növ müqavilələrin (razılaşmaların) orta fəaliyyət müddətlərinin qısaldılması meylləri nəzərdən keçirilməyə başlanır. Yapon statsitikasının məlumatlarına görə 1980-ci ildən 1990-cı ilə qədər yapon firmalarına xaricdən gətirilən texnologiyaya lisenziyaların ötürülməsi haqqında 5 il və daha aşağı müddətə bağlanmış razılaşmaların xüsusi çəkisi 19 %-dən 47,5 %-ə qədər yüksəlmiş, 5-10 il fəaliyyət müddətli razılaşmaların xüsusi çəkisi isə 33,6%-dən 17,6 %-ə düşmüşdür.

Royalti dərəcəsinin formalaşması amilləri

Royalti dərəcəsinin müəyyənləşdirilməsi ayrı-ayrı amillərin təsir dərəcəsinin uçotuna əsaslanır. Bu amillər texnoloji biliklər istehlakçısının illik əlavə mənfəətinin kəmiyyətini formalaşdıran əsas amillərə və əlavə mənfəətin faktiki kəmiyyətinin onun hesablanmış kəmiyyətindən kənarlaşmasını, həmçinin texnologiya mülkiyyətçisinin sərəncamından qalan əlavə mnfəətin xüsusi çəkisini müəyyən edən təshihedici amillərə bölünür.

Yuxarıda deyildiyi kimi yeni texnoloji biliklərin tətbiqindən əlavə illik mənfəət texnologiya mülkiyyətçisinin prinsip etibarilə əldə edə biləcəyi royaltinin illik kəmiyyətinin son həddindən ibarətdir. Royalti ödəmələrinin bütün dövründə (bu dövrün yeni texnologiyanın tətbiqi hesabına əlavə mənfəət əldə etməsi dövrünə bərabər olması şərtilə) əlavə mənfəət royalti məbləğinin son həddini yaxud texnoloji biliklərin son hədd qiymətlərini təşkil edir.

Yeni texnoloji biliklər istehlakçısının illik əlavə mənfəəti, hər şeydən əvvəl kapital məsrəflərinə və cari istismar xərclərinə qənaət kəmiyyətlərindən əmələ gəlir.

İstehsal riski əsasən onunla əlaqədardır ki, texnologiya istehlakçısı texnologiyanın tətbiqi zamanı nəzərdə tutulmuş istehsal göstəricilərini reallaşdırmaya da bilər. Yeni texnologiyanın işlənməsi və kommersiya mənimsənilməsi dərəcəsi nə qədər aşağıdırsa, bu ehtimal bir o qədər yüksəkdir.

Əgər texnologiya artıq seriyalı istehsala tətbiq edilmişdirsə, onda texnologiya satıcısında yalnız texnologiya istehlakçısının işlədiyi müəyyən şəraitin (İxtisaslı kadrların çatışmamazlılığı, qış xammal və materialların göndərilməsində fasilələr, spesifik iqlim şəraiti və s.) təsiri altında həmin texnologiyanın çox pis nəticələr verəcəyi risqi qalır. Əgər texnologiyanın işlənməsi dərəcəsi daha da aşağı səviyyədədirsə (məsələn, texnologiya təcrübi istehsal səviyyəsində tətbiq edilmişdir, ya da yalnız baza və tətbiqi tədqiqat nəticələri vardır) bu riski əhəmiyyətli dərəcədə yüksəlir. Yeni texnoloji biliklər laboratoriya tədqiqatları «ümumi ideyalar» səviyyəsində əldə olunduqda həmin risq dərəcəsi xüsusilə yüksək olur. Bu halda alınmış texnologiyanın kommersiya ötürülməsi əlavə xərclərə gətirib çıxara bilər, texnologiyanın alınması və onun işlənib hazırlanmasının yekun xərclərinin həddən artıq yüksək olması nəticəsində alternativ variantların (daha yüksək dərəcəli) rəqabət qabiliyyəti isə xeyli yüksələ bilər.

Beləliklə, texnologiyanın alınmasının məqsədəuyğunluğu aşağıdakı şərtin yerinə yetirilməsi ilə müəyyən olunur.

$$P_T \leq K_a - K_d \quad (12.5)$$

Burada $P_T$ – texnologiyanın qiyməti;

$K_a$ – alternativ varianta minimum kapital qoyuluşları;

$K_d$ – texnologiya istehlakçısının onun kommersiya ötürlməsinə xərcləri.

Mövcud qiymətləndirmələrə görə texnologiyanın işlənib qurtarması (tamamlanması) və tətbiqi ehtimalı hesablaşma göstəricilərini təmin etməklə seriyalı istehsala tətbiq edilmiş texnologiyanın ötürülməsi halında 1-2%-dən prinsip etibarilə məqsədəuyğun sayılan texnologiya üçün 40-50% arasında tərəddüd edir. Texnologiyanın qiyməti ($P_T$) royaltinin ölçüsü ilə müəyyən olunduğuna görə (9,5) bərabərsizliyi belə bir nəticə çıxarmağa imkan verir ki, royaltinin kəmiyyəti texnologiyanın kommersiya mənimsənilməsi xərclərinin artımına düz mütənasib olaraq azalır. Beləliklə, ehtimal istehsal risqinin artması texnologiyanın qiymətini aşağı salır.

Təcrübədə əlavə mənfəətin hesablaşma kəmiyyəti göstərilən (mümkün) ehtimala (hesablaşma mənfəətinin 1%-dən 50%-ə qədəri çıxılır) mütənasib olmaqla istehsal risqinin dərəcəsinə görə təshih edilir. Risq dərəcəsinin konkret kəmiyyəti yalnız hər bir ayrıca halda bütün təsir edən şəraitin uçotu ilə müəyyənləşdirilə bilər.

Kommersiya risqinin təsiri də buna oxşar olmaqla onunla ifadə edilir ki, texnologiya alıcısının bütün istehsal edilmiş məhsulunun reallaşdırılmasına zəmanəti yoxdur və beləliklə, əlavə mənfəətin hesablanmış məbləğini əldə etməyə də bilər. Bu halda texnologiya satıcısı və alıcısı mümkün risq dərəcələrini qiymətləndirməklə əlavə mənfəətin gözlənilən kəmiyyətinə düzəlişlər edirlər. Belə düzəlişlər adətən faktiki kəmiyyətlərin nəzərdə tutulan kəmiyyətlərdən kənarlaşması ehtimalının hesablanmasına əsaslanır və həmin ehtimala mütənasib olaraq müəyyənləşdirilirlər.

Şərti misalla düzəlişlərin hesablanması üsuluna baxaq. Ekspert qiymətləndirmələri metodu ilə yeni texnologiya əsasında istehsal edilmiş məhsulun satışı dəyərinin azalması ehtimallarının bölgüsü cədvəlini qururuq:

**Cədvəl 6.**

| Satış dəyərinin azalması faizi | Azalma faizi ehtimalı |
|---|---|
| 0 | 25 |
| 1,0 | 40 |
| 2,0 | 20 |
| 3.0 | 10 |
| 4,0 | 3 |
| 5.0 | 2 |

Onda orta çəki metodu ilə hesablanmış təshihedici düzəliş.

$$K_d = \frac{40 \cdot 1.0 + 20 \cdot 2.0 + 10 \cdot 3.0 + 3 \cdot 4.0 + 2 \cdot 5.0}{100} = 1,32\%$$

Olacaqdır. Başqa, satış, satış dəyərinin azalması ehtimalı 1,32% təşkil edəcəkdir və bu düzəliş əlavə mənfəət həcminin müəyyən edilməsində uçota alınmalıdır.

Kommersiya risqi dərəcəsinin tam qiymətləndirilməsi istehsal edilən məhsula olan tələbin perspektivini, xammal, material və işçi qüvvəsinin qiymətlərinin artması sürətini, bazarın istehsalçılar aarsında bölgüsü quruluşunu, məhsulun mənəvi köhnəlməsi sürətini və digər göstəriciləri aşkar etmək məqsədilə nəzərdə tutulan bazarın kompleks konyuktur tədqiqatlarının aparılmasını tələb edir.

Beynəlxalq texnologiya bazarının genişlənməsi şəraitində texniki biliklərin və işləmələrin alternativ növləri tərəfindən rəqabətin kəskinləşməsi qiymətlərə təsir edən mühüm amil kimi çıxış edir.

Texnologiyanın alternativ variantlarını təklif edən texnologiya satıcılarının və həmin texnologiyadan istifadə edən, həmçinin gələcəkdə də istifadə edəcək texnoloji biliklər istehoakçılarının sayı nə qədər çoxdursa, istehlakçıların əlavə mənfəəti bir o qədər az almaqla, sürətlə azalacaqdır və əksinə, rəqabətin azalması zamanı əlavə mənfəət artır.

İstehlakçı yalnız bazarda texnologiyadan istifadə üzrə müstəsna hüquqa malik olarsa, uzunmüddətli dövr ərzində əlavə mənfəətin ilkin səviyyəsini saxlamaq imkanına malikdir. Bazarda rəqiblərlə müqayisədə qiymətli yaxud daha yaxşı texnologiya çıxarmaq qabiliyyəti olan bir neçə satıcının olması zamanı və ya patentlərlə müdafiə olunmamış texnoloji qərar və işləmələrin xüsusi çəkisi artması zamanı alıcıların əlavə mənfəətinin sürətlə aşağı düşməsi ehtimalı yüksəlir və nəticədə texnologiyanın qiyməti aşağı dşür. Bununla əlaqədar beynəlxalq təcrübədə texnoloji biliklərin müstəsna istifadə hüququ (müstəsna lisenziya) ilə satışı zamanı adətən royaltinin baza kəmiyyətinə 25%-dən 50%-ə qədər əlavələr müəyyən edilir.

Əgər rəqabət göstəricisi kimi bazarda yeni texnologiya ilə istehsal edilmiş bütün məhsul payı və texnoloji bilik alıcıları tərəfindən buraxılış məhsul payı arasında nisbət götürülərsə, onda göstərilən qanunauyğunluq aşağıdakı kimi izah edilə bilər.

Tutaq ki, $\Delta P$ -texnologiya istehlakçısının faktiki əlavə mənfəəti;

$\Delta P_h$ – texnologiya istehlakçısının hesablanmış əlavə mənfəəti;

$\varphi$- yeni texnologiya üzrə buraxılan məhsulların məhsulların bazarda gözlənilən payı;

$\varphi_A$ – yeni texnologiya istehlakçısının məhsullarının bazarda gözlənilən payı;

$\Delta C$ - məhsul vahidi buraxılışında xərclərə qənaətdir.

Əgər texnologiya alıcısı ondan istifadə üzrə müstəsna hüquqa malikdirsə yaxud alternativ texnologiya mülkiyyətçiləri tərəfindən ciddi rəqabət hiss etmirsə, onda $\varphi \rightarrow \varphi_A$

DÜSTUR $\lim\limits_{\varphi \to \varphi_A} \frac{\Delta P}{\Delta P_h} = \frac{(1-\varphi)\bullet \Delta c}{\left(1-\varphi_A\right)\bullet \Delta c} = 0$ (12.6)

$\varphi$ *və* $\varphi_A$ arasında fərq artarkən, yəni bazarda yeni texnologiyanın avyı yüksələrkən faktiki əlavə mənfəət hesablanmış əlavə mənfəətlə müqayisədə azalacaqdır. Xüsusi halda, nə vaxt yeni texnologiya bazarı tam cəzb edərsə ($\varphi \rightarrow 1$) faktiki əlavə mənfəət və onun hesablanmış əlavə mənfəətə nisbəti sıfra yaxınlaşacaqdır, yəni

$$\lim_{\varphi \to 1} \frac{\Delta P}{\Delta P_h} = \frac{(1-\varphi)\bullet \Delta c}{\left(1-\varphi_A\right)\bullet \Delta c} = 0 \quad (12.7)$$

(12,6) və (12,7) nisbətləri təcrübədə faktiki və hesablanmış əlavə mənfəət kəmiyyətlərinin bir-birindən kənarlaşmalarının qiymətləndirilməsi üçün aşağıdakı düsturdan istifadə etmək imkanı yaradır:

$$\frac{\Delta P}{\Delta P_h} \approx \frac{1-\varphi}{1-\varphi_A} \quad (12.8)$$

(12.8) nisbəti texnoloji bilik istehlakçılarının əlavə mənfəəti ilə onların bazarda yayılması dərəcəsi arasında əks asılılığı ifadə edir və $\varphi_A$ hər bir konkret kəmiyyəti üçün qrafik üsulla aşağıdakı kimi göstərilə bilər.




ŞƏKİL 4.

Təcrübədə faktiki əlavə mənfəətin hesablanmış əlavə mənfəətə nisbətən azalması sürəti alternativ variantları daxil edilməklə yeni texnologiya üzrə istehsal edilən məhsulların bazar payının artımı ilə yüksəlir (Şəkildə göstərilən əyri buna uyğundur). $\varphi$ - kəmiyyətinin müəyyən edilməsi üçün daha çox ekspert qiymətləndirmə metodlarından istifadə edilir.

Alternativ texnologiyalar tərəfindən göstərilən rəqabət yeni texnologiyanın tətbiq edildiyi istehsal məhsulları bazarının inhisarlaşması səviyyəsi ilə sıx qarşılıqlı asılılıqdadır. Əgər potensial istehlakçı bazarda inhisarçı kimi çıxış edirsə, onda bu faktiki royalti dərəcəsinin hesablanmış royalti dərəcəsi ilə müqayisədə aşağı düşməsi amili ola bilər. Digər tərəfdən texnologiya istehlakçısının müəyyən növ məhsul istehsalında inhisarçılığı rəqabətin təsiri altında əlavə mənfəətin aşağı düşməsini dayandıran və onun satıcıların xeyrinə bölgüsünü aradan qaldıran amil kimi göstərilə bilər. Texnologiyanın qiymətinə bu və ya digər istiqamətlərdə təsir göstərən digər şərtlər də mövcuddur. Onlar arasında ilk növbədə müəyyən texnoloji bilik növünə tələbin səviyyəsi və onun azalması perspektivinin qeyd edilməsi zəruridir. Əlavə mənfəətin yüksək həcmi texnologiyanın bazarda mövcud olan alternativ növlərlə müqayisədə tətbiqinə nə qədər geniş imkanlar yaradırsa tələb də bir o qədər yüksək olacaqdır və əksinə, istehlakçı üçün müqayisəli

faydalılıq nə qədər aşağıdırsa, nisbi tələb  və öz nösbəsində texnologiya satıcısının əlavə mənfəətdə payı da bir o qədər aşağı olacaqdır.

Tələb səviyyəsinə potensial alıcının elmi-texniki bazası, yəni onun xüsusi tədqiqatlar aparmasının prinsipial imkanları da mühüm təsir göstərir. Bu amil xüsusi tədqiqatların aparılması real alternativ təşkil edən zaman hesablaşma təcrübəsində uçota alınır. Əgər alıcının xüsusi elmi-istehsal bazasında yeni texnologiyanın işlənilməsi və tətbiqi yüksək həcmdi əsaslı vəsait qoyuluşları ilə əlaqədardırsa və yaxud baza və tətbiqi tədqiqatları uzunmüddətli, istehsal risqi ilə şərtlənirsə, onda xüsusi elmi-tədqiqat, konstruktor işlərinin aparılması imkanları ciddi diqqət kəsb etmir və ya nəzərə alınmır.

Bazar konyukturasının dəyişməsi meylləri və onların  yeni texnoloji işləmələrin istehlakçıları tərəfindən  istehsal edilən məhsulların satışı perspektivinə təsiri əlavə mənfəətin bölgüsündə özünü qabarıq şəkildə büruzə verir. Bu zaman texnologiya satıcısının əlavə mənfəətdə  potensial payı digər şərtlər sabit qalmaqla məhsula  olan bazar tələbinin gözlənilən dəyişikliklərinə düz mütənasib olur.

Təcrübədə elə hallara təsadüf edilir ki, təklif edilən  texnoloji biliklər istehlakçıların xüsusi maraqlarının   predmetinə çevrilirlər. Beynəlxalq bazarlarda bu  ilk növbədə  yeni texnologiyadan istifadə etməklə rəqabət qabiliyyətli məhsul istehsalı hesabına rəqiblərin sıxışdırılması ilə  əlaqədardır. Bundan başqa, müasir xammal və enerji böhranları şəraitində enerjiyə qənaətçil texnologiyanın, yaxud qıt xammal və material növlərinin onların daha əlverişli və ya sifarişçilərdə kifayət qədər miqdarda olan növləri ilə əvəz edilməsini şərtləndirən texnologiyanın tətbiqi də istehlakçılarınn xüsusi maraqları ilə bağlı amillərdəndir. Nəhayət, bu amillər qrupuna satıcıların razılaşmanın fəaliyyəti dövründə texnologiyada ediləcək yeniliklər və dəyişiklər, ümumiyyətlə bütün təkmilləşdirmələr haqqında məlumat və sənədləşmələrin alıcılara ötürməsi hazırlığı da aid edilə bilər. Əgər belə modernləşdirmənin potensial əhəmiyyətliliyi kifayət qədər yüksəkdirsə, onda

bu məcmu tələbin əlverişsiz perspektivi dövründə də əlavə mənfəətin satıcının xeyrinə yenidən bölüşdürülməsinə səbəb ola bilər.

Biz beynəlxalq texnologiya bazarında texnoloji biliklərin qiymətlərini formalaşdıran əsas amilləri nəzərdən keçirdik. Təbiidir ki, təcrübədə qiymətəmələgətirən elementlər sistemi olduqca genişdir. Konkret hallarda texnologiyanın bazar qiymətini bu və ya digər tərəfə təshih edən əlavə şərtlər yaranır. Bunlar da yalnız kənarlaşmalara, qiymətlərin texnoloji biliklərin dəyərinin mövcud obyektiv kəmiyyəti ətrafında bazar tərəddüdlərinə səbəb olur.

Təcrübədə texnoloji biliklərin qiymətlərinin müəyyən edilməsi kifayət qədər əməktutumlu proses olmaqla mütəxəssislərin yüksək ixtisaslılığını və ilkin materialların lazımi qaydada toplaşmasınıtələb edir. Zəruri məlumatların hazırlanması üçün adətən geniş konyuktura tədqiqatları aparılır, texnologiya istehsal edən sahələrin texniki vəziyyəti və inkişafı təhlil edilir. Bununla bərabər bəzi allarda bir sıra zəruri ilkin materialların olması şəraitində texnologiyanın qiymətinin (royalti dərəcəsinin yaxud mükafatlı məbləğin) müəyyən edilməsi müddətinin kifayət qədər azaldılması zərurəti yaranır.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1.Texnoloji bilik bazarında qiymətlərin formalaşmasının əsas qanunauyğunluqları hansılardır?

2. Texnoloji biliklərin ötürülməsinin əsas formaları hansılardır?

3. «Texnologiya» əmtəsinin istehsal  xüsusiyyətlərini göstərirn.

4. Royalti nədir və onun əsas xüsusiyyətləri açıqlayın.

5.Dünya təcrübəsində texnoloji biliklərin qiymətlərinin hesablanmasının əsas funksional və nümunələrini göstərin.

## TESTLƏR

**1. Dünya bazarında texnoloji biliklər digər əmtəələrdən seçilir:**

A) İstehsalın böyük serialılığı ilə;

B) Mənəvi köhnəlməninin aşağı tempi ilə;

C)) Texnoloji biliklərin yaranmasına əməyə istifadə olunan istehsal vasitələrinin dəyəri əlavə olunmur və bu biliklər tətbiq olunan müəssisənin son məhsulunun dəyərinə daxil edilmir;

D) İstehsalın ərazi bölgüsü;

E) Mənəvi köhnəlmənin yüksək tempi.

**2. Royaltinin hesablanmasının ən geniş yayılmış metodu hansıdır?**

A) "Xərclər+mənfəət" metodu;

B) Tam xərclər metodu;

C) Ekstrapolyasiya metodu;

D) Ümumi məhsul dövriyyəsi dəyərindən faizlə;

E)) Lisenziyalı məhsulun satış dəyərindən faizlə;

**3. Royalti dərəcəsi necə müəyyən edilir?**

A) İllik royaltilərin toplanması ilə;

B) Əldə olunmuş gəlirə əsaslanan ayrı-ayrı sövdələşmələrin dəyərlərinin vurulması ilə;

C)) İllik royalti məbləğinin dolayı vergilər və yığımlar çıxılmaqla xalis satışın illik dəyərinə nisbəti ilə;

D) Hazırkı müddətə olan razılaşma fəaliyyəti dövrünə olan sahibkara ödənilmiş texnologiyalar, royaltinin ümumi məbləğinin hasilinin məbləği kimi;

E) Pauşal toplam ilə.

**4. Royalti dərəcəsinin formalaşmasının korrektə edən amillərinə nə aid edilmir?**

A) İstehsal və kommersiya riskinin dərəcəsi amili;

B)) İllik əlavə mənfəətin kəmiyyətini formalaşdıran amillər;

C) Alternativ texnologiya tərəfindən rəqabət amilləri;

D) Məhsul bazarının inhisarlaşdırılması;

E) Elmi-texniki tərəqqinin təsiri.

**5. Dünya bazarında texnologiyanın alışa məqsədyönlülüyü növbəti şərtlərin yerinə yetirilməsi ilə müəyyən olunur:**

A) Texnologiyanın qiyməti onun istehsalına sərf olunan xərclərə bərabər olmalıdır;

B) Royaltinin həcmi texnologiyanın kommersiya mənimsəməsinə xərclərin artımı ilə düz mütənasibdir;

C) Müəyyən bazarda texnologiyanın istifadə hüququna məxsusi sahiblik;

D)) Texnologiyanın qiyməti alternativ variantda kapital qoyuluşunun minimal fərqinə və onun kommersiya çatdırılmasına texnologiyanın istehlakçı məsrəflərinə bərabər və yaxud artıq olmalıdır;

E) Royalti dərəcələri dolayı vergilərin və yığımların çıxılması ilə xalis satışın illik dəyərinə bərabər olmalıdır.

**6. Texnoloji biliklərin dünya bazarında istehlakçısı uzunmüddətli vaxt dövründə ilkin əlavə mənfəətin səviyyəsinin saxlanması zəmanətinə malikdir.**

A) Rəqabətli texnologiyaların üstün müqayisəsi və yaxud bərabər qiymətliliyini bazara təqdim etmə qabiliyyətinə malik bir neçə satıcıların mövcudluğu halında;

B) Patentlərlə mühafizə olunmayan texnoloji qərarların və işləmələrin yüksək payında;

C)) Ancaq texnologiyanın müəyyən bazarda istifadəsinə istisna hüququna malik olmaqla;

D) Texnoloji biliklərin və işləmələrin alternativ növləri tərəfdən rəqabətin kəskinləşməsi;

E) Elmi texniki tərəqqinin sürətlənməsi şəraitində.

**7. Dünya bazarında yeni texnologiyanın yayılması halında:**

A) Faktiki əlavə mənfəət hesablama ilə müqayisədə artacaqdır;

B)) Faktiki əlavə mənfəət hesablama ilə müqayisədə azalacaqdır;

C) Yeni əlavə mənfəətin bazarı tam tutmasının son həddi halında faktiki əlavə mənfəət həmçinin onun hesablama nisbəti kimi sıfıra yaxınlaşacaqdır;

D) İstehsalın tənəzzülü olacaqdır;

E) Tələb artacaqdır.

**8. İxrac kalkulyasiyasının daxili kalkullyasiyadan fərqli xüsusiyyətinə aid deyil:**

A) Nəqliyyat xərcləri

B) Maliyyələşmə xərcləri

C)) Əmtəənin sığorta məsrəfləri

D) Qablaşdırma məsrəfləri

E) Reklam xərcləri

**9. Nou-Hau bu:**

A) Kommersiya əlavələrinin və güxəştlərinin formasıdır;

B) Vergi növüdür;

C) Qiymətdə nəqliyyat məsrəflərinin uçotu metodudur;

D)) Texnoloji biliklərin tətbiqinə müvəqqəti hüquqdur;

E) Göstərilən xidmətlərin qiymətidir.

**10. Royalti nədir?**

A) Kredit dərəcəsidir;

B) Vergi tutulmalarıdır;

C))Razılaşma fəaliyyəti müddəti ərzində texnoloji bilik istehlakçılarının gəlirlərindən illik tutulmalardər;

D) Məhsul həcmində yeni texnologiyanın istifadəsindən olan istehsal payıdır;

E) İstehsal xərclərinə qənaətin ölçüsüdür.

**11. Texnologiyanın qiyməti nə ilə hesablanır?**

A)) razılaşmanın fəaliyyət göstərdiyi dövr ərzində istehlakçıların gəlirlərindən illik ayırmalar ilə;

B) texnoloji biliklərin istehsalına çəkilən maddi və əmək xərclərinin dəyəri ilə;

C) xərclənmiş resursların və mənfəətin dəyəri ilə;

D) mənfəət və vergi dərəcələrini, maya dəyərini ilə;

E) Topdansatış qiymətləri və ticarət əlavələri ilə.

**12. Dünya bazarında biliklərin ötürülürməsi həyata keçirilir:**

A) Patentlərin istifadəsinə liseziyaların satışı vasitəsilə;

B) Texnologiyaların satışı vasitəsilə;

C) Birgə elmi tədqiqat işlərinin vasitəsilə;

D) Lisenziyalaşmayan nou-haunun satışı vasitəsi;

E)) «a» və «d» bəndləri

**13. Texnoloji biliklərin faydalılıq göstəricilərinin ümumiləşdirilməsinə xidmət edir:**

A) İstehlakçı səmərəsi;

B) Vəsaitlərin qənaət ölçüsü;

C)) Mövcud sahə üzrə adi orta ilə müqayisədə əlavə gəlirlərin həcmi;

D) İstehsal gücünün artırılması;

E) Əmək məhsuldarlığının artırılması.

**14. Aşağıdakılardan hansı texnologiyanın yaranması üzrə əmək xərclərinin əvəz olunması mənbəyi kimi çıxış edir?**

A) Yeni istehsala qoyulan  investisiyalar;

B) Normal sahibkarlıq mənfəəti;

C)) Yeni texnologiyanın  istifadəsi hesabına adi, orta mənfəətə nisbətdə artma kimi çıxış edən  və verilmiş müəssisə  tərəfindən  əldə olunan mənfəətin bir hissəsi;

D) Yeni texnologiyanın istifadəsi ilə istehsal olunan məhsulun reallaşdırılmasından əldə olunan ümumi məcmu gəlir.

E) Texnologiyanın topdansatış qiyməti.

**15. Texnoloji biliklərin hüqiqi qiyməti nədən asılıdır?**

A) Rəqabətin dərəcəsindən;

B) İstehsalın (satışın) həcmindən;

C) Yeni texnologiyanın tətbiqi zamanı istehsal xərclərinə qənaətin ölçüsü;

D) Yeni texnologiyanın istifadəsi ilə məhsul həcmində istehsal payı

E)) «b», «c», «d» bəndləri.

**16. Pauşal məbləğ aşağıdakının əsasında müəyyən edilir**

A) İllik xalis satış dəyərindən faizlə hesablanmış illik royalti

B) t ilində ödənilməli olan royaltini t ili üçün diskontlaşdırma əmsalına vurmaqla;

C)) t ilində ehtimal olunan royaltinin diskontlaşdırma dəyərindən məbləği

D) Əlavə mənfəət payını texnologiya istehlakçısının çevrilmiş əlavə mənfəətə vurmaqla

E) «a» və «c» bəndləri əsasında

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:


64. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
65. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
66. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
67. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
68. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
69. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
70. Певшин Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992 Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
71. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
72. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
73. Лорин А.Н. Ценооброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
74. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
75. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.

76. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.
77. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
78. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.

# MÖVZU 11.

## İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**PLAN:**

11.1 Qiymətlərin dövlət tənzimlənməsinin mahiyyəti və metodları;

11.2 Qiymətlərin dövlət tənzimləməsinin birbaşa metodları;

11.3 Qiymətlərin tənzimlənməsinin dolayı metodları;

11.4 İstehlak səbəti və qiymətlər arasındakı nisbətlərin beynəlxalq tənzimlənməsi;

Özünü yoxlama sualları;

Testlər

İstifadə olunan ədəbiyyat

# 1. QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MAHİYYƏTİ VƏ METODLARI

Bazar iqtisadiyyatı hökmranlıq edən inkişaf etmiş ölkələrdə azad sahibkarlıq və azad ticarət prinsipi hökm sürür. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir şəxs (fiziki və ya hüquqi) qanunla qadağan edilməmiş sənət və ya kommersiya fəaliyyətinin istənilən növü ilə məşğul ola bilər. Bu prinsipdən ölkənin iqtisadi həyatının daha vacib bir prinsipi doğur – əmtəə və xidmətlərin qiymətlərinin formalaşmasında azadlıq prinsipi. Məlumdur ki, qiymətlərin əmələ gəlməsinin əsasını dəyər qanunu təşkil edir, ancaq bundan başqa onlara daxili və xarici xarakterli müxtəlif amillər təsir göstərir ki, bunlardan biri də qiymətlərin dövlət tərəfindən tənzimlənməsidir.

Müasir dövrdə demək olar ki, bütün inkişaf etmiş ölkələrdə dövlətin iqtisadiyyata təsirinin (müdaxiləsinin) şaxəli mexanizmi mövcuddur ki, onun ayrı-ayrı alətləri və metodları dəyişdirilə bilər.

Hazırkı şəraitdə qiymətlərin dövlət tənzimlənməsi son dərəcə ziddiyyətli məsələlərdən biri sayılır. Bir tərəfdən, dövlət orqanları daxili sosial gərginlikləri kəskinləşdirən və ölkənin xarici iqtisadi vəziyyətinə mənfi təsir göstərən inflyasiya proseslərinin inkişafını cilovlamağa çalışırlar. Digər tərəfdən isə, dövlət inhisarların mənafeyinin ifadəçisi kimi müxtəlif yollarla onların maraqlarını müdafiə edir. Ümumən, qiymətlərin dövlət tənzimlənməsi dövlətin qanunvericilik, inzibati və büdcə-maliyyə tədbirlərinin köməyi ilə qiymətlərə təsir etmək cəhdidir. Bu yolla dövlət iqtisadi sistemin sabit inkişafına, başqa sözlə, qiymətlər vasitəsilə təkrar istehsalın dövri tərəddüdlərinin nizamlanmasına nail olmağa çalışır. Konkret təsərrüfat konyunkturundan asılı olaraq qiymətlərin tənzimlənməsi mahiyyət etibarilə böhrana qarşı (durğunluğa qarşı) və inflyasiya qarşı yönəldilə bilər.

Yaranma sferası və qiymətlərin əmələ gəlməsi prosesinə təsir mexanizmi nöqteyi-nəzərindən qiymətlərin tənzimlənməsinin aşağıdakı bir neçə formasını ayırmaq olar:

- əmtəələrin istehsalı və tədavül sferasında dövlətin birbaşa iştirakı ilə qiymətlərin tənzimlənməsi;

- əmtəə bazarlarının tələb və təklif balanslarına təsir etmək yolu ilə qiymətlərin tənzimlənməsi;

- antiinhisar qanunvericiliyi ilə tənzimləmə;

- gəlirlərin tənzimlənməsi siyasəti ilə;

- pul tədavülü sferası, eləcə də bu formaların əlaqələndirilməsi vasitəsilə konyukturanın tənzimlənməsi;

Qiymətlərin dövlət tənzimlənməsi inhisarlaşma dərəcəsinin və inhisarların qiymətlərə təsirinin zəif olduğu eləcə də mili inhisarların mənafelərinin bir-birinə ziddiyyətlilik dərəcəsinin daha az olduğu sahələrdə geniş tətbiq olunur. Bu sahələrə kənd təsərrüfatı, energetikanın bir neçə sahəsi, emaledici sənayenin ayrı-ayrı sahələri aiddir.

Hazırda bütün inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının qiymətləri dövlət tərəfindən tənzimlənir və buna uyğun oalarq, dolayı yolla, ərzaq məhsullarının pərakəndəsatış qiymətləri də tənzimlənir.

Qiymətlərin tənzimlənməsi bir sıra digər dövlət tədbirlər ilə tamamlanır: istehsalın birbaşa tənzimlənməsi (əkin sahələrini, sağlam mal-qara başlarının azaldılması, kvota və kontingentlərin tətbiq edilməsi), birbaşa subsidiyalar verilməsi və əsaslı vəsait qoyuluşu (istehsala, emala, infrastrukturaya), güzəştli kreditlər verilməsi və başqaları.

Qiymətlərin hökumət tərəfindən tənzimlənməsi fermer qiymətlərini elə səviyyədə saxlamağa imkan verir ki, fermer geniş təkrar istehsala nail olmaq üçün, bu qiymətlər ona müəyyən gəlirlərivə yığımı təmin etməyə kömək etsin. Kənd təsərrüfatının istehsal vasitələri qoyuluşundan asılılığı getdikcə artır, alınmış istehsal vasitləri isə istehsal xərclərinin və məhsulun dəyərini böyük hissəsini təşkil edir. Ona görə də dövlətin əsas məqsədlərindən biri fermerləri qorumaqdır, çünki onlar təchizat və satış üzrə öz tərəf müqabilləri, ACK sferasında ən iri inhisarlar qarşısında özləri üçün zəruri mal mübadiləsi şərtlərini və qiymət səviyyələrini qorumaq iqtidarında deyildirlər.

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsulları qiymətinin aşağı düşməsi meyl idə vardır, çünki istehlakçılar həmişə qiymətin aşağı düşməsində maraqlı olduqları kimi, emal sahələrinin firmaları da kəndə təsərrüfatı xammalının qiymətinin aşağı düşməsində maraqlıdırlar.

Bununla əlaqədar olaarq iki meylin – artma və azalma meyllərinin nisbəti qiymətlərin dövlət tərəfindən tənzimlənmə səviyyəsini təyin edir.

Kənd təsərrüfatı qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi ABŞ və Avropa Birliyi (AB) ölkələrində aşağıdakı əsas formalarda həyata keçirilir:

1. Dövlət tərəfindən formal olaraq təsbit qeyd edilmiş qiymətlər sviyyəsi tətbiq edilir (ABŞ) və yaxud AB-yə daxil oaln bütün ölkələrdə təsbit ediləsi qiymət səviyyələri müəyyən olunur. Bu cür tənzimləmə bazar qyimətlərinin müəyyən edilmiş yuxarı və aşağı hədd çərçivəsində dəyişməsinə imkan verir. AB-də müəyyən edilmiş qiymət səviyyələri birliyin bütün ölkələri üçün məcburidir:

2. İstehsal vasitələri və kənd təsərrüfatı məhsullarının bazar qiymətləri dinamikasına və bu qiymətlər arasındakı nisbətən nəzarət;

3. Kənd təsərrüfatında istehsal məsrəflərinin dinamikasına nəzarət;

4. Fermerlərdən kənd təsərrüfatı məhsullarını minimum zəmanət verilmiş qiymətlərlə almalı olan dövlət satınalma (tədarük) təşkilatlarının fəaliyyəti;

5. Bazar qiymətlərinin səviyyəsinə bir sıra köməkçi vasitələrlə təsir edilməsi;

6. Kənd təsərrüfatında gəlir və yığımın formalaşması prosesinin qiymətlər sistemi vasitəsilə idarə edilməsi;

7. İxrac qiymətlərinə əlavələr.

Qiymətlərin tənzimlənməsi kənd təsərrüfatında gəlir səviyyəsinin tənzimlənməsi ilə də sıx surətdə bağlıdır. Burada məqsəd fermer və fəhlələrin gəlirləri arasında nisbi uyğunluğa nail olmaqdır. «Qiymət və gəlirlər» siyasəti adlanan siyasətin məğzi də məhz bundan ibarətdir. Bu siyasət inkişaf etmiş

ölkələrin kənd təsərrüfatında dövlət tənzimləməsinin bütün sisteminin mərkəzi qüvvəsi və başlıca alətidir.

Dövlətin qiymətlərin əmələgəlməsi prosesinə müdaxiləsi qiymətlərin tənzimlənməsinin birbaşa və dolayı metodlarının üzvi əlaqəsi əsasında reallaşır. Bu metodların ölkələr və ayrı-ayrı dövlət üzrə nisbətləri də müxtəlifdir.

Qiymətlərin birbaşa tənzimlənməsi başlıca oalarq ictimai istifadə sahələrində (elektroenergetika, nəqliyyat, rabitə, su təchizatın və s.) tətbiq olunur. Bu sahələrdə qiymət və tariflər adətən inhisarlarla münasibətdə aşağı və yüksək mənfəət normaları əsasında müəyyən olunur. Qiymətlərin dövlət tənzimlənməsi inhisarların marağına və onların dünya bazarında konkret mövqelərinə, ümumən ölkənin tələbatına cavab verə bilən iqtisadiyyatın yüksək inkişaf sürətinin və struktur irəliləyişlərin stimullaşdırılması üçün tətbiq edilir.

Qiymətlərin tənzimlənməsinin dolayı metodları qiymətlərin özünə deyil, qiymətlərin əmələgəlməsi ilə bağlı olan amillərə təsir dairəsində ortaya çıxır. Buna misal olaraq, pul vəsaitlərinin emissiyası da daxil olmaqla, vergi, kredit və valyuta siyasətinin köməyi ilə məcmuu tələbin tənzimlənməsini göstərmək olar. Belə tədbirlər nəticəsində bir çox sahələrdə istehsal və məşğulluqla bağlı məsələlər stimullaşdırılır ki, bu da öz növbəsində istehlak malları bazarına və əhalinin tədiyyə qabiliyyətli tələbinin həcminə təsir göstərir.

## 1. QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN BİRBAŞA METODLARI

Dövlət tənzimləməsinin birbaşa metodları arasında, hər şeydən əvvəl, qiymətlərin inzibati qaydada müəyyən olunmasını qeyd etmək lazımdır. Bu metod bir çox ölkələrdə (Fransa, Belçika, Hollandiya və s.) geniş yayılmışdır. Göstərilən metodn tətbiqi nəticəsində iri istehlakçı-inhisarlar əlavə gəlir əldə etməyə imkan tapırlar, çünki onlar əmtəə və xidmətləri daha aşağı qiymətlərlə

almağa müvəffəq olurlar. Son nəticədə bu, istehsalın inhisarlarda təmərküzləşməsinə səbəb olur və kapital yığımı üçün əlverişli şərait yaradır.

İndi isə bir sıra inkişaf etmiş ölkələrdə qiymətlərin dövlət tənzimlənməsinin mövcud birbaşa metodlarını ətraflı nəzərdən keçirək. Fermer qiymətlərinin tənzimlənməsi sistemi ABŞ-da 1933-cü ildən fəaliyyətdədir. Bu sistemdə başlıca yeri əmtəə-kredit şirkətinin (ƏKŞ) girov qiymətləri (və ya dərəcələri) və girov əməliyyatları tutur. Girov qiymətləri (və ya dərəcələri) minimum zəmanət verilmiş qiymətlər funksiyasını yerinə yetirir. Onlar fermerlərin mənafeyini elə qoruyur ki, fermer bazar qyimətləri onların səviyyəsindən aşağı olmasını və kənd təsərrüfatı məhsullarının bazarda satışından minimum gəlir səviyyəsinin əldə edilməsinə zəmanət versinlər. ƏKŞ-nin girov əməliyyatları – məhsulları girov qoyulmağa fermerlərə kredit verilməsidir. Bu zaman girov qoyulmuş məhsul ya ƏKŞ-nin anbarlarında qəbul edilə bilər, ya da onu fermer özü saxlaya bilər. Kredit məbləği verilən məhsulun həcmi və girov qiymətlərinə əsasən müəyyən edilir. Əgər bazar qiymətləri aşağı düşərsə, fermer girov qoyulmuş məhsulu ƏKŞ-nin mülkiyyətinə verə bilər və bu zaman girov qiyməti minimum satış qiymətinə çevrilir. Bazar qiymətləri girov qiymətlərindən yüksək olduqda isə fermer girov qoyulmuş məhsulu götürdüyü kreditiv ə onun faizini ödəmək şərtilə geri qaytara bilər və onu bazarda satmaq imkanı qazanmış olar.

ABŞ-da tətbiq edilən məqsədli qiymətlər də mühüm əhəmiyyət kəsb edir. Onların əsas funksiyası fermerlərin gəlirini müəyyən səviyyədə saxlamaqdan ibarətdir. Məqsədli qiymətlər bazar qiymətlərinin səviyyəsini deyil, fermerlərin gəlirlərinin aşağı səviyyəsini müəyyən edir. Onlar bazarda fəaliyyət göstərmir, ancaq nizamlanmalı (kompensasiya edilməli) olan qiymət əlavəsini müəyyən etmək üçün gəlirləri və qiymətləri tənzimləyən apparat işçiləri ilə hesablaşmalarda istifadə edilir. Qiymət əlavəsi – məqsədli qiymətlə satış qiymətinin (və ya girov qiymətinin, əgər məhsul ƏKŞ vasitəsilə satılarsa) fərqi kimi hesablanır. Qiymət əlavəsinin nizamlayıcı xarakteri ondan ibarətdir

ki, o, fermer öz məhsulunu bazarda məqsədli qiymətlərdən aşağı satdığı halda həmin fərqi birbaşa hökumət tədiyyələri formasında ödəyir.

Beləliklə, girov qiymətləri bazar qiymətlərinin (qiymətlər vasitəsilə isə gəlirlərin), məqsədli qiymətlər isə fermerlərin gəlirlərinin tənzimlənməsinin başlıca alətidirlər. Girov qiymətlərinin səviyyəsinin dəyişməsi iki problemin həllinə kömək edir: 1) fermerlərin satışdan əldə etdikləri gəlirlərin səviyyəsinin saxlanması (istehlakçılar hesabına); 2) kənd təsərrüfatı məhsulları ixracının tənzimlənməsi. ABŞ-ın xarici bazarlarda dənli bitkilər və pambıqla ticarətinin böyük həcmini nəzərə alaraq demək olar ki, girov qiymətlərinin yüksəldilməsi və aşağı salınması vasitəsilə ABŞ konqresi bu məhsulların dünya qiymətlərinin səviyyəsinə böyük təsir göstərir.

Avropa birliyində məhsul növlərindən asılı olaraq tənzimlənən qyimətlərin bir çox formaları vardır. Onlardan iki ən mühümü bunlardır: məqsədli (nəzarət yaxud istiqamətləndirilmiş) və müdaxilə qiymətləri.

Məqsədli qiymətlər – Avropa birliyində müəyyən məhsul növünün qıtlığı hökm sürən rayonlar üçün nəzərdə tutulan topdansatış (ardıcıl olaraq nəzərdə tutulan bazar qiymətləri) qiymətləridir ki, onların əsasında astana və ona oxşar olan «şlüz» qiymətlərinin səviyyəsi müəyyən olunur və bu qiymətlər daxili fermer qiymətlərini daha aşağı dünya qiymətlərinin təzyiqindən qorumağa xidmət edirlər. Astana qiymətləri başlanğıc səviyyəsinə görə məqsədli qiymətlərdən aşağı səviyyədədirlər, bununla belə, nəqliyyat xərclərini nəzərə almaqla o elə hesablanır ki, məqsədli qiymətlərin səviyəsindən yüksək olsun. Beləliklə, məqsədli qiymətlər astana qiymətlərlə birlikdə qiymətlərin müdafiəsində yuxarı sərhəddi təşkil edirlər.

Yaponiyada dövlətin qiymətlərə və pul tədavülünə təsirinin spesifik mexanizmi fəaliyyətdədir və burada qiymətlərin dəyişməsi mərkəzi bankın pul-kredit sferasında yeni qərarlar qəbul etməsi üçün əsas sayılır. Yaponiyada bütün qiymətlərin 19%-i birbaşa olaraq dövlət tərəfindən tənzimlənir. Müvafiq nazirliklər şirkətlərin iştirakı ilə qiymətlərin minimum səviyyəsini müəyyən edirlər. Bu təkliflər hökumət tərəfindən təhlil edilir və yekunlaşdırılır.

Yaponiya iqtisadçıları belə hesab edirlər ki, əgər qiymətlərin səviyyəsi hökumət tərəfindən tənzimlənməsə, bazar mexanizmi normal fəaliyyət göstərə bilməz, çünki bu halda bazarda qeyri-normal vəziyyət yaranar, tələb və təklif arasındakı uyğunsuzluqlar dərinləşə bilər. Məsələn, qiymətləri mövsümi amillərdən asılı olan bir sıra məhsul növləri üzrə tələb və təklif balansında mövsümi tərəddüdlərin bərabərləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məhsullara olan tələbatın yüksək səviyyəyə qalxması qiymətlərin kəskin artmasına gətirib çıxarmasının qarşısını almaq üçün Yaponiya hökuməti onların bazarda təklifi həcminin artırılması üzrə tədbirlərdən əlavə həmin məhsulların dolayı yolla qiymətlərinin tənzimlənməsinə çalışır.

Norveçdə isə ədalətsiz (çox yüksək) qiymətlərin qoyulması haqqında istənilən razılaşmalar qanunla qadağan edilmişdir. Dövlət (müdiriyyət) qiymətlərin maksimum və minimum səviyyələrini, eləcə də «dondurulmuş» qiymətləri müəyyən edən vəhamı üçün mütləq olan qaydalar vermək hüququna malikdir. Həmin qaydalarda qiymətlərin, əlavə və güzəştlərin hesablanması üsulları göstərilir, maksimum mənfəət səviyyəsi, göndəriş və ödəmə şərtləri, eləcə də qiymət və gəlir sferasına aid digər göstərişlər əks edilir.

İsveçrə hökuməti kənd təsərrüfatı siyasəti çərçivəsində qyimətlərin kənd təsərrüfatı məhsulları istehsalının rentabelliyini təmin edəcək səviyyədə saxlanmasını nəzərdə tutr. Bu zaman kəndli təsərrüfatlarına ölkənin başqa istehsal sahələrində çalışan muzdlu işçi qüvvələrinin gəlirləri ilə müqayisə ediləcək gəlirlərə zəmanət verən qiymətlər səviyyəsi müəyyən olunur. Bu məqsədlə qiymətlərin tənzimlənməsi mexanizmindən və yerli istehsalçıları xarici bazarın rəqabət qabiliyyətli təzyiqindən qorumaq tədbirlərindən fəal istifadə olunur. Əmtəəlik məhsulun 50%-ə qədərinin qiymətləri qanuni şəkildə rəsmiləşdirilir. Süd istehsalı xüsusi olaraq tənzimlənir: hər il təhvil verilən südün müəyyən həcmi (kvota) nzərdə tutulur və südü təhvil verənlərə möhkəm qiymət üçün zəmanət verilir.

İqtisadiyyatın mühüm sahələrinin məhsullarının qiymətlərinin əmələ gəlməsinə dövlət tərəfindən həyata keçirilən müdafiə tədbirləri onların

qiymətlərin artımına təsirini müşahidə etmklə həyata keçirilir və zəruri halda qiymətlərə nəzarət üzrə federal orqanlar tərəfindən qiymətlərin yaxud mənfəətin yuxarı hədləri müəyyən olunur. Yuxarı hədlər haqqında sərəncamvə göstərişlər o halda qəbul edilir ki, qiymətlərin optimal səviyyəsi üzrə uyğun qərarlara nail oluna bilməsin. Qiymətlərin optimal səviyyəsini müəyyən etmək üçün isə aşağıdakılar nəzərə alınmalıdır: müvafiq mənfəət həcminin əldə edilməsinin zəruriliyi; istehsal xərclərinin inkişaf meyli; xüsusi sahibkar xidmətləri və xüsusi bazar münasibətləri; ictimai mənafelər.

## 3.QİYMƏTLƏRİN TƏNZİMLƏNMƏSİNİN DOLAYI METODLARI

Dövlət tənzimlənməsinin birbaşa metodları ilə yanaşı qiymətlərin əmələ gəlməsi prosesinə təsir göstərən dolayı metodlar da mövcuddur və onlar əlaqəli şəkildə dövlət-inhisar tənzimlənməsinin ümumi alətləri hesab edilirlər.

Qiymətlərin əmələgəlməsində təsirin dolayı metodları qərbi Avropa ölkələrində XX əsrin başlanğıcından tətbiq edilir və bu vaxt qiymətlərin inflyasiya artımı mütəşəkkil bir meyl kimi davam edirdi. Bu metodlar isə, adətən, konyukturanın dəyişdirilməsinə, maliyyələşdirmə, valyuta və fergi əməliyyatları sahəsində vəziyyətin sabitləşməsinə, ümumilikdə isə tələb və təklif arasındakı nisbətin normallaşdırılmasına yönəldilmişdirvə makro-iqtisadi xarakter daşıyırlar. Həmin metodlara dövlət tədarükü, vergi sistemi, pul tədavülü və kredit sisteminin tənzimlənməsi, dövlət xərclərinin tənzimlənməsi və dövlət əsaslı vəsait qoyuluşu siyasəti, amortizasiya normalarının qoyulması və başqaları aiddir. Bu metodların köməyi ilə dövlət və təklif arasında tarazlığın əldə edilməsinə və saxlanılmasına, bununla da bütün iqtisadiyyat miqyasında qiymətlərin daha bərabər ölçüdə tədriclə artımına nail olmağa çalışır.

İnkişaf etmiş ölkələrdə qiymətlərin tənzimlənməsinin dolayı metodlarına, həmçinin, dövlət tərəfindən torpaq rentasının, uçot dərəcələrinin, əmək haqqının (əgər qiymətlərin birbaşa tənzimlənməsi ilə əlaqədar deyilsə), eləcə də

qiymətlərin əmələgəlməsinə təsir göstərən digər amillərin tənzimlənməsinə yönəldilmiş fəaliyyət sahələri də aid edilir.

Son illərdə qiymtlərin dolayı metodlarla tənzimlənməsi təcrübəsi öz əhəmiyyətini itirməkdədir. Bu hər şeydən əvvəl, onunla əlaqədardır ki, müasir kapitalizm şəraitində kortəbii bazar inhisar tənzimlənməsi ilə daha yüksək dərəcədə bağlıdır və onunla məhdudlaşır. Bu vəziyyət inkişaf etmiş kapitalist ölkələrinə xasdır. Əksər məhsulların qiymətləri iri inhisar firmaları tərəfindən müəyyən olunur. Tələbin dəyişməsi ilə inhisarlar əvvəllər müəyyən edilmiş qiymətləri saxlayaraq istehsl həcmini tez-tez dəyişirlər.

Bir çox hallarda qiymətlərə nəzarətin birbaşa metodları ilə dolayı metodları ziddiyyət təşkil etməyərək üzvi əlaqələnirlər: ümumi inflyasiyaya qarşı siyasət və qiymətlərin əmələ gəlməsi prosesinə dolayı metodlarla təsirlə bağlı tədbirlər bilavasitə dövlət tənzimlənməsinin birbaşa metodları ilə tamamlanırlar. Dövlət qiymətlərin hərəkət rejiminin müəyyən olunması yolu ilə . onların sabit səviyyədə «dondurulmasının» köməyi ilə, istehsal xərclərini ayrı-ayrı maddələrinə nəzarət etmək vasitəsilə müəssisələrin məhsulların qiymətləri səviyyəsini müəyyən etməklə bağlı qərarlarına müdaxilə edir. Beləliklə, kortəbii bazar mexanizmi inhisçarlar tərəfindən tənzimlənmə ilə birlikdə geniş təkrar istehsal üçün normal şəraitin təmin edilməsi ilə bağlı birbaşa dövlət-inhisar tənzimlənməsi ilə tamamlanır.

## 4.İSTEHLAK SƏBƏTİ VƏ QİYMƏTLƏR ARASINDAKI NİSBƏTLƏRİN BEYNƏLXALQ TƏNZİMLƏNMƏSİ

Əhalinin yaşayışı üçün lazım gələn istehlak mallarının və müxtəlif xidmətlərin bahalaşması müasir dövrün ən böyük sosial qüsurlarından biridir. Heç kimə sirr deyildir ki, işçilərin əmək haqqının, mənzil təminatının, istirahətinin təşkili, sağlamlığın qorunması problemlərinin vəziyyəti onunla birbaşa əlaqədədir. Odur ki, bahalıq anlayışının özü, hər şeydən əvvəl, insan

həyatının, onun yaşayışının zəruri şərtlərinin bahalaşması kimi başa dşülməlidir.

Ekoloji böhran yalnız konkret bir ərazi dövlət çərçivəsi ilə məhdudlaşmayıb ümumdünya probleminə çevrildiyi kimi, bahalıqda, xüsusən ərzaq məhsullarının bahalaşması da dünya ölkələrinin demək olar ki, əksəriyyətində baş verir. Bu, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə daha kəskin bir tərzdə formalaşır.

İstehlak səbətinə daxil olan ən mühüm ərzaq, qeyri-ərzaq mallarının və xidmətlərin bahalaşması əhalinin məcbur edir ki, gəlirlərin daha çox hissəsini, ilk növbədə, vacib olan həmin malların və xidmətlərin alınmasına xərcləsinlər. Əks halda isə onların istehlakı sadəcə olaraq ixtisar olunmalıdır.

Bahalaşma əsasən inkişaf etmiş ölkələrin uzun müddət təsiri altında olan ölkələrdə geniş vüsət tapmışdır. Məhz buna görə həmin ölkələrdə əhalinin orta səviyyəsi inkişaf etmiş kapitalist ölkələrində olduğundan çox-çox aşağıdır. Belə ki, həmin ölkələrdə orta ömür müddəti 30-50%-dən az, ərzaq məhsullarının orta kaloriliyi 30-40%-dən aşağıdır. BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatının, Beynəlxalq yenidənqurma və inkişaf bankının məlumatlarına görə dünyada son əllərdə aclıqdan və doyunca yeməməkdən hər il 30-40 mln. adam ölür. Bu, II Dünya müharibəsi illərində hər il ölənlərə nisbətən 4-5 dəfə çoxdur. Hazırda doyunca yeməməyin müxtəlif formalarından dünya əhalisinin 40%-i əzab çəkir, hər gün orta hesabla 40 min uşaq acından ölür. Ərzaq böhranı xüsusi ilə Afrikada daha kəskin xarakter alır. Son 10 il ərzində adambaşına düşən ərzaq istehsalı 10%-dən çox azalmışdır. Ərzaq məhsullarının bahalaşması isə daha sürətli olmuşdur.

Dünya ölkələrində artıq problemi, ərzaq məhsullarının bahalaşması ümumi ekoloji çətinliklərlə əlaqələnsə də , hər halda ayrı-ayrı ölkələrin iqtisadi, demoqrafik, sosial və siyasi inkişaf amillərindən və meyllərindən daha çox asılı olur. Yalnız ekoloji şəraitin pisləşməsi deyil, məhz göstərilən həmin amillərin və meflların mövcud vəziyyəti son anda hər bir ölkədə yaşayış vasitələrinin bahalaşması səbəblərini doğurur. Bu baxımdan dünya ölkələrinin

təcrübəsində yaşayış vasitələrinin bahalaşmasının iqtisadi və sosial səbəblərinin öyrənilməsinə daha çox yer verilir. Proses mürəkkəb və çoxcəhətli olub, bir çox iqtisadi göstəricilərin nəticələrini özündə birləşdirir.

Bahalığın yaranmasının əsas səbəbləri sırasına qiymətlərin qalxmasını, mal təklifi ilə əhalinin alıcılıq qabiliyyətli tələbi arasındakı uyğunsuzluq, mal qıtlığını, manatın alıcılıq qabiliyyətinin qeyri-sabitliyini və s. daxil etmək olar. Daha dəqiq desək, həmin səbəblər özünü yaşayış vasitələrinin bahalaşmasında əks etdirir. Bahalıq isə qiymətlərin qalxmasının aynasıdır. Qiymətlərin qalxması müxtəlif formalarda bahalığın yaranmasına təsir göstərərək əhalinin mövcud tələbatının səviyyəsi ilə onların faktiki istehlakı arasındakı uyğunsuzluğu gücləndirir. Mövcud qiymətlərin səviyyəsi ilə bahalıq gözəgörünməz tellərlə bağlıdır. Qiymətlər gizlin qalxır, yaşayış vasitələri bahalaşır.

Ənənəvi bazar iqtisadiyyatı ölkələrində hər cür fəaliyyətin əsasını azad sahibkarlıq və sərbəst ticarət prinsipləri təşkil edir. Ona görə də zəruri dünya təcrübəsinin aparıcı rol oynadığı klassik bazar iqtisadiyyatı ölkələrində iqtisadi sistemin mövcud müvəffəqiyyətlərini özbaşına, nizamsız, pərakəndə fəaliyyətin nəticəsi kimi qiymətləndirənlər tamamilə səhv edirlər. Düzgür, burada bütün hüquqi və fiziki şəxslər qanuna zidd olmayan hər cür istehsalat və ticarət fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər. Lakin bazar iqtisadiyyatı şəraitində bu və ya digər iqtisadi, siyasi, hərbi və s. vəziyyətdən asılı olaraq bazar mexanizminin fəaliyyətinə dövlətin müdaxiləsi sərfnəzər edilir. Həm də başlıca üstünlük ondan ibarətdir ki, bazarın prinsipləri hamılıqla və olduğu kimi dərk edilir, onlara tam dəqiqliyi ilə əməl olunur. Müqavilə və razılaşmalara məsuliyyət, biznes etikası, sahibkarlıq mədəniyyəti, kiçikdən böyüyə qədər bütün pillələrdə hamını həmin prinsiplərin ardıcıllıqla həyata keçirilməsinə vadar edir.

Bazar iqtisadiyyatı istehsalın istehlaka uyğunlaşdırılmasının ən çevik və həm də elastik sistemidir. Müasir bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi sübut edir ki, real bazar münasibətlərinin mövcudluğunun özü rəqabət və

sosial müdafiə prinsiplərinə dövlət nəzarətinin təmin edilməsi deməkdir. Yəni dövlətin bu prosesə müdaxiləsinin form istiqamətləri bazar iqtisadiyyatının inkişaf dərəcəsindən asılı olaraq dəyişməlidir.

Qiymətlərin sərbət müəyyənləşdirilməsinin qüvvədə olan prinsiplərinə baxmayaraq bütün inkişaf etmiş kapitalist ölkələrində iqtisadi mexanizmin bu vacib amilinə tənzimləyici təsir göstərilməsi mütəmadi olaraq dövlətin diqqət mərkəzindədir. Dövlət bu sahədəki funksiyalarına müvafiq oalarq xüsusi inzibati-hüquqi mexanizmlər yaradır və onun gücü ilə müəyyən tərzdə situasiyada ölkədaxili qyimətəmələgəlmə prosesinə təsir göstərə bilir. Dövlətin qyimətlərə tənzimləyici təsiri əsasən iki istiqamətdə aparılır. Birincisi, qyimətlərin birbaşa tənzimlənməsi vasitəsilə, ikincisi isə, qiymət üzərində nəzarətin həyata keçirilməsi yolu ilə, yəni sərbəst şəkildə müəyyən edilmiş qiymətlərin deklarasiya olunaraq qeydiyyata alınması yolu ilə.

Məsələn, avstriyada qiymətlərin tənzimlənməsi mexanizmi dövlət tənzimlənməsini, habelə hökumətin, sahibkarların və zəhmətkeşlərin nümayəndələri arasındakı daha vacib iqtisadi və sosial məsələlər paritet (bərabər) nisbətlər əsasında, ölkədə tarixən mövcud oaln «sosial tərəf müqabillik» adlanan ənənəvi tənzimlənmə qaydalarını özündə birləşdirir. Bütün dünya təcrübəsində iqtisadiyyatın ağır vəziyyəti və bir çox istehsal-texniki və istehlak təyinatlı məhsulların kəskin qıtlığı ilə əlaqədar olaarq qiymətlərin dölət tənzimlənməsinə daha geniş yer verilir. Avstriyada da belə olmuşdur. Xüsusilə II Dünya müharibəsindən sonra qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların sayı (ən zəruri xalq istehlakı malları hesabına) daha da artmışdır. Bütün klassik bazar iqtisadiyyatı ölkələrində olduğu kimi Avstriyada da qiymətlərin tənzimlənməsinin birinci mərhələsi bütün məhsul növlərini və xidmət sferasını əhatə etmişdir, lakin iqtisadi vəziyyət normallaşdıqca öz-özünü tənzimlənmənin bazar mexanizmləri bərpa olunduqca, bəzi zəruri sosial-iqtisadi amillərin tələbləri nəzərə alınmaqla həmin məhsul və xidmət növlərinin siyahısı tədricən azalmağa başlamışdır. Yeri gəlmişkən qeyd edək ki, bizim siyasətimizdəki ən böyük səhvlərdən biri

də ondan ibarətdir ki, ölkədə iqtisadi və sosial gərginlik artdıqca heç bir dünya təcrübəsi və müharibə qanunları ilə hesablaşmadan qiymətlərin sərbəstləşməsinə daha çox üstünlük verir, ən zəruri xalq istehlakı malları ilə əhalinin tələbatının minimum ödənilməsinə kömək edən normalaşdırılmış təminat imkanlarımızdan imtina edirik.

Hzaırda Avstriyada qiymətlərin dövlət tənzimlənməsi 1976-cı ildə qəbul edilmiş və 1988-ci ildə yenidən redaktə edilmiş «qiymət haqqında» qanuna əsasən həyata keçirilir. Burada qiymətlərin müəyyənləşdirilməsində böyük səlahiyyətlərə malik olan İqtisadiyyat Nazirliyinin Qiymət Departamenti tərəfindən müəyyən olunan qiymətlərin siyahısı artıq həmin qanunla müəyyən edilmişdir. Orada qiymət vasitəsi ilə əhalinin sosial müdafiəsi çox yaxşı qurulmuşdur. Məsələn, bütün əczaçılıq və digər müalicə vasitlərinin qiymətləri Səhiyyə Nazirliyi tərəfindən tənzimlənməklə vaxtaşırı Qiymət Departamentində deklarasiya olunaraq qeydiyyatdan keçirilir. Qiymət haqqında qanuna əsasən müvafiq nazirliklər maksimum, minimum və habelə qeydə alınan möhkəm qiymətləri müəyyənləşdirmək hüququna malikdirlər. Təcrübəyə əsasən maksimum qiymətlərin müəyyənləşdirilməsinə daha çox meyl hiss olunur ki, bunun da yuxarı həddinə Qiymət Departamenti tərəfindən nəzarət olunur. Son illərdə ölkənin iqtisadi vəziyyətinin bir qədər yaxşılaşması ilə əlaqədar çolaraq Avstriyada qyimətləri dövlət tərəfindən tənzimlənən məhsulların siyahısında xeyli ixtisar aparılmışdır . Lakin «qiymət haqqında» qanunda nəzərdə tutulduğu kimi hadisələrin gedişindən və iqtisadi şəraitdən asılı olaraq istənilən məhsul qruplarının qiymətləri ictimai-siyasi vəziyyətin təkrarən gərginləşdiyi hallarda yenidən dövlət tənzimləmə siyahısına daxil edilir.

Bir sözlə, bütün bazar iqtisadiyyatı ölkələrində qiymətəmələgəlmə prosesləri idarə olunur və tənzimlənmənin məqsədi inflyasiya proseslərinin cilovlanması, əhalinin rifahının yaxşılaşdırılmasının təmin edilməsi, gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi proseslərində sosial ədalət prinsipinin təmin edilməsindən ibarətdir. Burada tənzimləmə obyekti həyat

səviyyəsinin təmin edilməsi, minimal istehlak səbətinin müəyyən edilməsində nəzərə alınan ilkin tələbat malları (xüsusən ərzaq məhsulları) və xidmətlərdir (nəqliyyat, rabitə, kommunal, məişət və s.). Qiymətlər müəyyən edilərkən istehsalçılar tərəfindən mümkün ola biləcək sui-istifadə, şəxsi mənafe və özbaşınalıq meyllərinin aradan qaldırılması tənzimləmənin əsas xəttini təşkil edr. Həmçinin idxal-ixrac proseslərində dövlət mənafeyinin təmin olunması ön plana çəkilir.

İdarəetmə proseslərinin yüksək dərəcədə mexanikləşdirilməsinə (elektron hesablama texnikası və s.) baxmayaraq qiymətlərə nəzarət və tənzimləmə üzrə dövlət strukturları sanballı və mükəmməldir, onların işində paralelizmə yol verilmir, idarə apparatı yığcam, optimal tərkibdə və nəzarət məqsədlərinə uyğun qanunvericilik aktları əsasında sahələr üzrə dəqiq uzlaşdırılaraq üzvi surətdə əlaqələndirilməklə müəyyənləşdirildiyindən nəzarət-tənzimləmə işlərində pərakəndəlik, idarəçilik mənafelərinin üstün tutulması kimi mənfi hallar aradan qaldırılmışdır. Qiymətlərin proqnozlaşdırılması, dövlət tənzimlənməsi və onlara nəzarətin təşkili funksiyaları İqtisadiyyat Nazirliyinə tabe olan vahid bir dövlət strukturunda Qiymətlərə Nəzarət Komitəsi, idarəsi, departameti və s. adlanan qurumlarda cəmlənmiş, nəzarət funksiyaları isə onun nəzdindəki xüsusi qiymət inspeksiyalarına həvalə edilmişdir.

Qiymətlərin tənzimlənməsi prosesində vergi dərəcələri və gömrük rüsumlarının tətbiqi əhəmiyyətli rol oynayır, həmin iqtisadi mexanizmlərdən çevik istifadə olunur.

Qiymət intizamının pozulmasına görə qanunvericiliklə ciddi və kəskin tədbirlər, o cümlədən maliyyə sanksiyaları tətbiq edilir. Qiymətlərin tənzimlənməsi və ona nəzarətin təşkilində ictimai təşkilatlar, müxtəlif cəmiyyət və fondlar dəlaqəli surətdə iştirak edirlər.

Qiymətlərin sərbəstləşdirilməsi prosesi ən zəruri bazar elementləri bərqərar olana qədər (istehsal müəssisələrinin və xidmət sahələrinin tam özəlləşdirilməsi, ölkədə əlverişli ictimai siyasi vəziyyətin formalaşması və s.) uzun bir dövr ərzində (30-40 il) tədricən davam edir. Həmin dövrdə

qiymətlərin dövlət tənzimlənməsinin və ona nəzarət edilməsinin keçid dövrünün tələblərinə müvafiq olan müxtəlif forma və metodlardan istifadə edilir.

Qeyd etmək lazımdır ki, yaxın xarici ölkələrin əksəriyyətində də (keçmiş SSRİ respublikalarında) qiymətlərin dövlət tənzimlənməsi və ona nəzarət funksiyaları vahid bir dövlət orqanında, iqtisadiyyat nazirlikləri nəzdindəki qiymət komitələrində və ya eyni funksiyalara malik olan qiymət departamentlərində cəmləşdirilmişdir. Məsələn, Baltikyanı dövlətlərdə müstəqil qiymət departamenti, Belarus respublikasında İqtisadiyyat və Planlaşdırma Dövlət Komitəsində Qiymət Departamenti, Qazaxıstan respublikasında Qiymət və Antiinhisar Siyasəti Komitəsi fəaliyyət göstərir.

Çox təəssüflər olsun ki, biz uzun illər sınaqdan çıxmış həmin dünya təcrübələrini mənimsəmək və özümüzün coğrafi, iqtisadi, siyasi vəziyyətimizə və mili ənənələrimizə uyğun olaraq onlardan düşünülmüş surətdə istifadə etmək əvəzinə Azərbaycanı müqəddəs məkanımıza, güzaranımıza, rifahımıza, mənəviyyatımıza və mövqeyimizə xələl gətirən iyrənc alış-veriş meydanına çeviririk.

Dünyanın svilizasiyalı ölkələrində spirtli içkilərdən və digər ümumbəşəri mənfiliklərdən istifadə edilməsinə qarşı ciddi ümumdövlət və ümumxalq tədbirləri görülür. Burada inzibati amillərlə yanaşı iqtisadi amillərdən, qiymət mexanizminin imkanlarından geniş istifadə edilir. Rusiya Federasiyasının hökuməti «Rusiya Federasiyasının ərazisində spirtli içkilərin və pivənin pərakəndə ticarəti qaydaları» haqqında xüsusi sənədi təsdiq etmişdir (26 sentyabr 1994-cü il, № 1088). Spirtli içkilərin istehsalı, satışı və istehlakı ilə əlaqədar, eləcə də onun harada, kim tərəfindən və necə yerinə yetirilə bilməsi zrə zəmanəmiz üçün vacib olan ən zəruri hüquqi normalar həmin sənəddə öz əksini tapmışdır. Real zərurət olan həmin sənəd istər büdcənin, istərsə də xalqın mənafeyi baxımından olduqca yüksək qiymətlərilə bilər. Bu sənədin əsas gücü spirtli içkilərin istehsalı və satışının dövlət nəzarətinə götürülməsindən ibarətdir ki, bu da təkcə büdcənin gəlirləri baxımından deyil,

həm də buraxılan içkilərin keyfiyyəti, təhlükəsizliyi, xüsusi satış yerləri və ciddi satış vaxtlarının (tədris müəssisələri, uşaq evləri, müalicə-profilaktika müəssisələrinin 500 metrliyindən yaxınlıqda spirtli içkilərin satışı qəti qadağan edilmişdir) müəyyən edilməsindən ibarətdir. Nəzərdə tutulan bütün müddəaların yerinə yetirilməsinə cavabdeh olan müvafiq orqanların ünvan və telefonları da göstərməklə həmin sənəd mərkəzi mətbuatda (İzvestiya qəzeti 28 noyabr 2008-ci il) nəşr edilmişdir.

Moskvadan fərqli olaraq spirtli içkiləri (istər gündüz, istərsə də gecə) ancaq ixtisaslaşdırılmış mağazalardan spirtli içkilərin satışı ancaq kassa nəzarət aparatları vasitəsilə həyata keçirilir. Litva hökumətinin qərarı olmadan arağın və şərabın xarici nümunələrinin lisenziyalaşdırılmış istehsalı ciddi surətdə qadağan edilmişdir (İzvestiya qəzeti 28 noyabr 2008-ci il). Bu d əhəlli vacib olan mühüm iqtisadi və sosial problemlərdən biri kimi qiymətləndirilə bilər.

Azərbaycan üçün bu olduqca vacibdir. Çünki, spirtli içkilərin istehsalı və satışı ilə məşğul olan müəssisələrin, mağazaların, köşklərin sayı 1990-cı ilə nisbətən (rəsmiyyətdə olanlar nəzərdə tutulur) 5 dəfəyə qədər artmışdır. Belə qazanc yollarına əhalinin meyl etməsinə dövlət nəzarətsizliyi həyat üçün zəruri xalq istehlakı mallarının istehsalının azalmasına mənfi təsir göstərən ən güclü amillərdən biridir.

Biz əgər sahibkarlıqdan danışırıqsa, elə keçid dövrünün ən birinci sahibkarı dövlət özüdür. Dövlət keçid dövründə ən qayğıkeş sahibkara çerilməsi, sahibkarlığı tədricən təbliğ etməli və ona hüquqi baza yaratmalıdır.

Özünün geniş imkanlarından istifadə etməklə dövlət daxili bazarı güclü xarici istehsalçıların əmtəə təcavüzündən (inhisarından) qorumalı, yerli sahibkarların, biznesmenlərin və digər iş adamlarının istehsal marağını artırmaq üçün vergi, kömrük, güzəştli kredit kimi qiymətə təsir edən amillərin stimullaşdırıcı imkanlarından geniş istifadə etməlidir. Çünki bu cür tədbirləri həyata keçirmədən inkişafdan danışmaq olmaz.

Məsələn, İsveçrədə qiymətlərin əmələ gəlmə proseslərinə təsir etmə vasitələrini özündə cəmləşdirən bir sıra normativ dövlət sənədləri toplusu vardır. Həmin sənədlərə müvafiq oalarq kənd təsərrüfatının əmtəəlik məhsullarının 50 faizindən çoxunun qiymətləri qeydə alınır və tənzimlənir.

Dünyanın sənayecə inkişaf etmiş ən svilizasiyalı ölkələrindən biri olan Fransada qiymətlərin dövlət tənzimlənməsi üzrə ən ciddi rejimin əsası hələ 20-ci əsrin ortalarında qoyulmuşdur. Qiymətlərin tənzimlənməsi və onlara nəzarət üzrə dövlət orqanları 1986-cı ilə qədər müstəqil dövlət Departamentində, sonra vahid dövlət Şurasında təmərküzləşdirilərək 3 mindən artıq dövlət Nəzarətçisini özündə birləşdirir.

Dünyanın inkişaf etmiş kapitalist ölkələrində qiymətlərə nəzarət və onun dövlət tənzimlənməsi təcrübəsi (bu sahədə mütərəqqi forma və metodların, nəzarət və tənzimləmə üsullarının ümumiləşdirilmiş nəticələri) göstərir ki, azad sahibkarlıq və müstəqil ticarət fəaliyyətinə əsaslanan bazar iqtisadiyyatı heç də qiymətlərə nəzarətsiz fəaliyyət sistemi kimi başa düşülməməlidir. Dünya təcrübəsində sübut olunmuşdur ki, ölkənin iqtisadi, siyasi və hərbi vəziyyətindən asılı oalarq qiymətlərə nəzarətin və onların tənzimlənməsi miqyası müəyyən edilməlidir. Əks halda hər hansı cəmiyyətdən, zaman və məkandan asılı olmayaraqiqtisadi sistemin fəaliyyəti dəryada kompassız üzən gəminin hərəkəti taleyinə bənzəyir.

Qiymətlərin sürətlə artmasının, inflyasiyanın kökləri iqtisadiyyatın hədsiz dərəcədə səmərəli olmayan strukturu, birinci bölmə məhsullarının həddindən artıq və istehsaldakı inhisarının yüksək dərəcədə olması ilə izah oulunr. İnflyasiyanın belə köklü səbəblərdən yaranması ondan qısa müddətdə yaxa qurtarmağın mümkün olmayacağını sübut edir. Bu səbəbdən də onu zəiflədən mexanizmin işlənib hazırlanması tələb oluunr. Bu mexanizmlər universal və mütəhərrik olmalıdır. Yalnız belə mexanizmlər get-gedə artmaqda olan bahalığa və ifnlyasiya proseslərinə qarşı durra bilər. Əhalinin pul gəlirlərinin indeksləşdirilməsi bazar iqtisadiyyatına mlik, sənayecə inkişaf etmiş ölkələrin təcrübəsindən qazanılan belə mexanizmlərdən biridir.

İndeksləşdirmə dedikdə, ümumiləşdirilmiş şəkildə gəlirin nominal göstəricilərinin (eləcə də vergi norması faizlərinin), əvvəlcədən müəyyən olunmuş proseduraya uyğun qyiəmtlərin indeksinin dəyişməsi ilə birbaşa əlaqələndirilməsi mexanizmi başa düşülür. İndeksləşdirmə mexanizmi təkcə ölkəəlrüzrə deyil, həm də ölkə daxilində sahələr üzrə, sosial qruplar üzrə və i.a. dəyişə bilər. Baxmayaraq ki, dünya təcrübəsində indeksləşdirmə inflyasiya şəraitində əhalinin gəlirlərinin nizamlanmasının yeganə üsulu deyil, onun yayılma dərəcəsi inflyasiya proseslərinin dinamikasını bütövlükdə əks etdirərək həmişə dəyişir.

İndeksləşdirmə mexanizminin əsas elementlərinə baza indeksi, nizamlanan gəlirin növü (asılı dəyişən) və onların ən səmərəli münasibəti əlaqəsi aid edilə bilər.

Əksər hallarda baza indeksi kimi istehlak qiymtləri indeksi istifadə olunur. İstehlak qiymətləri indeksi (İQİ) zaman keçdikcə əhali tərəfindən istehlak edilən mal və xidmət növlərinin qiymətlərinin dəyişməsini ölçməyə xidmət edir.

İQİ indeksi istehlakçının alıcılıq qabiliyyətinə təsir göstərən qiymət artımlarını əks etdirməli olduğundan, qiymətlər mal və xidmətlər çün əvvəlcədən müəyyən edilmiş istehlak yığımı üçün qeyd olunur. Bu yığım əhalinin heç olmazsa, müəyyən hissəsinin istehlak standartını əks etdirməlidir.

İqi bazar iqtisadiyyatına malik ölkələrin həyatında müstəsna rol oynayır: inflyasiyanı ölçməyə imkan verir, əhalinin gəlirinin nizamlanmasında rol oynayır və s.

Yeri gəlmişkən qeyd edək ki, bazar iqtisadiyyatına keçid şəraitində əmtəə və xidmətlər üzrə qiymət göstəricilərinin praktiki əhəmiyyəti getdikcə artmaqdadır. İstehlak bazarında inflyasiya proseslərini kəmiyyətcə xarakterizə edən bu göstəricilər dövlətin sosial proqramlarının formalaşdırılması və dəqiqləşdirilməsində, sahibkarlar və muzdla işləyənlərin münasibətlərinin tənzimlənməsində, digər iqtisadi problemlərin həllində fövqəladə vasitə kimi çıxış edir.

Son illərə qədər respublikanın istehlak sektorunda inflyasiya göstəricisi kimi əmtəə və xidmətlərin pərakəndə qiymətlərinin (tariflərinin) indeksindən istifadə olunur. Bu göstərici 1990-cı ildən başlayaraq pərakəndə satış üzrə əmtəə və xidmətlərin faktiki dəyər göstəricilərinin müqayisəli qiymətlərdə ölçməsi məqsədi ilə hesablanır.

Lakin ciddi tənzimlənən qiymətqoyma prosesindən azad qiymətlərə keçid, habelə pərakəndə ticarət indeksinin inflyasiyanın real miqyasının ölçülməsinə imkan yaratmaması, Azərbaycanın müasir iqtisadi şəraitinə və beynəlxalq statistik standartlara uyğun gələn, daha dürüst göstəricilər sisteminin hazırlanması tələbini irəli sürmüşdür.

Yuxarıda qeyd etdiyimiz kimi, hal-hazırda orta istehlakçı tərəfindən müntəzəm alınan daha vacib əmtəə və xidmətlər məcmusu dəyərinin dəyişməsini müəyyənləşdirən beynəlxalq standart istehlak qiymətlərinin indeksidir (İQİ). İQİ-nin əsas təyinatı əhali tərəfindən (qeyri-istehsal xarakterli) istehlak məqsədi ilə alınan əmtəə və xidmət qiymətlərinin ümumi səviyyəsinin zaman içərisində dəyişməsinin ölçülməsindən ibarətdir. Başqa sözlə desək, İQİ zaman keçdikcə əhali tərəfindən istehlak edilən mal və xidmət növlərinin qiymətlərinin dəyişməsini ölçməyə xidmət edir.

Odur ki, Beynəlxalq iqtisadi təşkilatların və xüsusilə Beynəlxalq valyuta Fondunun fəaliyyəti nəticəsində bu göstərici (İQİ) inflyasiyanın ölçməsi və tənzimlənməsi vasitəsi kimi əksər dünya dövlətləri tərəfindən qəbul edilmişdir.

Təqdirəlayiq haldır ki, Dövlət Statistika Komitəsi yeni indeksin yaradılması işinə müstəqil olaraq 2004-cü ildə başlamış və bu sahədə 2008-ci ilin sonunadək nəzərdə tutulan məqsədli proqramm çərçivəsində BVF ilə əməkdaşlıq etmişdir. BVF ekspertlərinin yardımı ilə 268 təmsiledici əmtəə qurpları və onların xüsusi çəkiləri müəyyənləşdirilmiş, qiymətlərin qeydiyyatına aid yeni sistem, qaydalar işlənilmiş, hesablama işləri üçün proqramm təminatı hazırlanmışdır. 2008-ci ilin noyabrından respublikada əmtəə və xidmətlərin qyimətlərinin qeydiyyatı təkmilləşdirilmiş qaydalar əsasında aparılır. Bu, 2008-ci ildən etibarən, pərakəndə əmtəə indeksləri ilə

yanaşı, istehlak qiymətləri indekslərinin də eksperimental hesablamalarını aparmağa, onları uyğun dövrlər üzrə üzləşdirməyə, metodologiyanı təkmilləşdirməyə, əyani olaraq onun üstünlüklərini öyrənməyə, İQİ-ni respublikanın statistika praktikasına tətbiqetməyə imkan yaratmışdır. Beynəlxalq standartın respublika şəraitinə uyğunlaşdırılması, eyni zamanda 2005-ci ildən bəri inflyasiyanın retrospektiv hesablamalarını d başa çatdırmağa imkan vermişdir. Artıq 2008-ci ilin yanvar ayının yekunlarından başlayaraq İQİ Azərbaycanın istehlak sektorunda inflyasiyanın əsas və rəsmi göstəricisi kimi verilir.

Onu da qeyd edək ki, inflyasiyanın qiymətləndirilməsində hesabat nöqtəsi kimi cari dövrün istehlak yığımını (Paaşe formulu) və ya bazis dövrünün istehlak yığımını (Layspeyres formulu) götürmək olar. Laspeyres formulu qiymətlərin həqiqi artımını bir qədər şişirdir, Paaşe formulu isə azaltmağa meyllidir. Bundan əlavə, Paaşe formulu əmtəələr və xidmətlər yığımına vaxtaşırı yenidən baxmağı tələb edir. Eyni zamanda bu formulun tətbiqi bilərəkdən nəticəni saxtalaşdırmağa gətirib çıxarır. Belə ki, əvvəlcədən olmayan xidmət və mal növlərinin zənbilə əlavə olunması ehtimalı çox böyükdür. Buna görə də əsasən Laspeyres formulu istifadə edilir.

İndeksin həqiqətə uyğunluğu qeyd olunmuş istehlak səbətinin tərkibi və təmsilçiliyindən, səbətə daxil olan mal və xidmətlərin qiymətlərinin dəyişməsinin düzgün qeydə alınmasından, tərkibin, strukturun və digər amillərin vaxtaşırı yeniləşməsindən asılıdır.

İQİ-nin ən çatışmayan cəhəti istehlak səbətinin sabit götürülməsidir. Çünki zaman keçdikcə köhnə  əmtəələr yenilərlə, nisbətən ucuzları ilə əvəz edilir. Bu xətalardan yaxa qurtarmaq üçün beş ildən bir istehlak səbətinin strukturuna baxmaq lazım gəlir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, indeksləşdirilən kəmiyyət rolunu əmək haqqı, pensiya, müavinətlər, təqaüd və müxtəlif sosial  ödənclər (hərdənbir sosial proqramlar bütövlükdə), eləcə də gəlir vergisi şkalası oynaya bilər.

Əmək haqqının indeksləşdirilməsinə üç prinsipial yanaşma mümkündr:

Birincisi, əmək haqqının tam indeksləşdirilməsini nəzərdə tutur. Bütün əlavə ödənclər ora daxil edilir və indeksləşdirmə ööbu ödənclərin kəmiyyətindən asılı olmayaraq həyata keçirilir.

İkincisi, indeksləşdirmə əmək haqqının minimum həddi ilə məhdudlaşır. Bu cür indeksləşdirmə 1959-1968-ci illərdə Fransada tətbiq edilmişdir.

Üçüncüsü, əmək haqqının nizamlanması onun səviyyəsindən asılı olaraq həyata kaçirilir, yəni minimum əmək haqqı artdıqda isə kompensasiya azalır. Bu sistem 70-ci illərdən Belçikada, ABŞ və Kanadanın bəzi sənaye sahələrində tətbiq edilmişdir. Hal-hazırda İtaliyada əmək haqqı 600 min lir olduqda 100%, qalanı isə qiymət artımının 30%-nə qədər indeksləşdirilir.

Tənzimləmə münasibətinin əsas elementi indeksləşdirmənin astanasıdır. Bu, qabaqcadan dövlət tərəfindən müəyyən edilmiş qiymət artımında elə səviyyədir ki, həmin səviyəyə çatdıqda indeksləşdirmə həyata keçirilir. Astananın müəyyən edilməsində əsasən iki cür yanaşmadan istifadə edilir. Birincisi, dövlət müəyyən vaxt üçün ölkədəki qiymət artımının sürətindən kifayət qədər yuxarı rəsmi astana müəyyən edir və bununla da əhalinin müxtəlif qruplarının real gəlirlərinin güclü qiymət sıçrayışlarından müdafiəsinə təminat verir. İkincisi, qiymət artımına uyğun olaraq gəlirlərin artırılmasını nəzərdə tutan sxemə əsaslanır.

İndeksləşdirmədə tətbiq edilən tənzimləmə münasibətlərini xüsusi halda üç kateqoriyaya bölmək olar: Proporsional, qeyd olunmuş və qarışıq kompensasiya . Proporsional kompensasiya adətən faizlərlə ifadə olunur və gəlirlərdəki fərqlərə toxunmur. Qeyd olunmuş kompensasiya üçün gəlirlərdəki fərqin azaldılması meyli xarakterikdir. Belə ki, həmin qeyd olnmuş məbləğ aşağı gəlirli əhali üçün çox gəlirlilərə nisbətən yuxarı olur.Belə kompensasiya ABŞ, kanada, Danimarka kimi ölkələrdə geniş tətbiq edilir. Qarışıq kompensasiyada həm proporsional, həm də qeyd olunmuş kompensasiyanın elementləri olur. Son vaxtlar üstünlük proporsional kompensasiyaya verilir ki, əmək haqqının ödənişində fərqlər qalsın.

İndeksləşdirmə siyasətinin çoxnövlü məqsədlərindən ikisi ən başlıca yer tutr. Hər şeydən əvvəl, indeksləşdirmənin faktiki və formal məqsədi əhalinin qeyd olunmuş istehlak nemətləri yığımını almaq qabiliyyətini saxlamaqdır.

İkinci məqsəd əhalinin işləyən hissəsi ilə sosial proqramlar üzrə müavinət alan hissəsinin həyat səviyyəsi arasındakı daimi münasibətin saxlanılmasıdır. Bu məqsəd ona görə vacibdir ki, nominal əmək haqqının artım sürəti bu və ya digər səbəbdən istehlak bölməsindəki qiymət artımı sürətindən geri qalır. Bu halda sosial proqramlar üzrə 100%-li indeksləşmə süni surətdə bu proqramlar üzrə müavinət alanların digərlərindən ayrılmasına gətirib çıxarır.

Respublikamızda islahatlar ləng və çətin getdiyindən əhalinin pul gəlirlərinin sonsuz artımı, rəsmi statistikanın məlumatına görə əhalinin həyat səviyyəsi göstəricisindən inflyasiya prosesinin mühüm göstəricisinə çevrilir. Bu zaman əhalinin gəlirlərinin qütbləşməsi prosesi müşahidə oluunr.

Hər şeydən əvvəl, yaşayış minimumunun kəmiyyətini müəyyən etmək lazımdır. Bu göstəricisiz əhaliyə pul ödənişinin minimal ölçüsünü əsaslandırmaq, yoxsuluq sərhəddini və eləcə də aztəminatlı ailələrin sayını müəyyən etmək mümkün deyildir. Buna görə də bu göstərici müasir dövrdə başlıca roloynayır və bölgü sisteminin əsasında durmalıdır.

Bizim respublikamız üçün ən çox uyğun gələni İQİ-dir. Lakin İQİ-nin hesabatı üçün istifadə olunan istehlak malları və xidmətləri seçkisinə nisbətən hesablanması metodikası ciddi dəqiqləşdirmələr tələb edir. Elə əmtəə və xidmətlər seçilməlidir ki, istehlak strukturu geniş əks olunsun.

Vahid bazar olmadığından inflyasiya proseslərinin inkişafının ərazi xüsusiyyətlərini nəzərə almadan keçinmək olmaz. Bütün bunlar İQİ ilə məşğul olan mütəxəssislərin səylərinin birləşdirilməsini tələb edir.

Gəlirlərin hər birinin özünəməxsus indeksləşdirmə mexanizmi vardır. Əmək haqqının indeksləşdirilməsində əsas problem indeksləşdirmə kəmiyyətini müəyyən etməkdir. Nəzəri cəhətdən minimal əmək haqqı, tariflər, okladlar, fərdi əmək haqqı və əmək haqqı fondu indeksləşdirmə kəmiyyəti ola bilər. Bu zaman əməyin mövcud ödənişinin getdikcə dərinləşən böhranı və hər

şedən əvvəl, tarif sistemi nəzərə alınmalıdır. Belə ki, əmək haqqının aşağı səviyyəli differensiasiyasında aşağı səviyyələrin indeksləşdirilməsi süni eyniləşdirməyə gətirib çıxarır. Yaşayış minimumunu qiymətləndirmək üçün xüsusi konstruksiyalı qismən indeksləşdirilən, əmtəələr və xidmətlər səbətinə əsaslanan İQİ ən məqsədəuyğundur.

Müasir dövrün təsərrüfat mexanizminin xüsusiyyətləri əmək haqqının indeksləşdirilməsindən vahid mexanizm kimi istifadə etməyə imkan vermir.

Yaşa görə verilən təqaüdlər itirilmiş əmək haqqının əvəzi olduğundan onun minimum ölçüsü yaşayış minimumuna bərabər olmalıdır. Bütün təqaüdlərin faizlə indeksləşdirilməsi məqsədəuyğundur. Çünki bu halda mövcud münasibətlər saxlanılır.

İctimai istehlak fondlarının pul ödənişlərinin inflyasiyasının pul kompensasiyası dövlət büdcəsindən verilməlidir.

Ümumiyyətlə, indeksləşdirmə gəlirlərin nizamlanması üçün dövlət siyasətinin elementlərindən olsa da, imkanları məhduddur. İstehlak bazarında əmtəə və xidmətlərin getdikcə yoxa çıxması ilə inflyasiya sürətinin artması qiymətlərin indiki artımının kompensasiyasını tamamilə mümkünsüz edir. Buna görə də günün ən aktual problemlərindən biri nizamlanan bazar mexanizminin müasir sisteminə adekvat bölgü münasibətlərinin, ümumi qlobal islahatın hazırlanması və həyata keçirilməsidir. Əhalinin pul gəlirlərinin indeksləşdirilməsi mexanizminə də bu sistemin elementi kimi baxmaq olar.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Qiymətlərin dövlət tənzimlənməsinin mahiyyəti və onun əsas formaları hansılardır?
2. Qiymətlərin dövlət tənzimlənməsi nədən ötrü zəruridir?
3. Qiymətlərin dövlət tənzilənməsinin birbaşa metodları hansılardır?
4. Qiymətlərin dövlət tənzimlənməsinin dolayı metodları hansılardır?
5. Qiymətlərin dövlət tənzimlənməsində staqflyasiya ilə mübarizə tədbirlərini göstərin.
6. «Diskomfort» indeksi nədir?
7. İnkişaf etmiş dünya ölkələrində qiymətlərin dövlət tənzimlənməsi və daxili qyimətlər necə nizamlanır?

## TESTLƏR

**1. Bazar iqtisaidyyatı olan ölkələrdə qiymətlərin dövlət tənzimlənməsi :**

A) nəzarət tədbiridir;

B) inhisarın maraqlarının qorunması tədbiridir;

C)) qanunverici, inzibati və büdcə-maliyyə tədbirlərinin köməyi ilə, bütünlükdə sistemin sabit inkişafına imkan yaratmaq yolu ilə dövlətin qiymətlərə təsir etmək təşəbbüsüdür;

D) iqtisaidyyatda dağıdıcı nəticələrə gətirib çıxarmayan inhisar və rəqabətin bu cür münasibətinin təmin olunması alətidir.

E) qiymətlərin təsbit olunmasıdır

**2. Qiymətlərin dövlət tənzimlənməsi nədən ötrü zəruridir?**

A)) iqtisadi  inkişafın sabitləşməsi üçün

B) xarici iqtisadi əlaqələrin tənzimlənməsi üçün;

C) inhisarçı siyasətinin həll olunması üçün;

D) dövlətin  pul-kredit siyasətinin reallaşması üçün;

E) oliqopolistlərin maraqlarının qorunması üçün.

**3. Qiymətlərin dolayı metodla tənzimlənməsinə aşağıdakılardan hansı aiddir?**

A) məhsul mübadiləsi və istehsal sahəsində dövlətin bilvasitə iştirakı zamanı qiymətlərin tənzimlənməsi;

B) məhsul bazarlarının tələb və təklif balansına təsir etmək yolu ilə qiymətlərin tənzimlənməsi;

C)) antiinhisar qanunvericiliyi ilə manuplyasiya;

D) gəlir siyasəti;

E) fermer gəlirlərinin «qorunmasının» vergi, hədd və məqsədli qiymətlərin tətbiq olunması.

# TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:

79. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
80. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
81. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
82. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
83. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
84. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
85. Певшин Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992 Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
86. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
87. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
88. Лорин А.Н. Ценооброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
89. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.
90. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.

91. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.
92. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.
93. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.

# MÖVZU 12.

## XARİCİ ÖLKƏLƏRİN QİYMƏT VƏ VALYUTA SİYASƏTİ

1. Beynəlxalq valyuta sisteminin mahiyyəti və tarixi inkişafı;
2. Valyuta siyasətinin təkamülü və inkişaf mərhələləri

Özünü yoxlama sualları.

Testlər

Ədəbiyyat siyahısı

# 1. BEYNƏLXALQ VALYUTA SİSTEMİNİN MAHİYYƏTİ VƏ TARİXİ İNKİŞAFI

Beynəlxalq valyuta sisteminin inkişaf tarixi mili və beynəlxalq iqtisadiyyatın inkişafı və təlabatları, dünyada qüvvələr yerləşməsinin dəyişiklikləri ilə müəyyənləşdirilir.

İlk dünya valyuta sistemi 19-cu əsrdə sənaye çevrilişindən sonra qızıl pul standartı formasında qızıl monometallizminin bazasında kortəbii surətdə formalaşmışdır. Hüquqi cəhətdən dünya pullarının vahid forması kimi qızılı təsdiq edən Paris konfransında (1867) dövlətlərarası sazişlə rəsmiləşdirilmişdir. Qızılın bütün pul funksiyalarını bilavasitə yerinə yetirdiyi zaman pul və valyuta sistemləri (mili və beynəlxalq) eynilik təşkil etmişlər. Yalnız bir fərq olmuşdur. Pullar dünya bazarına çıxmaqla «mili mündirlərini» atmış və ödəmələrdə çəkisinə görə qəbul edilmişdir. Paris valyuta sistemi aşağıdakı struktur prinsiplərinə əsaslanmışdır:

1. Onun əsasını qızıl pul standartı təşkil etmişdir.

2. Hər bir valyuta qızıl məzmununa malik idi. (Böyük Britaniya – 1816, ABŞ – 1837, Almaniya – 1875, Fransa – 1878, Rusiya – 1895-ci ildən). Valyutaların qızıl məzmunlarına uyğun olaraq qəzəl paritetləri müəyyənləşdirilmişdir. Valyutalar sərbəst surətdə qızıla konvertasiya edilmişdir. Qızıl hamının qəbul etdiyi dünya pulu kimi istifadə edilmişdir.

3. Bazar tələb və təklifi nəzərə alınmaqla qızıl nöqtələr daxilində sərbəst üzən valyuta kursları rejimi təşəkkül tapdı. Əgər qızıl pulların bazar məzənnəsi onların qızıl məzmunlarına əsaslanan paritetdən uzaqlaşırdısa, onda borclular beynəlxalq öhdəliklər üzrə xarici kapiğallarla deyil, qızılla hesablaşmağa üstünlük verməyə başlayırdılar . Qızıl istehsalı, xarici iqtisadi əlaqələr, pul tədavülü, tədiyyə balansları və beynəlxalq hesablaşmaların kortəbii tənzimləyici rolunu müəyyən dərəcədə oynamışdır. Qızıl pul standartı birinci dünya müharibəsinə qədər (hansı ki, valyuta kursunun və tədiyyə balansının tarazlaşdırılmasının bazar mexanizmi fəaliyyət göstərirdi) nisbətən

smərəli olmuşdur. Kəsirli tədiyyə balansına malik ölkələr qızılın xaricdə zəifləməsi zamanı deflyasiya siyasəti keçirməyə, tədavüldə olan pul kütləsini məhdudlaşdırmağa məcbur olurdular. Yalnız Böyük Britaniya tədiyyə balansının xroniki kəsirinə baxmayaraq (1890-1913-cü illər) kapitalı netto-zəifləməsini keçirmədi. (iki il istisna olmaqla). Birinci dünya müharibəsinə qədər təqribən 100 il ərzində yalnız ABŞ dolları və Avstriya taleri devalvasiya olundular: funt sterlinqin və fransız frankının qəzəl məzmunu 1815-1914-cü illərdə dəyişməz olmuşdur. Funt sterlinqin beynəlxalq hesablaşmalardakı aparıcı rolunda (1813-cü ildə 80%) istifadə edərək Böyük britaniya tədiyyə balansının kəsirini mili valyuta ilə ötürdü.

Səciyyəvi hal idi ki, qızıl pul standartının qızğın zəfər çağlarında beynəlxalq hesablaşmalar əsas etibarı ilə mili valyutaya, əsasən , ingilis valyutasına köçürülmüş trattalardan (köçrmə veksellərindən ) istifadə ilə həyata keçirilirdi. Qızıl çoxdan bəri təkcə ölkələrin beynəlxalq hesablaşmalarının passiv saldosunun ödənişinə xidmət etmişdir. 19-cu əsrin sonlarnda həmçinin, qızılın pul kütləsindəki payının (ABŞ,Fransa, Böyük Britaniyada 1872-ci ildən 1913-cü ilə qədər 28%-dən 10%-ə) və rəsmi rezervlərdəki payının (1880-ci ildən 1913-cü ilə qədər 94%-dən 80%-ə qədər) azalması tendensiyası yarandı. Xırdalanan kredit pullar qızılı sıxışdırdı .

Qızıl pul standartının tənzimləyici mexanizmi iqtisadi böhranlar zamanı (1825,1836-39, 1847, 1857,1855 və sair) fəaliyyətdən düşürdü. Deflyasiya siyasəti yolu ilə valyuta kursunun tənzimlənəsi, qiymətlərin enməsi və işsizliyin artması sosial faciə törədərək zəhmətkeşlərə istiqamətlənmişdi.

Tədricən qızıl standartı (qızıl pul) köhnəldi, belə ki, artan təsərrüfat əlaqələrinin miqyasına və tənzimlənən bazar iqtisadiyyatının şərtlərinə uyğun gəlirdi. Birinci dünya müharibəsi dünya valyuta sisteminin böhranı ilə yadda qaldı. Qızıl pul standartı pul və ya valyuta sistemi kimi göstərdiyi fəaliyyəti dayandırdı.

Hərbi xərclərin (208 mlrd. müharibəyə qədərki qızıl dollar) maliyyələşdirilməsi üçün vergilər, istiqrazlar, inflyasiya ilə yanaşı olaraq qızıl

dünya pulu kimi istifadə olundu. Valyuta məhdudiyyətləri tətbiq olundu. Valyuta kursları məcburi oldu və buna görə də qeyri-real oldu. Müharibənin başlanması ilə müharibə aparan ölkələrin mərkəzi bankları banknotun qızıla xırdalanmasını dayandırdılar və hərbi xərclərin ötrülməsi üçün onların emissiyasını artırdılar. Valyuta böhranının birbaşa səbəbi müharibə və müharibədən sonrakı dağınıqlıq idi. Birinci dünya müharibəsinin nəticəsində meydana çıxmış valyuta xaosu dövründən sonra qızıla və qızıla konvertasiya edilə bilən aparıcı valyutalara əsaslanan qızıl-deviz standartı müəyyən edildi.(anqlosaks ekspertinin tərifinə görə). Beynəlxalq hesablaşmalar üçün nəzərdə tutulan xarici valyutada olan tədiyyə vasitələri devizlər adlandırıldı. İkinci beynəlxalq valyuta sistemi hüquqi cəhətdən 1922-ci ildə Genuya beynəlxalq iqtisadi konfransında əldə olunan dövlətlərarası razılaşmalarla rəsmiləşdirildi.

Genuya valyuta sistemi aşağıdakı prinsiplərlə fəaliyyət göstərmişdir:

1. Onun əsasını qızıl və devizlər-xarici valyutalar təşkil etmişdir. Həmin dövrdə 30 ölkənin pul sistemləri də qızıl-deviz standartına əsaslanmışdır. Milli kredit pullar beynəlxalq tədiyyə-rezerv vasitəsi kimi istifadə olunmağa başlandı. Yalnız hərbdaxili dövrdə rezerv valyuta statusu rəsmi olaraq heç bir valyuta üzərində möhkəmlənməmişdi, funt sterliq və ABŞ dolları isə bu sferada liderliyə iddia edirdilər.
2. Qızıl paritetləri saxlandı. Valyutaların qızıla konvertasiyası nəinki birbaşa (ABŞ,Fransa, Böyük Britaniya) həm də dolayı yolla, xarici valyutalar vasitəsilə həyata keçirməyə başlandı. (Almaniya və təqribən 30 ölkə).
3. Sərbəst enib-qalxan valyuta kursları rejimi bərpa olundu.
4. Valyuta tənzimlənməsi aktiv valyuta siyasəti, beynəlxalq konfranslar, müşavirələr formasında həyata keçirilirdi.

1922-1928-ci illərdə nisbi valyuta sabitliyi yarandı. Amma onun dayanıqsızlığı aşağıdakılardan ibarət idi:

- pul və valyuta sistemlərində qızıl pul standartı əvəzinə qızıl monomentallizminin yarımçıq formaları tətbiq edilmişdi.

- valyutaların sabitliyi prosesi bir neçə il apardı, bu da valyuta münasibətləri üçün şərait yaratdı;

- valyuta sabitləşdirilməsinin metodları; onun sabitsizliyini qabaqcadan müəyyən etdilər. Əksər ölkələrdə devalvasiya keçirildi, Almaniya, Avstriya, Polşa və Macarıstanda bu, ləğv etməyə yaxın idi. Fransız frankı 1928-ci ildə 80% devalvasiya edildi. Yalnız Böyük Britaniyada 1925-ci ildə revalvasiya nəticəsində funt sterlinqin müharibəyə qədərki qızıl məzmunu bərpa olundu;

- valyuta sabitləşdirilməsi xarici kreditlərin köməyi ilə həyata keçirildi. ABŞ, Böyük Britaniya, Fransa bir sıra ölkələrin ağır valyuta – iqtisadi vəziyyətindən hökumətlərarası borcun ağır şərtlərini onlara zorla qəbul etdirmək üçün istifadə edirdi.

Valyuta sabitləşdirilməsi 30-cu illərdəki dünya böhranı ilə dağıdıldı. 1929-36-cı illərdəki dünya valyuta böhranının əsas xüsusiyyətləri belədir:

- tsiklik xarakter; valyuta böhranı ümumdünya, iqtisadi və pul-kredit böhranı ilə qarşılaşmışdı;

- struktur xarakter; dünya valyuta sistemi-qızıl deviz standartının prinsipləri süquta uğradı.

- böyük davametmə; 1929-cu ildən 1936-cı ilin payızına qədər;

- müstəsna dərinlik və kəskinlik; bir sıra valyutaların kursları 50-84% aşağı düşdü.

İkinci dünya müharibəsi dövründə valyuta məhdudiyyətlərini müharibə aparan ölkələr kimi neytral ölkələrdə tətbiq edirdi. Dondurulmuş rəsmi valyuta kursları müharibə illərində demək olar ki, dəyişmədi, baymayaraq ki, əmtəələrin qiyməti qalxmış və pulların alıcılıq qabilyyəti aşağı düşmüşdü. Valyuta kursu iqtisadi münasibətlərdəki aktiv rolunu itirmişdi. Bu, təkcə valyuta məhdudiyyətləri ilə deyil, həm də xarici ticarətin kreditləşməsi və maliyyələşdirilməsinin xüsusiyyətləri ilə şərtlənmişdir.

İkinci dünya müharibəsi Genuya valyuta sisteminin keçirdiyi böhranın dərinləşməsinə gətirib çıxardı. Yeni beynəlxalq valyuta sisteminin layihəsinin işlənməsi hələ müharibə illərində (1943-cü ilin aprelindən) başlanmışdı. 1941-ci ildən başlayaraq işləyən amerika-ingilis ekspertləri iln öncə qızıl standartına qayıdış ideyasını rədd etdilər. Onlar iqtisadi inkişafı təmin etməyə və iqtisadi böhranların mənfi sosial iqtisadi nəticələrini məhdudlaşdırmağa qabil olan yeni beynəlxalq valyuta sisteminin prinsiplərini işləməyə cəhd edirdilər. ABŞ-ın dünya valyuta sistemində dolların hakim mövqeyini möhkəmlətmək cəhdi öz əksini Uaytın (ABŞ Maliyyə Nazirliyinin valyuta tədqiqatları şöbəsinin rəisi) planında tapmışdır. BMT-nin Bretton-Vudsda (ABŞ) keçirilən valyuta-maliyyə konfransında dünya ticarətinin, valyuta, kredit və maliyyə münasibətlərinin təşkili qaydaları yaradıldı və üçüncü beynəlxalq sistemi rəsmiləşdirildi. Bu sistemin xarakterik cəhətləri aşağıdakılardır: Milli pul vahidləri mərkəzi banklar tərəfindən dollara dəyişdirildi. Ölkələr arasında mili pul vahidlərinin mübadiləsi isə Beynəlxalq Valyuta Fondunun təyin etdiyi möhkəm nisbətlər əsasında həyata keçirilirdi. Bütün dönərli mili pul vahidləri dolların vasitəçiliyi ilə qızıla çevrilə bilirdi. Bu isə ölkələrarası çoxtərəfli hesablaşmaları mümkün edirdi. Bretton – Vuds valyuta sisteminin prinsipləri aşağıdakı kimi idi:

1. Qızıl və iki rezerv valyuta-ABŞ dolları və funt sterlinqə əsaslanan qızıl-deviz standartı qəbul edildi.
2. Bretton-Vuds razılaşması dünya valyuta sisteminin əsası kimi qızıldan istifadənin dörd formasını nəzərdə tuturdu:

a) valyutaların qızıl paritetləri saxlanıldı və onların BVF-na funksiyası tətbiq olundu;
b) qızıl beynəlxalq tədiyyə və rezerv vasitəsi kimi istifadə olunmaqda davam edirdi;
c) özünün valyuta-iqtisadi potensialının və qızıl ehtiyatının artımına güvənən ABŞ əsas rezerv valyuta statusunu dollarda möhkəmləndirmək üçün onu qızıla bərabərləşdirdi;

d) bu məqsədlə ABŞ xəzinədarlığı dolların xarici mərkəzi bankların və hökumət təşkilatlarının qızılına mübadiləsini 1934-cü ildə müəyyən edilmiş rəsmi qiymət üzrə davam etdirdi (1 troya unsiyasına 35 dollar). ABŞ-ın təsiri altında Bretton-Vuds sistemi çərçivəsində dollar standartı dolların hökmranlığına əsaslanan beynəlxalq valyuta sistemini təsdiq olundu.

60-cı illərin sonunda etibarən Bretton-Vuds valyuta sisteminin böhranı başladı. Onun 1944-cü ildə müəyyən edilmiş struktur prinsiləri istehsal, dünya ticarəti və dünyada dəyişən qvvələr nisbətinin şərtlərinə uyğun gəlməməyə başladı. Bretton-Vuds valyuta sisteminin böhran keçirməsinin səbəblərini aşağıdakı kimi göstərmək olar:

1. İqtisadiyyatların dayanıqsızlığı və ziddiyyətliliyi. 1967-cı ildəki valyuta böhranının əvvəli iqtisadi artımıe yavaşması ilə üst-üstə düşdü.
2. İnflyasiyanın güclənməsi və onun müxtəlif ölkələrdə ayrı-ayrı templərə malik olması.
3. Tədiyyə balanslarının qeyri-sabitliyi. Bir sıra ölkələrin (xüsusilə, Böyük Britaniya və ABŞ) xroniki balans kəsiri və digərlərinin (AFR, Yaponiya) aktiv saldosu valyuta kurslarının kəskin şəkildə uyğun olaraq aşağı və yuxarı tərəddüd etməsini gücləndirirdi.
4. Bretton-Vuds sisteminin prinsiplərinin dünyada qüvvələr nisbətinin dəyişməsi ilə uzlaşmaması.
5. Avrodollar bazarının aktivləşdirilməsi.
6. Transmilli korparasiyaların valyuta sferasındakı pozucu rolu.

Bretton-Vuds sisteminin prinsipləri ABŞ üçün sərfəli olduğundan o, bu sistemi böhrandan xilas etmək üçün bir sıra tədbirlərə əl atdı, amma bütün bunlar əbəs idi. 1976-cı ilin yanvar ayında Yamaykada BVF-nun üzv ölkələri razılaşma əldə edərək və 1978-ci ildə BVF-nun Nizamnaməsində ikinci dəyişiklik edərək dördüncü beynəlxalq valyuta sisteminin prinsiplərini müəyyənləşdirdilər:

1. Qızıl-deviz standartının yerinə SDR standartı tətbiq edildi.

2. Qızılın demonetazisiyası hüquqi cəhətdən sonna çatdırıldı, onun rəsmi qiyməti, qızıl paritetləri ləğv edildi, dolların qızıla mübadiləsi dayandırıldı.
3. Ölkələrə istənilən valyuta kursu rejimini seçmək imkanı verildi.
4. BVF-na dövlətlərarası valyuta tənzimləməsini sürətləndirmək, gücləndirmək həvalə olundu.

Amma Yamayka valyuta islahatı salyuta sabitliyini təmin etmədi. Kreditlərin artmasına baxmayaraq maliyyə axınları və tədiyyə balansı kəsirləri ilə müqayisədə cüzi olaraq qalırdı. ABŞ-ın digər ölkələri «dollar istismarına» rəvac verən valyuta mexanizmindən partnyor ölkələrin narazılığı dünya valyuta sistemində yeni fundamental islahatlar keçirməyin obyektiv zəruriliyini gücləndirdi. Yamayka valyuta sisteminin qeyri-sabitliyinə cavab olaraq avropa İqtisadi Şurası ölkələri iqtisadi inteqrasiya prosesini stimulaşdırmaq məqsədilə xüsusi beynəlxalq (regional) valyuta sistemi yaratdılar.

Avropa valyuta sistemi 13 sart 1979-cu ildə yaradıldı. Onun məqsədləri belə olmuşdur: iqtisadi inteqrasiyaya nail olmanı təmin etmək; dollar standartına əsaslanan Yamayka valyuta sisteminin əksinə olaraq xüsusi valyuta ilə avropa sabitlik zonasını yaratmaq; «ümumi bazarı» dolların müdaxiləsindən qorumaq; Avropa valyuta sistemi (AVS) – iqtisadi inteqrasiya çərçivəsində valyutaların fəaliyyəti ilə əlaqədar olan iqtisai münasibətlərin məcmusudur; valyuta kurslarının sabitləşdirilməsi və inteqrasiya proseslərinin stimullaşdırılması məqsədilə «Ümumi bazar» ölkələrin valyuta münasibətlərinin təşkilinin dövləti-hüquqi formasıdır. Qərbi Avropa inteqrasiya kompleksinin xüsusiyyətləri Avropa valyuta sisteminin Yamayka valyuta sistemindən fərqlənən struktur prinsilərini müəyyn edir:

1. Avropa valyuta sistemi avropa vahidi olan EKYÜ-yə əsaslanır;
2. Avropa valyuta sistemi qızıldan real ehtiyat aktivləri kimi istifadə edir;
3. Valyuta kursları rejimi «Avropa valyuta planı» formasında valyutaların birgə üzməsinə əsaslanır;

4. Avropa valyuta sistemi valyuta intervensiyası ilə bağlı olan tədiyyə balanslarının müvəqqəti kəsirini və hesablaşmaları örtmək üçün mərkəzi banklara kredit verilməsi yolu ilə dövlətlərarası regional valyuta tənzimlənməsini həyata keçirir.

Şübhəsiz son zamanlar maliyyə bazarlarının tam inteqrasiyası üçün əsas cəhət bir sıra avropa ölkələrinin vahid bazar yaratmağa can atmasıdır. «Avropa-1992» qanunlar paketinin bir hissəsinə uyğun oaln liberallaşdırma tədbirlərinin geniş dairəsi mal və xidmətlər ticarəti həcmini, o cümlədən kapital axınını artmışdır.

Bu qanunlar paketinin məqsədi – Avropa Birliyi üzv ölkələri arasında kapitalın dövriyyəsinə qoyulmuş məhdudiyyətləri lğv etmək, o cümlədən bu birlik daxilində maliyyə fəaliyyəti sahəsində olan məhdudiyyətləri nəzərə çarpacaq dərəcədə azaltmaqdır. Lakin xüsusi düzəliş bu üzv ölkələrə imkan verir ki, onlar maliyyə bazarlarında və ya tədiyyə balanslarında problemləri yarananda kapital üzərində müvəqqəti nəzarət qoysunlar.

Avropa Birliyi haqqında növbəti sualda daha ətraflı danışacağıq.

## 2. VALYUTA SİYASƏTİNİN TƏKAMÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Valyuta siyasəti qeyd edildiyi kimi valyuta münasibətləri sahəsində həyata keçirilən bir siyasətdir və bu münasibətlər müasir dövrə qədər bir neçə mərhələdən keçmişdir. Əlbəttə natural təsərrüfat dövründə və ondan sonrakı zamanlarda valyuta münasibətlərindən danışmağa dəyməzdi. Lakin zaman keçdikcə bəşəriyyət nəcib metal olan qızıl kəşf etmiş və qızıl bundan sonra özünün bütün xassələrinə görə əmtəə-pul münasibətlərində ümumi ekvivalent rolunda çıxış etmişdir. İlk zamanlar qızıl külcə formasında, daha sonralar qızıl sikkələr, pullar formasında istifadə olunmuşdur. Artıq ictimai əmək bölgüsünün dərinləşməsi və xüsusən tacirlər sinfinin meydana gəlməsi ilə əlaqədar ölkələr arasında əmtəə-pul münasibətləri genişlənmişdir və bu genişlənmə valyuta münasibətləri sahəsinin də inkişafına təkan vermişdir.

Artıq bu dövrdə ölkələr arasında valyuta məzənnələri, tədiyyə münasibətləri və digər iqtisadi münasibətləri tənzimləyən beynəlxalq valyuta sistemi yaranmışdır. Beynəlxalq valyuta sistemlərinə bəzən beynəlxalq valyuta rejimi də deyilir. Beynəlxalq valyuta sistemi ilk növbədə hər hansı bir dövlətin mili valyuta sisteminə əsaslanır.

Milli valyuta sistemləri beynəlxalq hüquq normaları nəzərə alınmaqla mili qanunvericiliklə yaradılmışlar. Milli valyuta sistemləri bir sıra hallarda sərhədləri aşaraq fəaliyyət göstərsələr də, onlar ölkənin pul sisteminin tərkib hissəsini təşkil edirlər. Milli valyuta sistemlərinin xüsusiyyətləri ölkənin inkişaf səviyyəsi və vəziyyəti, beynəlxalq iqtisadi əlaqələri ilə müəyyən edilir. Onların köməyi ilə ölkənin beynəlxalq ödəmələr dövriyyəsi həyata keçirilir, geniş təkrar istehsal üçün lazım olan valyuta ehtiyatları formalaşdırılır. Dünyada mövcüd olan müstəqil mili dövlətlər qədər mili valyuta sistemləri mövcuddur.

Milli valyuta sistemləri onların aşağıdakı elementlərini xarakterizə edir.

- milli valyuta;
- mili valyutanın dönərlilik şərtləri;
- mili valyuta pariteti;
- mili valyuta rejimi;
- valyuta məhdudiyyəti və valyuta nəzarətinin olub-olmaması;
- ölkənin beynəlxalq valyuta nəqdiyyəsinin mili tənzimlənməsi;
- beynəlxalq kredit ödəmə vasitələrindən istifadənin düzgün müəyyənləşdirilməsi;
- mili valyuta bazarı və qızıl bazarı rejimi;
- ölkənin valyuta münasibətlərini idarə edən və tənzimləyən mili orqanlar;

Beynəlxalq valyuta sistemi ümumdünya təsərrüfat sisteminin təkamülünün nəticəsi olaraq XIX əsrin ortalarında formalaşmışdır, hüquqi cəhətdən dövlətlərarası sazişlər əsasında möhkəmləndirilmişdir. Beynəlxalq valyuta sisteminin fəaliyyətinin xarakteri və sabitliyi onun prinsipləri və təşkili formalarının dünya təsərrüfatının strukturuna, aparıcı dövlətlərin maraqlarına

və qüvvələr nisbətinə uyğun gəlməsi dərəcəsindən asılıdır. Bu şərtlər dəyişildikdə valyuta sisteminin təşkili prinsipləri də dəyişməsi zərurəti yaranır.

Benyəlxalq valyuta sisteminin tarixən aşağıdakı elementləri formalaşdırmışdır:

- ehtiyat valyutaları, beynəlxalq valyuta hesab vahidi;
- valyutaların qarşılıqlı dönərliyinin şərtləri;
- valyuta paritetinin rejimi;
- valyuta məzənnəsi rejimlərinin reqlamentə tabe edilməsi;
- valyuta məhdudlaşdırm alarının dövlətlərarası tənzimlənməsi;
- beynəlxalq valyuta nəqdiyyəsinin beynəlxalq tənzimlənməsi;
- beynəlxalq kredit tədavül vasitələrinin istifadə qaydalarının eyniləşdirilməsi;
- beynəlxalq hesablaşmaların əsas formalarının eyniləşdirilməsi;
- beynəlxalq valyuta və qızıl bazarları rejimi;
- dövlətlərarası valyuta tənzimlənməsini həyata keçirən beynəlxalq təşkilatların yaradılması.

Beynəlxalq valyuta (məzənnə) sisteminin üç növü vardır.

1. Qızıl standartı valyuta sistemi.
2. Bretton-Vuds valyuta sistemi (tənzimlənməsi valyuta məzənnəsi).
3. «Üzən» valyuta sistemi

İlk dəfə qızıl standartı XVIII əsrin sonunda Böyük Britaniyada yaranmış və 1816-cı ildə qəbul edilmiş qanunla möhkəmləndirilmişdir. Lakin 1865-cı ildə Fransa, İtaliya, Belçika və İsveçrə beynəlxalq ittifaq olan «Latın Sikkə İttifaqı»nı (1865-1878) yaratdılar. Bağlanmış sikkə müqaviləsində iki metaldan pul kəsilməsi nəzərdə tutulmuşdu: qızıl və gümüş. Qızıl və gümüş arasında nisbət 1\15,5 müəyyən edilmişdi. Amma kapitalist təsərrüfat sisteminin inkişafı şəraitində iki metaldan dəyər ölçüsü kimi istifadə edilməsi pulun funksiyalarının təbiətinə mənfi təsir göstərirdi. Ümumi dəyər ölçüsü kimi yalnız bir əmtəə çıxış edə bildiyinə görə və qızıl sikkələrin dövriyyədən çıxarılaraq dəfinəyə çevrilməsi nəticəsində sikkə müqaviləsi dağıldı.

Qızıl standartı XIX əsrin II yarısında başqa ölkələrə də keçmişdir. Məsələn, Almaniyaya 1871-73, İsveçrə, Norveç və Danimarkaya 1873, Fransaya 1876-78, Avstriyaya 1892, Rusiya və Yaponiyaya 1897, ABŞ-a 1900-cu ildə keçmişdir.

1867-ci ildə Parisdə I Beynəlxalq Valyuta Konfransı keçirilir və konfransda rəsmən qızıl standartının tətbiqi tövsiyyə olunur. Qızıl standartının işlədilməsi ilə yanaşı, bu zamandan etibarən kağız pulların tədavülünə geniş şərait yaranır. Xüsusilə qızıl məzmunu daha yüksək olan kağız pul – funt sterlinq dünya hesablaşmalarında xüsusi çəkiyə malik olur.

Qızıl standartının əsas xüsusiyyəti hər ölkənin pulunun dəyərinin müəyyən çəkidə saf müəyyən edilməsi, qızılın alqı-satqısı, ixrac və idxalın sərbəstləşməsidir. Burada qızıl sikkələr qədər banknotlarda istifadə edilməkdədir, lakin bunlar istənilən zaman hökumətlər tərəfindən qızıla dəyişdirilə bilərdi. Ümumiyyətlə, bu sistemdə hökumət müəyyən etdiyi sabit qiymətlə hər kəsə qızıl satar və özünə təklif olunan qızılları ala bilərdi. Bu sistemə bəzən sabit valyuta məzənnəsi sistemi deyilir.

Qızıl standartı ümumbəşər bir sistemdir. Hər ölkə pulun dəyərini qızılla tənzimlədiyinə görə, bütün ölkələrin pulları qızıl miqdarına görə avtomatik şəkildə bir-birindən asılı idi. Bunun üçün ayrıca müasir dövrdəki valyuta bazarlarına bənzəyən bazarlara ehtiyac qalmırdı.

Lakin birinci dünya müharibəsinin başlanması ilə əlaqədar dövriyyəyə əlavə kağız pul kütləsi buraxılması nəticəsində heç də bütün emissiyalar qızıl məzmunla örtülmədi. Nəticədə. Tədavüldə xeyli miqdarda təminatsız pul kütləsi yarandı. Buna görə də ölkələr qızıl ehtiyatlarını qorunmaq üçün pulların konversiya edilməsini aradan qaldırdılar. Müharibədən sonra yenidən qızıl standartına keçmə cəhdləri olsa da, bu cəhdlər baş tutmadı. Çünki qızıl standartının xüsusiyyətlərindən fərqli olaraq hökumətlər iqtisadi həyata daha müntəzəm qaydada müdaxilə etməyə başlamışdı.

Artıq 1922-ci ildə Genuyada II Beynəlxalq Valyuta Konfransı çağırılır və aşağıdakı prinsiplər müəyyən edilir.

1. Valyuta sisteminin əsasını qızıl və devizlər (xarici valyutalar) təşkil edir.
2. Qızıl paritet saxlandı.
3. Valyuta məzənnələrinin hərəkətinin bərpa edilməsi.
4. Aktiv valyuta siyasətinin tənzim edilməsi.

Fransanın rəhbərliyi altında kiçik bir qrup (İsveçrə, Belçika və Hollandiya) isə, pullarının qızıla tebeliyini davam etdirirdilər. Bunlar da «qızıl bloku» nu meydana gətirdilər.

Qızıl standartının ən böyük çatışmazlığı ondan ibarətdir ki, ölkə tam məşğulluğu təmin etmək üçün müstəqil daxili valyuta siyasəti yürüdə bilmir. Hətta qısamüddətli kapital yerləşdirmələrinin belə qızıl axınına təsiri nəticəsində bu siyasət zəifləyə bilər. Daha vacib olanı isə budur ki. Əgər xaricdə işsizlik varsa. Ölkənin ixrac mallarına aşağı düşmüş tələb tədiyyə balansı kəsirləri nəticəsində qızılın ölkədən çıxmasına səbəb olur. Beləliklə, Defilyasiya süni şəkildə ölkə daxilində həyata keçirilir və bu da işsizliyə gətirib çıxarır.

Beynəlxalq Valyuta Sisteminin ikinci mərhələsi 1944-cü ildən başlanılır. Belə ki, həmin ildə ABŞ-ın Bretton-Vuds şəhərində III Beynəlxalq Valyuta Eolnfransı keçirilir. Konfransın əsas prinsipləri aşağıdakılardır:

1. Qızıl-deviz standartının ABŞ dolları əsasında müəyyən edilməsi
2. Qızılın ehtiyat valyutası kimi yığılması
3. Məzənnələrarası valyuta tənzimlənməsi ABŞ dolları əsasında müəyyən edilir.
4. İlk dəfə beynəlxalq valyuta-kredit təşkilatları yarandı (Beynəlxalq valyuta Fondu (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı).

Bretton-Vuds sistemi ABŞ dollarına və onun vasitəsilə, dolayı yolla qızıla tabe valyuta sistemidir. Bu konfrans keçiriləndən sonra funt sterlinq zonası tamamilə dağıldı.

Sistemə daxil olan ölkə pulunun dəyərini sabit bir məzənnə ilə ABŞ dollarına bağlayır. Milli pulun bu sabit dollar məzənnəsinə «dollar pariteti»

deyilirdi. ABŞ isə, dolların dəyərini 1 unsiya qızıl 35 dollara sabit qiymətlə ölçmüşdü. ABŞ dolların daha hegomon mövqeyinə malik olması üçün məhdudiyyətsiz və sərbəst şəkildə dolların qızıla alınıb-satılmasını tətbiq edir. Yəni, istənilən xarici dövlət və eləcə də, ABŞ vətəndaşları öz sərəncamlarında olan dollar ehtiyatı ilə ABŞ-dan istənilən qədər qızıl almaq və yaxud alınmış qızılı dollara satmaq hüququ qazanırlar.

Getdikcə ABŞ-ın tədiyyə balansının kəsirinin böyüməsi ilə yanaşı dollara qarşı etimad göstəricisi azalmağa başladı. 1960-cı illərin əvvəllərində möhtəkirlər xaricdəki dollar ehtiyatlarının ABŞ-ın qızıl ehtiyatlarını aşdığını görərək dollardan qaçıb qızıla hücum etməyə başladılar. Bundan sonra 1960-cı ilin yanvar ayında ABŞ və digər sənayeləşmiş ölkələrin iştirakı ilə London Qızıl Fondu quruldu. Onun vəzifəsi London bazarında spekulyativ tələbi qarşılamaq üçün İngiltərə Mərkəzi Bankına qızıl satışlarında kömək etmək idi. Yəni xüsusilə ABŞ rəsmi ehtiyatlardan özəl spekulyatorlara qızıl sataraq qızılın bazar qiymətini 1 unsiya üçün 35 dollar nisbətində sabit saxlamaq istəyirdi. Ancaq ABŞ-ın rəsmi qızıl ehtiyatlarındakı böyük azalmaya baxmayaraq spekulyasiyanın dayanmaması nəticəsində 1968-ci ildə London Qızıl Fondu dağıldı.

Maraqlı olan məqamlardan biri budur ki, ABŞ pulunu başqa bir ölkənin valyutası ilə ölçmədiyi üçün dolları özbaşına devalvasiya elə bilmirdi. Başqa ölkələr pullarını revalvasiya etdikləri zaman dollar dolayı yolla devalvasiya edilirdi.

Bu baxımdan ABŞ tədiyyə balansı müsbət saldolu olan Almaniya və Yaponiya kimi ölkələrdən pullarının dollara qarşı revalvasiya edilməsini istəyirdi. Onlar da bu əməliyyatlardan zərər görə biləcək ixracatçı və idxalata rəqib sənayeçilərin təzyiqlərinə görə buna yanaşmırdılar.

Spekulyasi yanın yenə də dayanmaması nətiəcəsində 1973-cü ilin mart ayının əvvəllərində Avropanın valyuta bazarları iki həftəlik müddətə bağlandı. 16 mart 1973-cü ildə Avropa Birliyi ölkələrinin qəbul etdikləri qərara əsasən,

bundan sonra bu ölkələr pullarını sabit məzənnələrlə bir-birinə bağlayır və dollar qarşısında isə ayrı-ayrı sərbəst üzmə icazəsi verilirdi.

Nəhayət, 1976-78-ci illərdə Yamaykada IV Beynəlxalq Valyuta Konfransı keçirilir və bütün dövlətlərə tövsiyyə olunur ki, artıq onlar öz mili valyutalarının qızıl məzmunlu praktikasından imtina edə bilərlər. Beləliklə, də bütün valyuta məzənnələri sərbəstləşdi. Eyni zamanda, bütün ölkələrə icazə verildi ki, müəyyən prinsiplərə əməl etmək şərti ilə onlar istənilən məzənnə sistemini qəbul edə bilər.

Hal-hazırda heç bir dövlət öz milli valyutasının qızıl məzmununu müəyyən etmir. Qızıl ehtiyatları sərbəst dönərli valyuta kimi hər bir dövlətin mərkəzi bankının ehtiyatlarının tərkib hissəsini təşkil edir.

## ÖZÜNÜ YOXLAMA SUALLARI

1. Valyuta məzənnəsi müəyyən edilməsində hansı üsullardan istifadə olunur?
2. Xarici valyuta bazarları və azad dönərli valyuta necə müəyyənləşdirilir?
3. Valyutanın devalvasiyası nədir?
4. Valyuta məzənnəsini müəyyən edən amillər hansılardır?

## TESTLƏR

1**. Valyuta məzənnəsi nədir?**

A) ölkənin ödəmə vasitəsidir;

B) xarici valyutadır, xarici valyutada qiymətli kağızlardır;

C)) milli valyutanın başqa ölkənin pul vahidində qiymətidir.

D) milli valyutanın qızıl məzənnəsidir

E) milli valyutanın əmtəə qiymətidir

**2. Milli valyutanın dönərliliyi nədir?**

A) dünya bazarı ilə milli iqtisadiyyatın əlaqə mexanizmidir;

B) ölkənin valyutasının sərbəst alışı və satışı hesabına ölkənin tədiyyə balansının tənzimlənməsi uzun məhdudiyyətlərin olmamasıdır;

C)) milli valyutanın rəsmi bazar kursuna görə başqa ölkələrin valyuta kursuna azad alışı və satışıdır;

D) valyuta mübadiləsinə kəmiyyət normasının olmamasıdır;

E) xarici ödəmələrin həyata keçirilməsi üçün məhdudiyyət yoxdur, idxala olan vergilər aradan qaldırılıb, vahid valyuta kursu müəyyənləşib.

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYATLAR:


94. İ.Ş.Qarayev, Ş.A.Ağabəyov, Ə.R.Əliyev, Q.S.Bayramov, İ.Q.Quliyev. «Dünya bazar qiymətləri» dərs vəsaiti. Bakı,1997.
95. И.Ш.Караев, Ш.А.Агабеков, И.Г.Кулиев «Ценообразование на мировом рынке» учебник пособие: Баку. 1999.
96. Bayramov Q.S. «Dünya bazarında qiymətin əmələ gəlməsi» kursunun öyrənilməsinə dair metodik göstərişlər. Bakı – 2001
97. Цены и ценообразование. Под. Ред. В.Е.Есипова: Учебник для вузов. Изд-во «Интер», 1999
98. Теория цены и ценообразования. Под ред. Проф. И.Ш.Караева: Учебник, Баку,2001.
99. Герчикова И.Н. Маркетинг и международное коммерческое дело. М., Внешторгиздат, 1991.
100. Певшин Ценообразование и рынок. Пер с англ. Обш. Ред. Предис. Е.И.Пужина и С.Б. Рычкова. М., Прогресс, 1992 Ф.М. Внешторговые цены. М., Внешторгиздат. 1990.
101. Левшин Ф.М. Мухин С.Б., Соловмев В.Н. Мировые рынки: конъюнктура и цены. М., Международные отношения, 1987.
102. Липсиц И.В., Косов В.В. Инвестиционный проект, методы подготовки и анализа. М., ББК, 1996.
103. Лорин А.Н. Ценооброзование во внешнеэкономической деятельности промышленной фирмы, М., Международные отношения, 1993.
104. Мартыновский С.В. Монопольные цены мирового рынка. М., Международные отношения. 1985.

105. Основы предпринимательской деятельности. Под ред. В.М. Власовой. М., Финансы и статистика. 1996.

106. Портер М. Международная конкуренция. М. Международные отношения. 1993.

107. Пунин Е.И. Ценообразование в международной торговле. М., Международные отношения. 1986.

108. Цены и экономика капитализма. Под ред. Е.И.Пунина и С.Б.Рычкова. М., Прогресс.

109.